ELMAN CƏFƏRLİ



# NAXÇIVANDA ERMƏNİ-AZƏRBAYCAN MÜNAQİŞƏSİ

ELMAN CƏFƏRLİ

# NAXÇIVANDA ERMƏNİ-AZƏRBAYCAN MÜNAQİŞƏSİ

Bakı
«Nurlan» -2009

**Elmi redaktor:** **İsmayıl Muxtar oğlu HACIYEV**
AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor

**Rəyçilər:** **Hacıfəxrəddin Yəhya oğlu SƏFƏRLİ**
tarix elmləri doktoru, professor

**Emin Arif oğlu Şıxəliyev**
tarix elmləri namizədi

**Cəfərli E.Y.** Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı, «Nurlan», 2008, – 280 s.

Kitabda erməni etnosunun tarixi ilə bağlı həqiqətlər araşdırılır, onların çar Rusiyası tərəfindən Cənubi Qafqaza, o cümlədən Azərbaycana və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarına köçürülməsinin səbəbləri və nəticələri təhlil edilir. Monoqrafiyada XX əsrin əvvəllərində, 1905-1907-ci və 1918-1920-ci illərdə ermənilərin Naxçıvan torpağını Azərbaycandan qoparmaq uğrunda cinayətkar fəaliyyətləri və onların bu diyarda azərbaycanlılara qarşı törətdikləri soyqırım və deportasiya siyasətindən danışılır, erməni cinayətlərinin nəticələri təhlil edilir.

Kitab elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$\frac{0504030000}{N-098-2008}$ *Qrifli nəşr*

© «Nurlan»,2009

# GİRİŞ

Naxçıvan Cənubi Qafqaz kimi mühüm strateji bölgədə yerləşən Azərbaycanın ən qədim tarixi ərazilərindəndir. Ötən iki yüzillikdə xalqımızın qarşılaşdığı əsassız erməni iddialarının nəticələri bu qədim diyarda da ağır izlərini buraxmışdır. Əsrlər boyu Avropadan Şərqə doğru sürünmə prosesi yaşayan ermənilər əvvəlcə Şərqi Anadolu torpaqlarında məskən salmış, buradan isə Rusiyanın himayəsi ilə Cənubi Qafqaza köçürülmüşlər. XIX əsrin əvvəllərində baş verən Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra genişlənən erməni köçürülmələrinin ünvanlandığı ilk Azərbaycan torpaqları İrəvan və Qarabağla yanaşı, həm də Naxçıvan diyarı olmuşdur. Məhz köçürülmədən sonra ermənilər Azərbaycan torpaqlarını qəsb etmək uğrunda on illəri əhatə edən qanlı mübarizəyə başlamışlar. XX əsrin əvvəllərində erməni cinayətlərinin baş verdiyi əsas ərazilərdən olan Naxçıvan torpağı daim Azərbaycana məxsusluğunu qoruyub saxlaya bilmiş, məkrli düşmənə qarşı rəşadətlə mübarizə aparmış, böyük Vətənin ayrılmaz hissəsi kimi qalmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin ölkə prezidenti kimi «Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında» imzaladığı 4 fevral 1999-cu il tarixli fərmanda (90) XX əsrin əvvəllərində torpaqlarımızın bütövlüyünün pozulmasına yönəlmiş daşnak planları barədə deyilir: «İlk olaraq Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur

mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi». Bölgə əhalisinin kəskin müqavimət hərəkatı və aparılan məqsədyönlü diplomatik mübarizə nəticəsində Naxçıvanın muxtariyyat statusu təmin edildi.

Lakin ermənilərin torpaqlarımıza qarşı əsassız iddiaları və azərbaycanlılara qarşı düşmən münasibətləri yalnız XX əsrin əvvəlləri ilə məhdudlaşmadı. Həmişə mürəkkəb tarixi şəraitdə, qlobal ictimai-siyasi kataklizmlərin yaşandığı mərhələlərdə meydana çıxan erməni təcavüzü ötən əsrin sonunda, bu dəfə də sovetlər birliyinin tənəzzülü zəminində özünü göstərdi. Hazırda torpaqlarımızın qəsbinə yönələn erməni planları bilavasitə Qarabağın Azərbaycandan qoparılması məqsədi daşısa da, Naxçıvan düşmənlərimizin planlarında xüsusi yer tutur. Hələ xalqımıza qarşı törətdikləri 1918-1920-ci illər soyqırımından sonra daşnak liderlərinin mövqeyi belə idi ki, «O, (Ermənistan – E.C.) Gürcüstanın xeyrinə Axalkələkdən və Azərbaycanın xeyrinə Dağlıq Qarabağdan imtina etsə, hər halda Şərur və Naxçıvanı özündə saxlamalıdır» (73, s. 88). Bu, Ermənistanın hazırkı təcavüzkar siyasətinin prioritet istiqamətlərindəndir.

1908-ci ildə yaradılmış, 1921-ci ildə yenidən təsis konfransını keçirmiş erməni Ramkavar (hazırda Ramkavar-Azatakan adlanır) partiyasının ABŞ-ın Boston şəhərində erməni dilində nəşr olunan «Paykar» («Mübarizə») qəzeti Azərbaycan və keçmiş SSRİ rəhbərliyinə göndərdiyi 18 dekabr 1960-cı il tarixli «İldönümünə hədiyyə» sərlövhəli nömrəsində Ermənistanda Sovet hakimiyyətinin 40-cı ildönümünə «ən böyük hədiyyə» kimi Naxçıvanı və Dağlıq Qarabağı Ermənistana verməyə çağırırdı. 1985-ci il dekabrın 11-də Fransada işıq üzü görən «Qamk» erməni qəzetinin dərc etdiyi Daşnaksütyun partiyasının siyasi manifestində qeyd olunurdu ki, «Böyük Ermənistanın

sərhədləri Sevr müqaviləsi ilə müəyyənləşdirilmiş erməni ərazilərini, Naxçıvan, Axalkələk və Qarabağ regionlarını əhatə etməlidir. Səpələnmiş erməni əhalisi müstəqil milli ərazidə cəmləşməlidir». 1987-ci ilin martında daşnaklar ABŞ-da digər erməni siyasi təşkilatları ilə birlikdə «Naxçıvanı Ermənistana birləşdirmək» hərəkatını yaradaraq dərhal minlərlə erməninin imzası ilə məsələnin müsbət həllinə nail olmaq üçün keçmiş SSRİ rəhbərliyinə müraciət etdilər. Ermənilərin təcavüzkar planlarının məhz erməni iqtisadçısı A.Aqanbekyanın «Humanite» qəzetinin 1987-ci il 18 noyabr tarixli sayında dərc olunan Qarabağın Ermənistana verilməsi təklifi ilə çıxış etdiyi müsahibəsindən sonra bilavasitə icrasına başlanılması bu baxımdan təsadüf hesab olunmamalıdır.

Təbii ki, ermənilər 1988-ci ildən başlanan azərbaycanlıların deportasiyası və soyqırımı siyasətinə də çoxdan hazırlıq görmüşdülər. Təsadüfi deyildir ki, Moskvada işıq üzü görən «Arqumentı i faktı» qəzetinin hələ 1986-cı il nömrələrinin birində erməni jurnalisti O.Kotoyan «Qonaqsevərlik qanunlarını pozaraq» adlı məqaləsində yazırdı ki, 1957-ci ildən İrəvana ali təhsil almağa gələn xarici vətəndaşlar arasında daşnak təbliğatı aparanlar çoxluq təşkil edirdi. Jurnalist hazırda (1986-cı ildə – E.C.) 20 ölkədən 700 tələbənin (həm də daşnak təbliğatçısının) gənclərin milli duyğuları ilə oynadığını, xalqların dostluq və qardaşlığına böhtan atdığını yazır, onların «özlərini erməni məsələsinin həllinə imkan yaradan qüvvə hesab etdiyini», tarixi saxtalaşdırdıqlarını və ərazi iddiaları irəli sürdüklərini bildirirdi.

Daşnak ideoloqu Z.Balayan Latviyada çıxan «SM-seqodnya» qəzetinin 1993-cü il 5 fevral tarixli nömrəsində dərc olunan müsahibəsində «Dağlıq Qarabağ faciəsinin ideoloqlarından biri kimi həlak olanlar, qaçqınlar qarşı-

sında özünüzü günahkar sayırsınızmı?» sualına belə cavab vermişdi: «Mən bu işi başlamağıma görə yox, öz xalqımı gec ayağa qaldırmağıma görə günahkaram. Görünür, məsələni Naxçıvandan başlamağa cəsarətim çatmadı» (bax: 17, s. 66). Ermənilərin Naxçıvanla bağlı «cəsarətlərini» məhv edən, bizim fikrimizcə, üç amil olmuşdur: ümummilli liderimiz Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun üzvü olması, Moskva və Qars beynəlxalq müqavilələri ilə Naxçıvanın muxtariyyət statusunun himayə olunması və bölgədə ermənilərin əhalinin cəmi 1,4 faizini (166, s. 7) təşkil etməsi.

Bununla belə, ermənilərin Naxçıvana qarşı iddialarından əl çəkdiklərini və ya nə vaxtsa əl çəkəcəklərini düşünmək sadəlövhlük olardı. Belə ki, ötən əsrin 90-cı illərinin sonunda İrəvanda ermənilər «Naxçıvan icması» adlı qurumu, onun terrorçu dəstələrini yaradaraq bölgə barədəki iddialarını aktiv müstəviyə keçirməyə başlamışlar. Ermənistan Yazıçılar Birliyinin sədri L.Ananyan 2004-cü il martın 15-də keçirdiyi mətbuat konfransında bildirirdi ki, «1921-ci ildə Moskvada imzalanmış Rusiya-Türkiyə müqaviləsinə yenidən baxılması Dağlıq Qarabağ probleminin nizamlanma prosesinin tərkib hissəsi olmalıdır». Guya Moskva müqaviləsi ilə «80 min $km^2$-lik tarixi erməni torpaqları – Qars, Ərdahan, Bitlis Türkiyəyə, Naxçıvan isə Azərbaycana verilib» və «Naxçıvan problemi Dağlıq Qarabağ nizamlanmasının ayrılmaz hissəsi olmalıdır...» Ermənilər indi də tarixi Azərbaycan torpağı Naxçıvanla bağlı xüsusi qəsbkarlıq planlarınm olduğunu gizlətmirlər.

2007-ci il noyabrın 2-də ABŞ-ın məşhur Harvard universitetində ermənilərin təşkilatçılığı ilə «Naxçıvan bölgəsindəki erməni abidələri» mövzusunda sərgi təşkil edildi. Sərgi ilə bağlı xüsusi internet saytı yaradan ermənilər burada Naxçıvanın tarixən ermənilərə «məxsus olması»

barədə tamamilə saxta məlumatlar yerləşdirmişlər. Guya 1828-ci ildə Rusiya ilə İran arasında bağlanan Türkmən-çay müqaviləsinin şərtlərinə əsasən Naxçıvan da daxil olmaqla Şərqi Ermənistan torpaqları Rusiya imperiyasına birləşdirilib: «1918-1920-ci illər arasında Naxçıvan Ermənistan Respublikasının bir hissəsi olub. 1921-ci ildə sovet hökumətinin qərarına əsasən Naxçıvan Azərbaycana birləşdirilib». Daha sonra guya «70 illik sovet hakimiyyəti illərində ermənilərin Naxçıvanı tərk etdiyi və arxada yüzlərlə orta əsr memarlıq abidələrini qoyduğu» qeyd olunur.

Təbii ki, bu məlumatların real tarixi həqiqətlə bu və ya digər dərəcədə heç bir əlaqəsi yoxdur. Eyni zamanda bu iddialardan ermənilərin Qarabağla bərabər Naxçıvanın da qəsb olunması planlarının olduğu aydın görünür. Çünki təxminən eyni vaxtda ermənilər Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Novo-Naxçıvan adlandırdıqları erməni kilsəsinin inşasına başladılar. Bütün bunlar Qarabağın ardınca Naxçıvanın «erməni torpağı» olduğu barədə ciddi ideoloji mübarizənin başlandığından, bu qədim Azərbaycan torpağına dair qəsbkar planların icrasına başlamaq üçün zəmin hazırlanmasından xəbər verir. Hələ 1990-cı ilin yanvarından başlayan erməni silahlı qüvvələrinin Naxçıvanı ələ keçirmək cəhdləri də əslində çoxdan mövcud olan bu məkrli planın reallaşdırılmasına yönələn səylər idi. Bütün bunlar bir daha sübut edir ki, torpaqlarımızın qəsb olunmasını nəzərdə tutan erməni planları yalnız Dağlıq Qarabağla məhdudlaşmır.

Ölkəmizin məkrli düşmənlə bir daha qarşı-qarşıya qaldığı son dövrün ibrət dərsləri tariximizin açılmamış səhifələrini öyrənməyi, onları yalnız ölkə daxilində deyil, daha çox beynəlxalq arenada işıqlandırmağı tələb edir. Keçmiş SSRİ tərkibində olduğumuz dövrdə Azərbaycan üçün taleyüklü bir sıra tarixi məsələlərin öyrənilməsinə

rəsmi qadağa qoyulması xalqımızda tarixi unutqanlıq kimi mənfi meylin yaranmasına səbəb olmuşdur. Bu sahədə böyük bir dövr itirilmişdir və bu itkinin aradan qaldırılmasının yeganə yolu bundan sonra tariximizin faciəli səhifələrinin ciddi şəkildə öyrənilməsi və elmi-ideoloji sahədə bir daha düşmənə fürsət verilməməsindən keçir. Bəhs olunan tarixi mərhələnin öyrənilməsi bilavasitə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» 18 dekabr 1997-ci il tarixli və «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il tarixli fərmanlarından sonra elmi-ictimai diqqətə çəkilmiş və aktuallıq qazanmışdır. Ümummilli liderimiz eyni zamanda tariximizin aktual problemlərinin araşdırılmasını xalqımızın perspektiv mövcudluğu baxımından da mühüm vəzifə kimi irəli sürmüşdür: «Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir» (4, s. 173).

Bu baxımdan 1905-1907-ci illərdə və 1918-1920-ci illərdə baş vermiş azərbaycanlıların soyqırımının öyrənilməsi böyük elmi-əməli və siyasi əhəmiyyət kəsb edir. Naxçıvan ermənilərin Azərbaycana qarşı qəsbkarlıq planlarında əsas yerlərdən birini tutduğu üçün erməni iddialarının tarixi köklərinin araşdırılması, onların bu diyara köçürülməsi və xüsusən indi yalnız coğrafi baxımdan ana vətəndən ayrı düşmüş bu bölgədə bəhs olunan tarixi dövrdə ermənilərin törətdiyi qanlı cinayətlərin araşdırılması, həmin hadisələrin Naxçıvanın tarixində buraxdığı izlərin qiymətləndirilməsi də mühüm taleyüklü məsələlərdəndir. Gələcəyimiz xeyli dərəcədə keçmişimizi necə öyrənməyi-

mizdən asılıdır və ya ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə desək: «Tariximiz bizim üçün dərs olmalıdır».

Bu mənada XIX əsrin sonu-XX əsrin əvvəllərində ermənilərin Azərbaycana, o cümlədən Naxçıvana köçürüldükdən sonra burada azərbaycanlı əhaliyə qarşı törətdiyi qanlı cinayətlərin araşdırılması bir sıra tarixi həqiqətlərin daha aydın şəkildə izahına imkan verir. Belə ki, ermənilər məhz bu dövrdə Cənubi Qafqazda etnik amil kimi milli münasibətlərin subyektinə çevrilmiş və onların xalqımıza qarşı həyata keçirdikləri soyqırımın ilk iki mərhələsi (1905-1907 və 1918-1920-ci illər) məhz bu zaman yaşanmışdır.

Sovet hakimiyyəti illərində dövlətin hakim siyasi ideologiyası olduğu kimi elmə də tətbiq edilmiş, amorf «sovet xalqı» yaratmaq naminə saxta xalqlar dostluğu ideyası irəli sürülmüşdür. Halbuki XX əsrin ortalarında və sonunda (1930-cu illərin repressiyalarında, 1948-1953-cü, 1960-cı, eləcə də 1980-ci illərdə) sovet dövləti rəhbərliyi gizli, bəzən hətta açıq şəkildə ermənilərin xalqımıza qarşı məkrli planlarını himayə etmişdir. Bu baxımdan tədqiqat üçün müraciət etdiyimiz mövzu tarixi problem kimi müstəqillik ərəfəsi və istiqlaliyyət dövrünün ən aktual problem-məsələlərindəndir. Sovet dövrü tarixşünaslığında Rusiyanın milli qırğın siyasəti ilə bağlı mövzular üzərində qalın pərdə olduğundan yalnız bəzi məsələlər səthi araşdırılmış və bu zaman hadisələrə sinfi don geyindirmək bir növ dəbdə olmuşdur. Hətta XIX əsrdə ermənilərin Azərbaycana köçürülməsi prosesini tədqiqatçılar yalnız bir fakt kimi qeyd etmiş, onun səbəb və nəticələrinin mahiyyətinə varmaq istəməmişlər.

Bir sıra rus qafqazşünaslarının (68, 159, 171, 172, 175, 176) XIX əsr və XX əsrin əvvəlləri üçün Naxçıvan bölgə-

sinin tarixi demoqrafiyası barədə məlumatları ermənilərin Azərbaycana, o cümlədən Naxçıvana köçürülməsi, çarizmin bu prosesdə məqsədləri, köçürülənlərin yerləşdirildikləri ərazilərin xüsusiyyətləri və s. bu kimi məsələlərin öyrənilməsi baxımından əhəmiyyətlidir. V.L.Veliçko (156), İ.N.Kanadpev (163), İ.Q.Çavçavadze (174) kimi dövrün tanmımış ziyalılarının əsərləri, bəzi məqalə və nəşrlər (27, 70, 160, 161, 165) Qafqaz xalqlarının həyatına dair maraqlı mənbələr olmaqla, milli münasibətlərdəki ziddiyyətli cəhətlərin kökünün araşdırılmasına imkan verir.

Azərbaycanın Naxçıvan bölgəsində milli münasibətlərin kəskinləşməsinə təsir göstərən amil kimi əhalinin etnik tərkibinin dəyişməsi və demoqrafik inkişaf dinamikasının öyrənilməsi sahəsində son illərdə nəşr olunmuş tədqiqatların böyük elmi dəyəri vardır. Bu tədqiqatlar (77, 79, 98, 99, 106, 122, 157) ermənilərin bölgəyə köçürülməsi nəticəsində milli münasibətlərin təşəkkül tapması zəminini öyrənmək üçün əhəmiyyətli material verir.

Akademik İ.Hacıyevin doktorluq (52) və E.Zamanovun namizədlik (110) dissertasiyalarında mövzuya toxunulmuşdur. İ.Hacıyev araşdırdığımız tarixi problemə ümumi nəzər salmış, E.Zamanov isə 1918-1920-ci illərdə Azərbaycanın Gürcüstan və Ermənistandakı diplomatik nümayəndəliklərinin fəaliyyətini tədqiq edərək Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi qorunub-saxlanılması uğrunda aparılan diplomatik mübarizədən də yeri gəldikcə bəhs etmişdir.

Azərbaycanın cəlb olunduğu Qarabağ münaqişəsi Ölkə ictimaiyyətini öz uzaq və yaxın keçmişinin Qarabağla bağlı tarixinə nəzər salmağa, tarixçi alimlərimizi, tədqiqatçılarımızı tariximizin açılmamış səhifələrini araşdırmağa sövq etdi. Qarabağ həqiqətləri ilə bağlı nəşr olunan və tədqiqatımızda istifadə etdiyimiz bir sıra nəşrlər (28, 30,

40) ermənilərin torpaqlarımıza qarşı əsassız iddialarının üzərindəki pərdələri götürdü. Aydınlaşdırıldı ki, uzun illər bir çox erməni «tarixçiləri» Naxçıvan, Qarabağ, Zəngəzur kimi tarixi Azərbaycan torpaqlarını özlərininki kimi qələmə vermişlər. «Böyük Ermənistan» haqqında əsl həqiqətlər onların (N.Qarsoyan) öz dili ilə aşkarlandı. Belə ki, bu ifadə bəzi erkən orta əsr müəlliflərinin (F.Buzand, M.Xorenatsi), sadəcə, «öz ideallarını – zərdüştilik təhlükəsinə qarşı duran birləşmiş vahid Ermənistanı» əks etdirir və gerçəkliyi təhrif edir (40, s. 28-29). Bundan başqa «Ermənistan» qədim türkdilli xalqlardan birinin (erman, ermən) adı ilə bağlı olan etnotoponimdir, coğrafi ərazidir və o, Kiçik Asiyanın şərqində yerləşir (158, s. 67-68, 73). Ermənistan adında müstəqil hay dövləti XX əsrədək mövcud olmamışdır. Hayların öz adlarına çıxdıqları bu ərazidəki siyasi hakimiyyət heç vaxt haylara məxsus olmayıb və ümumiyyətlə, Ermənistan konkret xalqa məxsus ölkə kimi bütün tarix ərzində müstəqil dövlətçilik ənənələrinə malik olmamışdır. Tarixçi alim K.Patkanovun dili ilə desək, «Ermənistan bir dövlət kimi bəşəriyyət tarixində heç bir mühüm rol oynamamış, onun adı ölkənin coğrafi termini olub güclü qonşu dövlətlərin... öz mübahisələrini həll etdikləri yer olmuşdur». Tədqiqatçılarımızın Qarabağ həqiqətləri haqqındakı araşdırmalarının məhsulu olan sonrakı nəşrlər (26, 65, 67, 72, 74, 75, 95, 97) problemin daha geniş spektrdə təhlilinin nəticəsi kimi meydana çıxdı. Eyni zamanda ermənilərin xalqımıza qarşı XX yüzillik boyu törətdiyi əsl həqiqətlər dərsliklərə də yol tapdı.

İlk dövrlərdə ermənilərin əsassız iddialarını neytrallaşdırmaq üçün bir növ cavab xarakteri daşıyan həmin tədqiqatları daha sonra digər tarixi Azərbaycan bölgələrinin, Zəngəzurun (29, 43, 81), Naxçıvanın (17, 34-37, 39, 45, 81, 85, 89, 91), Qərbi Azərbaycanın (37, 38, 74, 108) yaxın

və uzaq tarixi keçmişi, ermənilərin bu ərazilərdə törətdikləri vəhşiliklər barədə araşdırmalar əvəz etdi. Problemə kompleks yanaşmanın məhsulu kimi ərsəyə gələn bir sıra tədqiqat və toplular (2, 15, 26, 27, 28, 33, 44) ermənilərin Azərbaycan torpaqlarına qarşı illərdən bəri yürütdükləri qəsbkarlıq siyasətinin əsl mahiyyətini və nəticələrini ortaya çıxardı.

Ermənilərin Naxçıvanda həyata keçirdikləri soyqırım, Naxçıvan əhalisinin düşmənə qarşı inadkar mübarizəsi, ermənilərə havadar çıxan qüvvələrin fəaliyyəti, bölgədə mövcud olmuş idarəçilik qurumları, Türkiyənin bölgənin müdafiəsinə göstərdiyi kömək, beynəlxalq müqavilələrdə Naxçıvan məsələsi və problemin bu kimi ayrı-ayrı aspektləri ilə bağlı son dövrlərdə bir sıra əsərlər (45, 47, 48, 50, 60, 86, 89, 91) və məqalələr (1, 51-55, 64, 66-67) işıq üzü görmüşdür. Erməni siyasi təşkilatlarının yaranması və onların Azərbaycandakı fəaliyyətləri barədə İ.Bağırovanın XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş siyasi partiya və təşkilatlardan bəhs edən əsəri (155) çox dəyərlidir. Lakin bu əsərlərdə Naxçıvan bölgəsində erməni-azərbaycanlı münasibətlərinin kompleks şəkildə elmi həlli öz əksini tapmamışdır.

E.Şıxəliyevin Türkiyədə nəşr olunmuş kitabları (119, 147) erməni probleminin dünəni və bu günü, onların törətdikləri soyqırım, eyni zamanda «erməni kartı»nın regional siyasət strategiyasının mühüm amili olması ilə bağlı ciddi təhlillərin və tarixi paralellərin aparıldığı qiymətli əsərlərdir. Bundan başqa, xüsusən bizim tədqiq etdiyimiz mövzu ilə bağlı araşdırma aparmış azərbaycanlı tədqiqatçıların Türkiyədə keçirilən beynəlxalq tarix simpoziumlarındakı çıxışları və dərc olunmuş toplulardakı məqalələri (115-117, 124-127, 131, 138, 150) ermənilərin bilavasitə Azərbaycanın Naxçıvan bölgəsindəki cinayət-

kar fəaliyyətlərinə aiddir.

Qardaş Türkiyədə də, XIX əsrin ikinci yarısından erməni xəyanətinin ağrısını yaşayan bir ölkə kimi, «erməni soyqırımı», «Böyük Ermənistan» və s. bu kimi saxta iddialara qarşı onlarla kitab nəşr olunmuşdur. Lozanna müqaviləsi danışıqlarında (1922) türk nümayəndə heyətinin üzvü olmuş E.Urasın əsas erməni qaynaqlarını təhlil edərək yazdığı kitab (149) son dərəcə dəyərli və bu sahədə araşdırma aparan özündən sonrakı bütün tədqiqatçıların istisnasız olaraq yararlandığı fundamental bir əsərdir.

Türkiyəli tədqiqatçı İ.E.Atnur həm öz ölkəsinin, həm ABŞ, İngiltərə və s. Qərb ölkələrinin, həm də Azərbaycanın arxivlərində əldə etdiyi materiallar əsasında birbaşa Naxçıvanla bağlı son dərəcə əhəmiyyətli monoqrafiya (3, 113) yazmışdır. Lakin əsər bir sıra hallarda dolaşıq, bir-birini təkzib edən, həqiqətə uyğun gəlməyən fikirlərlə də yadda qalır və tənqidi münasibət tələb edir.

Naxçıvanın erməni təcavüzündən qorunmasında mühüm xidmətləri olmuş K.Qarabəkirin yazdığı (132) və onun haqqında yazılan (99, 120) kitab və məqalələrdə 1918-1920-ci illər Naxçıvan tarixi ilə bağlı çox mühüm faktlar vardır. Həmin dövrdə Naxçıvandakı Osmanlı ordularının zabiti kimi fəaliyyət göstərmiş V.Ünüvarın xatirələri (46) də dəyərli mənbədir. 1918-1920-ci illərdə beynəlxalq şərait və sovet Rusiyası-Türkiyə münasibətlərinin bölgədəki siyasi duruma təsiri baxımından A.Müderrisoğlunun kitabı (141) maraqlı faktlarla zəngindir.

Türkiyə qaynaqları Osmanlı dövründən başlayaraq «erməni məsələsi»nin tarixinə aid (143-145), erməni cəmiyyətlərinin və siyasi təşkilatlarının törətdikləri qanlı cinayətlərə dair (112, 130, 139) verdikləri məlumatlarda yeri gəldikcə Azərbaycan ərazisində, o cümlədən Naxçıvan bölgəsində ermənilər tərəfindən törədilən qırğınlara da to-

xunmuşlar. A.E.Gökdəmirin 1918-1919-cu illərdə bölgədə mövcud olmuş dövlət qurumlarına həsr olunmuş kitabı (128) öz mövzusunda, demək olar ki, yeganədir. Təqdirəlayiq haldır ki, türkiyəli tədqiqatçıların müvafiq mövzulardakı araşdırmaları xarici dillərdə də nəşr olunmuşdur.

Bir sıra xarici tədqiqatçıların; S.A.Uimzin (100), T.Svyatoçovskinin (102, 103), E.Fayqlın (173) tədqiqatları erməni saxtakarlığının və terrorizminin maraqlı olmayan üçüncü mövqe tərəfindən ifşası baxımından əhəmiyyətlidir. Tədqiq olunan problemin bəzi cəhətləri bu əsərlərdə əks olunsa da, xüsusən onun yaranma tarixi ilə bağlı məsələlərdə onlar bəzən qüsurlardan da xali deyildir.

Ermənilərin Anadolu və Azərbaycan türklərinə qarşı cinayətləri barədə arxivlərdə minlərlə tarixi faktları özündə yaşadan qiymətli sənədlər vardır. Bu baxımdan Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin (AR MDA) 894, 896, 970 və Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinin (AR SPİHDA) 276 və 277-ci fondlarında, habelə Surət fondunda saxlanan sənəd və materiallar böyük əhəmiyyət kəsb edir. Lakin qeyd olunmalıdır ki, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) Naxçıvan bölgəsi ilə əlaqələri çox zəif olduğundan hər iki arxivdəki materiallar, demoqrafiya ilə bağlı məlumatları dolğun əhatə etsə də, soyqırımın öyrənilməsi baxımından əsasən ümumi xarakter daşıyır.

Bu baxımdan Naxçıvan Muxtar Respublikası Mərkəzi Dövlət Arxivindəki (NMRDA) xeyli sənəd və materiallar problemin öyrənilməsində müstəsna yer tutur. Naxçıvan MR DA-nın, xüsusən 314 saylı fondu mövzu ilə bağlı rəsmi sənədlərlə zəngindir.

Lakin təəssüfləndirici haldır ki, 1905-1907-ci illərdə ermənilərin törətdikləri qırğınların nəticələrini əks etdirən

arxiv materialları yox dərəcəsindədir. Böyük ehtimalla bu dövrə aid müvafiq tarixi sənədlər ya o zaman quberniya mərkəzi olmuş İrəvan arxivlərindədir, ya da ermənilər tərəfindən əvvəlcədən məqsədli şəkildə arxivlərdən götürülərək məhv edilmişdir (1836-cı ildə Alban katolikosluğunun məhv edilən arxiv sənədləri kimi).

Həmin fondlardakı sənəd və materialların bir qismi əhalinin etnik tərkibi və bölgənin demoqrafik vəziyyətini, silahlı daşnak birləşmələrinin Qərbi Azərbaycanda həyata keçirdikləri etnik təmizləmədən sonra yaranan qaçqınlar və onların yerləşməsi problemini, dağıdılan Azərbaycan yaşayış məntəqələri və soyqırıma məruz qalan Naxçıvan əhalisinin sayındakı azalmanı, bölgə əhalisinin torpaqlarımızın bütövlüyü uğrunda mübarizəsini, bölgədə qurulan yerli idarəetmə təsisatlarının fəaliyyətini, Naxçıvan və digər qərb bölgələrinin üzərində tarixi hüquqlarının bərpası üçün Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik səylərini və s. problemləri öyrənməyə imkan verir.

Nəşr olunmuş mənbələr içərisində əsas yeri bölgənin tarixi demoqrafiyasına, xüsusən burada milli zəmində baş vermiş münaqişələrə, ermənilərin Naxçıvana qarşı əsassız ərazi iddiaları və müxtəlif qüvvələrin köməyi ilə bu bölgəni işğal etmək cəhdlərinə, daşnakların Naxçıvanda həyata keçirdikləri soyqırıma dair materiallar tutur. Bu materiallar içərisində bilavasitə həmin dövrdə yaşamış bir sıra görkəmli şəxslərin; Ə.Təbrizlinin (bax: 18), Ə.Əliyevin (34-38), M.B.Əliyevin (42), Ü.Hacıbəylinin (49), Ə.Hüseynzadənin (60), M.B.Məmmədzadənin (78), M.M.Nəvvabın (92), M.S.Ordubadinin (93, 94), C.Zeynaloğlunun (111) mövzu ilə bağlı kitab və məqalələri, son illərdə işıq üzü görmüş materiallar (151, 164), habelə Türkiyədə nəşr olunmuş arxiv sənədlərindən ibarət toplular (114, 123, 133) böyük əhəmiyyətə malikdir. Qeyd edilənlər arasında

1905-1907-ci illər hadisələrini öyrənmək baxımından M.M.Nəvvabın və M.S.Ordubadinin əsərləri müstəsna əhəmiyyət daşıyır.

Bundan başqa müasir dövrdə nəşr edilmiş bir sıra tədqiqatlar da diqqətəlayiqdir. H.Həsənoğlunun (57, 58), A.Mansurovun (72), xüsusən İ.Məmmədovun (74), İ.Musayevin (80-83, 140), A.Paşayevin (95, 96), V.Şirinoğlunun (104), İ.Vəliyevin (107), S.Əsədovun (152, 153, 154 – İ.Məmmədovla birgə) və başqalarının əsərləri hadisələrə müasir baxış prizmasını əks etdirməsi baxımından təqdirəlayiqdir. Professor İ.Musayevin «Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)» monoqrafiyası bizim tarixi problem kimi araşdırdığımız mövzunu öyrənmək baxımından son dərəcə qiymətli mənbədir. Əsərdə Naxçıvan və Zəngəzur bölgələrinin bəhs olunan dövrünə dair ölkəmizin arxivlərindəki materialların çox böyük bir qismi təhlil edilmişdir.

XX əsrin əvvəllərindən bizi artıq bir əsr ayırsa da, bu dövrdə ermənilərin Azərbaycan xalqına qarşı yürütdükləri deportasiya və milli qırğın siyasətinin nəticələrini öz gözləri ilə görərək yaddaşlarında yaşadan yaşlı nəslin nümayəndələri dövrün məşum hadisələrinin canlı və etibarlı şahidi kimi, ölkəmizin bütün bölgələrində, o cümlədən Naxçıvanda hələ yaşamaqdadırlar. Bu nəslin nümayəndələrilə aparılan söhbətlərdə ermənilərin ən müxtəlif qanlı cinayətlərinə dair səslənən faktlar arxiv sənədlərində öz əksini tapmış rəsmi məlumatlarla, demək olar ki, tam uyğun gəlir.

Sonda qeyd edək ki, ermənilərin 1905-1907-ci və 1918-1920-ci illərdə tarixi Azərbaycan torpağı olmuş Naxçıvanda xalqımıza qarşı həyata keçirdikləri deportasiya və soyqırımın tədqiq olunmasına dair materiallar əsasında

müəllif 2005-ci ildə «XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində Naxçıvanda erməni-azərbaycanlı münasibətləri» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Bu kitabın ərsəyə gəlməsi üçün həmin dissertasiya baza rolunu oynasa da, ötən müddətdə mövzunun tədqiqi istiqamətində davam etdirilən araşdırmalar yeni-yeni faktların meydana çıxmasına, məsələyə daha dolğun baxış bucağının formalaşmasına ciddi təsir göstərmişdir ki, bütün bunlar da kitabda öz əksini tapmışdır.

# I FƏSİL
# TARİXDƏ ERMƏNİLƏR VƏ ERMƏNİ HƏRƏKATININ FORMALAŞMASI

## 1.1. Ermənilər və Ermənistan haqqında

Avropa ilə Asiyanın sərhədlərinin, eyni zamanda qlobal maraqların kəsişdiyi Qafqaz çoxmillətli bölgə olmaq etibarı ilə milli münasibətlər probleminə çox həssas coğrafi ərazidir. Bu mənada müasir şəraitin diqtəsi ilə sönmək bilməyən bir neçə milli münaqişə ocağının (Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya, Çeçenistan) mövcudluğu buradakı milli münasibətlərdə kənar maraqların fəal təsirilə millətlərarası münasibətlərin heç də arzu edilən səviyyədə olmadığını göstərir. Burada digər bir ibrətamiz fakt ondan ibarətdir ki, həmin qaynar münaqişə ocaqları nə Qafqazın aborigen xalqlarının bilavasitə öz fəaliyyətlərinin nəticəsidir, nə də bu münaqişələr əsrlər boyu yanaşı və mehriban yaşamış qafqazlıların (ermənilər avtoxton qafqazlı deyillər) milli, dini, etnik-coğrafi maraqlarına uyğundur. Bu münasibətlərin kəskinləşməsində, onların sonrakı dövrdə aktivliyinin səngiməməsindəki şovinist, antihumanist və ikrahdoğurucu maraq, qətiyyətlə demək olar ki, rus imperializminə mənsubdur.

Yalnız eramızın I minilliyinin ikinci yarısında tarix səhnəsinə çıxan və IX əsrdə ibtidai cəmiyyətdən qonşu mədəniyyətlərin təsiri altında feodalizmə keçid edən və yenicə «dövlət» anlayışı ilə tanış olan qədim ruslar elə həmin dövrdən etibarən qəsbkarlıq yürüşləri ilə tarix səhnəsinə qədəm qoymuşlar. X əsrin birinci yarısındakı yürüşlər, xüsusən 944-cü ildə baş vermiş və tariximizə «Bərdə faciəsi» adı ilə düşmüş hadisə slavyanların basqınlarının istilaçı xarakterinə bariz sübutdur. XVII əsrin ikinci yarı-

sında S.Razinin başçılıq etdiyi quldur dəstəsinin Rusiya ilə qonşu ərazilərə, o cümlədən Azərbaycana talançı yürüşləri sovet tarixşünaslığında həmişə zülmə qarşı yönəlmiş kəndli hərəkatı kimi müsbət qiymətləndirilmiş, guya Azərbaycanda da onun rəğbətlə qarşılandığı bildirilmişdir. XVIII əsrin ilk rübündə ilk rus imperatoru I Pyotr, sonralar isə onun xələfləri Azərbaycana yürüşlərinin işğalçı mahiyyətini pərdələmək üçün daim saxta manifestlərlə, «xeyirxahlıq» dolu müraciətlərlə əsaslandırmağa çalışmışlar. Rusların bu qəbildən olan istilaçı yürüşləri zamanı yerli əhaliyə hansı şəkildə «yaxşı münasibətdə» olduqlarına dair tarixin yaddaşında qanlı faktlar qalmışdır.

XIII əsrin 20-ci illərində monqol istila maşının qarşısında tab gətirməyən rus knyazlıqları həmin yüzilliyin 40-cı illərində yaradılmış monqol Qızıl Orda dövlətinin vassallarına çevrilmişdilər. Bu asılılıq həyatı XV əsrin sonunadək davam etdi və yalnız XVI əsrin ilk rübündə mərkəzləşdirilmiş rus dövlətinin təşəkkül tapması ilə Rusiyanın siyasi tarixi yeni mərhələyə qədəm qoydu. Rus istilasının ilk istiqaməti Volqaboyu və Başqırdıstan oldu. XVI yüzilliyin ikinci yarısında Osmanlı dövlətinə arxalanan Krım xanlığı ilə Rusiya arasında baş verən ilk toqquşmalar uzun sürən Osmanlı-Rusiya müharibələrinin başlıca amillərindən hesab edilə bilər ki, sonradan bu mübarizənin əsas ağırlıq mərkəzlərindən biri də Cənubi Qafqaz, xüsusən Azərbaycan olmuşdu. Rusiyanın başladığı ilk irimiqyaslı və uzun sürən istilaçı müharibə 1558-1583-cü illərdə baş vermiş Livoniya müharibəsi idi. Rusiya müharibəyə Baltikyanı əraziləri ələ keçirmək və Baltik dənizinə çıxış əldə etmək məqsədi ilə girişmişdi. Lakin o, məqsədinə nail ola bilməyərək məğlubiyyətə uğradı və əvvəl Polşa (1582), sonra isə İsveçlə (1583) müvafiq müqavilələr imzaladı.

Şimal istiqamətdə uğursuzluqla üzləşən Rusiya dənizə çıxmaq planlarının yönünü cənuba doğru dəyişməli oldu. Daha çox Qara dənizə nüfuz etməyə çalışan Rusiya burada Osmanlı imperiyası və onun vassalı olan Krım xanlığı ilə uzun müddətli mübarizəyə girişdi. Bu mübarizə ayrı-ayrı vaxtlarda gah bu, gah da digər tərəfin xeyrinə nəticələnirdi və bu nəticələrin dayanıqlığı uzun müddətə söykənmirdi. Lakin Rusiya hakim dairələri I Pyotrun (1689-1725) hakimiyyəti dövründən etibarən işğalçı maraqlarının təmin edilməsində daha sistemli və planlı şəkildə fəaliyyət göstərməyə başladılar. Təsadüfi deyil ki, 1700-1721-ci illərdə baş vermiş Şimal müharibəsində İsveçi məğlub edərək Baltik dənizinə çıxmaq arzusunu reallaşdıran Rusiya həmin qələbədən sonra, 1721-ci ildə senat tərəfindən imperiya elan edildi.

XVIII əsrin başlanğıcında Qafqazda öz strateji maraqlarını və müstəmləkəçi niyyətlərini həyata keçirmək istəyini qətiləşdirən və bu sahədə təfriqəçi etnos kimi tanınan, əsasən İranda və Osmanlı Türkiyəsinin ərazilərində, o cümlədən Suriyada məskunlaşmış ermənilərdən istifadə edə biləcəyini başa düşən ilk rus çarı da I Pyotr oldu. Rusiyanın diqqətini hələ XVII yüzillikdən başlayaraq cidd-cəhdlə Qafqaza cəlb etməyə çalışan ermənilərin əsas istəyi məhz rus hökmdarlarının etibarını qazanmaqla onların bölgədəki başlıca müttəfiqinə çevrilmək, rus imperializminin maraqları zəminində və ondan istifadə etməklə tarixdə heç vaxt mövcud olmamış «dənizdən-dənizə» «Böyük Ermənistan» iddialarını gerçəkliyə çevirmək idi. Uzun müddət bölgədə bir-birini əvəz edən və ya paralel mövcud olmuş əsasən türk xanədanları olan dövlətlərin (Səlcuq, Atabəylər, Hülakülər, Osmanlı, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi) varlığı ermənilərin siyasi quruma malik olmaq arzularını xəyala çevirmişdi. XVII-XVIII

əsrlərin qovuşuğunda isə bir tərəfdən iki türk dövləti – Səfəvi və Osmanlı dövlətləri arasındakı ziddiyyətlər, digər tərəfdən isə şimalda Qafqaza maraq göstərən və getdikcə güclənən Rusiya imperiyasının xüsusən Osmanlı dövlətinə düşmən münasibəti erməniləri fəal hərəkətə keçməyə sövq etdi. Lakin mövcud şəraitdə Cənubi Qafqazda ermənilərin öz məkrli planlarını həyata keçirmələri üçün lazımi zəmin yaranmamışdı. Çünki ermənilər tarixən Qafqaz sərhədlərindən kənarda yaşamış, tarixi keçmişi o qədər də aydın olmayan, bəhs edilən dövrdə İranın və Türkiyənin Qafqazla sərhəd ərazilərinə yaxın torpaqlara səpələnmiş kiçik bir xalq idi.

Beləliklə, qarşıda duran ilk məsələ ermənilərin xəyali «Böyük Ermənistan» adlandırdıqları «məmləkətləri»nin bərpa olunması naminə bölgədə, xüsusən Cənubi Qafqazda demoqrafik vəziyyəti öz xeyirlərinə dəyişmələri idi. «Böyük Ermənistan» adı altında ermənilər çox geniş bir ərazini nəzərdə tuturlar. Amerikada erməni milli ittifaqının 1919-cu ildə Ermənistana dair nəşr etdirdiyi əsərdə verilən «Böyük Ermənistan» adlı xəritəyə görə guya Ermənistan Trabzon və Samsunda Qara dənizə, İskəndərun körfəzində Aralıq dənizinə, şərqdə isə Xəzər dənizinədək uzanır, Kür çayının bütün axarı boyu cənuba doğru Salyan, Lənkəran, Muğan, Mil, Qarabağ, Zəngəzur, Gəncə qəzasının dağlıq hissəsini, Naxçıvan ilə Ordubadı, Cənubi Azərbaycandan isə Astara, Ərdəbil, Qaradağ, Təbriz, Xoy, Maku, Səlmas və Urmiya gölü ətrafını əhatə edir. Ermənilər Təbrizi «Tavriz», Gəncəni «Ğanzax» adlandıraraq onları öz qədim şəhərləri hesab edirlər (78, s. 30).

Sovet hakimiyyəti illərində Moskvadakı rəsmi, habelə elmi dairələrdə ciddi himayə olunmalarından istifadə edən ermənilər öz saxtakarlıqlarını kitablarla yanaşı, xəritələr üzərində də həyata keçirməyə başladılar. Ermənilərin hələ

1956-cı ildə Moskvada «Qospolitizdat» nəşriyyatında nəşr etdirdikləri «Cənubi Qafqaz b.e.-nın I-IV əsrlərində» adlı xəritə də erməni saxtakarlığının çoxsaylı bariz nümunələrindən biridir. Xəritəyə əsasən, xəyali «Böyük Ermənistan» ərazisi Kür çayından Cənubi Azərbaycanın şimal torpaqlarının da daxil olduğu ərazini, Qərbi Azərbaycanı (indiki Ermənistanı), Gürcüstanın cənubunu, Urmiya gölünün şimal və qərb hissəsindəki bütün torpaqları, müasir İraqın şimal torpaqlarından Qara dənizədək olan geniş ərazini, şərqdə Xəzər dənizindən qərbdə Türkiyənin Sivas vilayətinədək olan çox nəhəng bir bölgəni əhatə edir. Maraqlıdır ki, həmin xəritədə «Böyük Ermənistan»dan qərbdə yerləşən ərazi də «Kiçik Ermənistan» adlandırılmışdır. Guya IV əsrin sonlarında «Böyük Ermənistan»ın Kaspiana vilayəti Sasanilərin, Sakasena və Kür çayı ilə Araz çayı arasında yerləşən digər vilayətlər isə Albaniiyanın tərkibinə keçmişdir. Bununla belə, Qərbi Azərbaycan, o cümlədən Naxçıvan, Cənubi Azərbaycanın şimal hissəsi, müasir Türkiyənin Van gölü ətrafındakı vilayətləri guya IV əsrin sonunadək «Böyük Ermənistan» ərazisi kimi qalmaqda idi.

Əlbəttə, ermənilərin bu və bu kimi digər sayıqlamaları da bütövlükdə «Böyük Ermənistan» xülyasının özü kimi tamamilə cəfəngiyyatdır. Ən azı ona görə ki, Ermənistan adlanan coğrafi ərazi Roma-İran müharibələrinin nəticəsi olaraq 387-ci ildə bu iki imperiya arasında bölüşdürülmüşdü və nə o vaxtadək, nə də həmin dövrdən XX əsrin əvvəllərinədək, daha dəqiq desək, 1918-ci ilin may ayınadək «Ermənistan» adı heç bir tarixi mənbədə siyasi sərhədləri göstərmək məqsədi ilə işlədilməmişdir (təbii ki, ermənilərin özlərinin sayıqlamalarından və saxtakarlıqlarından başqa). Tarixi Ermənistan isə eramıza qədərki mərhələdə bir çox hallarda ayrı-ayrı dövlətlərə məxsus

inzibati ərazi vahidi olmuşdur ki, bu zaman həmin torpaqlarda müxtəlif etnoslar, o cümlədən türkdilli xalqlar yaşamışlar, indiki ermənilərin əcdadları olan haylar isə bu məsələdə istisnadır.

Ümumiyyətlə, bizə tanış olan mənbələr «Ermənistan» sözünün kökündə duran qədim «erməni» etnosunun indiki «hay-ermənilər»lə (bundan sonra qədim ermənlərlə indiki erməniləri və onların əcdadlarını fərqləndirmək üçün bəzən şərti olaraq «hay-erməni» ifadəsindən istifadə edəcəyik) heç bir əlaqəsinin olmadığını təsdiq edir. Tarixi Ermənistan (Arme, Armina, Arminiya) ərazisi hay-ermənilərin qədim vətəni deyildir və bütün tarix ərzində heç vaxt bu ad hay-erməni dövlətinin siyasi sərhədlərini bildirmək üçün işlədilməmişdir. Ermənistan, e.ə. I əsrdə II Tiqranın (bu tarixi şəxsin də hay-ermənilərə heç bir dəxli yoxdur) qısamüddətli hakimiyyətini çıxmaq şərtilə, ümumiyyətlə, siyasi sərhədləri olan ərazi olmamışdır, tarixi məlumatlar bu ərazini adını qədim türk etnosu sak tayfalarının bir qolu olan ermən (ermen, arman) tayfasının adına əsaslanan etnotöponim, bir qədər də dəqiq desək, xoronim kimi xarakterizə etməyə imkan verir.

İstənilən halda tarixi Ermənistan ərazisi Qafqazın coğrafi hüdudlarından kənarda, Kiçik Asiya ərazisindədir. Eramızdan əvvəlki dövrə aid ən etibarlı mənbələrdən birinin müəllifi, tarix elminin atası hesab edilən Herodot (e.ə. V əsr) yazır ki, Babil şəhərindən axan Fərat çayı öz başlanğıcını Ermənistandan (onun tərtib etdiyi xəritədə «Armenii» – E.C.) götürür. O, Ermənistanın Assuriyadan yuxarıda yerləşdiyini qeyd edir (158, s. 67-68, 73). Bəzi müəlliflər, görünür, erməni tarixçilərinin saxta məlumatlarının yaratdığı dolaşıqlıq üzündən Ermənistan ərazisi haqqında danışarkən qeyri-müəyyənliyə və ciddi səhvlərə yol verirlər. «Bu bölgəyə ayrı-ayrı dillərdə – aysor dilində

Urartu, ivrit dilində Ararat, arami dilində Harminyan, Harmeni kimi müxtəlif adlar verilmiş və ilk dəfə Bisütun kitabəsində (e.ə. 522-486) Armeni – «Yuxarı məmləkət» kimi göstərilmişdir. Maraqlıdır ki, Dədə Qorqud boylarında (VII-IX əsr) bu bölgə və onun xalqı, tarixi ilə əlaqədar geniş məlumatlar verildiyi halda, erməni kəlməsi heç işlədilməmişdir» (62, s. 8). Bu zaman sak boyu olan ermənlər artıq daha iri türkdilli tayfalarla qaynayıb-qarışmışdılar. Çünki «Kitabi Dədə Qorqud»da sak-kimmer tayfalarının da adı çəkilmir.

Ermənistan adlandırılan ərazi Urartu mətnlərində «Arme» kimi işlədilir. Müəllif Ermənistan ərazisi ilə ermənilərin öz adlarına çıxdıqları Urartu dövlətinin ərazisini tam eyniləşdirməklə səhvə yol verir. Herodotun öz əsərinə əlavə etdiyi xəritədə, eyni zamanda əsərin özündə də Urartunun (əsərdə Alarodiya – E.C.) Van, Urmiya və Göyçə göllərinin əmələ gətirdiyi üçbucaq ərazidə yerləşdiyi göstərilir. Van gölü ilə Dəclə çayının yuxarı axarı arasında, indiki Türkiyə-İran sərhədi yaxınlığındakı ərazidə matienlər, Batumi yaxınlığında Qara dənizə tökülən Çorox hövzəsi boyunca isə saspirlər yaşayırdılar (158, s. 517). Qeyd edək ki, urartulular Göyçə gölünün qərb hissəsindəki torpaqları (indiki Qərbi Azərbaycan ərazisini) da öz qüdrətinin yüksəlişi dövründə, Urartu çarları Menua (e.ə. 810-781) və I Argiştinin (e.ə. 781-760) dövründə dövlətlərinin tərkibinə qatmışdılar. Erməni alimi B.İşxanyan da antik dövrdə ermənilərin həqiqi vətəninin Kiçik Asiyada, yəni Rusiyadan xeyli kənarda yerləşirdiyini etiraf edir. Lakin bu «vətən» həmin tarixi Ermənistan ərazisi deyil.

Əslində bu etirafın özündə də saxtalaşdırma vardır. «Ermənilərin həqiqi vətəni» ifadəsinin əvəzinə «ermənilərin köç etdikləri ərazi» şəklində işlədilsəydi, zənnimizcə,

həmin etiraf həqiqətə daha uyğun olardı. Antik mənbələrin Armina, Armeniya, Harmeni kimi adlandırdıqları coğrafi ərazinin indiki ermənilərə və Qərbi Azərbaycan torpaqlarına (müasir Ermənistan adlandırılan əraziyə – E.C.) heç bir aidiyyəti ola bilməz. Ən azı ona görə ki, ermənilər indiyədək özlərini «hay», yaşadıqları torpaqları isə «Hayastan» adlandırırlar. Biz artıq yuxarıda qeyd etdik ki, «Ermənistan» sözünün ilkin formada olan şəkli (Arme, Armina, Arminiya, Armeniya, Harmeni) coğrafi məkan anlamında işlədilmişdir.

Qədim hayların eramızdan əvvəl I minilliyin ortalarında Balkan yarımadasından köç edərək Fərat çayının yuxarı vadisində, dağlıq və yüksəklik ərazidə (qədim arami dilində «Armina»– «yuxarı məmləkət», «dağlıq ölkə») məskunlaşdıqları fikri bir çox tədqiqatçılar tərəfindən vurğulanır. Lakin qeyd edək ki, hay-ermənilər tərəfindən saxtakarlığa məruz qalmamış qədim mənbələrin heç birində «hay»ların adı xatırlanmır. Buna görə də qədim hayların indiki ermənilərin əcdadı olduğunu qəbul etsək, bu tayfaların həmin ərazidə və bəhs edilən dövrdə – e.ə. I minilliyin ortalarında məskunlaşması fikri qəbul edilə bilməz. Lakin hələ Herodotun dövründə qədim ermənlər (bunlar qətiyyən indiki hay-ermənilərin əcdadı deyildir – E.C.) Ermənistan (Arminiya) yaylasının yalnız qərb hissəsində məskunlaşmışdılar. Ksenofont da Herodotun bu barədə məlumatlarını təsdiqləyərək göstərir ki, o, fasian və taoxların sonralar Şimal-Mərkəzi Ermənistan adlandırılmış ərazilərinə daxil olduqda başa düşür ki, ermənilər arxada qalmışdır (bax: 40, s. 21). Plutarx Roma sərkərdəsi Lukullun II Tiqranla döyüşə yollanmasından danışarkən yazır ki, o, «tələsik yoluna davam etdi, Dəcləni keçdi və Armeniyaya daxil oldu» (167, s. 135). Plutarxın məluma-

tına görə, Ermənistan Van gölünün qərb hissəsindəki torpaqları əhatə edirdi.

Fikrimizcə, bu fakt da coğrafi bölgə olan Ermənistanın qədim hay tayfaları ilə heç bir bağlılığı olmadığını göstərir. Erməni tarixçilərindən rahib Alişan da bu fikri irəli sürür: «Hayk, ermənicə «Hay» adının kiçildilmişidir. Hay da ulusumuzun adıdır. Ermənilər qətiyyən başqalarının adlandırdıqları kimi, armen deyildir» (149, s. 102). «Ermənistan» sözünün qədim formasının rast gəlindiyi ən qədim mənbələr Əhəmənilər sülaləsindən İran şahı I Daranın Bisütun kitabəsindəki yazıları və Herodotun «Tarix»idir. Bisütun kitabəsinin qədim fars dilindəki mətnində bu söz Armina, Elam dilindəki mətnində Harminuya şəklində işlədilir (14, IV c., s. 83).

«Ermən», «armen» etnonimlərinin qədim türk dilində olduğu dilçi alimlər tərəfindən sübuta yetirilmişdir. Belə ki, indinin özündə də türkdilli xalqların yaşadığı bir çox ərazilərdə, Qazaxıstan (Ermen dağı, Ermentau şəhəri, Eriman və s.), Özbəkistan (Erman qışlağı), Türkmənistan (Ermen-deli obası, Arman-qala, Ermeniqum, Arman və s.), Başqırdıstan (Arman) kimi qədim türk etnoslarının vətənlərində bu etnonimlə bağlı çoxlu toponimlərə rast gəlinir. Artıq tədqiqatçıların bir çoxu «ermən» və «hay» etnoslarının ayrı-ayrı etnik qruplar olduğu – qədim «ermanlar»ın türkdilli, «haylar»ın isə indiki ermənilərin əcdadı olduğu fikrində eyni mövqedən çıxış edirlər. Belə ki, əslində tarixdə «ermən» adını daşıyan qədim etnos heç də indiki hay-ermənilərin əcdadı olmamışdır. Bu ad o zaman burada yaşayan digərlərinə nisbətən ən böyük etnosun adı olduğu üçün tarixi Ermənistan ərazisində yaşayan əhalinin hamısına şamil edilmişdir. Başqa sözlə desək, qədim Ermənistanın da əhalisi türklər olmuşlar. Tarixi analogiya kimi qeyd edək ki, qədimdə Şimali

Azərbaycanda 26 etnosun yaşadığı mənbələrdə öz əksini tapsa da, bu ərazilərimiz həmin etnoslardan ən böyüyünün – albanların adına müvafiq olaraq Albaniya adlandırılmışdır. Bu mənada nə antik müəlliflərin, nə də sonrakı salnaməçilərin əsərlərində «hay» etnoniminə, ümumiyyətlə, rast gəlinməməsi təbiidir, çünki onlar tarixən Ermənistan adlandırılmış ərazinin yerli etnosu olmamışlar. Hay-ermənilərin özləri də əcdadlarını «erman» («erməni») deyil, hay adlandırırlar. Deməli, bir daha təsdiq olunur ki, indiki hay-ermənilərin özlərinə qədim əcdad hesab etdikləri hayların mənbələrdə haqqında danışılan qədim ermən(i)lərlə heç bir əlaqəsi yoxdur.

Yeri gəlmişkən, bir sıra hallarda hayların təqribən Dəclə və Fərat çaylarının mənbəyilə Qara dəniz sahilləri arasındakı Hayasa adlanan vilayətdə yaşadıqlarını göstərirlər. Lakin Herodotun xəritəsində Kiçik Asiyadakı hətta ərazicə ən kiçik vilayətlərin adları öz əksini tapdığı halda, nəinki nəzərdə tutulan ərazidə, ümumiyyətlə, xəritədə Hayasa vilayətinə rast gəlmək olmur. Bəlkə bir qədər radikal səslənəcək, lakin görünür, bunlar («hay», «Hayasa») da «ermən», «Ermənistan» ifadələrinin özü kimi hay-ermənilər tərəfindən mənimsənilmiş və saxtalaşdırılmışdır. Ümumiyyətlə, bu mövzu başqa bir kompleks araşdırmanın predmeti olduğundan, tədqiqatımızda buna geniş yer vermirik, bununla belə, hesab edirik ki, bu istiqamətdə fundamental tədqiqatların aparılmasına ciddi ehtiyac vardır.

Bədnam erməni alimləri Cənubi Qafqaz bölgəsinin aborigen xalqlarından olduqlarını sübuta yetirmək üçün qədim Urartu dövlətinin (e.ə. I minilliyin I yarısı) tarixini öz adlarına çıxmış və bununla da tarixi elmi ədəbiyyatlarda özünəməxsus şəkildə xeyli saxtakarlıqlar, yanlışlıqlar yaratmışlar. Müxtəlif mənbələrdə əks olunmuş tarixi faktlar Van, Urmiya və Göyçə göllərinin əmələ gətirdiyi coğ-

rafi üçbucaqda yerləşən, assuriyalıların Urartu, Uruatri, Nairi, urartuluların özlərinin Biaynili (109, s. 277), Herodotun isə Alarodi (158, s. 168, 335) adlandırdığı ərazinin nə Ermənistan (bu ərazi müəyyən dövrdə Urartu ərazisi olmuşdur) və Hayasa adlandırılan ərazi ilə, nə də hay tayfaları ilə heç bir əzəli bağlılığı yoxdur. Ermənistanın şərq sərhədləri ilə qonşuluqda yerləşən Qərbi Azərbaycan (indiki Ermənistan) torpaqlarının da tarixin müəyyən kəsimində daxil olduğu Urartu ərazisinə də, bütövlükdə Kiçik Asiyaya olduğu kimi, hay tayfaları gəlmədirlər. Başqa sözlə desək, Urartu dövlətinin mövcud olduğu tarixi mərhələdə onun əhatə etdiyi ərazilərdə hay tayfaları yaşamamışlar.

Erməni tarixçilərinin özləri arasında da xalqlarının tarixi kökü və vətənlərinə dair ciddi fikir ayrılıqları mövcuddur. Bu mənada, ümumiyyətlə, onların təsirilə formalaşmış fikirləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Hayların kökünün Nuh peyğəmbərdən qaynaqlandığını iddia edən fikirlər. Bu iddianın tərəfdarları Nuhun nəvəsi olan Haykı ermənilərin ulu əcdadı hesab edirlər. Guya Nuhun gəmisi Ağrı dağında dayandığına görə hayların da vətəni buradır. Hayk 400 il yaşamışdır və öz torpaqlarını İkiçayarasının cənubunadək genişləndirmişdir. Təbiidir ki, bütün bu əfsanə cəfəngiyyatdan başqa bir şey deyildir və cidd-cəhdlə onun təkzibinə çalışmaq mənasızdır.

2. Urartunun hayların qədim dövləti olduğunu iddia edən fikirlər. E.ə. IX əsrdə yaranmış Urartu dövlətinin nə tarixinə dair faktlarda, nə də urartuluların bir xalq kimi dilində və qalan maddi-mədəniyyət abidələrində hay-ermənilərlə kiçicik bir uyğunluğun tapılmaması öz-özlüyündə bu iddianı təkzib edir. Yarandığı dövrdən Midiya tərəfindən işğal olunduğu e.ə. 590-cı ilə qədərki Urartu

dövlətinin tarixi ərzində heç bir mənbə «hay» adını çəkmir. Urartu dili ilə hay dili tamamilə fərqli xüsusiyyətlərə malikdir. Belə ki, qədim Urartu dili və mədəniyyəti Ural-Altay qrupuna aid oduğu halda, hay-erməni alimlərini öz dillərini Hind-Avropa dilləri qrupuna daxil edirlər. Hay-ermənilərin bu istiqamətdəki «faktları» da özlərinin saxtakarlıq mərəzindən başqa heç bir tarixi reallığa və əsasa söykənmir.

3. Hayların Urartu ərazilərini işğal edən Frakiya (Frigiya) tayfası olduğunu iddia edən fikirlər. Bu, əvvəlki iki düşüncəyə nisbətən hay-erməni tarixçiləri arasında daha geniş yayılmışdır. Bu fikirlərin tərəfdarları hayları Balkan etnosu hesab edir və bildirirlər ki, e.ə. onlar illiriyalıların təzyiqləri altında Balkan yarımadasından Kiçik Asiyaya köçmüşlər. Erməni alimi Y.A.Manandyan da «Protohaylar Balkan yarımadasında illiriyalılarla makedoniyalılar arasındakı bölgədə yaşamışdır» fikrini irəli sürür.

4. Hayların köklü Qafqaz xalqı olduğunu iddia edən fikirlər. Bu fikrin tərəfdarları I Daranın kitabəsində ermənlərin ölkəsinə yürüşü qeyd edilərkən guya Cənubi Qafqaz ərazisinin nəzərdə tutulduğunu söyləyirlər.

Bu iddiaların hamısında, əslində tarixi məlumatların təhlilindən, birbaşa qeyd edək ki, törəmə, yəni etnogenezində bir neçə xalqın iştirak etdiyi qarışıq etnos olduğu qənaəti yaranan indiki hay-ermənilərin qədim tarixini yaratmaq və bu tarixi mümkün qədər keçmişə aparmaq maraqlarının güdüldüyü şübhəsizdir. Belə ki, bir qrup tədqiqatçılar, o cümlədən bəzi erməni tarixçiləri hay-erməniləri hətta türklərdən törəmə etnos hesab edirlər. Burada o fikrin təsiri açıq-aşkar duyulur ki, tarixdə mövcud olmuş qədim ermənləri bir çox tədqiqatçılar türk mənşəli etnos hesab edirlər. Üçüncü qrupa aid olan fikirlər həqiqətə daha yaxındır. I Daranın Bisütun kitabəsindəki

«erməən» adının bugünkü hay-ermənilərə heç bir dəxli yoxdur. Çünki kitabədəki «ermənləri məğlub etdim» ifadəsini ermənilər özlərinin hələ o dövrlərdə torpaq sahibləri olmalarının, öz dövlətlərinə malik olmalarının təsdiqi kimi qələmə verirlər ki, bu da real tarixə uyğun gəlmir.

Erməni tarixçilərindən Pastırmacyan yazır ki, «...Hind-Avropa topluluğuna daxil olan ermənilərin (hayların – E.C.) şərqdə meydana çıxmaları Urartuya, yəni (ermənilərin dediyi kimi) əzəli Ermənistana digər bir Hind-Avropa tayfası olan kimmerlərlə birlikdə Qafqazdan, yaxud özləri ilə qohum olan digər bir Hind-Avropa xalqı – frigiyalılarla birlikdə Balkanları və Kiçik Asiyanı keçərək qərbdən gəlmələri e.ə. VII, yaxud VI əsrə təsadüf edir» (bax: 130, s. 13). Artıq sübuta yetirilmişdir ki, kimmerlər (qamərlər) qədim türk etnosudur, Hind-Avropa tayfası deyildir və onların bölgəmizə köçü haylardan xeyli əvvəl – e.ə. VII əsrdə və fərqli istiqamətdən – əvvəllər yaşadıqları Qara dənizin şimal sahillərindən Qafqaza keçməklə baş vermişdir. Hayların isə bölgəmizə gəlişindəki istiqamətin məhz Balkanlardan Kiçik Asiyaya və Ermənistan yaylası adlanan əraziyə doğru olması bir çox faktlarla təsdiqlənir. Çünki mənbələrin ardıcıl izlənməsi hayların başqa istiqamətdən gəlişi barədəki məlumatları doğrultmur.

Herodotun məlumatları indiki ermənilərin özlərinin qədim əcdadları hesab etdikləri hay tayfalarının bölgəmizə gəlişi haqqında müəyyən qənaətə gəlməyə əsas verir. Bəri başdan qeyd edək ki, nə Herodota qədərki mənbələrdə, nə də onun «Tarix» əsərində «hay» etnonimi barədə konkret heç bir məlumat yoxdur, həmin ada bu və ya digər şəkildə rast gəlinmir. N.Krayblis yazır ki, ilk İran tarixləri bu «erməni», «ermən» adından bəhs etmir və bu ad üçün heç bir əsər, heç bir etiqad, hətta bir şəxs belə

yoxdur. Erməni adı bu məmləkəti istila edən iranlıların Menua (Urdhu – Urartuluların hökmdarı və onun daş abidələri) abidələrindəki «Armonidad» adından götürdükləri bir ifadədir. İranlılar bu adın şöhrətinin təsiri altında onun dəyişdirilmiş şəkli olan «Erman-Ermən» adından istifadə etmişlər. İran adı da belə bir abidədən alınmışdır. Bu tarixdən etibarən əski Urdhu məmləkəti İran dilində olan bir adla anılmağa başlandığı kimi, İranın hakimiyyəti altına düşmüşdür. Bu, göstərir ki, erməni milləti ilə qədim və mədəni Ermənistan arasında tarixi bir bağlılıq yoxdur (136, s. 136). Qeyri-dəqiqliyə yol verilən bu məlumat «erməni» adının zahiri oxşarlığa əsasən izah edilməsi faktlarından biridir, lakin bu halda da onun haylara (bu günkü ermənilərə) heç bir aidiyyatı yoxdur.

Məlumdur ki, qədimdə Balkan yarımadasının şərqində, Qara, Egey və Mərmərə dənizləri arasındakı ərazi Frakiya, onun əhalisi isə frakiyalılar adlanırdı. Herodotun məlumatına görə, qədim yunan tayfaları olan dorilərin cənuba doğru yürüşləri ilə bağlı olaraq briq adlanan Frakiya tayfaları Ön Asiyaya köç etdilər. Yerdəyişmədən sonra bu tayfalar öz məskunlaşdıqları ərazini Frigiya, özlərini isə frigiyalılar adlandırmağa başladılar. Frigiyadan şərqə doğru gəlib Ermənistanda məskunlaşan tayfalar isə frigiyalılar kimi silahlanmışdılar. Həm onların, həm digər tayfaların başçısı I Daranın qızına evlənmiş Artoxm idi (158, s. 334). Perslər kimi silahlanan (əslində isə perslər onlar kimi silahlanırdılar) midiyalıların başçısı isə Əhəməni sülaləsindən olan Tiqran idi. Qədimdə onları hamı arilər adlandırırdı. Bu arilərə Afinadan kolxidalı Medeyanın gəlişindən sonra onlar da öz adlarını dəyişdirdilər (158, s. 332). Bu məlumatlar «Tiqran» adının sonralar gəlmə etnos olan haylara əhəmənilərdən keçdiyini söyləməyə əsas verir. Başqa sözlə desək, konkret olaraq

nə I Tiqranın və nə də II Tiqranın real tarixi şəxsiyyət kimi hay olmaması şübhəsizdir. Çünki, miladdan əvvəlki dövrdə mənbələrdə hay dövlətinin mövcudluğu qeyd olunmur. Əsl həqiqətdə, əgər belə demək mümkünsə, «hay-erməni dövlətçiliyi» anlayışının tarixi cəmi bir əsrə bərabərdir, yəni 1918-ci ildən o tərəfə getmir.

Bütün nüfuzlu alimlərin etimadını qazanmış Lenorman belə deyir: «Biz bunu təkzibolunmaz həqiqət saymalıyıq ki, Kirin çağdaşı olmuş I Tiqrana qədər ermənilərin (hayların – E.C.) heç bir milli rəvayəti yoxdur. O dövrədək baş vermiş hadisələr haqqında rəvayətlər, erməni yazıçılarının bütün hekayələri yalan əhvalatlar söyləyən Marobaz Katinanın kompilyasiyasının sadəcə olaraq üzünü köçürən Moisey Xorenlinin əsərindən qaynaqlanır... Katina dövründə belə kələklər çox geniş yayılmış, bu cür saxtakarlıqlar dünyanı başına götürmüşdü» (174, s. 29-30). Bununla belə, görkəmli şərqşünas Avqust Karrier Moisey Xorenliyə həsr etdiyi əsərində onun V əsrdə deyil, VIII əsrdə yaşadığını göstərir, Marobaz Katinanın isə ya uydurulmuş şəxs, ya da Moisey Xorenlinin özünün təxəllüsü olduğunu bildirir (152, s. 18).

Beləliklə, hayların Kiçik Asiyadakı Ermənistan (Arminiya) adlanan coğrafi əraziyə Avropadan – Balkan yarımadasının şərqində yerləşən Frakiyadan e.ə. VII-VI əsrlərdə Frigiyaya (Egey dənizi sahillərinə) köçdüyü barədə fikir söyləməyə əlimizdə əsas vardır. Bu tayfalar Dəclə və Fərat çaylarının yuxarı axarında yerləşən və dağlıq ərazi olan həmin torpaqlara bilavasitə Kiçik Asiyanın qərbində yerləşən Frigiya ərazisindən sonrakı əsrlərdə köç etmişlər. Bütün bunlar hay-ermənilərin Hind-Avropa dil qrupuna daxil olan xalq kimi bəzi Avropa xalqları (xüsusən qədimdə Frakiya və Frigiyada məskunlaşan etnoslarla) ilə qohumluq əlaqələrinə malik olduğu fikrini irəli sürməyə

imkan verir.

E.ə. I minilliyin ortalarında hayların Frigiyadan Ermənistana deyil, ondan cənubda yerləşən Suriya ərazisinə köçdüyünü bəzi mənbələr qeyd edirlər. Təsadüfi deyil ki, Strabon «Ermənilər, suriyalılar və ərəblər yaxın qonşu olaraq yaşadıqlarından təkcə dillərinə görə deyil, həyat tərzinə, bədən quruluşlarına görə də bir-birlərinə oxşayırlar» yazır (I.II.34).

Bəzi tarixçilərin iddia etdiyi kimi, hayların e.ə. II miilliyin sonlarında Kiçik Asiyaya, o cümlədən Ermənistana köçməsi faktı da mənbələrdə əks olunmamışdır. Kiçik Asiyanın şimal-şərq hissəsində, Halis (indiki Qızıl İrmaq) çayı hövzəsində e.ə. XVIII əsrdə yaranmış qədim Hett padşahlığı təqribən e.ə. 1200-cü ildə «dəniz xalqları»nın (axeylər, likilər, etrusklar, filistimlər və s.) yürüşləri nəticəsində süqut etmişdir (109, s. 237). Herodot Hett padşahlığının süqutunu Frakiyadan Frigiyaya köçmüş tayfaların şərqə yürüşləri ilə əlaqələndirir. Hett padşahlığının yaranmasınadək isə eyni ərazidə yaşayan Hind-Avropa mənşəli nesi, luvi və palay tayfalarının adları çəkilir (158, s. 517). Mənbədə hay adlanan etnosa rast gəlinmir. Buna görə də hay-ermənilərin Kiçik Asiyada məskunlaşmalarına dair ümumi fikir yürütmək mümkündür: bəhs olunan dövrdə hay-ermənilərin qədim əcdadları çox kiçik bir tayfa olmaqla bölgənin siyasi həyatında heç bir əhəmiyyətli mövqeyə malik deyildilər və onlar frigiyalıların şərqə doğru yerdəyişməsindən əsrlər sonra bir neçə tayfanın qohumluq əlaqələrindən yaranmış sonrakı yekcins kökə malik olmayan qarışıq etnosdur. Nəzərə alsaq ki, öz real tarixlərinə nisbətən obyektiv münasibət bəsləyən erməni alimləri də bu xalqın tarixi keçmişinin qeyri-müəyyən olduğu fikrini irəli sürürlər, onda indiki hay-ermənilərin törəmə etnos olduğu düşüncəsinin həqiqət olduğuna şüb-

hə yeri qalmır.

Professor F.Cəlilov qeyd edir ki, haylar qədim xalq deyildir, çünki eramızın IV-V əsrlərindən əvvəl mənbələrdə bir tək «hay» sözünə belə rast gəlinmir. Şumerlərin «Bilqamış» dastanından müqəddəs kitablara keçən Nuh tufanı əfsanəsi İncilin yunancadan hay dilinə tərcüməsində dəyişdirilmiş, hayların ulu babası Haykın adı bura əlavə edilmişdir. Çünki nə yunanca, nə də yəhudi dilindəki İncildə Hayk adı da, hay sözü də yoxdur. Burada «Ararat» kimi oxunan «RRT» isə əslində Urartu adının sami dilindəki yazılışıdır. Digər tərəfdən qədim hurri-Urartu tayfaları hay ola bilməzdilər, çünki onlar Qafqazdilli, Haylar isə Hind-Avropa dilli xalqdır. Ən nəhayət, Hind-Avropa kökünə mənsub xalqların ilk vətənləri Avropa olduğu halda, hayların ən qədim məskənlərinin Ön Asiya olması absurddur. Qafqaz və Anadolu xalqlarınm öz antropoloji xüsusiyyətlərinə görə kəskin fərqlənən haylar, bundan başqa avropoid irqi içərisində də ayrıca armenoid qolunu təşkil edir ki, bu da onların qarışıq bir etnos olduğunu göstərir. Beləliklə, armenoid haylar fizioloji tipə görə Ermənistan adlandırılan ölkədə yerli xalq deyildir, daha doğrusu, yerli ermən xalqı hay deyildir.

Bu fikrin həqiqət çəkisini gücləndirən digər mənbələr də vardır. Professor D.N.Anuçin qeyd edir ki, ermənilər ari tayfası deyil, daha qəti olaraq dil baxımından ariləşmiş tayfadır. Bütün bunlarla yanaşı, özlərini erməni hesab edənlərin heç də hamısı əsl erməni kökünə mənsub deyildir. «Murç» adlı erməni jurnalı 1897-ci il nömrələrinin birində «Qaraçılardan törəyən ermənilər» adlı məqalədə yazır ki, XIX əsrin 90-cı illərində ermənilərin arasında kifayət qədər böyük faizdə assimilyasiya olunmuş qaraçılar vardır (156, s. 65-66). Jurnal dünyada yalnız yəhudilərlə qaraçılarm milli dili olmayan və vətənsiz xalq olduq-

larını yazır. Rus alimi V.Veliçko ermənilərin mənşəyi haqqında məlumatların çox az olduğunu bildirir. Şantr, Erkert, Pantyuxov və digər elm adamlarının araşdırmalarından, antropoloji xüsusiyyətlərə görə, ermənilərin daha çox dağ yəhudilərinə və sirohaldeylərə (aysorlara) bənzədiyi aydın olur. İngilis alimi Bertin onları yəhudilərin Fələstin dövrünə qədərki tipinə aid edir (156, s. 65).

Görkəmli antropoloq İ.İ.Pantyuxov Türkiyədən Tiflisə köç edən yarıvəhşi qaçqınların gəlişindən istifadə edərək Türkiyə ermənilərinin bir çoxunu antropoloji tədqiqatlara cəlb etmiş və fiziki göstəricilərə görə, onların elə əsl kürdlər olduğu qənaətinə gəlmişdir. F.A.Brokhauz və İ.A.Yefronun XIX-XX əsrlərin qovuşuğunda tərtib edilmiş lüğətlərində isə birbaşa göstərilmişdir ki, ermənilər – «Hind-Avropa tayfalarının İran qrupunun bir qoludur» (bax: 156, s. 66, 68).

Qeyd edək ki, irandilli tayfalarm da bizim bölgəmizə gəlmə olduqları barədə ciddi məlumatlar vardır. E.ə. II minilliyin sonlarından İran ərazisinə hind-İran dillərində danışan hind-Avropa tayfalarının İran qrupundan olan ari (müasir İranın adı da buradandır; qədim İran dilində Aryanam – «arilər ölkəsi» və ya padşahlığı deməkdir) tayfaları gələrək qərbi və mərkəzi rayonlarda məskunlaşdılar (14, IV c., s. 502). Bu məskunlaşma ilə Herodotun haqqında məlumat verdiyi Balkan yarımadasındakı Frakiyadan bir sıra tayfaların Kiçik Asiyaya köçü eyni dövrə təsadüf edir. Bu baxımdan haylarla İrandilli tayfaların qohumluğuna dair fikrin həqiqət çəkisi daha da artmaqla yanaşı, V.Veliçkonun məlumatları bugünkü hay-ermənilərin törəmə xalq olduğu qənaətini də xeyli möhkəmləndirir. Öz növbəsində hayların «əcdadlarının Balkanlardan gəldiyi» fikrinin, ermənilərin özlərinin də etirafına rəğmən, doğruluğuna şübhə etməyə əsas yoxdur.

Bütün bunlardan sonra dünyanın bütün əlifbalarının mənbəyi hesab olunan, guya e.ə. XVIII əsrə aid edilən «metsamor qiksos – qədim erməni» əlifbası və e.ə. XVII-XIV əsrlərə aid edilən «hayas heroqlif yazısı» (bax: 38, s. 20) haqqında deyilənlərin xüsusi təkzibinə ehtiyac qalmır. Görkəmli rus tarixçisi Dyakonov da qədim hay-erməni dilinin Ermənistan yaylasında yaşayan qədim avtoxton xalqların dilinə uyğun gəlmədiyini, bu dilin başqa bir ərazidən gəldiyini yazır. Tarixi faktlar qədim tarixləri haqqındakı hay nağıllarının böyük saxtakarlıq fantaziyasının məhsulu olduğunu tam çılpaqlığı ilə üzə çıxarır. Hər halda hayların özlərinin ən qədim tarixlərinə dair uydurduqları «tarixi məlumatlar»ın heç bir əsası olmadığı şübhəsizdir. Beləliklə, hay-erməni təsirinə və saxtakarlığına uğramamış bütün mənbələrdəki məlumatlar qədim ermənlərlə hayların ayrı-ayrı etnoslar olduğunu, öz növbəsində hayların Kiçik Asiya ərazisinə Avropadan (Balkan yarımadasından) gəlmə olduqlarını və onların danışdığı qədim hay dilinin (onlar bunu qrabar dili adlandırırlar) Hind-Avropa dilləri qrupuna daxil olduğunu təsdiqləyir.

Yeri gəlmişkən, burada guya IV-V əsrlərdə yaşamış Mesrop Maştos tərəfindən yaradılmış erməni əlifbası barədə bir fakta toxunmaq istərdik. Sankt-Peterburq (Leninqrad) Universitetinin Qədim Şərq ölkələri tarixi kafedrasının əməkdaşı və SSRİ EA Antropologiya, arxeologiya və etnoqrafiya institutunun Afrika kabinetinin müdiri olmuş, tanınmış afrikaşünas akademik D.A.Olderoqqe «Maştosun əlifbası» kitabında erməni əlifbası ilə efiop əlifbasını müqayisə edir və bu qərara gəlir ki, erməni əlifbasındakı hərflər efiop əlifbasında olanlarla eynidir və ya başqa sözlərlə desək, ermənilər öz xislətlərinə uyğun olaraq başqa xalqların tarixini öz adlarına çıxdıqları kimi, əlifbanı da efioplardan oğurlamışlar. Aşağıda akademikin

öz məqaləsində verdiyi hərfi işarələrin müqayisəli şəklini olduğu kimi verməyi məqsədəuyğun saydıq:




Efiop və erməni hərflərinin müqayisəsi




Efiop sibbaik yazısı ilə erməni hərflərinin müqayisəsi

Beləliklə, göründüyü kimi, ermənilərin «orijinallığı» və «özünəməxsusluğu» ilə öyündükləri əlifbalarındakı hərflər də efioplardan götürülmədir. Başqa sözlə desək, ermənilər, tarixən sadəcə oğurluğu yaxşı mənimsəmişlər.

Herodotdan sonrakı bir neçə əsrdə də Ermənistan toponiminin mənbələrdə işlənməsinə təsadüf olunsa da, hay etnosunun bölgənin siyasi həyatındakı iştirakına dair elə bir fakt tapmaq olmur. Ksenofontun Herodotun məlumatlarına münasibəti də sübut edir ki, Ermənistan (Şərqi Anadolu) hayların vətəni deyildir. Hələ Herodotun dövründə Ermənistan yaylasının qərbində yaşayan və elə bu ərazinin özünə də gəlmə element olan haylar, e.ə. I minilliyin sonlarına doğru bir sıra etnosların qohumluğundan törəyən etnik vahidə çevrilmişdir. Şübhəsiz ki, burada qədim İran tayfaları ilə qohumluq barədə yuxarıda deyilən fikri də xatırlamaq lazımdır. Bu baxımdan M.Məmmədzadənin «Ermənilər və İran» əsərindəki ötən yüzilliyin əvvəllərində müxtəlif səviyyəli erməni daşnak orqanlarının hay-ermənilərlə qədim İran tayfalarının qohumluğu barədə söylədikləri müəyyən əsasa söykənmiş olur. Əlbəttə, bu başqa məsələdir ki, əsrlər sonra, dillərin və dinlərin, mədəniyyətlərin fərqliliyinin xeyli dərin köklərə malik olduğu bir vaxtda və mövcud ictimai-siyasi şəraitdə hay-ermənilərin bu məsələni hay-küylə qabartması yalnız onların düşünülmüş, məkrli, şovinist planlarına xidmət edirdi.

E.ə. I minilliyin ikinci yarısına dair mənbələrdəki məlumatların izlənməsi artıq bu dövrdə hay-ermənilərin kökündə duran, onların törədikləri etnosların bir qrupunun Ermənistan adlanan coğrafi ərazidə tam məskunlaşması və hətta getdikcə Kiçik Asiyanın şərqinə doğru yerdəyişməsini müşahidə etməyə imkan verir. Burada mühüm bir faktı da qeyd etməliyik ki, bu dövrdə hələ də tam etnik-

siyasi vahidə çevrilmiş etnosdan danışmaq olmaz. Ehtimal ki, bu yerdəyişmə e.ə. VIII-VI əsrlərdə Kiçik Asiyanın Aralıq və Qara dəniz sahilləri boyu döyüşkən yunanların öz çoxsaylı koloniyalarını yaratmaları ilə bağlı idi. Sonrakı dövrdə qüdrətli Makedoniya və Roma imperiyalarının yaranması və onların Şərqə getdikcə mütəmadi və ardıcıl xarakter daşıyan yürüşləri Frigiya etnoslarının Dəclə və Fərat çaylarının yuxarı axarlarına – istilaçı ordular üçün nisbətən daha əlçatmaz olan dağlıq ərazilərə səpələnməsinə səbəb olmuşdu.

E.ə. X-VIII əsrlərdə mövcud olmuş Frigiya çarlığının ərazisində yaşayan həmin tayfalar eyni zamanda e.ə. VIII əsrin sonunda Urartu ilə ittifaqa girərək Ön Asiyanın o dövr üçün qüdrətli dövlətlərindən biri olan Assuriya ilə də mübarizə aparmışlar (14, IX cild, s. 621). E.ə. VII əsrdə kimmerlər Frigiyanın paytaxtı Qordion şəhərini (Qordion – Türkiyənin müasir Yassıhöyük adlanan ərazisində yerləşirdi və həmin ərazinin cənub hissəsi indi də Haymana adlanır – E.C.) tutaraq dağıtmış (14, III c. s. 207), bundan sonra Frigiya ərazisi Egey dənizi sahillərində yerləşən Lidiya dövlətinə birləşdirilmişdi. Başqa bir məlumata görə isə Lidiya dövlətini də qədim friq tayfaları yaratmışlar. Hayların friqlərlə birlikdə e.ə. VII-VI əsrlərdə Qərbdən (N.Pastermacyan), indiki İsveçrə (R.Kuriyan) ərazisindən işğalçılar kimi gələrək yerli əhalini əsarət altına aldıqlarını (R.Hovannisyan) hay tarixçiləri özləri də etiraf edirlər (bax: 74, s. 260). «Əsarət altına aldıqları» ifadəsi haylara deyil, friq tayfalarına aiddir, çünki qədim hayların özləri friqlərin təbəəsi olmuşlar.

Bu zaman Ermənistan ərazisində siyasi hakimiyyət türkdilli xalqlara məxsus idi. F.Cəlilov yazır ki, şimala çəkilən subar, mitan-armi və urmu tayfaları yeni axınla bölgəyə gəlmiş soydaşları saqa-qamərlərlə (sak-kimmer-

lərlə – E.C.) qovuşub yeni qüvvəyə çevrildi və əvvəllər Urartu əyaləti olan bu ərazidə, Fərat çayının yuxarı axarında e.ə. VII əsrin sonunda kiçik Ermən (tarixi Ərməniyə) bölgəsi yarandı. Bu bölgənin döyüşçüləri Assur dövlətinə qarşı 615-ci ildə başlanan böyük müharibədə Mada ordusuna qoşuldu və Mada çarı Kiaksar Assur dövlətini dağıdandan sonra Ermən bölgəsini bəylik statusunda Mada vilayətinə çevirib saqa boyundan Parur bəyi bura hökmdar (canişin) təyin etdi. Beləliklə, haylara heç bir aidiyyatı olmayan bu ilk «Ermən çarlığı» miladdan əvvəl 612-ci ildə əhalisi əsasən türk armi-mitan, urmu, qaşqay, subar, saqa-qamər və qafqazdilli hurri -urartu boylar ından ibarət olan bu Mada əyalətində yarandı. Suriyanın şimal-qərbindən bu bölgəyə xristianlığın yarandığı çağlarda sızan azsaylı hay tayfalarının bölgə əhalisinə çevrilməsi olayı isə sonralar baş verdi.

Qeyd edək ki, hay tarixçiləri saqa (sak) boyundan olan Parur bəyi «hay hökmdarı» kimi qələmə verirlər. «Hay-erməni tarixinin atası» adlandırılan M.Xorenatsi bildirir ki, «Bizim birinci hökmdarımız Varbak tərəfindən başına tac qoyulan Skayordının oğlu Paruyr olmuşdur» (rusca mətndə: «Наш первый государь, увенчанный Варбаком, был Паруйрь, сын Скайорды») (Xorenatsi, I, XXII). Bu onu göstərir ki, hay-ermənilər özlərinin ənənəvi saxtakarlıqlarının əsasını elə M.Xorenatsidən başlayaraq qoymuşlar.

Frigiya tayfalarının şərqə doğru köçünü asanlaşdıran əsas amil isə Kiçik Asiyanın e.ə. 546-cı ildə İran Əhəməni imperiyasının tərkibinə qatılması oldu. Çünki artıq vahid imperiyanın tərkibində olan ərazilərdə bir ərazidən digərinə keçid çətin mübarizə bahasına başa gəlmirdi. Təsadüfi deyildir ki, həmin tayfaların iranlılarla qohumluğuna dair Herodotun məlumatı məhz İran istilasından sonrakı döv-

rə, I Daranın (e.ə. 522-486) zamanına aiddir (158, s. 334). Məlumdur ki, bölgədəki İran hakimiyyəti Makedoniyalı İsgəndərin (e.ə. 336-323) Şərq yürüşünədək davam etmiş və haqqında bəhs etdiyimiz tayfalar da digər Kiçik Asiya etnosları kimi Əhəmənilər dövlətinin tərkibində olmuşlar. Sonralar Ermənistan ərazisinə yayılan həmin etnoslar məhz bundan sonra vahid etnonimlə erməni (arminalı, arminiyalı) adlandırılmağa başlanmışdır. Əhəmənilərin son illərinədək tarixi Ermənistan ərazisi İran dövlətinin bir canişinliyi olmuşdur. Əhəmənilərin saray həkimi Baqoy e.ə. 336-cı ildə Əhəməni taxtına Arminiya satrapı Kodomanın namizədliyini irəli sürmüş və o, III Dara adı ilə şah elan edilmişdi (109, s. 378). III Daranın isə qədim pers tayfasından olması məlumdur. Bu həm də onun sübutudur ki, e.ə. IV əsrdə Ermənistanda heç bir hay dövlətçiliyi mövcud deyildi.

Makedoniyalı İsgəndər özünün e.ə. 334-cü ildə başlayan Şərq yürüşü zamanı Ermənistanı da Əhəməni imperiyasının digər qərb əraziləri kimi elə yürüşünün ilk ilindəcə və asanlıqla ələ keçirdi. Hay-ermənilərin tarix ədəbiyyatlarında guya İsgəndərə qarşı mübarizə aparılması barədə əsassız məlumatlar vardır. Onların uydurulmuş rəvayətinə görə, guya «Böyük İsgəndərə qarşı döyüşən Hayk nəslinin son hökmdarı Vahe bu döyüşdə öldürüldükdən sonra bölgə İsgəndərin əlinə keçmişdir» (bax: 62, s. 9). Lakin ermənilərin özlərindən başqa nə o dövrə aid, nə də sonrakı mənbələr İsgəndərin bilavasitə Ermənistan üzərinə yürüşü və hayların ona qarşı döyüşmələri barədə danışmır. Burada sadə bir fakt vardır: İsgəndər bütövlükdə Əhəməni imperiyasının ərazilərini istila etmiş, onun ayrı-ayrı əraziləri uğrunda xüsusi döyüşlər aparmamış və buna sadəcə ehtiyac olmamışdır. İstiladan sonra Sardes qalasını İsgəndərə təslim etmiş, əslən iranlı olan Mithrines adlı

şəxs bu diyara (Ermənistana) vali təyin olunmuşdu (62, s. 11).

E.ə. 323-cü ildə İsgəndərin ölümündən dərhal sonra parçalanan imperiyanın digər bir çox əraziləri kimi Ermənistan da yeni yaranmış Selevkilər dövlətinin (e.ə. 312-64) tərkibinə daxil oldu. Selevki hökmdarı II Antiox zəbt etdiyi Ermənistanı böyük və kiçik Ermənistan olmaqla iki hissəyə ayırmış və hər birinə satrap deyilən iki canişin təyin etmişdi. Tarixi analogiya kimi xatırladaq ki, Midiya ərazisi Əhəmənilər dövlətinin tərkibinə qatılandan sonra kiçik Midiya və böyük Midiya ərazilərinə bölünmüş və e.ə. 321-ci ildə Atropatena dövləti də kiçik Midiyanın hüdudları daxilində yaranmışdı. «Böyük Ermənistan» ifadəsinin bu dövrdə meydana gəldiyi və inzibati ərazi bölgüsünü bildirmək üçün işlədildiyi aydın olur.

Rus mənbələri həmin ifadənin coğrafi mənada e.ə. 220-ci ildə ortaya çıxdığını yazır (bax: 76, s.48-49). Həmin il III Antiox keçmiş Urartu ərazisini işğal edərək həmin yerləri Ermənistanın əsas vilayəti ilə (Van gölü ətrafı) birləşdirmiş, «Böyük Ermənistan» ifadəsi də o vaxt yaranmışdır. Bu zaman kiçik Ermənistandan savayı bütün ərazilər Selevkilərə tabe edilmişdi. Antiox Artaksi (haylar Artaşes deyirlər) sülaləsinin başçısını böyük Ermənistanın hökmdarı (strateqi) təyin etmişdi. Beləliklə, kiçik Ermənistana nisbətən böyük, yəni geniş Ermənistan ərazisi mövcudluq qazanır. Ermənilərin xəyali «Böyük Ermənistan» iddialarının kökünü də burada axtarmaq lazımdır.

«Böyük Ermənistan» adının siyasi mənada işlənməsinə gəlincə, bu, e.ə. II-I əsrlərdə Artaşesin və II Tiqranın hakimiyyətinin məhz coğrafi ərazi olan böyük Ermənistanda mövcudluğu ilə əlaqədar olmuşdur. Yəni həmin dövrdə bu iki şəxsin hakimiyyəti Selevkilər dövlətinin tərkibində olmuş böyük Ermənistan ərazisi üzərində bərqə-

rar edildiyi üçün həmin ifadə bundan sonra siyasi mənada da işlədilməyə başlanmışdır. Lakin e.ə. 65-ci ildə II Tiqranın hakimiyyətinin başa çatması ilə böyük Ermənistan inzibati-coğrafi vahid kimi öz ömrünü başa vurdu və Ermənistan ərazicə yalnız Ermənistan yaylası hüdudunda qaldı, coğrafi mənada «Böyük Ermənistan» ifadəsi isə o vaxtdan ta erkən orta əsrlərədək işlədildi (76, s. 49). Təbii ki, II Tiqran milliyyətcə hay olmadığından onun hakimiyyətdə olduğu dövrün də «hay dövlətçiliyi» ilə heç bir əlaqəsi yoxdur.

Bu ərəfədə Roma quldar dövləti e.ə. II əsrin ilk illərindən etibarən şərq istiqamətində yürüşləri başlanmışdı. E.ə. 190-cı ildə Maqneziya döyüşündə Roma ordusu Selevki hökmdarı III Antioxun (e.ə. 223-187) qoşunlarını məğlub etdi. Qeyd edək ki, bundan sonra, guya e.ə. 189-cu ildə tarixi Azərbaycan ərazilərinin qonşuluğunda hay dövlət qurumunun – Arminiya dövləti yaranması prosesinin başlanması barədə bəzi müəlliflərin məlumatları heç bir ciddi və dəqiq mənbəyə əsaslanmır. Bu məlumat ermənilərin uydurduqları və yaxud saxta əlavələr etdikləri «mənbələrdən» başqa heç bir məxəz tərəfindən təsdiqlənmir. Təbii ki, biz I Artaşesin Ermənistan ərazisini romalılara tabe olmaqla idarə etdiyi faktını inkar etmirik, lakin nə I Artaşes, nə də onun əsasını qoyduğu sülalənin haylarla bağlılığı yoxdur. Çox qəribədir, bütün bunların müqabilində ermənilər e.ə. XXII əsrin sonlarından başlayaraq öz «tarixlərinin» xronologiyasını, uydurma sülalələrinin, hökmdarlarının ardıcıllığını elə bir qibtəediləcək «dəqiqliklə» sıralamışlar ki, sanki o dövrdən bu günədək yazı ilə tanış olar-olmaz, tarixə məlum olan bütün dünya salnaməçiləri və tarixçiləri yalnız «hay tarixini» yazmağı müqəddəs vəzifə hesab etmiş və bunu yerinə yetirməyi şərəf bilmişlər. Saxtalaşdırmaq üçün əlləri yetməyən

mənbələrdə isə, «obyektivlik naminə», yalnız özlərinə sərf edən məqamları kontekstdən çıxararaq yararlanmışlar.

Antik müəlliflərdən Strabon (e.ə. 64/63-b.e. 23/24) yazır ki, I Artaşes işğalçılıq müharibələrinə girişdi və qonşu torpaqların, o cümlədən Azərbaycanın ərazisi hesabına Ermənistan torpaqlarını genişləndirdi. «...Əvvəllər xırda ölkə olan Ermənistanı Artaksi (Artaşes) və Zariadrın müharibələri genişləndirdi. İlk əvvəl onlar Böyük Antioxun sərkərdələri imişlər, onun məğlubiyyətindən sonra hökmdar oldular: biri Sofenada, o birisi Artaksatda; onlar birgə öz ərazilərini genişləndirdilər, belə ki, ətraf xalqların vilayətlərinin bir qismini qopartdılar; məsələn, midiyalılardan (atropatenlilərdən) Kaspiana, Favnitida və Basoropedanı, iberlərdən Pariadr dağətəyini, Xorzena və Qoqarenanı...» (bax: 109, s. 403-404). Burada Kaspiananın işğalı faktını erməni «tədqiqatçıları» Xəzər dənizi sahilində yerləşən bu qədim Azərbaycan torpaqlarının qondarma hay dövləti tərəfindən istila edildiyinə və guya bu vilayətin özlərinə məxsus olduğuna, bununla həm də bəhs olunan tarixi mərhələdə Cənubi Qafqazla bağlı olduqlarına, eyni zamanda dövlətə və hərbi-siyasi gücə malik olduqlarına dair «sübut» faktı kimi istifadə edirlər.

Bəzi müəlliflər Maqneziya döyüşündən sonra yaradılan bu dövlət qurumunun romalıların himayəsi altında elan edilən krallıq olduğu qənaətindədirlər. Fikrimizcə, bu qənaətlə razılaşmaq olar. Çünki Kiçik Asiya ərazisi, xüsusən onun Ermənistan adlanan bölgəsi daim bu və ya digər istilaçı dövlətin əlinə keçmişdir. Təbii ki, Roma Selevkilərə qalib gəldikdən sonra bölgədə yeni müstəqil dövlətin yaranması ilə razılaşa bilməzdi. Buna görə də çox güman ki, I Artaşesin Ermənistan ərazisində qurduğu dövlət qurumu (bu qətiyyən hay dövləti deyil – E.C.) Romadan asılı halda olmuşdur. Qeyd etdiyimiz kimi, Stra-

bonun Atropatena və Albaniyanın müxtəlif vilayətlərinin Ermənistan hakimləri tərəfindən istilası haqqında məlumatlarından ruhlanan hay-erməni «tarixçiləri» Albaniyanın Kür və Araz çayları arasındakı vilayətlərinin, hətta Xəzər sahilində yerləşən Kaspiana vilayətinin də özlərinin qədim torpaqları olduğunu iddia edirlər. Əvvəla, Strabonun məlumatında «Ermənistan ərazisinin I Artaşes və Zariadr tərəfindən Albaniya torpaqları hesabına genişləndirilməsi»ndən söhbət gedir, bu isə haylara dəxli olmayan bir dövlət qurumu idi, ikincisi, müəllif həmin torpaqların Albaniyaya məxsusluğu barədə də məlumat verir: «Albanların ölkəsinə Kaspiana vilayəti də daxildir, onun və dənizin adı indi itib getmiş tayfanın adından götürülüb» (16, s. 17).

Hayların guya e.ə. II-I əsrlərdə meydana çıxmış «Böyük Ermənistan» adlanan xəyali dövlətləri nəzəri olaraq Kiçik Asiyanın çox böyük bir hissəsini, Gürcüstanı, Rostov vilayətinə qədərki Rusiya torpaqlarının hamısını (Şimali Qafqazı), Cənubi Azərbaycanı, Azərbaycan Respublikasının bütün ərazilərini, o cümlədən Naxçıvanı da əhatə edir. Onların bütövlükdə bu torpaqlara, tarixi Azərbaycan ərazilərinə, habelə Naxçıvana qarşı heç vaxt səngiməyən iddialarının kökündə hay «tarixçiləri»nin uydurub saxtakarlıqlarına özlərinin fanatikcəsinə inandıqları (bu, onlarda artıq sözün əsl mənasında psix(oloj)i xəstəliyə çevrilmişdir) həqiqətdən uzaq bu əfsanələr durur.

Real olaraq haylar (yəni indiki ermənilərin özlərinə əcdad hesab etdikləri etnos) tarix səhnəsində miladdan sonrakı dövrlərdə görünməyə və xatırlanmağa başlamışlar. Bu təbiidir, çünki onların yekcins kökə malik olmayan etnos olduqları, miladdan əvvəlki «siyasi-dövlətçilik tarixlərinin» isə əfsanə olduğu real tarixi həqiqətdir. Maraq doğuran cəhət budur ki, bir sıra erməni «alimləri»

bizim yuxarıda haqqında danışdığımız, I Artaşesin Ermənistanda hakimiyyətinin başlaması ilə əlaqədar e.ə. II-I əsrlərdə bölgədə baş verən hərbi-siyasi hadisələri «erməni dilli vilayətlər»in birləşməsi və «erməni dövlətçiliyinin yeni mərhələsi» kimi qələmə verirlər.

Onların daha çox öyündükləri tarixi mərhələ isə II Tiqranın (e.ə. 95-55) hakimiyyətdə olduğu dövrdür. Hay tarixçiləri onun e.ə. 77-ci ildə saldırdığı Tiqranakert şəhərini dövlətinin paytaxtına çevirdiyini qeyd edirlər. Antik mənbələr həqiqətən də Tiqranakert şəhərinin adını çəkirlər. Yeri gəlmişkən, son dövrlərdə ermənilər guya bu şəhərin qalıqlarının Azərbaycan Respublikasının Ağdam rayonunun işğal etdikləri ərazilərində «tapıldığı» barədə mənasız hay-küy qaldırmışlar. Lakin məsələ burasındadır ki, bu şəhərin, elə II Tiqranın özü kimi, indiki hay-ermənilərlə heç bir əlaqəsi yoxdur və Tiqranakert nəinki Azərbaycan ərazisindədir, ümumiyyətlə, Qafqazın hüdudlarından tam kənardadır. Belə ki, Strabon həmin şəhərin İberiya yaxınlığında, Fərat çayı sahilində olduğunu yazır. Plutarx isə Roma sərkərdəsi Lukullun Tiqranakert üzərinə hücumdan bəhs edərkən məlumat verir ki, «şəhərin yunan əhalisi Tiqranakerti Lukulla təslim etmək istəyən barbarlara qarşı üsyan etdi və o (Lukull – E.C.), şəhəri hücumla aldı». Müəllif daha sonra yazır ki, Lukull həm yunanları, həm də Tiqranakertdə zor gücünə məskunlaşmış barbarları yol üçün pullarını verərək vətənlərinə buraxdı (167, II c., s. 141). Göründüyü kimi, bu zaman Tiqranakertin əhalisi yunanlardan və «barbarlar»dan ibarət olmuşdur, burada haylardan söhbət belə getmir.

Bu fakt da sübut edir ki, Ermənistanda hakimiyyətdə olmuş II Tiqranın nə özü haydır, nə də əhalisi arasında hayların olmadığı Tiqranakert şəhəri, eləcə də bütövlükdə bütün Ermənistan indiki hay-ermənilərlə heç bir bağlılığı

olmayan ərazidir və burada hay-erməni dövləti heç vaxt olmamışdır. Digər tərəfdən Tiqranakertdə haylar yaşasaydı və o, həqiqətən hayların «tarixi vətənlərində», onların «dövlətlərinin paytaxtı» olsaydı, Lukull bu şəhəri zəbt etdiyi halda haylara yol pulunu öz vətənlərində nə üçün verməliydi?!

Amma burada maraqlı məqam ondan ibarətdir ki, Plutarx yunanlardan başqa qalan əhalini «barbarlar» adlandırır. Belə güman etmək olar ki, müəllif bu ad altında əvvəllər buraya köçmüş friq tayfalarını nəzərdə tutur. Əgər belədirsə, onda haylar o qədər azsaylı olmuşlar ki, Plutarx onların adını qeyd etməyə ehtiyac duymamış və ya onların adını belə eşitməmişdir. Digər tərəfdən isə bura onların vətəni deyildi, çünki Lukull «barbarları yol üçün pullarını verərək vətənlərinə» buraxmışdı.

Bu dövrdə II Tiqranla müttəfiq olan Kiçik Asiyadakı Pont padşahlığının hökmdarı VI Mitridat Yevpatorun (e.ə. 132-64) fəal işğalçılıq siyasəti Roma imperiyasının şərq sərhədləri üçün təhlükə törədirdi. VI Mitridat e. ə. 107-ci ildə Savmakın üsyanını yatırdıqdan sonra Bospor padşahlığını, Qara dəniz sahilindəki bütün yunan şəhərlərini həmçinin Kiçik Ermənistanı və Kolxidanı özünə tabe etmişdi (14, VII c., s. 9). Lakin Roma imperiyasının şərq əyalətləri olan Qalatiya, Vifiniya, həmçinin Kappadokiya uğrunda mübarizədə ağır məğlubiyyətə uğramış, e.ə. 64-cü ildə Pont padşahlığının varlığına romalılar tərəfindən son qoyulmuşdu. VI Mitridatla müttəfiqliyinə görə parfiyalı Ermənistan çarı II Tiqranı bir növ cəzalandırmaq üçün e.ə. 68-ci ildə Roma senatının göndərdiyi sərkərdə Lisini Lukull ona qarşı döyüşərək məğlubiyyətə uğratmışdı. Plutarx ermənlərin (indiki hay-ermənilər deyil, Ermənistanın avtoxton əhalisi olanlar – E.C.) şərq qonşuları olan albanların, iberlərin və Araz çayı sahilində yaşayan

digər tayfaların bu döyüşdə II Tiqrana köməyə gəldiklərini yazır. Qonşu xalqlar olan albanların, iberlərin və parfların müttəfiqlik etməsində isə heç bir qəribə məqam yoxdur.

Digər Roma sərkərdəsi Qney Pompeyin bölgəyə e.ə. 66-cı ildəki hücumu zamanı II Tiqran müqavimət göstərmədən təslim olmuşdu. Bundan sonra e.ə. 53-cü və 38-ci ildə Roma imperiyası ilə Parfiya arasında baş verən döyüşlərin nəticəsi kimi Ermənistan gah romalılardan, gah da parfiyalılardan asılı vəziyyətə düşürdü. Bu döyüşlərin birincisində Parfiya, ikincisində Roma ordusu qalib gəlmişdi. Ermənistan hakimi II Artavazd Roma sərkərdəsi Mark Antoninin Parfiyaya e.ə. 36-cı ildəki yürüşü zamanı özünü müttəfiq kimi göstərsə də, sonradan Antoni II Artavazd tərəfindən aldadıldığını başa düşmüşdü. Buna görə də o, e.ə. 34-cü ildə «...Mark Antoni və Kleopatra tərəfindən Livana çağırılmışdı: onu orada döyüş arabasına bağlayıb sürütləməklə öldürmüşdülər. Mark Antoninin oğlu Aleksandr Ermənistana kral təyin edilmiş, Arazdan şimaldakı ərazi isə Midiya kralına verilmişdi» (62, s. 13). Qeyd edək ki, müasir hay-erməni mənbələri Aleksandrın və onun xələflərinin Ermənistanda hakimiyyətlərini «erməni dövlətçiliyinin varisliyində» müvəqqəti işğal kimi xronologiyalaşdırmışlar. Bununla da Ermənistanda Parfiya hökmranlığına son qoyulmuş, onun ərazisi Roma imperiyasının şərq əyalətinə daxil edilmişdi. II Tiqranın hakimliyinə son qoyulmasından başlayaraq (e.ə. I əsr) 428-ci ilə qədər Ermənistan ərazisində müstəqil siyasi hakimiyyət faktik olaraq mövcud olmamışdır. Bütün bu dövrlər ərzində – VI əsr də daxil olmaqla Ermənistan ərazisi iki böyük imperiya – Roma-Bizans və İran arasında dəfələrlə bölüşdürülmüşdür (76, s. 33).

Hay mənbələri II Tiqranın hakimiyyətinin başa çat-

masından 428-ci ilədək olan dövrü «Ermənistanın fars hissəsində çar hakimiyyətinə son qoyulması, idarəçiliyin nahararların əlinə keçməsi» dövrü kimi qiymətləndirirlər. Həmin mənbələrdə «nahararlar» iri hay-erməni feodalları kimi izah edilir. Belə olduğu halda, əgər həqiqətən də II Tiqran hay çarı idisə, onda niyə «hay çarı»nın hakimiyyətinin bitməsi, Ermənistanda idarəçiliyin «hay feodalları olan nahararlara» keçməsi kimi əlverişli bir faktı hay alimləri niyə öz «dövlətçiliklərində» fasilə dövrü kimi şərh edirlər?!

Çünki tarixi həqiqət hayların bu bölgənin taleyində heç bir siyasi rol oynamadığını təsdiqləyir. Eramızın I əsrində Ermənistan ərazisi Roma imperatoru Avqustin tərəfindən Atropatenanın hakimlərinə verilmişdi. Dion Kassinin və Tatsitin məlumatlarına görə, eramızın 30-50-ci illərində Ermənistanı İberiya şahzadələri idarə etmişlər. I-II əsrlərdə burada Roma qoşunları yerləşdirilmişdir ki, onların da strateqləri ölkənin sahibləri idilər. Fakt kimi, son dərəcə əhəmiyyətlidir ki, hökmdarı Romanın vassalı olan Ermənistan çarları taxt-tacı elə romalıların əlindən qəbul etmiş və 358-ci ilə qədər Romaya vergi vermişdir. Hay alimlərinin iddialarının əksinə olaraq, I-IV əsrlərdə «Böyük Ermənistan» heç cür təcavüzkarlıq siyasəti apara bilməzdi, çünki növbə ilə ya Romadan, ya da Parfiyadan asılı olmuşdur (40, s. 28). Əslində asılı olmamışdır, çünki bu ifadə yarımmüstəqil dövlətin mövcudluğuna dəlalət edir. Sadəcə Ermənistan əldən-ələ keçərək gah Roma, gah da Parfiya əyaləti olmuşdur. Həm də bu zaman yenidən xatırlatmağa ehtiyac duyulur ki, burada heç vaxt hay dövlətçiliyi olmamışdır.

Ermənistanda 62-428-ci illərdə hakimiyyətdə olmuş Parfiya əsilli Arşakilər sülaləsinin hökmranlığı əslində formal xarakter daşımışdır. 226-cı ildə İranda hakimiyyət

başına gələn Sasanilər Roma ilə, bir çox ərazilər kimi, Ermənistan uğrunda da davamlı mübarizə aparmışlar. Nəhayət, bu mübarizə 387-ci ildə Ermənistan ərazisinin (məhz ərazisinin, dövlətinin yox – E.C.) bu iki imperiya arasında bölüşdürülməsi ilə nəticələnmiş, Arşakilər onların vassalına çevrilmişdilər. Roma ilə 387-ci ildə bağlanmış müqaviləyə əsasən Mesopotamiya, Ermənistan çarlığının 4/5 hissəsi Sasanilər dövlətinin tərkibinə qatıldı (14, VIII c., s. 304). 391-ci ildə Qərbi, 428-ci ildə isə Şərqi Ermənistanda çar hakimiyyəti tam ləğv olundu. Qərbi Ermənistanı Roma sərkərdəsi, Şərqi Ermənistanı isə Sasani mərzbanı (canişini) idarə edirdi. S.Koçaş Şərqi Ermənistanda çar hakimiyyətinin ləğvini 433-cü ilə aid edir (62, s. 14). Lakin mənbələrin böyük əksəriyyəti bu hadisənin 428-ci ildə baş verdiyini göstərirlər. Bunadək mövcud olmuş «çar hakimiyyəti» isə Parfiya Arşakilər sülaləsinin hökmdarlarına aiddir.

Hay etnosunun adına və bölgədə cərəyan edən hadisələrdə bu və ya digər şəkildə iştirakına məhz xristianlığın yayılmasından sonra rast gəlinir. Bu zaman artıq müxtəlif tayfaların, xüsusən Hind-Avropa etnoslarının etnogenezində iştirak etdiyi hay etnosu təşəkkül tapma dövrünü yaşayırdı.

301-ci ildən Ermənistan ərazisində xristianlıq yayılmağa başlandı. Katolikos Qriqori Partevin adı ilə apostol kilsələrindən biri qriqorian kilsəsi adlanmağa başladı. Nəhəng Roma imperiyası 395-ci ildə iki yerə bölündükdən sonra Ermənistanın qərb hissəsi Şərqi Roma imperiyasının (Bizansın) hakimiyyəti altında qaldı. Ermənistanın şərq hissəsinə isə Sasanilər nəzarət edirdilər. Bizans hakim dairələri və dini idarələri öz ölkələri daxilində qriqorian təriqətinin yayılmasını istəmirdilər. Eyni zamanda çoxsaylı etnoslarla məskun ərazi olan Ermənistan imperiya

üçün qarmaqarışıqlıq və narahatlıq doğuran bir bölgə hesab olunurdu. Bu iki səbəbdən Bizans Qərbi Ermənistanı təfriqəçi tayfa olan haylardan təmizləmə siyasəti yürütməyə başladı (143, s. 79). 536-cı ildə Bizans imperatoru Yustinian (527-565) Ermənistanın bir hissəsini Bizansa qataraq tabe olmayanları cəzalandırmağa başladı. Bunun nəticəsində minlərlə hay başqa yerə köçürüldü. Erməniləri yunanlaşdırma siyasəti yürüdüldü (62, s. 15).

Bizansın bu siyasəti səlcuqların Anadoluya gəlişlərinə qədər fasilələrlə davam etdi. Bu siyasət çərçivəsində daha əvvəl feodal ailələri bölgədən uzaqlaşdırıldı. Sayları təxminən əlliyə çatan hay ailələrinin bir qisminin əsilləri pers, orta asiyalı (Mamikonyan ailəsi kimi), yəhudi və ya süryani idi. Erməni (hay – E.C.) ailələrinin bir qismi sürgün edildikdən sonra bölgə əhalisinin də bir qismi zorla Frakiyaya köçürüldü. Köçürülənlərin yerinə başqa bölgələrdən insanlar gətirilib yerləşdirildi (143, s. 79). Hay-ermənilərin pers, orta asiyalı, yəhudi və süryani əsilli olmasına dair yuxarıdakı məlumat da hayların qarışıq, törəmə etnos olduğunu sübut edir.

Digər tərəfdən Sasani şahı II Yezdəgird (439-457) xristianlığa nifrət etdiyindən Ermənistana olan ardıcıl hücumları zamanı buradakı əhaliyə məzdəkiliyi qəbul etdirməyə çalışırdı. Onun bu siyasəti Şərqi Ermənistanda 450-ci ildə Vardan Mamikonyanın başçılığı ilə üsyana səbəb oldu. 451-ci ildə Avarayr döyüşündə Sasanilər üsyançıları məğlub etsələr də, V əsrin 80-ci illərində sasanilərə qarşı yeni mübarizə dalğası başlandı. Dədə Qorqud oğuznamələri V.Mamikonyanın mənsub olduğu nəslin «Çin Türküstanından gəlmiş türkmənlər olduğunu, adlarının da şahzadə Mamikdən (Mamikon) alındığını göstərirlər. Sülalənin şahzadə Mamikin digər qardaşı Kona bəy (Qara Qonaq) tərəfindən davam etdirilən o biri hissəsi XIV

əsrdə müsəlman olmuş və bunlara Qaraqoyunlu deyilmişdir» (62, s. 15). Belə məlum olur ki, Van gölünün cənub ərazilərində məskən salmış qaraqoyunlular güclü tayfa ittifaqına çevrilməmişdən əvvəl qərbdə yerləşən qonşu xristian dinli tayfaların təsiri altında xristianlığı qəbul ediblərmiş. Sonrakı mərhələdə, yəni XI əsrdə müsəlman səlcuqların bölgəyə axını və burada türk etnosunun qəti şəkildə həlledici siyasi-etnik amilə çevrilərək öz hakimiyyətlərini çox geniş əraziyə yaymaları Qaraqoyunlu tayfa ittifaqına daxil olan tayfaların islam dinini qəbul etmələri ilə nəticələnmişdi.

602-629-cu illərdə İranın Bizansla apardığı müharibə nəticəsində Sasani şahı II Qubadın 629-cu ildə Bizans imperatoru İrakli ilə bağladığı müqaviləyə görə, Ermənistan ərazisi bütövlükdə Bizansın tabeliyinə keçdi. Bundan sonra bizanslılar məzhəb fərqi üzündən hay-ermənilərlə düşmənçilik etməyə başladılar. VII əsrin ortalarında ətraf ərazilərin böyük hissəsini işğal edən ərəblər Bizansla mübarizədə bu amildən istifadə etmək məqsədi ilə hayların dinlərinə toxunmadılar. İstiladan sonrakı ilk dövrlərdə ərəb canişinləri tərəfindən idarə olunan Ermənistanda «ilk ərəb axınları sırasında 12 min ermənin öldürüldüyü, 35 min ermənin də əsir alındığı yazılmışdır» (143, s. 80). Bununla belə, ərəblər haylara o qədər isti münasibət göstərmişlər ki, xilafətin digər canişinliklərinə əsasən ərəb əsilli canişinlər təyin olunduğu halda, «xəlifə Mütamətbillah dövründə I Aşot Ermənistana kral təyin edilmişdi. Xəlifənin adından Ermənistanın valisi Əmir İsa 885-ci ildə Ani şəhərində onun başına tac qoymuşdu. Aşotdan sonra oğlu Smbat, daha sonra nəvəsi Aşot 1045-ci ilə qədər Ermənistanda müxtəlif böyük dövlətlərin tabeçiliyində olmuşlar» (62, s. 16). Burada «kral» ifadəsi düzgün səslənmir, çünki onun başına tac qoyan ərəblərin Ermənis-

tandakı canişini Əmir İsa olmuşdu. Bu o deməkdir ki, həmin «krallıq» Xilafətin əyalətlərindən biri olmuşdur. Haylarla ərəblərin isti münasibətlərinə gəldikdə isə bunun əsası hələ 705-ci ildə Albaniya dövlətinə son qoyulması zamanı yaranmışdı. Göründüyü kimi, hayların bir etnos kimi tarixi Ermənistanda siyasi hadisələrdə iştirakına dair real tarixi faktlar miladdan sonrakı əsrlərə aiddir.

Mənbələrin verdiyi məlumatların təhlilindən sonra belə bir ümumi fikrə gəlmək olur ki, miladdan sonrakı əsrlərdə Kiçik Asiyanın şərqində görünməyə başlayan haylar ən yaxşı halda ayrı-ayrı vaxtlarda müxtəlif imperiyaların idarəçiliyində olan Ermənistanı vassal asılılığı ilə idarə etmək üçün canişin təyin edilmişlər ki, bunu da müstəqil dövlətçilik ənənələrinin nəinki davamı, hətta yaranması kimi qiymətləndirmək belə yanlış mövqedir.

Ermənistan uğrunda İran-Bizans müharibələrinin ardınca başlayan ərəb-Bizans müharibələri təxminən 4 əsr, XI əsrin ortalarınadək davam etdi. VII əsrin ortalarından başlayaraq Kiçik Asiyaya və Qafqaza uğurlu hərbi səfərlər edən ərəblər gürcü dövləti olan Kartlini, Qafqaz Albaniyasını və Ermənistanı öz istilalarının ilk dövrlərində əl-Cəzirə adlanan canişinliyin tərkibinə daxil etmişdilər. Sonralar bu canişinlik gah Azərbaycan, gah da Ərməniyyə adlandırılırdı. XI əsrin ilk rübündən etibarən səlcuq türklərinin Orta Asiyadan Anadoluya yürüşləri bu bölgənin tarixində çox əhəmiyyətli bir mərhələnin başlanğıcını qoydu. Səlcuqlar qərbdə ilk hücum hədəfləri olan Bizansa qarşı 1015-ci ildə sultan Toğrul bəyin qardaşı Çağrı bəyin başçılığı ilə ilk kəşfiyyat yürüşünə çıxdılar. Bu yürüş zamanı onlar Bizans qoşunlarını məğlub edərək Van gölü hövzəsindəki əraziləri, eyni zamanda Naxçıvan və onun ətrafındakı Azərbaycan torpaqlarını nəzarət altına aldılar. Onların yürüşü ilə eyni vaxtda Bizans imperatoru II

Vasili (976-1025) Vaspurakan erməni bəyliyini (feodal hakimliyi – E.C.) öz torpaqlarına qatmış, 14 min kişini yanlarında olan qadın və uşaqları ilə birlikdə Sivas və ətrafına yerləşdirmişdi (143, s. 80).

Xatırladaq ki, Van gölünün cənub-qərbindəki və Urmiya gölünün şimal-qərbindəki torpaqlardan başlanıb indiki Naxçıvan MR-in cənub-qərb hissəsini əhatə edən əraziyə qədərki bölgədə yerləşən Vaspurakan (Basoropeda) vilayəti VII əsrin ikinci yarısından etibarən Basfuraccan (Busfaracan) adı ilə Ərəb xilafətinin tərkibinə daxil edilmişdi. IX əsr ərəb tarixçisi əl-Bəlazurinin və digər ərəb müəlliflərinin əsərlərində Nəşavə (Naxçıvan) Arran vilayətinə aid edilən Basfuraccanın əsas şəhəri adlandırılırdı. IX əsrdə Naxçıvan Azərbaycanın digər bölgələri ilə birlikdə Sacilər dövlətinin tərkibinə daxil edildi. Vaspurakan isə erməni feodal nəsli Artsrunilərin xanədanına çevrildi. XI əsrin birinci yarısında adı çəkilən xanədan Bizans imperiyasına qatıldı (84, s. 570). Bu iki mənbənin məlumatı eynidir, lakin XI əsrdə Bizansın tərkibinə qatılmış Vaspurakan (Basoropeda, Basfuraccan) vilayəti Azərbaycan torpaqlarından qərbdə yerləşən Şərqi Anadolu ərazisinin bir hissəsini əhatə edirdi.

Bizansla onun ərazisində yaşayan haylar arasında dini təriqət ayrılığı üzündən düşmənçilik münasibətlərinin olduğu barədə qeyd etmişik. Bu səbəbdən ermənilərin bir qismi V-VI əsrlərdə, xüsusən imperator Yustinianın dövründən başlayaraq Bizans hüdudlarını tərk edirdilər. «Bu ərazilərdə dağınıq, bəzən də kiçik krallıqlar, bəyliklər şəklində, əksərən böyük qonşu dövlətlərə tabe halında yaşayan ermənilərin bir qismi bu mücadilələrə dözməyərək Gürcüstana, Polşaya və Qalisiyaya, əksəriyyəti isə cənub-qərbə – Aralıq dənizi sahillərinə köçmüşdülər» (62, s. 16).

Elə hayların Cənubi Qafqaza, o cümlədən tarixi Azər-

baycan torpaqlarına ilk fitnəkar müdaxiləsi (söhbət hayların köçündən getmir) də məhz həmin dövrdə olmuşdur. 705-ci ildə erməni katolikosu İlya ərəb xəlifəsi Əbdül Malikə məktub yazaraq alban katolikosu Nerses Bakurun devrilməsinə nail olmuş, bu hadisə həm alban dövlətçiliyinin süqutu, həm də alban kilsəsinin erməni qriqorian kilsəsinə tabe edilməsi ilə nəticələnmişdi. Albaniyada yaşayan xristian dinli əhali arasında qriqorianlaşma və erməniləşmə prosesi bundan sonra başladı ki, bu da erməni əhalisinin sonrakı əsrlərdə bölgədəki həm say artımına öz təsirini göstərdi, həm də xristian albanlar hay-ermənilərin etnogenezi prosesinə daxil oldular. Heç də təsadüf saymaq olmaz ki, «Ermənistanın Sisian, Basarkeçər (Vardenis) və digər rayonlarının bəzi kənd yerlərinin əhalisi indi erməni olsa da, bu əhalinin adət və ənənələri, qonşuluqda yaşayan və ata-babaları müxtəlif səbəblər üzündən müsəlman olan azərbaycanlıların ädət və ənənələri eynidir. Bu rayonların əhalisi məhz onlardır ki, ata-babaları «erməni dini kilsəsinə qoşulmuş və ermənilərlə qarışmışlar» (152, s. 181).

Beləliklə, IV əsrdən XIII əsrədək Ermənistanda yaşayan etnosların Frakiyaya, Makedoniyaya, Balkan yarımadasına və digər yerlərə köçü baş verdi. VII əsrdə ərəblər tərəfindən Ermənistanın işğalı ilə genişlənən bu köç prosesi XI əsrdə səlcuqların Ermənistana hücumu və işğalından başlayaraq daha da gücləndi. Ermənilər Kilikiyaya və ətraf ərazilərə də köç etdilər. Ermənilərin 1080-ci ildə burada qurduqları Kilikiya erməni krallığı yarımmüstəqil dövlət kimi 1375-ci ilə qədər yaşadı. Əslində «şahlıqdan daha çox dərəbəyliyi xatırladan və çoxu xarici millətlərdən olan kralların idarəçiliyində» (62, s. 18) olan Kilikiya krallığı 1375-ci ildə Misir məmlükləri tərəfindən fəth edildi və tarixə qovuşdu. Ermənistanın özünə gəldikdə isə

1071-ci ildə səlcuqilər «Malazgird döyüşündə Bizansı ağır məğlubiyyətə uğradıb bu bölgəyə tamamilə hakim olduqları dövrdən əvvəl erməni krallıqları artıq Bizans tərəfindən darmadağın edilmişdi» (62, s. 16).

Böyük Sovet Ensiklopediyasının «Erməni koloniyaları» adlı məqaləsində erməni köçü barədə deyilənlər maraq doğurur: «V əsrin başlanğıcınadək erməni koloniyaları Yaxın Şərq ölkələrində təşəkkül tapmışdı. Ərəb işğalı (VII-IX əsrlər) və səlcuqilərin hökmranlığı (XI əsr) dövründə emiqrasiya daha kütləvi xarakter alaraq Avropanı, Qızıl Orda şəhərlərini, Krımı, Polşanı, Ukraynanı əhatə etdi. XI-XIV əsrlərdə Bizansda, Misirdə, Suriyada, Livanda ermənilərin sayı artdı, Qalisiya, Moldaviya, Macarıstan və digər rayonlarda böyük erməni koloniyaları yaradıldı. XIV əsr ərəfəsində ermənilərin Gürcüstana, Kiçik Asiyaya, Rusiya və Krıma köçü artır. XVII əsrin əvvəllərində ermənilər İranda Yeni Culfa şəhərində kök saldılar. Bu nəhəng erməni koloniyasının ticarət şirkətləri dünyanın bir çox ölkələri ilə əlaqələrə malik idi. XVIII əsrdə İrandan Hindistana, Çinə, Birmaya, Filippinə, Yava adasına çoxlu erməni köçdü. Rusiyada erməni koloniyaları Peterburqda, Moskvada, Həştərxanda, eləcə də Şimali Qafqazda mövcud idi. 1778-1779-cu illərdə ermənilər Don çayı hövzəsində bir neçə kənd və Naxçıvan şəhərini saldılar» (152, s. 182). Don çayının sağ sahilində salınmış həmin Naxçıvan şəhəri hazırda Rusiyanın Rostov şəhərinin bir hissəsinə çevrilmişdir. Ermənilər bu şəhərin guya XVIII əsrdə Azərbaycana məxsus Naxçıvan diyarından və şəhərindən köçmüş haylar tərəfindən salındığı barədə yalanları ilə saysız-hesabsız cəfəng ideyaları sırasına birini də artırmışlar. Həmin dövrdə Naxçıvanda ermənilər etnik qrup kimi yaşamırdılar və belə olan halda onların guya buradan köçdüyü barədə iddialar da tam əsassızdır. Qeyd

edək ki, həmin dövrdə Türkiyənin Qars vilayətindəki Naxçıvan adlanan kənddə yaşayan ermənilərin köçərək həmin Don çayı sahilindəki şəhərin əsasını qoyduqları barədə məlumatlar həqiqətə daha uyğundur. Çünki XVII-XVIII əsrlərdə ermənilərin Suriya və Kiçik Asiyada yaşadıqları ərazilərdən qrup şəklində müxtəlif ölkələrin ərazilərinə köç etdiklərinə dair məlumatlar vardır.

Yeri gəlmişkən, bu qədər geniş trayektoriya üzrə səpələnməyə görə hay-ermənilər yalnız qaraçı tayfaları ilə müqayisə oluna bilər ki, bəzi antropoloji əlamətlərə görə tədqiqatçılar bu iki etnos arasında oxşarlıqlar müəyyən etmişlər.

1071-ci ildə Bizansa qarşı Malazgird zəfərinin qazanılması ilə birlikdə həm Ermənistanda türk hökmranlığı, həm də türklərlə bu bölgədə yaşayan xalqların günümüzədək davam edən ortaq yaşayışları başladı. Ermənistan adı daşıyan bu coğrafi bölgə 1157-ci ilə qədər Böyük Səlcuq imperatorluğunun, 1194-cü ilədək İraq Səlcuq imperiyasının, daha sonra Xarəzmşahlar və Elxanilərin tabeliyində qaldı. Elxanilərdən sonra növbə ilə Cəlairilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər bölgəyə hakim oldular (143, s. 80). Böyük Səlcuq imperatorluğu bu bölgəni ələ keçirən zaman artıq miladdan sonra 11 əsr yaşanmışdı ki, bü müddətdə də Ermənistan adlanan ərazidə heç bir hay dövləti mövcud olmamışdı. Yuxarıda qeyd etdiyimiz dövlətlərin sonuncusu olan Səfəvilər isə 1514-cü ildə baş verən Çaldıran döyüşündə osmanlılara məğlub olduqdan sonra Ermənistan Osmanlı imperiyasının tərkibinə qatılmışdı. Tarixən Ermənistan (Arminiya) adlandırılmış, lakin törəmə hay-erməni etnosunun tarixi vətəni olmayan həmin coğrafi ərazi hazırda Türkiyə Respublikasının tərkib hissəsidir.

## 1.2. Ermənilərin Cənubi Qafqaza köçürülməsi çar Rusiyasının Azərbaycanda möşkəmlənmək siyasətidir

Tarixi hadisələrin ermənilər üçün heç də ürəkaçan olmayan, müxtəlif imperiyaların tərkibində keçən bir çox əsrlərin axarında ermənilərin müstəqillik arzularını, bölgədə öz dövlətlərini qurmaq niyyətlərini həyata keçirmək üçün göstərdikləri hər bir cəhd xristianlığın qəbulundan sonra erməni qriqorian kilsəsinin fəaliyyətinin nəticəsi kimi ortaya çıxmışdır. Bu zaman xəyali «Böyük Ermənistan imperiyası»nı «bərpa etmək» kimi özləri üçün cəlbedici, təhrikedici, lakin tarixi reallıqdan uzaq və heç vaxt həyata keçməyəcək bir ideya istiqamətində ermənilərin son əsrlərdə xüsusilə güclənən iyrənc mübarizəsinin təşkilatçılıq funksiyasını uzun müddət məhz erməni kilsəsi öz üzərinə götürmüşdür. Orta əsrlərdə ermənilərin Bizansla müqayisədə tabeçiliyini daha xoş qarşıladıqları türk imperiyalarının, xüsusən Osmanlı dövlətinin tərkibində tamamilə rahat bir həyat yaşadıqları bir vaxtda onlarda özlərinin dövlətini qurmaq meylinin yaranması XVI-XVII əsrlərdə formalaşan, XVIII əsrin əvvəllərində isə imperiyaya çevrilən mərkəzləşdirilmiş, həm də xristian Rusiya dövlətinin mövcudluğunu göstərməsi ilə birbaşa bağlı idi. Bu zaman I Pyotrun (1689-1725) çarlığı dövründə rus imperiyasının cənuba – Qafqaza və Osmanlı dövlətinin ərazilərinə marağının güclənməsi ermənilərin mənafeyinə uyğun gəlirdi. Ermənilər türk müsəlman xalqlarının əhatəsində yaşayan xristian dinli xalq kimi Rusiyanın bölgə dövlətləri ilə mübarizəsində özlərinin müttəfiqlik təkliflərinin türklərə nifrət edən I Pyotr üçün maraqlı olacağını yaxşı başa düşmüşdülər.

Beləliklə, nəzərdə tutulan məramın – erməni dövləti yaratmaq planının həyata keçirilməsi üçün lazımi siyasi

fəaliyyət formulu və hərbi güc tapılmış olurdu: bölgədə yaradılacaq erməni dövləti Rusiyanın müttəfiqi, Rusiya isə ermənilər üçün hərbi-siyasi istinad olacaqdı. Elə həmin dövrdən bu günədək ruslarla ermənilər bir-birindən məkrli, vəhşi məramlar üçün qarşılıqlı istifadə etməkdədirlər.

Elə bu səbəbdən də lazımi tarixi şəraitin yetişdiyini anlayan ermənilər qriqorian kilsəsinin rəhbərliyi ilə öz niyyətlərini həyata keçirmək üçün dərhal fəaliyyətə başladılar. Həmin dövrədək tarixən heç vaxt öz müstəqil dövlətlərinə malik olmamış ermənilərin siyasi cəhətdən təşkilatlanması üçün heç bir tarixi şəxsiyyət, siyasi lider və ya qüvvə, hətta milli ideologiya olmadığından, orta əsrlərin dini sxolastikasının güclü təsirinin qaldığı bir zamanda məhz kilsə ermənilər üçün həm öndə gedəcək siyasi qüvvə və dini-ideoloji mərkəz rolunu öz üzərinə götürdü. Bu bir tərəfdən də xristian dövlətlərin himayəsini qazanmaq üçün əlverişli. Erməni qriqorian kilsəsi sonrakı dövrdə öz qurumlarının (kilsələrin) olduğu ərazilərdə həm də terrorçu təşkilat və silah cəbbəxanası funksiyasını həyata keçirdi. Bu, hətta XIX əsrin sonunda ilk erməni siyasi təşkilatları yaranandan sonra da davam etdi.

XIX əsrdə, ilk əvvəllər Osmanlı Türkiyəsinin Van gölü ətrafı vilayətlərinə iddialı olan ermənilər bu dövlətin hələ də öz qüdrətini saxladığını nəzərə alaraq XX əsrin əvvəllərində Cənubi Qafqaza – Azərbaycan torpaqlarına meyl etməyə başladılar. Bununla belə, onlar osmanlı torpaqlarına olan iddialarını da heç vaxt unutmadılar. Ermənilərin Cənubi Qafqaza köçü rusların bu gün məlum olan məqsəd və fəaliyyətlərinin nəticəsi idi. Bu məqsəddən doğan siyasətin mahiyyətinin təsiri idi ki, ermənilər bölgədə baş verən müharibələrdə daim xəyanət mövqeyində dayanmışlar.

Rusiya ilə lazımi münasibətlərin qurulmasında bu

dövlətlə ticarət əlaqələri olan iranlı erməni tacirləri əhəmiyyətli rol oynadılar. Bolqarıstana, Almaniyaya, İtaliyaya, Norveçə və digər Avropa ölkələrinə dövlət qurmaq arzularına yardım almaq məqsədi ilə səfər edən erməni ideoloq-tacirlərinin səfərləri uğursuzluqla nəticələndikdən sonra bütün ümidlər Rusiyaya yönəlmişdi. Rusiyada İran ipəyinin ticarəti ilə məşğul olan isfahanlı tacir Xoca Zakar Sarhadov (Sarhadyan) hələ 1660-cı il avqustun 28-də çar Aleksey Mixayloviçlə görüşdə qiymətli hədiyyələrlə ona təsir göstərə bilmişdi. Moskva Kremlinin Silahlar otağında indiyədək saxlanılan həmin hədiyyələrdən biri də «Almaz taxt»dır. Qızıl, gümüş və fil sümüyündən Şərq üslubunda düzəldilən bu taxtın 22599 manat (o dövr üçün bu, çox böyük məbləğ idi) olmaqla 987 almaz, 1298 yaqut, 18 mindən çox firuzə ilə bəzədilmişdi. Hədiyyələr arasında intibah dövrünün böyük rəssamı Leonardo da Vinçinin «Sirli gecə» tablosunun surəti də vardı. 1669-cu il dekabrın 3-də İsfahan ermənilərindən Stepan Mişseqov və Boqdan Salbanov rus çarına növbəti dəfə qiymətli hədiyyələr təqdim etmişdilər. 1673-cü ildə İsfahandan olan erməni tacir Stepan Ramadamski Rusiya hökmdarına 9062 manat dəyərində qiymətli bəxşiş vermişdi.

Beləliklə, rus müstəbidlərinin tamah dişini yoxlayan ermənilər öz məqsədlərini reallaşdırmaq üçün effiektli üsula – rüşvətə əl atmışdılar. Burada bir şeyi xüsusi qeyd etməyə ehtiyac vardır ki, rus tarixçisi M.Solovyovun əsərlərində erməni tacirlərinin rus hakim dairələri ilə əlaqələri barədə verdiyi məlumatlar arasında İsrael Orinin xidmətləri daha bariz nəzərə çarpır. 20 il İtaliya, Fransa və Almaniyada yaşayıb ermənilərin ümumi mənafeyi naminə geniş iş aparan bu şəxs real nəticə əldə edə bilmədikdən sonra fəaliyyət hədəfi olaraq Rusiyanı seçdi. 1677-ci ildə katolikos Akopun başçılığı altında Eçmiədzində

yığıncaq keçirildi. Orada Qərbi Avropa ölkələrinə göndərilmək üçün nümayəndə heyəti təşkil edildi. Nümayəndə heyəti İstanbulda olarkən Akop öldü və nümayəndələr geri qayıtdılar. Yalnız İ.Ori «ümumi işi» davam etdirərək 1701-ci ilin oktyabrında arximandrit Minas Vardapetlə birlikdə I Pyotrla görüşüb ona və arvadına qiymətli hədiyyələr verdilər. Çara Cənubi Qafqaz bölgəsi haqqında özlərinə sərfəli lazımi məlumatları verən erməni diplomatı onda bu bölgəyə qarşı maraq oyada bilmişdi. I Pyotr əməli fəaliyyətə keçərək İ.Oriyə polkovnik rütbəsi verir və onu 50 nəfərlik nümayəndə heyətinin rəhbəri kimi İrana göndərir. 1709-cu ildə burada özünü Səfəvi şahı Hüseynə Roma papasının nümayəndəsi kimi təqdim edən İ.Orinin iki il sonra ölümü ilə onun missiyası yarımçıq qaldı. Onu da qeyd edək ki, İ.Orinin Azərbaycan torpaqlarının işğalına dair hazırladığı layihənin 11-ci bəndi bilavasitə Naxçıvanla bağlı idi.

XVIII əsrin əvvəlləri Azərbaycanda Səfəvilər xanədanının zəifləməsi, tənəzzülü və süqutu, əvəzində isə Nadir şahın nüfuzunun artması və onun imperiyasının yaradılması dövrü kimi xarakterizə olunur. Lakin ömrü qısa olan Nadir şah imperiyasının dağılmasından sonra Azərbaycanda vahid mərkəzləşdirilmiş dövlət yox, ayrı-ayrı nüfuzlu feodal nəsillərinin yaratdığı dövlət qurumları – xanlıqlar təşəkkül tapır. Bu dövlətlərdən birinin – Qarabağ xanlığının tarixi mövzumuzun tədqiqi baxımından maraq doğurur. Bu xanlığın öz ərazisindən başqa xanlara vassal asılılığı ilə tabe olan məliklik formasında beş (Xaçın, Vərəndə, Çiləbörd, Talış (Gülüstan) və Dizaq) feodal hakimliyi də mövcud idi. Bunlardan yalnız Xaçın məlikliyinin əhalisi əsasən müsəlmanlardan ibarət idi. Digər məlikliklərin yerli əhalisi isə xristian albanların nəsillərindən ibarət olmuşdur. Məlikliklərin əhalisinin və məlik-

lərin, xüsusən sovet dövrü elmi ədəbiyyatında çox vaxt «erməni» adlandırılmasına gəlincə, bu, albanların həmin dövrdə hələ də xristianlığa sitayiş etmələri ilə bağlı olmuşdur. Məlumdur ki, Vərəndə məliyi Şahnəzər istisna olmaqla digər dörd məliklik Qarabağ xanlarına qarşı daim mübarizə aparmışdılar. Hətta İ.Ori burada xristian təəssübkeşliyi amilindən bacarıqla istifadə edərək məlikliklərin əhalisinin ermənilərdən ibarət olduğuna Rusiya rəsmi dairələrini inandıra bilmişdi.

Rusiya hökmdarları I Pyotrdan başlayaraq ermənilərin bölgəmizə köçürülməsi siyasətini yürütməyə və onların qüvvəsindən istifadə edərək yerli əhalinin – Azərbaycan türklərinin Cənubi Qafqazdan sıxışdırılıb çıxarılmasına çalışırdılar. Çünki aparılan bütün təbliğat işlərinə, rus çarlarının Azərbaycan xanlıqlarına ünvanladığı müraciət və manifestlərə baxmayaraq yerli əhali rusların Azərbaycana gəlişini heç də isti qarşılamırdılar.

I Pyotrun 1722-1723-cü illərdəki yürüşləri nəticəsində İranla bağladığı 1723-cü il 12 sentyabr tarixli Peterburq müqaviləsinə görə Xəzəryanı vilayətlər Rusiyaya tabe edildi. I Pyotrun işğal olunmuş ərazilərə ermənilərin köçürülməsi haqqında verdiyi xüsusi fərmanda deyilirdi ki, rus dövləti xristianlıq naminə «qardaş erməni xalqını» himayəyə götürür. 1725-ci ilin yanvarında I Pyotrun ölümü ilə Rusiyada başlanan saray çəkişmələri dövrü ermənilərin planlarını müəyyən müddətə təxirə salmış oldu. Lakin onun yerinə keçən arvadı I Yekaterina, özü rus zadəganlarının əlində oyuncaq olsa da, erməniləri unutmamış, onlara mərhəmət edilməsi və himayə olunması haqqında 1726-cı il fevralın 22-də fərman vermişdi.

XVIII əsrin II yarısında xarici ölkələrdə yaşayan varlı ermənilərin «ümumi işə» qoşulması ilə ermənilər yenidən fəallaşdılar. 1760-cı ildə Hindistanda yaşayan erməni İosif

Emin Rusiya hakim dairələri ilə əlaqə yaradaraq bildirdi ki, əgər Rusiya Türkiyə və İrana qarşı müharibəyə başlasa, ermənilərin köməyinə bel bağlaya bilər. Həştərxanlı erməni Movses Safarov rus çarıçasına müraciət edərək «Ermənistan torpaqları»nı azad etməyi və Rusiyanın tərkibində onu dirçəltməyi xahiş edirdi. 1780-ci ildə erməni keşişi İosif Arqutinski (Hovsep Arqutyan) və Moskva varlısı Ovanes Lazaryan Türkiyə və İran dövlətlərinin ərazilərinin kəsişdiyi sərhəddə erməni dövləti yaratmaq haqqında Rusiya hökumətinin nümayəndələri ilə sövdələşmə apardılar. Həm İ.Emin, həm də İ.Arqutinski öz sələfləri İ.Ori kimi Azərbaycan torpaqlarının Rusiyanın köməyilə qəsb olunmasına dair xüsusi layihələr hazırlamışdılar. İ.Arqutinskinin layihəsinin 7-ci maddəsi Naxçıvan torpaqlarının ermənilərin idarəçiliyinə verilməsini nəzərdə tuturdu. Bir çox hallarda öz strateji mövqeyinə görə Naxçıvanın işğalı planı ətraf ərazilərin istilası üçün bir vəsilə rolunu oynayırdı.

1783-cü il mayın 19-da Q.A.Potyomkin II Yekaterinaya yazdığı məktubda erməni dövləti qurmaq üçün fikirlərini belə ifadə etmişdi: «...Fürsət tapan kimi Qarabağı dərhal ermənilərin nəzarətinə vermək və beləcə Asiyada bir xristian dövləti qurmaq üçün lazım olanı edəcəyik» (116, s. 126). Bu o demək idi ki, ermənilər öz məkrli planlarına Rusiyanın hakim dairələrində lazımi reaksiyanı yaratmağa müvəffəq olmuşdular. Çünki II Yekaterina 1768-ci ildə Rusiya imperiyasının erməniləri himayəyə götürməsi barədə fərman vermiş, I Aleksandr isə 1802-ci ildə Cənubi Qafqaza yürüş edən rus ordu hissələrinin komandanı A.Sisianova Azərbaycan torpaqlarının ələ keçirilməsində ermənilərdən istifadə etməyi tapşırmışdı.

Rusiyanı Cənubi Qafqaza hücuma razı salmaq üçün bütün vasitələrə baş vuran ermənilər eyni zamanda

buradakı yerli əhali arasında Rusiyaya loyal münasibət yaratmaq üçün geniş təbliğat aparırdılar. XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycan uğrunda Rusiya, İran və Türkiyə arasında gedən mübarizənin kəskinləşdiyi bir vaxtda bəzi Azərbaycan xanlarının Rusiyaya meyl etməsinə erməni təbliğatının təsiri də yox deyildi. Lakin rus qoşunlarının tərkibində Azərbaycana gələn erməni Artemi Araratskinin yazdığı «azərbaycanlıların çoxu ruslarla birlikdə öz həmdinlərinin əleyhinə vuruşmağa hazır idi» (19, s. 8-9) sözləri daha çox rusların işğalçı yürüşlərinə haqq qazandırmaq cəhdi idi. Çünki XIX əsrin əvvəllərində Azərbaycan xanlarının çoxunun Rusiyaya qarşı kəskin mübarizə apardığı məlumdur. Rusiyaya meyl isə daha çox xristian dininə itaət edən əhalinin yaşadığı ərazilərdə müşahidə olunmuşdur.

1796-cı ildə V.Zubovun Azərbaycana yürüş edən qoşunlarının tərkibində olan erməni arxiyepiskopu İ.Arqutinski Cənubi Qafqaz xristianlarına, xüsusilə Qarabağ məliklərinə məktub göndərib, belə bir şayiə buraxmışdı ki, guya V.Zubovun gəlişinin əsl məqsədi xristianları müsəlmanların zülmündən azad etmək və burada möhtəşəm xristian dövləti yaratmaqdan ibarətdir. Lakin bu xəbər Azərbaycan xanlıqlarına gəlib çatdıqda onların çoxunu təşvişə salmışdı (19, s. 91-92).

1779-cu il sentyabrın 1-də çariça II Yekaterina xüsusi fərmanla 2 minə yaxın İran ermənisini Rusiya təbəəliyinə qəbul etmişdi. Rusiyada xüsusən II Yekaterinanın (1762-1796) dövründə güclənən erməni təbliğatı XVIII əsrin sonunda onun ölümü ilə yenidən yarımçıq qaldı. Lakin XIX əsrin əvvəllərində Türkiyə və İranla Rusiya arasında çoxdan bəri baş verməsinə canfəşanlıq etdikləri müharibələrin başlaması ilə ermənilərin arzuladıqları tarixi şərait yetişdi. 1804-1813-cü illər və 1826-1828-ci illər Rusiya-

İran, 1806-1812-ci illər və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrində ermənilər rusların qələbə çalması üçün onlara bacardıqları qədər kömək etdilər.

Cənubi Qafqaza, o cümlədən Azərbaycana dair Rusiyanın imperialist siyasətinin başlanması I Pyotrun adı ilə bağlı olsa da, ermənilərin özlərinin də qeyd etdiyi kimi, onlar üçün ən böyük işləri I Pyotrun məlum vəsiyyətnaməsinə əməl edən II Nikolay gördü. Onun dövründə Rusiya bu bölgədə maraqlarının toqquşduğu iki dövləti Türkiyə və İranı neytrallaşdıra bildi. Rusiyanın İranla bağladığı 12 oktyabr 1813-cü il tarixli Gülüstan müqaviləsi ilə İrəvan və Naxçıvan xanlıqları, eləcə də Ordubad mahalı istisna olmaqla Araz çayından şimaldakı Azərbaycan torpaqları Rusiyaya ilhaq edildi. Eyni dövlətlər arasında 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqaviləsi Şimali Azərbaycanın tamamilə Rusiya müstəmləkəçiliyinə, Cənubi Azərbaycanın isə İran əsarətinə tabe edilməsini təsdiqlədi.

Ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi də məhz 1826-1828-ci illər II Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində və həmin müharibələrin nəticəsi olaraq baş verdi. Təsadüfi deyil ki, Türkmənçay müqaviləsinin 15-ci maddəsi diplomatik dillə üstüörtülü şəkildə məhz ermənilərin Cənubi Qafqaza köçürülməsini nəzərdə tuturdu. 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsinin nəticəsi olaraq bağlanmış Ədirnə müqaviləsinin 13-cü maddəsinə görə dövlətlər öz tabeliyində olub müharibə zamanı qarşı tərəfi müdafiə edən təbəələrini bağışlayırdılar. İstədikləri yerə getmək üçün belələrinə 18 ay vaxt da verilirdi. Osmanlı dövləti o vaxtadək ermənilərə xoş münasibət bəslədiyindən ruslar hiylə işlətməyi planlaşdırırdılar. Çünki onlar məhz ermənilərin sayəsində bir sıra uzunmüddətli iqtisadi, siyasi və hərbi

mənafelərini təmin etməyi düşünürdülər (121, I c., s. 557-558). Eyni zamanda belə bir ciddi ehtimal da vardır ki, Türkmənçay müqaviləsinin köçürülməni nəzərdə tutan 15-ci maddəsindən doğan ayrıca xüsusi bir razılaşma da mövcud olmuşdur (16, s. 286).

Ermənilərin bölgəmizdə Rusiyanın müstəmləkəçi mAraqlarının təmin edilməsi üçün ırılması ideyasının müəllifi və əsas təşkilatçılarından olan rus diplomatı A.S.Qriboyedov yazırdı: «Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və (sonuncuların) düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz... dəfələrlə götür-qoy etmişik» (bax: 16, s. 299). Yerli türk-müsəlman əhalinin kəskin müqavimət göstərəcəyi qorxusu ruslara Azərbaycan torpaqları hesabına birbaşa müstəqil erməni dövləti yaratmaqda mane olmuşdu. Əvəzində isə I Nikolayın Türkmənçay müqaviləsindən cəmi bir ay sonra, 1828-ci il martın 21-də verdiyi fərmanda deyilirdi: «İranla bağlanan müqaviləyə əsasən, İrandan ayrılaraq Rusiyaya ilhaq edilən İrəvan və Naxçıvan xanlıqları bundan sonra Rusiyanın bütövlüyü daxilində erməni vilayəti kimi tanınır» (147, s. 32). Bununla da Rusiya erməniləri tarixi Azərbaycan torpaqlarında məskunlaşdıraraq onların əsassız iddialarının gerçəkləşdirilməsi üçün real zəmin yaratdı.

Köçürmələrədək Cənubi Qafqazda əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Ermənilərin isə bu torpaqlara «ilk dəfə buraxıldıqları»nı (A.Qriboyedov) o dövrə aid bütün qaynaqlar yekdilliklə təsdiqləyir. Ona görə də erməni tarixçisi V.A.Parsamyanın guya «Rusiyaya birləşdirilənədək Şərqi Ermənistanın (Qərbi Azərbaycanın – E.C.) 169155 nəfər əhalisinin 57305-i, yəni 33,8 faizi

ermәni, 84089-u, yәni 49,7 faizi müsәlman-azәri, 26911-i, yәni 16 faizi kürd vә 850-i, yәni 0,5 faizi digәr millәtlәr idi» (bax: 147, s. 32) fikri, azәrbaycanlıların daha çox olduğunu bildirmәsinә baxmayaraq, reallığı әks elәtdirmir. Çünki ermәni tarixçilәrindәn başqa, demәk olar ki, heç bir mәnbә hәmin dövrdә bölgәmizdә bu qәdәr ermәninin yaşamasını tәsdiqlәmir. Әksinә, bütün mәnbәlәr ermәnilәrin Cәnubi Qafqazda mütlәq azlığı barәdә faktlarla zәngindir.

Amerika alimi C.Makkarti «Genosid olmuşdurmu?» kitabında yazır ki, İrәvan quberniyasında 1828-ci ilәdәk әhalinin 80 faizi azәrbaycanlı müsәlmanlar olmuşdur. 1826-1828-ci illәr Rusiya-İran müharibәsi zamanı rus ordusunun zәbt etdiyi İrәvan xanlığının yalnız bir hissәsindә mövcud olan 737 yaşayış mәntәqәsindәn cәmi 38-dә ermәnilәr yaşamış, 25 qarışıq kәnd, qalanı isә sırf azәrbaycanlı kәndi olmuşdur. Müharibәdә 420 kәnd tamamilә dağıdılmış, әhalisi isә İrana köçmәyә mәcbur edilmişdir. 1828-1872-ci illәrdә azәrbaycanlılar yaşayan 161 kәndi ermәnilәr zәbt etmişlәr. 1873-cü ilәdәk tәbii artım vә kәnardan gәtirilәnlәr hesabına 148 yeni ermәni kәndi salınmışdı. 1831-ci ildә bu әrazidә azәrbaycanlılar yaşayan kәndlәrin sayı 208 vahid azalmışdır (32, s. 74-75). Azәrbaycanlılar yaşayan kәndlәrin sayındakı azalmamn Rusiya-İran müharibәsinin gedişindә mәqsәdli şәkildә boşaldılan vә onların yerinә İrandan ermәnilәrin köçürülmәsi hesabına baş verdiyi şübhәsizdir.

1828-ci ildәki köçürmәlәrdәn әvvәl tәkcә Naxçıvanda әhalinin 29440 nәfәri vә ya 92 faizi azәrbaycanlılar (172, s. 83) idi. İrәvan xanlığı, Naxçıvan xanlığı vә Ordubad mahalının әrazisini әhatә edәn «Ermәni vilayәti»ndә azәrbaycanlıların (qaynağa görә, «müsәlman türklәrin») xüsusi çәkisi 1828-ci ildә 73,8 faiz idisә, 1834-1835-ci

illərdə 46,2 faizə enmişdi. Naxçıvan əyalətində isə müqavilədən qabaq 2791 azərbaycanlı ailəsi və 434 erməni ailəsi var idisə, sonrakı köçürülənlər hesabına erməni ailələrinin sayı artıb 2719-a (burada Ordubada köçürülən 266 erməni ailəsi nəzərə alınmayıb – E.C.) çatmışdı. 1832-ci il kameral sayımına görə Qarabağ əyalətində 32,4 min (64,8 faiz) azərbaycanlı və 17,4 min (34,8 faiz) erməni qeydə alınmışdı (göründüyü kimi, erməni əhalisi 1823-cü ildəki 8,4 faizə nisbətən qısa vaxtda dörd dəfədən çox artmışdı) (16, s. 299).

1828-ci ildən genişlənən köçürülmə işinə rəhbərlik erməni əsilli rus polkovniki Lazarevə tapşırılmışdı. Lazarev İran vəliəhdi Abbas Mirzəyə yazdığı məktubda Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən, ermənilərin (mətndə «xristianların») köçürülməsinin qraf Paskeviç tərəfindən ona tapşırıldığını yazırdı (159, s. 70). XIX əsrin əvvəlində baş verən müharibələrin müasiri olmuş S.N.Qlinkanın məlumatları ermənilərin köçürülməsinin həm geniş miqyaslı, həm də əvvəlcədən planlaşdırılmış və məqsədli olduğu haqqında fikirləri gücləndirir. Hətta belə qənaətə gəlmək mümkündür ki, köçürmələr bir sıra hallarda heç də könüllü xarakter daşımamışdır. Bu fikri həmin mənbədə öz əksini tapmış iranlı Abbas Mirzə ilə Lazarevin məktublaşmalarını izləməklə də təsdiqləmək mümkündür.

Hələ müharibənin gedişində İrandan Azərbaycan torpaqlarına 18 min erməni ailəsi köçürülmüşdü (57, s. 57). Köçkün ermənilər daha çox xəzinə (dövlət) torpaqlarında yerləşdirilirdi ki, sonradan yerli əhali tərəfindən hər hansı təzyiqə məruz qalmasınlar. Lazarev məhz «Naxçıvan xanlığında xəzinə torpaqlarının azlığı üzündən erməni köçkünlərini yol xərcləri üçün pulla təmin edərək onları İrəvan və Qarabağ xanlıqlarına köçməyə razı salmışdı».

Köçürmənin demoqrafik vəziyyətə təsiri məsələsi və onun siyasi cəhətləri barədə N.N.Şavrovun fikirləri maraq doğurur: «Biz müstəmləkəçilik fəaliyyətinə Cənubi Qafqazda rus əhalisinin deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq. 1828-ci ildən 1830-cu ilə kimi biz Cənubi Qafqaza İrandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və onları erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında yerləşdirmişik. Yerləşmək üçün onlara 200 min desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdı. Yelizavetpol quberniyasının dağlıq hissəsi (yəni Qarabağın dağlıq əraziləri) və Göyçə gölünün sahili həmin ermənilər tərəfindən məskunlaşdırıldı... Qeyri-rəsmi köçənlərlə birlikdə köçüb gələnlərin ümumi sayı 200 mini ötüb keçdi» (175, s. 82-83).

Ermənilərin İrəvan, xüsusən Qarabağ xanlığına məxsus olmuş ərazilərdə yerləşdirilməsinin əsas səbəblərindən biri də, görünür, hələ də xristian dininə ibadət edən, xalqımızın etnogenezində iştirak etmiş qədim alban nəsillərinin yüz illərdən bəri bu ərazilərdə yaşaması idi. Xristianların daha çox olduğu ərazilər hesabına Rusiya bufer zona yaratmaq planını reallaşdırmaq istəyirdi. Lazarevin Urmiya şəhərindən köçürülənlərə 1828-ci il martın 30-da etdiyi müraciət də fikrimizi təsdiqləyir: «...Rusiya monarxı köçmək istəyənlərə öz dövlətində etibarlı, sakit və xoşbəxt sığınacaq verir. İrəvan, Naxçıvan və Qarabağ – harada özünüz istəsəniz, siz yalnız onda bir hissəsi xəzinənin xeyrinə becərilən qismən əkilmiş daha məhsuldar torpaqlar alacaqsınız... Orada siz xristianlarla məskunlaşmış yeni vətən tapacaqsınız və daha müqəddəs inancınıza qarşı zülm görməyəcəksiniz... Tələsin! Vaxt

qiymətlidir. Tezliklə rus ordusu İran sərhədlərini tərk edəcək, onda sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsizliyiniz üçün cavab vermək imkanında olmayaağıq. Az şeyi və az vaxtı qurban verməklə, hər şeyi və həmişəlik alacaqsınız» (159, s. 107-111).

Bu çağırış-müraciət deməyə əsas verir ki, Türkiyə kimi, İranda da ermənilərin bir qismi rus məmurları tərəfindən aldadılaraq köçmüşlər. Lakin Lazarev qeyd edirdi ki, o, ermənilərin köçməyə məcbur edilmədiyini göstərmək üçün İranın yüksək rütbəli dövlət məmuru Əsgər xanın oğlu ilə Xoy qalasının 1 ağaclığında (7 verstliyində) Urmiyadan köçən 400 ailəlik qafiləyə yaxınlaşaraq bu barədə soruşduqda həmin ermənilər könüllü köçdüklərini belə ifadə etmişdilər: «Biz Rusiyada ot yeməyi İranın çörəyindən üstün tuturuq». Burada belə bir sual qarşıya çıxır: köçürülənlərin hamısı könüllü olaraq köçürülürdüsə, onda Lazarevin belə şirnikləndirici müraciətinə nə ehtiyac vardı? Hər halda Lazarevin istər təhrikedici çağırışları, istərsə də əməli fəaliyyəti öz nəticəsini verməkdəydi. Cəmi üç ay yarım ərzində 8 mindən çox erməni ailəsi Araz çayını keçərək torpaqlarımızda məskunlaşmışdı. S.Qlinka yeni yaradılmış İrəvan vilayətində yerləşdirilənlərin sayının 10 min nəfər olduğunu göstərir. 1828-ci ilin aprel ayında Araz çayı sahilində toplaşan 5 min erməni ailəsinin də Qarabağda məskunaşdırılması nəzərdə tutulurdu. Bütövlükdə qısa müddət ərzində, 1828-ci il fevralın 26-dan iyunun 11-dək İrandan köçürülən erməni ailələrinin sayı 8249 idi (159, s. 131). Bunlardan 6949 ailə İrəvan və Naxçıvanda, 1300 ailə isə Qarabağ və Zəngəzurda yerləşdirilmişdi.

1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra İrandan 23098 nəfər, Türkiyədən 20324 nəfər, cəmi 43422 nəfər erməni köçürülərək (97, s. 22) keçmiş İrəvan

və Naxçıvan xanlıqlarının ərazisində məskunlaşdırılmışdı. Sonradan İran və Türkiyədən yenə 130 mindən çox erməni həmin ərazilərə köçürülmüşdü. Beləliklə, İrəvan xanlığı ərazisində yaşayan azərbaycanlıların xüsusi çəkisi 77,9 faizdən 46,7 faizə enmişdi. S.Qlinkanın məlumatına görə, zəbt edilmiş bölgələrə əhalinin gözlənilməyən axını buğda qıtlığının ortaya çıxmasına səbəb olduğundan, Lazarev köçürülənləri Naxçıvan və İrəvan xanlıqları əvəzinə zəngin taxıl sahələrinə görə daha əlverişli yer olan Qarabağda yerləşdirilməsi üçün əmr almışdı. Buna görə də 1829-cu il Ədirnə müqaviləsindən sonra Rusiyanın təşəbbüsü, Lazarevin, Mədətovun və digər erməni əsilli rus məmurlarının aktiv fəaliyyətləri nəticəsində ermənilərin İrandan və Türkiyədən Qarabağ ərazisinə kütləvi şəkildə köçürülməsi təşkil olunmuşdu.

Rusların erməniləri Türkiyə və İran ərazilərindən köçürməsi, onları bu dövlətlərin hökumətlərinə qarşı «müdafiə etməsi», osmanlı türklərinə qarşı təhrik etməsi heç də yalnız xristian təəssübkeşliyindən qaynaqlanmırdı. Hətta Qafqaz erməniləri ilə bağlı problem yarananda Türkiyə ermənilərinə daha çox təzyiq göstərməyi osmanlılara təbliğ edən ilk ölkə də Rusiya olurdu. Yalnız 1828-ci ilin iyulunda Qarsın işğalına səbəb olan ermənilər bu hadisədən sonra rusların rəğbətini qazanaraq öz iddialarını onlara mənimsədə bilmişdilər (121, I c., s. 556). Lakin yenə də rusların tam olaraq yalnız ermənilərin maraqlarını güddüyünü söyləmək olmaz. Buna ən böyük dəlil isə çarizmin, xüsusən XIX əsrin ikinci yarısında rəsmi olaraq yürütdüyü, xarici işlər naziri Lobanov-Rostovskinin ifadə etdiyi kimi «Rusiya hüdudları daxilində ermənilərsiz Ermənistan» qurmaq siyasəti idi.

Köçürmələr zamanı çarizm öz iqtisadi maraqlarını irəli çəkməyi də unutmurdu. İrandakı rus səfiri A.Qribo-

yedov ermənilərin köçürülməsinin iqtisadi faydasını xüsusilə qeyd edir və əsas məşğuliyyətləri ticarət olan Gürcüstan ermənilərinin yerinə sənətkar və təsərrüfatçı olan İran ermənilərinin Rusiya ərazisinə köçürülməsinin daha əhəmiyyətli olduğunu söyləyirdi. Eyni zamanda o, general İ.Paskeviçə göndərdiyi məktubda Lazarevin xüsusi erməni birliklərinin qurulması və Qarabağda xüsusi idarəetmə mexanizminin təsis olunması istiqamətindəki fikirlərinin sıxıntılı olduğunu yazırdı (131, s. 373). Belə məlum olur ki, ermənilərə özünüidarəetmə imkanı verilməsi və onların təşkilatlanması çarizmin maraqlarına o qədər də uyğun gəlmirdi. Şübhəsiz ki, bu, A.Qriboyedovun rus məmuru kimi düşüncə tərzinin ifadəsi olmaqla bərabər Rusiyanın köçürmələri daha çox öz maraqlarının təmin edilməsi üçün həyata keçirməsi fikrinin sübutu da hesab oluna bilər. Paskeviç də öz növbəsində qraf Dibiçə ünvanladığı 3 mart 1828-ci il tarixli raportunda məsləhət görürdü ki, «hər cür imkan yaratmaq lazımdır ki, boşaldılmış və müsəlmanlara məxsus olan torpaqlarda xristianlar, rus imperiyasına sadiq olan ermənilər məskunlaşsınlar». İrəvan vilayətinin gəlirlər və xəzinə mülkiyyəti idarəsinin rəhbəri işləmiş İ.Şopen isə qeyd edirdi ki, «bizim hökumətimiz gəlmə ermənilərin yerləşdirilməsi ilə sistemli şəkildə məşğul olur». Başqa sözlə desək, çarizm ermənilərin harada və necə məskunlaşdırılması işinə diqqətlə yanaşır və bunun öz məqsədinə müvafiq şəkildə həyata keçirilməsinə ciddi nəzarət edirdi.

1836-cı ildə Sankt-Peterburqda D.Zubarev tərəfindən hazırlanıb nəşr edilmiş «Rusiyanın Cənubi Qafqazdakı mülklərinin icmalı»nda göstərilir ki, Ordubad dairəsində kişi cinsindən 2157 nəfər azərbaycanlı, 787 nəfər yerli erməni, 216 nəfər isə İrandan köçürülmüş erməni olmuşdur. Burada verilmiş cədvəldə Ordubad şəhərində 804 ev, 1768

nəfər əhali, o cümlədən 1684 nəfər azərbaycanlı, 84 erməni olduğu qeyd edilmişdir. Azərbaycana köçürülən 45 min nəfər erməni əhalisinin 1340 nəfəri (266 ailə) Ordubadda, Aşağı və Yuxarı Azada, Derdə, Ələhidə, Bistdə və başqa kəndlərdə yerləşdirilir. Bunlar əsasən İranın Müjənbər, Duxarxana və Təbriz şəhərlərindən köçürülənlər idi (bax: 115, s. 23-24).

Rusiyaya birləşdirildikdən sonra Naxçıvan xanlığı ərazisində Rusiya Dövlət Senatının 21 mart 1828-ci il tarixli qərarı ilə mahal adlanan idarə sistemi saxlanılmışdı. İ.Şopen Naxçıvan mahalının beş əyalətdən ibarət olduğunu göstərir: Əlincəçay, Naxçıvan, Məvazixatun, Xok və Dərələyəz. Ordubad mahalı da eyni sayda əyalətdən təşkil olunmuşdu: Ordubad, Əylis, Dəstə, Biləv və Çənnəb (176, s. 599-634). 1828-ci ilədək əhalisinin 92 faizi azərbaycanlılar olan Naxçıvan əyalətinə təkcə həmin ildə 2551 erməni ailəsi (12755 nəfər) köçürülmüşdü. V.Qriqoryevin məlumatına (172, s. 83-84) görə, bunlardan 416 ailə (2080 nəfər) Naxçıvan şəhərində, 1869 ailə (9345 nəfər) Naxçıvan əyalətində, 266 ailə (1330 nəfər) Ordubad dairəsində məskunlaşdırılmışdı. Naxçıvan əyalətinə köçürülmüş 1869 erməni ailəsinin 1127-i bu əyalətin tabeliyində olan kəndlərdə, 362-i Əlincəçay kəndlərində, 369-u isə Dərələyəz kəndlərində yerləşdirilmişdi. Köçürmələrədək Dərələyəz kəndlərində yaşayan ailələrin ümumi sayı 1000-ə yaxın idi ki, bunların da hamısı azərbaycanlı ailələri olmuşdur.

Dərələyəz mahalı rus işğalından sonra iki hissəyə ayrılmışdı: qərbi və şərqi Dərələyəz. Mahalın qərb hissəsinə 9 kənd daxil idi. Həmin kəndlərin 346 ailədən ibarət əhalisindən 252-i azərbaycanlı ailələri, 57-i 1828-ci ilədək buraya köçən, 37-i isə sonradan İrandan köçürülmüş erməni ailələri idi. Şərqi Dərələyəz 61 kəndi

(onlardan 24-ü dağıdılmışdı) əhatə edirdi ki, burada yaşayan 907 ailənin 660-ı azərbaycanlı ailələri, 247-i isə yenə də İrandan köçürülmüş erməni ailələri idi (91, s. 112). Məlumatlardan aydın olur ki, II Rusiya-İran müharibəsinədək Dərələyəz mahalında 1283 azərbaycanlı, əvvəllər köçürülmüş cəmi 58 erməni ailəsi olmuşdur. 1827-1828-ci illərdə Dərələyəzə İrandan və Türkiyədən 731 erməni ailəsi köçürülmüş, bununla da demoqrafik vəziyyət ciddi şəkildə dəyişilmişdi. Dərələyəz mahalının qərb hissəsinə 1828-ci ildən sonra İrandan 284 erməni ailəsi köçürülmüşdü. Əgər köçürülmələrədək buradakı ailələrin 94,2 faizi azərbaycanlılardan, yalnız əvvəllər bu ərazilərə köçürülmüş 5,8 faizi ermənilərdən ibarət idisə, kütləvi köçürülmədən sonra erməni ailələri əhalinin 34 faizini və ya 25,8 faizini təşkil edirdilər (27, s. 26-27). Rəqəmlərdəki fərqlilik müxtəlif mənbələrdə olan statistik rəqəmlərin uyğunq gəlməməsindən qaynaqlanır.

1812-1826-cı illərdə Şimali Azərbaycanda cəmi 51530 nəfər, yəni bütün əhalinin 9,37 faizi qədər erməni yaşayırdı. Bu ermənilərin də bir çoxu məhz Rusiya-İran müharibələrinin gedişində İrandan köçmüşdülər. Əsrin sonunda, 1897-ci ildə onların sayı xeyli artmışdı. Ərazisinin darısqallığına baxmayaraq İrəvan quberniyasına daha çox erməni gətirilmişdi. Şübhə yoxdur ki, çarizm köçürülən ermənilərin Azərbaycanın Türkiyə ilə sərhəd bölgədə yerləşdirilməsində xüsusi məqsəd güdürdü. XX əsrin əvvəllərində Azərbaycanda və Türkiyədə baş verən qanlı hadisələr bu məqsədin nədən ibarət olduğunu əyani şəkildə göstərdi. Digər tərəfdən çarizmin köçürmələrdə Azərbaycana, onun müsəlman xalqına dair müstəmləkəçi planları da ermənilərin daha çox bu ərazidə məskunlaşdırılması zərurətini yaradırdı.

İ.Şopenin məlumatına görə, 1828-1832-ci illər siyahı-

yaalmasının nəticələrinə əsasən İrəvan vilayətində olan 1111 yaşayış məskənindən cəmi 62 kənddə köçürmələrdən əvvəl ermənilər yaşayırdılar. Bu kəndlərdən yalnız 14-nün adı erməni mənşəli olmuşdur. İ.Şopen Naxçıvan və Ordubad mahallarında 231 kəndin adını qeyd edir ki, bunların da yalnız 12-də köçürülmələrdən əvvəl ermənilər yaşayırmışlar (176, s. 599-634). Nəzərə alsaq ki, İ.Şopen çar Rusiyasının məmuru idi və heç bir halda azərbaycanlıların mənafeyinə xidmət edə bilməzdi, erməniləri isə bizim bölgəmizə məhz onun xidmət etdiyi çarizm köçürmüşdü, onda onun məlumatlarının obyektivliyinə şübhə ilə yanaşmaq üçün ciddi əsas yoxdur.

Digər çar məmurlarının verdikləri məlumatlar da, ermənilərin köçürülmələrədək Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində nəinki üstünlük təşkil etmədiyini, hətta onların, ümumiyyətlə, regionda etnos kimi mövcudluğunu inkar edir. Yəni, tarixi həqiqət, elə erməniləri himayə etmiş imperiya məmurlarının öz faktları ilə bir daha təsdiq olunur.

Bu baxımdan V.Qriqoryevin ermənilərin bilavasitə Naxçıvana köçürülməsi barədəki məlumatları da maraq doğurur. İlk kütləvi köçürmələr dövründə (I Rusiya-İran müharibəsindən dərhal sonra) Naxçıvana 13 min nəfərədək erməni gətirildikdən sonra 1832-ci ildə əyalətdə əhalinin ümumi sayı 45086 nəfərə çatmışdı ki, bunlardan da 28791 nəfəri və ya 64 faizi azərbaycanlı, 16295 nəfəri və ya 36 faizi ermənilər idi (27, s. 27). V.Qriqoryev Naxçıvan mahalına köçürülən 10 mindən artıq erməninin (2551 ailə) 4459 kişi və 6206 qadından ibarət olduğu, onların yerləşdirildikləri yaşayış məntəqələri barədə məlumat verir (172, s. 164, 177):

Cədvəl 1.1

V.Qriqoryevə görə köçürülən ermənilərin məskunlaşdıqları yaşayış məntəqələri

| yaşayış məntəqəsi | köçürülən ailələrin sayı | köçürülənlərin sayı | kişilər | qadınlar |
|---|---|---|---|---|
| Naxçıvan mahalına cəmi | 2285 | 9449 | 3970 | 5479 |
| Naxçıvan şəhərinə | 416 | - | - | - |
| Əbrəqunus kəndinə | 36 | 86 | 60 | 26 |
| Bənəniyar kəndinə | 43 | 260 | 103 | 157 |
| Qazançı kəndinə | 22 | 101 | 44 | 57 |
| Xəlilli kəndinə | 24 | 98 | 31 | 67 |
| Kültəpə kəndinə | 70 | 262 | 86 | 176 |
| Nehrəm kəndinə | 208 | 943 | 398 | 545 |
| Arınc kəndinə | 31 | 121 | 51 | 70 |
| Qarababa kəndinə | 24 | 93 | 34 | 59 |
| Külüs kəndinə | 13 | 50 | 20 | 30 |
| Nurs kəndinə | 30 | 124 | 50 | 74 |
| Şahbuz kəndinə | 20 | 75 | 31 | 44 |
| Məzrə kəndinə | 22 | 74 | 32 | 42 |
| Ordubad mahalına cəmi | 266 | 1216 | 489 | 727 |
| Əylis kəndinə | 37 | 139 | 53 | 86 |
| Aza, Dər, Dizə və Dırnıs kəndlərinə | 182 | 554 | 354 | 200 |

Ermənilərin Rusiyaya, o cümlədən Azərbaycana köçürülməsinə İranda rəhbərlik edən Lazarev və Türkiyədə köçürməni təşkil edən general Pankratev köçürülmələrin kütləviliyini bütün vasitələrlə təmin etməyə çalışırdılar. Rusların öz qəsbkar planlarını səylə həyata keçirmələrinə baxmayaraq, xüsusən Türkiyə ərazisindən könüllü köçməyən erməni ailələrinin bəziləri elə yolda ikən geri dönürdülər. Belə olduqda çar məmurları öz yaşayış yerlərini

tərk etmək istəməyən erməni ailələrini müxtəlif təxribatlara çəkərək yerli hakim dairələrlə üz-üzə qoyur, ermənilərin osmanlılar və iranlılar tərəfindən zülmə məruz qaldıqları görüntüsünü yaratmağa çalışırdılar.

Nəticədə İrandan 1828-ci il Türkmənçay müqaviləsindən sonrakı ilk üç ay yarım ərzində 8249 ailə, yəni 41245 nəfər Azərbaycan torpaqlarına köçürülmüşdüsə, Şərqi Anadoludan köçürülənlərin sayı 100 mini ötmüşdü. Xüsusən Ərzurumdan ermənilərin hamısı köçmüşdü. Buradakı 42320 evdən (müsəlmanlar 130 min nəfər idi) 21150 nəfər erməni köç etmişdi. Ərzuruma aid olan bu rəqəmlərə Qarsı da əlavə etsək, iki şəhərdən köçən ermənilərin sayı 70 minə yaxın idi (121, I c., s. 562). Bu köçürülənlər üçün ruslar Naxçıvan, İrəvan və Qarabağda yer ayırdılar. 1828-1829-cu illər Osmanlı-Rusiya müharibəsində ruslara böyük kömək göstərdikləri üçün osmanlıların intiqamından qorxan Ərzurum yepiskopu Karapet Ərzurum, Qars və Bəyazitdən 90 min ermənini də özü ilə bərabər Rusiyaya aparmışdı. Bu köçənlər Aleksandropol (Gümrü) və Gürcüstanda yerləşdilər (149, s. 623-624).

«Şərq məsələsi»nin tərkib hissəsi kimi, Osmanlı və İran dövlətlərinin ərazilərindəki xristianların (baxmayaraq ki, köçürmə prosesi yalnız erməniləri əhatə etmişdi) vəziyyətinin guya ağır olduğunu bəhanə edən Rusiya öz planlarını bu ad altında reallaşdırmağa çalışırdı. Həmin dövrdə «Avropa jandarmı» rolunu oynayan çar Rusiyası bu missiyasını əslində Azərbaycanda da həyata keçirməkdə idi. Bu bölgənin həm xammal zənginliyini, həm də strateji əhəmiyyətini nəzərə alan çarizm cənub sərhədlərində müsəlman türklərin yaşamasını gələcək mənafeləri üçün real təhlükə hesab edirdi. Təsadüfi deyildir ki, sonrakı uzun illər Azərbaycanın Rusiya tərkibində olmasına baxmayaraq çarizm dövründə məhz müsəlman və türk olduq-

larına görə azərbaycanlılar etibarsız xalq kimi orduya çağırılmırdılar.

Digər tərəfdən erməniləri Azərbaycana köçürməklə çar Rusiyası uzun illər müharibə apardığı iki müsəlman dövləti – Türkiyə və İranla öz sərhədləri arasında müsəlman azərbaycanlılara nisbətən daha etibarlı xalq olan ermənilərin yaşadığı bufer zona yaratmış olurdu. Bunu A.Qriboyedovun Türkmənçay müqaviləsinə Rusiya tərəfdən imza atmış Qafqaz canişini qraf İ.Paskeviçə göndərdiyi «Ermənilərin vilayətlərimizə köç etmələrinə dair məlumat»ı da sübut edir. Köçürülmə şərtlərinin tam yerinə yetirilməməsindən narahatlıq keçirən məlumat müəllifi köçürülən ermənilərin geri qayıdacağından ehtiyat edirdi. O, köçürülmələr üçün Rusiya hökumətinin ayırdığı maddi vəsaitin köçürülənlər arasında çox dağınıq və az paylandığını, onların ehtiyacını ödəyəcək qədər buğda tədarük edilmədiyini, növbəti ildə əkiləcək toxumluq buğdanın alınmamasını çatışmazlıq hesab edir və ümid etdiyini bildirirdi ki, əgər verilən 30 min gümüş rubl və 2 min qızıl pul daha diqqətli şəkildə xərclənərsə və dövlət qısa bir zamanda iki dəfə eyni miqdarda vəsait ayırarsa, onda köçürülənlərin rifahı təmin ediləcəkdir (121, II c., s. 313-314). Bununla da onların arzuolunmaz geri dönüşlərinin qarşısı alınmış olacaqdı.

Lazarevin Paskeviçə göndərdiyi 24 dekabr 1829-cu il tarixli «Hesabat»ı bu baxımdan diqqəti cəlb edir. O qeyd edir ki, yerli hakim dairələrin köçməmək üçün ermənilərə təzyiqlər etdiyini görəndə «mənim tərəfimdən köçürülmə prosesi sürətləndirildi: köç dəstələri fasiləsiz olaraq biri-digərini əvəz etdi və Azərbaycan vilayətinin (Cənubi Azərbaycanın – E.C) əhalisi nəzərəçarpacaq dərəcədə azaldı. 5000 ailə Araza yaxınlaşanda – digərlərinə pul yardımı verilmişdi və onlar bunu artıq xərcləmişdilər – mən

Erməni vilayəti hakimindən ilkin bildiriş aldım, o, məni xəbərdar edirdi ki, çörək çatışmadığı üçün köçürülənlərə lazımi köməyi edə bilmir və xahiş edirdi ki, onları taxıl biçininədək burada saxlayım». Lazarev bildirir ki, ərzaq sarıdan korluq çəkdikləri üçün köçmək istəməyənlərə könüllü köçkünlərə ayrılan pul vəsaiti hesabına yardım etmişdir ki, onlar da köçsünlər (159, s. 127-128). Bu məlumatlar köçürülmə prosesinin əvvəlcədən planlı şəkildə Rusiyanın maraqlarına uyğun təşkil olunduğu və heç də həmişə köçənlərin könüllülüyü prinsipinə əsaslanmadığı barədəki fikirlərimizin həqiqət yükünü artırır. Belə ki, hələ Lazarevin gəlişinədək kütləvi köçmələr qeydə alınmamışdı.

Köçürülən ermənilər yerlərdə heç də razılıqla qarşılanmırdı. Doğrudur, onların yerləşdirildikləri ərazilərdə ilk dövrlərdə «torpaq sahibi olan müsəlmanların çoxu yaylaqlarda olduğundan başqa dindən olan bu yadelli köçkünlərlə qarşılaşmamış» (121, II c., s. 313) olsalar da, yəni həm də bu səbəbdən ilk vaxtlarda ciddi münaqişələr olmasa da, ümumilikdə proses yerli azərbaycanlı əhali tərəfindən kəskin müqavimətə səbəb olurdu. Mənbələrdə göstərilir ki, çarizmin bu zorakı və mənfur siyasəti Naxçıvanda da narahatlıqla qarşılanmış, əhalinin böyük narazılığına səbəb olmuşdur. Nehrəm camaatı buna qəti etiraz etmiş və kəndlərində ermənilərə yer verməmişlər. Nəticədə onların Araz çayı sahilindəki bağ massivləri (kövşənləri) zorla alınaraq ermənilərə verilmiş, orada ermənilər Təzəkənd adlı kənd salıb məskunlaşmışlar. Kəndin yuxarı tərəfindən təqribən 5 km aralı Güznüt kəndi də belə salınmışdır. Eyni narazılıq halları Kültəpə və Bənəniyar kəndlərində, Naxçıvan şəhərində də olmuşdur (17, s. 61-62).

1836-cı ildə çar hökumətinin erməni qriqorian kilsəsi haqqındakı qərarına görə alban patriarxlığı-katolikosluğu

ləğv olundu. 1909-1910-cu illərdə rus sinodu Eçmiədzin erməni qriqorian sinoduna və İrəvan erməni qriqorian konsistoriyasına, yəni inzibati idarəsinə icazə verdi ki, tabeliyində olan yeparxiyaların köhnə arxiv sənədlərini məhv etsinlər. Köhnəlmiş erməni arxivləri ilə birlikdə alban kilsəsinin arxivləri də məhv edildi (76, s. 227-228). Nəzərə alsaq ki, orta əsrlər tariximizin erkən dövrünə aid bir çox tarixi sənədlər məhz bölgədəki alban kilsələrində qorunub saxlanılırdı, onda bu vandalizm aksiyasının da xüsusi məqsədlə həyata keçirilməsinə şübhə yeri qalmır. Eyni zamanda Azərbaycan tarixinin mühüm bir mərhələsinə dair qiymətli mənbə hesab ediləcək sənədlərin məhvinin ermənilərin sonrakı və hazırkı saxtakarlıqlarının belə geniş vüsət alması üçün bir vəsilə olduğu qeyd edilməlidir.

XIX əsrin 40-cı illərində çar Rusiyası Cənubi Qafqaza dair bir sıra sahələri əhatə edən islahatlar keçirmişdi. Müstəmləkəçi rejimin «parçala və hökm sür» prinsipinə əsaslanan bu islahatı nəticəsində Gəncə, Balakən, İrəvan və Naxçıvan qəzaları digər Azərbaycan torpaqlarından (qalan ərazilər Xəzər vilayətinin tərkibində idi) ayrılaraq Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi. Lakin bu idarə sistemi özünü doğrultmadığından 1844-cü ildə Qafqaz canişinliyi təsis edildi. 1849-cu ildə İrəvan quberniyasının yaradılması ilə 1813-1828-ci illərdən sonra bu dəfə də Şimali Azərbaycan torpaqları Rusiyanın tərkibində növbəti parçalanmaya məruz qaldı. İrəvan, Naxçıvan və Ordubad qəzaları bu quberniyanın tərkibinə daxil edildi. Bununla çarizm özünün Türkiyə sərhədləri boyu xristian ermənilərdən təşkil edilməsi nəzərdə tutulan bölgə yaradılması planının reallaşdırılması istiqamətində daha bir addım atmış olurdu. Lakin bu dövrdə, ümumiyyətlə, bütün XIX əsr boyu İrəvan quberniyasında etnik çoxluq azərbaycanlılara məxsus olmuşdur.

1877-1878-ci illər rus-türk müharibəsində qələbə çalan və Türkiyənin şərq torpaqlarını ələ keçirən ruslar Qars vilayətinə təqribən 50 min, Sürməli qəzasına isə 35 min erməni yerləşdirdilər. 1890-cı ildə Ərzurumda, 1892-1893-cü illərdə İstanbul, Kayseri, Yozqat və Çorumda, 1894-cü ildə Sasunda, 1895-ci ildə Zeytunda, 1896-cı ildə Vanda (178, s. 22-23) və digər yerlərdə törədilən erməni vəhşiliklərinin qarşısının alınmasından sonra ermənilərin Azərbaycana köçü yenidən intensivləşdi.

Rus ordusunun general-adyutantı Şeremetyevin 1896-cı ilə aid olan məlumatına görə, Cənubi Qafqazdakı ermənilərin sayı 900 min nəfərdir. M.Neyman «Ermənilər, onların tarixi və müasir vəziyyəti» (S.-Peterburq, 1899) kitabında yazır ki, Rusiyada 1200000 erməni məskən salmışdır ki, onların da 985460 nəfəri Cənubi Qafqazda yaşayır. Bütün kütləvi köçürmələrdən sonra ermənilər Qafqazda yaşayan millətlər arasında yalnız dördüncü yeri tuturdular. Qafqazda ruslar 2286738 nəfər, gürcülər 1201256 nəfər, azərbaycanlılar 1139659 nəfər, ermənilər isə 985460 nəfərdir (bax: 28, s. 58). 1908-ci ildəki demoqrafik vəziyyət barədə N.N.Şavrov yazırdı ki, «indi Cənubi Qafqazda yaşayan 1300000 ermənininin 1 milyondan çoxu məmləkətin yerli əhalisinə mənsub olmayıb bizim tərəfimizdən yerləşdirilən İran və Türkiyə ermənilərididir. Qalmış 200-250 min erməni isə xristianlaşmış albanlardır» (175, s. 59-61). Şeremetyev və M.Neymanla N.Şavrovun məlumatlarını müqayisə etdikdə aydın olur ki, təkcə 1896-1908-ci illər ərzində Cənubi Qafqaza 300-350 min erməni köçürülmüşdür. 1895-1896-cı illərdə təxminən 60 min erməni Qafqaza köçürüldü. Birinci dünya müharibəsi zamanı Şərqi Anadoludan köçürülən 400 min erməni əvəzinə eyni miqdarda müsəlman Türkiyəyə köçürüldü. 1820-ci ildən 1920-ci ilədək Türkiyədən Rusiyaya 600 minə qədər ermə-

ni, Rusiyadan Türkiyəyə isə 2 milyon müsəlman köçürülmüşdü (26, s. 163).

Bu dövrdə Naxçıvan əyalətində də əhalinin milli-demoqrafik tərkibində dəyişkənliklər olmuşdu. XIX əsr boyu davam etmiş köçürmələr nəticəsində 1897-ci ildə əyalətdə yaşayan 136536 nəfərdən 90397 nəfəri (66,3 faiz) azərbaycanlı, 44604 nəfəri (32,7 faiz) erməni olmuşdur (87, iş 23, v. 22). Bu isə o deməkdir ki, Naxçıvanda əhalinin təbii artımına görə azərbaycanlıların sayı 1828-ci ildəkinə nisbətən 3 dəfə artsa da, ermənilərin köçürülmələr hesabına, süni şəkildə 17 dəfədən çox artırılması azərbaycanlıların əhalinin ümumi sayındakı çəki payının xeyli azalmasına (lakin azərbaycanlılar yenə də ermənilərdən iki dəfədən də artıq çox idilər) səbəb olmuşdu. 1905-1907-ci illərdə azərbaycanlı qırğınları, eyni zamanda Türkiyədən erməni köçünün davam etməsi əhalinin ümumi sayında azərbaycanlıların sayının azalması, ermənilərin isə artması ilə nəticələnmişdi. Naxçıvanda əhalinin say tərkibinə dair müxtəlif mənbələrin verdiyi statistika bir-birindən müəyyən dərəcədə fərqlənsə də, bu fərqlər prinsipial xarakter daşımır. Həm də nəzərə almaq lazımdır ki, XIX yüzillik boyu ermənilərin bölgəmizə köçü fasiləsiz xarakter daşımışdır. Eyni zamanda Türkiyə tədqiqatçılarının bir çoxu qeyd edir ki, köçürülən erməni ailələrinin bəziləri müxtəlif bəhanələrlə və ya gizlicə öz yerlərinə qayıdırdılar. Bu səbəblərdən də demoqrafik statistika tez-tez təbəddülata məruz qalırdı. Ayrı-ayrı mənbələrdəki demoqrafik statistikanın müqayisəsi aşağıdakı cədvəldə öz əksini tapmışdır ki, bu da bütövlükdə XIX əsrin I rübündən XX əsrin əvvəllərinədək olan dövrdə Naxçıvan əyalətində əhalinin say göstəricilərini ifadə edir:

Cədvəl 1.2

1828-1909-cu illərdə Naxçıvanda əhalinin etnik tərkibinin dəyişilməsi

| Naxçıvan əhalisi / illər üzrə | azərbaycanlılar | ermənilər |
|---|---|---|
| 1828 | 29440 (92%) | 2240 (7%) |
| 1832 | 28791 (63,6%) | 16295 (36,2%) |
| 1897 | 90397 (66,3%) | 44604 (32,7%) |
| 1909 | 59060 (56,7%) | 44438 (42,6%) |

XX əsrin əvvəllərinə aid olan arxiv sənədlərinə görə, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının birlikdə əhalisi 182669 nəfərdir ki, bundan da 115258 nəfəri (63,1 faiz) türklər, 67121 nəfəri (36,7 faiz) isə ermənilərdir. Bu dövrdə Naxçıvan qəzasında 104398 nəfər əhalinin 59060-ı (56,6 faiz) azərbaycanlı, 44438 (42,6 faiz) erməni, Şərur-Dərələyəz qəzasında isə 78271 nəfərdən 54242-i (69,3 faiz) azərbaycanlı, 22693 nəfəri (29 faiz) erməni olmuşdur (88, iş 9, v. 20, 22).

Dövrün demoqrafik-statistik təhlili Naxçıvanda 1897-ci ilə nisbətən 1909-cu ildə azərbaycanlıların sayının 31279 nəfər (34,6 faiz) azaldığını göstərir. Həmin illərdə əhalinin təbii artımı da nəzərə alınarsa, 1905-1907-ci illərin qırğınlarının nəticəsində təkcə Naxçıvanda azərbaycanlıların sayının təxminən 2 dəfə azaldığını söyləmək olar. Qeyd etmək lazımdır ki, həmin illərdəki erməni cinayətləri qırğınlarla bərabər həm də yerli əhalinin öz yurdlarını tərk etməsinə, tarixi torpaqlarından didərgin düşməsinə səbəb olmuşdu.

1914-1918-ci illərdə I dünya müharibəsi zamanı, Rusi-

yanın Şərq cəbhəsində uğur qazanmaq cəhdi Türkiyədə erməni fitnəkarlığının kütləviləşməsi ilə müşayiət olunurdu. Lakin Şərqi Anadoluda növbəti erməni planlarının iflasından sonra onların Qafqaza üçüncü kütləvi köçü başlandı. Mənbələr bu zaman köçənlərin sayını 300-500 min nəfər arasında müxtəlif rəqəmlərlə ifadə edirlər (həmin qaçqınların bir hissəsi 1921-ci ildə Naxçıvana köçürülmüşdü (88, iş 17, v. 34). Bundan sonra daşnak liderləri Şərqi Anadoludan ordularını çıxararaq Azərbaycan torpaqlarının qəsbinə yönəltdilər. O dövrdə ermənilərin nəşr etdirdikləri «Nezavisimaya Armeniya» qəzeti yazırdı: «Erməni daşnaklarının ərazi əldə etmək istəyi çox böyük idi. Ona görə də onlar öz nizami ordularını Zəngəzura göndərərək könüllüləri inandırmağa çalışır, əhalini qırır və beləcə öz sıralarını genişləndirməyə can atırdılar» (bax: 131, s. 374).

O dövrün statistik məlumatlarını hazırlayanların bir çoxunun məqsədli olduğunu və eyni zamanda Türkiyədən Qafqaza fasiləsiz davam edən erməni köçünün rəqəmləri ilbəil, hətta aybaay dəyişdiyini nəzərə alsaq, onda ermənilərin Azərbaycanda təbii artımdan niyə dəfələrlə çox artdığını başa düşmək olar. Bundan əlavə Türkiyədən köçən ermənilərin bir qismi dərhal Rusiya təbəəliyini qəbul edir, digər qismi isə ya bundan imtina edir, ya da bu prosesə bir qədər gec qoşulurdu. Bu, ayrı-ayrı mənbələrin verdikləri statistik məlumatların müxtəlifliyində öz əksini tapmışdır.

1918-1920-ci illərin soyqırımından əvvəl də bölgədə etnik üstünlük azərbaycanlılara məxsus olmuşdur. 1916-cı il yanvarın 1-ə olan məlumatlara görə, Naxçıvan qəzasında 81708 nəfər (59 faiz) azərbaycanlı, 54209 nəfər (40 faiz) erməni yaşayırdı. Bu rəqəmlər Şərur-Dərələyəz qəzasında müvafiq olaraq 60183 (66,7 faiz) və 29165 (32,3 faiz) idi.

1917-ci ildə həmin rəqəmlər azərbaycanlıların təbii artımı hesabına bir qədər də dəyişmişdi. Bu zaman Naxçıvan qəzasında əhalinin 83276 nəfəri (59,4 faiz) azərbaycanlı, 50193 nəfəri (39,6 faiz) erməni idisə, Şərur-Dərələyəz qəzasında bu say müvafiq olaraq 82607 nəfər (68 faiz) və 31999 nəfər (31 faiz), Zəngəzurda isə 123085 nəfər (55 faiz), 99257 nəfər (44,3 faiz) idi (81, s. 48-49).

AXC Xarici İşlər Nazirliyinin əməkdaşı A.Şepotyev «Öz müqəddəratını təyin edən azərbaycanlıların hüquqları olan mübahisəli Qafqaz əraziləri haqqında məruzə»sində Naxçıvan və Şərur-Dərələyəz qəzalarında, eləcə də İrəvan qəzasının həmin qəzalarla qonşu olan cənub torpaqlarında yaşayan əhalinin 61 faizinin azərbaycanlılar, 38 faizinin isə ermənilərdən ibarət olduğunu yazırdı. Məruzədən belə aydın olur ki, ermənilər həm şəhərlərdə cəmləşmişlər, həm də kəndlərdə azərbaycanlı əhali ilə qarışıq halda yaşayırlar. Bu sənəddə ermənilərin Naxçıvan qəzasında əhalinin 39,6 faizini, Şərur-Dərələyəz qəzasında 31 faizini təşkil etdiyi göstərilir (9, iş 227, v. 12).

Statistik məlumatların müqayisəli təhlili 1915-1917-ci illərdə bəzi qəzalarda ermənilərin sayının artdığını, digərlərində isə azaldığını göstərir. Əldə edilən məlumatlardan bu nəticəyə gəlmək olur ki, soyqırımın ikinci mərhələsinin başlanması ərəfəsində bütün qəzalarda əhalinin böyük çoxluğunun azərbaycanlılara mənsub olduğu şübhə doğurmur. Belə ki, AXC parlament sədri Ə.Topçubaşovun Paris sülh konfransının sədrinə və Antanta bloku nümayəndələrinə təqdim etdiyi 16-19 avqust 1919-cu il tarixli etiraz notasında da Naxçıvan qəzasında əhalinin 62,5 faizinin azərbaycanlılardan, 36,7 faizinin ermənilərdən ibarət olduğu bildirilirdi. Şərur-Dərələyəz qəzasında bu rəqəmlər müvafiq olaraq 72,3 və 27,1 faiz təşkil edirdi (9, iş 142, v. 61).

Bəhs edilən dövrə aid rəsmi statistik məlumatların və eləcə də müxtəlif mənbələrdə ermənilərin Azərbaycana köçürülməsi, onların bölgədəki qanlı əməlləri, azərbaycanlı əhaliyə qarşı yeridilən etnik təmizləmə, deportasiya və soyqırım siyasəti, demoqrafik vəziyyətə dair verilən məlumatların təhlili tam aydın şəkildə göstərir ki, ermənilərin Azərbaycanda məskunlaşdırılması prosesi uzaq hədəflərə və uzunmüddətli planlara hesablanmış siyasətin tərkib hissəsi olmuşdur. Məhz bu səbəbdən XIX əsrin ikinci rübündən vüsət alan erməni köçürülmələri Azərbaycan əhalisinin etnik tərkibində xeyli dəyişiklik yaratdı. Eyni zamanda bu köçürülmələr onun məqsədini təmin etdi – XX yüzilliyin əvvəllərində Azərbaycanda, o cümlədən Naxçıvanda çarizmin mənafeyinə uyğun milli münasibətlərin formalaşması zəminini hazırlamış oldu. Köçürülmələr nəticəsində tarixi Azərbaycan torpaqlarının bir hissəsinə yiyələnmək fürsəti əldə edən ermənilər daha sonra azərbaycanlılara qarşı soyqırım siyasəti yürüdərək bütün milli-mənəvi sərvətimizi, hətta tarixi keçmişimizi belə ələ keçirmək iddiasına düşdülər.

## 1.3. Erməni millətçi hərəkatının formalaşması və erməni terrorçu siyasi təşkilatları

XIX yüzillik ərzində ermənilərin çar Rusiyası tərəfindən məqsədli şəkildə kütləvi köçürülmələrə cəlb edilməsi Cənubi Qafqazda yalnız demoqrafik vəziyyətin xeyli dərəcədə ermənilərin xeyrinə dəyişməsi ilə qalmadı. «Erməni məsələsi» getdikcə aktuallaşaraq hələ XVIII əsrdən bəri Avropa imperialistlərinin, xüsusən Rusiyanın Osmanlı imperiyasına qarşı yürütdüyü siyasətin əsasını təşkil edən «Şərq məsələsi»nin ən mühüm tərkib hissəsinə çevrildi. Napoleon imperiyasını süquta uğradan «Müqəddəs itti-

faq» üzvləri 1815-ci il Vyana konqresində həmin dövrdə «Avropa jandarmı» kimi qəddar bir xisləti olan Rusiyanın təklifilə Osmanlı imperiyasındakı xristianların vəziyyətini də müzakirə etmişdilər. Təklif olunan mövzuda əslində müzakirə ediləcək problem olmadığından, bu, ciddi qərara səbəb olmamış, lakin həmin məsələ sonrakı dövrdə Rusiya ilə digər Avropa dövlətləri, xüsusən İngiltərə və Fransa arasında mübarizə amilinə çevrilmişdi. Rusiya imperiyasının və Avropa imperialistlərinin ortaya atdıqları «Şərq məsələsi» də əslində elə Vyana konqresindən sonra aktuallıq qazanmış və getdikcə kəskinləşmişdi (121, III c, s. 336).

Vyana konqresindən sonra Rusiyanın XIX yüzillik ərzində apardığı xarici işğalçı siyasətin ana xəttini məhz bu məsələ təşkil etmişdir. XIX əsrdə Rusiyanın İran və Türkiyə ilə apardığı bütün müharibələrdə «erməni məsələsi» daim müzakirə müstəvisində olmuşdur. Elə 1828-ci il Türkmənçay müqaviləsinin 15-ci və 1829-cu il Ədirnə müqaviləsinin 13-cü maddələri Rusiyanın bu istiqamətdəki siyasətinin növbəti addımı kimi meydana çıxmışdı. 1877-ci il martın 31-də Avropa dövlətlərinin Londonda imzaladıqları protokolu Osmanlı dövləti özünün daxili işlərinə kobud müdaxilə kimi qiymətləndirərək onu rədd etdi və elə bu, 1877-1878-ci illərdə Rusiya ilə Türkiyə arasında növbəti müharibəyə səbəb oldu. London protokolunda onu imzalayan dövlətlər guya «Avropada sülhün qorunması baxımından Osmanlı dövlətindəki xristianların vəziyyəti ilə məşğul olmaqda davam edəcəklər»ini bildirmişdilər. Osmanlılara müharibə elan edən yeganə dövlət isə Rusiya olmuşdu (121, III c, s. 336).

1877-1878-ci illərdə baş verən müharibənin qalibi kimi Rusiya Türkiyə ilə bağladığı San-Stefano preliminar müqaviləsinin 16-cı maddəsində, Türkmənçay və Ədirnə mü-

qavilələrindəkinin əksinə, bu dəfə xristian əhali haqqında deyil, birbaşa ermənilər haqqında məsələ qoydu (160, s. 7). Həmin maddədə deyilirdi ki, Osmanlı hökuməti Şərqi Anadoludakı «erməni vilayətləri» adlandırılan altı vilayətdə islahatlar keçirməyi öhdəsinə götürür. Müqaviləyə dair müzakirələrin getdiyi bir vaxtda San-Stefanoya gedən İstanbul erməni kilsəsinin patriarxı Nerses Varjapetyan rus ordusu komandanlığından Rusiya himayəsində erməni dövlətinin qurulmasına kömək etməyi xahiş etmişdi (143, s. 41). Lakin Rusiya «erməni məsələsi»ni müqaviləyə öz mənafeyinə uyğun şəkildə daxil etdi. Qeyd edək ki, «erməni məsələsi» Rusiyanın XIX əsrdə artıq iki əsrdən bəri yürütdüyü «Şərq siyasəti»nin reallaşdırılması istiqamətində ən mühüm siyasi manevr və icra vasitəsinə çevrilmişdi.

Rusiyanın XIX əsrin birinci yarısında genişlənən köçürmə siyasətindən sonra artıq «erməni məsələsi»ni Türkiyə ilə birbaşa müzakirə və müqavilə müstəvisinə çıxarması çarizmin öz maraqları naminə konkret mübarizəyə keçməsinin təzahürü idi. San-Stefano danışıqlarında iştirak edən Rusiya nümayəndə heyətinin üzvü İqnatyev yazırdı ki, «müqavilənin 16-cı maddəsi ermənilər tərəfindən böyük bir sevinclə qarşılandı. Erməni kəlməsi ilk dəfə olaraq beynəlxalq müqavilədə tələffüz edildi... » (121, I c., s. 147) İngiltərənin təşəbbüsü ilə 1878-ci ildə çağırılan Berlin konqresində imzalanmış müqavilənin 61-ci maddəsi də eyni məzmunda ifadə olundu: burada da Türkiyənin ermənilərin daha çox məskunlaşdığı altı vilayətində islahatlar keçirmək Osmanlı hökumətinin üzərinə öhdəlik kimi qoyulur, lakin öhdəliyin icrasına nəzarət yalnız Rusiyaya deyil, Berlin konqresinin iştirakçısı olan altı dövlətin hamısına həvalə edilirdi (160, s. 7). İngiltərə bu məsələdə mənafelərinin toqquşduğu Rusiyanın rolunu müqavilənin

icrasına nəzarətdə əhəmiyyətli dərəcədə azalda bildi.

Artıq erməni iddialarının beynəlxalq müqavilələrdə (1877-ci il London protokolu, 1878-ci il San-Stefano və Berlin müqavilələri) əks olunan hüquqi istinadgahı da yaradılmışdı. Hətta Hnçaq və Daşnaksütyun kimi erməni terrorçu siyasi təşkilatları özlərinin qanlı əməllərinə haqq qazandırmaq üçün hüquqi cəhətdən guya Şərqi Anadoluda müstəqil erməni dövlətinin yaradılmasını nəzərdə tutan Berlin traktatının 61-ci maddəsinə daim istinad etmişlər. Ermənilər törətdikləri iğtişaşlarla öz məsələlərini gündəlikdə saxlamağa çalışır, Avropa dövlətlərinin prosesə ardıcıl müdaxiləsinə nail olmaq istəyirdilər. 1876-cı ildə erməni patriarxı N.Varjapetyan İngiltərə səfiri Elliotla görüşündə ermənilərin öz arzularına «Avropa dövlətlərinin diqqətini cəlb etmək üçün qiyam, üsyan belə qaldırmağın çətin olmadığını» bildirmişdi (149, s. 186-187).

Bu dövrdəki beynəlxalq şərait iri dövlətlər arasında müstəmləkələr və yeni ərazilər ələ keçirmək uğrunda açıq və ya gizli şəkildə aparılan mübarizənin kəskinləşməsi baxımından mürəkkəb tarixi mərhələ idi. İngiltərə və Fransa ilə Rusiya arasında Osmanlı dövlətini parçalamaq, Yaxın Şərqdə hegemonluq uğrunda gərgin mübarizə gedirdi. Mənbələr ermənilərin Türkiyədə bilavasitə Rusiyanın təhriki və təşviqi ilə yerli dinc əhalini qırğınlara məruz qoyduqları barədə məlumatlarla zəngindir. Türkiyədəki ingilis diplomatik nümayəndələrinin XIX əsrin 80-ci illərinə aid yazışmalarında ermənilərin Rusiyanın yaxından köməyilə üsyana hazırlaşdıqları, onların komitələr halında birləşərək fəaliyyət göstərdikləri, silahlandırıldıqları, hər bir erməninin öz evində silah saxladığı bildirilir (121, I c., s. 99).

Hələ IV əsrdə xristianlığın qəbulundan sonra ermənilər üzərində qriqorian kilsəsinin böyük təsiri olmuş, er-

məni kilsəsi əslində ötən yüzilliklərdə yalnız dini-ideoloji deyil, həm də ermənilərin siyasi təsisatı və cəbbəxanası kimi fəaliyyət göstərmişdir. Erməni təşkilatlarının qurulmasınadək «erməni məsələsi»ni beynəlxalq problemə çevirən və onun aktuallaşmasına nail olanlar da məhz kilsə xadimləri olmuşlar. San-Stefano müqaviləsinin imzalanması zamanı erməni yepiskopluğu haqqında məsələnin müzakirəsi də əslində təsadüfi olmayıb siyasi məzmun kəsb edirdi. XIX əsrin sonu-XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda ermənilərin törətdikləri qanlı qırğınlar zamanı bölgələrdəki erməni kilsələri, sözün əsl mənasında, silah anbarı rolunu oynamışdı. Eyni zamanda «erməni məsələsi»nə Avropa dövlətlərinin marağının səngidiyi hiss olunan kimi kilsə xristianların müsəlmanlar tərəfindən soyqırıma məruz qaldığı barədə özünəməxsus şəkildə yalançı fəryad qoparıb avropalıların dini hisslərini də oyatmağa ciddi səy göstərirdi. Bunun nəticəsi idi ki, Almaniya «erməni məsələsi»nə maraq göstərməyib bu məsələdə türklərin haqlı olduğuna inansa da, 1895-ci ildə alman imperatoru II Vilhelmə guya ermənilərə qarşı soyqırım törədildiyini bildirən saxta məlumatı verdikdə, o, qəzəblənərək «Bu artıq həddi aşmaqdır. Axı onlar da xristiandır» demişdi (121, I c., s. 106).

Yeri gəlmişkən, Almaniya ilə Türkiyənin I dünya müharibəsində müttəfiq olmasına baxmayaraq müharibə dövründə almanlar da «erməni kartı»ndan Azərbaycan torpaqlarını əhatə edən siyasi məqsədlə istifadə etmişdilər. 1918-ci il iyunun 28-də «Pravda» qəzeti yazırdı ki, alman imperatoru II Vilhelmin diplomatları erməni burjuaziyasının liderlərini zorla «Erməni Respublikası» yaratmağa təhrik etdilər və əvəzində erməni hissələrinin Bakıdan çıxarılmasını, onlarla əlbir fəaliyyət göstərib Bakını bolşeviklərdən təmizləməyi tələb etdilər. Qəzetin məlumatına

görə ermənilər bu təkliflə razılaşmışdılar. Lakin qısa müddət sonra, 1918-ci ilin avqustunda almanlarm sovet Rusiyası ilə Bakının tutulması və Azərbaycan neftinin ələ keçirilməsilə bağlı ayrı bir razılaşması olmuşdu.

Beləliklə, XIX əsrdə Rusiya başda olmaqla maraqlı dövlətlər «erməni məsələsi»nin yaranma, aktuallaşma və inkişaf etmə xüsusiyyətlərini, xarakterini, beynəlxalq münasibətlərdəki yerini nəzərə alaraq bu dövrdə erməni hərəkatını şərti olaraq bir neçə dövrə bölmək mümkündür:

1. Erməni millətçiliyi və onun ideologiyasını formalaşdırmaq üçün müxtəlif tədqiqat və təbliğat qurumlarmm yaradılması. «Erməni məsələsi»ni öz siyasi maraqları naminə vasitəyə çevirə biləcəklərini anlayan Avropa dövlətləri və Rusiya bu tipli qurumların yaradılmasında maraqlı olmuşlar. Fransa imperatoru I Napoleon hələ 1810-cu ildə Parisdəki Şərq dilləri məktəbində erməni bölməsi yaratmışdı. Bu dövrdə Avropa elm adamlarmın Osmanlı dövləti ərazisinə həmin istiqamətdə tədqiqat üçün gəldikləri məlumdur. Görünür, «erməni məsələsi»nin tarixi köklərini öyrənən avropalılar bu yöndəki siyasətlərində tarixi zəminə əsaslanmaq niyyətində idilər. Digər tərəfdən Rusiya ermənilərı məqsədəmüvafiq şəkildə maarifləndirmək məsələsini ön plana çəkmişdi. 1816-cı ildə Moskvada fəaliyyətə başlayan Lazaryan İnstitutu, 1823-cü ildə isə Tiflisdə fəaliyyətə başlayan Nersesyan Seminariyası bu məqsədə xidmət edirdi (121, I c., s. 100). Təbii ki, ermənilərin içərisindən o dövrədək tanınmış liderlərin çıxmaması və bütövlükdə ermənilərin hələ də millət kimi formalaşa bilməməsi baxımından maraqlı dövlətlər tərəfindən atılan bu kimi addımlar başadüşüləndir.

2. Missioner məktəblərinin açılması. Bu tipli məktəblərin açılmasında əsas məqsəd dünyanın ümumi siyasi axarından çox geridə qalan erməni toplumunun millət-

çilik hisslərini oyandırmaq və onlarda siyasi şüuru və iddialılığı, özü də lazımi istiqamətdə formalaşdırmaq idi. 1846-cı ildə ermənilərin Parisdə açdıqları Katolik kolleci fransızların həmin istiqamətdəki güclü təbliğatlarının nəticəsi kimi meydana çıxmışdı. Qeyd edək ki, 1823-cü il Monro doktrinası ilə Avropa dövlətlərinin dünyanın Qərb yarımkürəsində yürütdüyü siyasətinə qarışmasının qarşısını almaq xətti yeridən ABŞ hələ XIX əsrdə «erməni kartı»ndan istifadədə onlardan heç də geri qalmırdı. Osmanlı dövlətinə qarşı planlarını üzə çıxarmayaraq gizli saxlayan ABŞ protestant kilsəsi vasitəsilə erməniləri «oyandırmaq», onlar arasında millətçilik düşüncəsini canlandırmaq üçün ciddi səy göstərirdi. Amerikalı missionerlər Smit və Duaytın bilavasitə iştirakı ilə 1834-cü ildə İstanbulda Bəyoğlunda ermənilər üçün ilk orta məktəb açıldı. 1836-cı ildə İstanbul erməni icması Hasköydə 500 nəfərin təhsil alacağı məktəb açdı, bunun ardınca Trabzon, Kayseri və Tarsusda, habelə Cənubi Azərbaycanın Urmiya şəhərində erməni əyalət məktəbləri açıldı. Türkiyə ərazisində ermənilərlə iş aparan amerikalı missionerlər XIX əsrin ikinci yarısında daha 9 kollec yaratdılar. Bunlar İstanbulda Robert kolleci (1862) və Amerikan Qız kolleci (1873), Beyrutda bir universitet (1864), Antepdə Mərkəzi Türkiyə kolleci (1876), Harputda Fırat kolleci (1878), Maraşda Mərkəzi Türkiyə Qız kolleci (1882), Merzifonda Anadolu kolleci (1886), Tarsusda St.Paul İnstitutu (1888) və İzmirdə Uluslararası kollec (1891) idi. Həm fransız, həm də amerikan missioner məktəblərində erməni gənclərinin beyinlərinə türklərə qarşı ədavət toxumu səpilir, tələbələrə mifik «Böyük Ermənistan»ın xəritəsi verilir, onun olmayan tarixi barədə uydurma qəhrəmanlıq söhbətləri aparılır, sonda isə erməni gəncləri öz «qədim dövlətləri»ni bərpa etmək naminə açıq mübarizəyə, üsyan

və qiyama, hətta terrora təşviq edilirdi. Bu istiqamətdə ideoloji təbliğat vasitəsi rolunu oynayan qəzet, jurnal, kitab, xəritə və intibahnamələr Türkiyəyə, ələ keçməsin deyə, maraqlı Qərb dövlətlərinin diplomatik nümayəndələri tərəfindən gətirilir və yayılırdı (121, I c., s. 100).

3. Mətbuat vasitəsi ilə erməniləri ideoloji cəhətdən hazırlamaq. Türkiyədə Tənzimat hərəkatı nəticəsində ortaya çıxan 1839-cu il «Gülhanə xətti-şərifi» adlı və 1856-cı il tarixli «Xətti-humayun» adlı ali sultan fərmanlarının verdiyi hüquq və azadlıqlardan istifadə edən ermənilərin nəşrinə başladıqları qəzetlər erməni millətçiliyinin təbliği istiqamətində çox mühüm vasitəyə çevrildi. Karapet Ütüciyan adlı bir erməni tərəfindən 1852-1893-cü illərdə İstanbulda nəşr edilən «Massis» («Ararat»), Vanda doğulan erməni din xadimi Mkrtıç Hrimyanın naşiri olduğu, 1855-1858-ci illərdə İstanbulda, 1858-1863-cü illərdə isə Vandakı Varaq monastrında nəşr edilən «Ardzvi Vaspurakan» («Van qartalı») qəzetləri bu məqsədə xidmət edirdi (121, I c, s. 101). 1885-ci ildən Fransanın Marsel şəhərində «Armeniya» qəzetini (az sonra onun təsiri və naşirinin təşkilatçılığı ilə Armenakan partiyası yaradılacaqdı) nəşr etdirən Van ermənisi Mkrtıç Portakalyanın əsas qayəsi «erməni məsələsi»nin Qərb ictimaiyyətinə təbliği ilə bərabər terrora çağıran intibahnamələrin çap edilərək Türkiyədə yaşayan ermənilər arasında yayılması idi. 1888-ci ildə ingilislərin təhriki və Ceyms Brays adlı bir ingilisin köməyilə Londonda «İngilis erməni şirkəti» yaradan ermənilər eyni zamanda burada «Hayastan» qəzetinin də nəşrinə başladılar. Bu zaman Londonda Minas Çeraz adlı bir erməni ingilis və erməni dillərində «Armeniya» adlı qəzet nəşr etdirirdi. Həmin illərdə Nyu-Yorkda «Surhantak», «Hayk», Tiflisdə isə «Hnçaq» və «Droşak» qəzetləri çıxarılırdı.

4. Kilsədən kənarda dünyəvi düşüncələrə meylli ilk erməni təşkilatlarının yaranması. Xarici dövlətlərin missioner fəaliyyətləri nəticəsində yaradılan məktəblər erməni gəncləri arasında məzhəb ayrılığına səbəb olur və nəticədə onlar getdikcə erməni kilsəsinin təsirindən çıxmış olurdular. Kilsə bunu öz nüfuzuna zərbə hesab etdiyinə görə 1838-ci ildə Hasköy məktəbinin bağlanmasına nail oldu. XIX əsrin 40-cı illəri qriqorian kilsəsinin ermənilər arasında fərqli düşüncələrə qarşı mübarizə dövrü oldu. İstanbul erməni icmasını iki hissəyə parçalayan bu hadisələri sonrakı dövrdə erməni müəllifləri 1848-ci il Avropa burjua inqilablarına bərabər tuturdular. Osmanlı hökumətinin səyi nəticəsində ermənilər arasında iğtişaşlar aradan qaldırıldı və erməni milli məclisi (dini və dünyəvi) yarandı. Lakin Türkiyədə baş verən hər bir hadisədən öz mənafeləri naminə maksimum yararlanmağa çalışan Avropa dövlətləri ermənilər arasında yaranan parçalanmadan da məharətlə istifadə etdilər. 1830-cu ildə Fransanın təsirilə katolik ermənilər, İngiltərə səfiri Kanniqin təsirilə 1850-ci ildə protestant ermənilər ayrı-ayrı millətlər kimi tanındı (121, I c., s. 284-285). Bu, ermənilərin qriqorian kilsəsindən kənarda təşkilatlanması işini bir qədər də sürətləndirdi. 1860-cı ildə Türkiyədə hazırlanan və sultan tərəfindən bəyənilən «Erməni milləti nizamnaməsi» ermənilərə geniş hüquq və azadlıqlar verdi. Digər tərəfdən köçürmələr hesabına Qafqazda öz maraqlarını təmin etmək üçün real zəmin əldə etmiş olan Rusiyanın təbliğatı da bu işdə öz təsirini göstərdi.

İlk erməni təşkilatları yardım dərnəkləri və xeyriyyə cəmiyyətləri adı altında yaradılırdı. Bu istiqamətdə ilk təşəbbüs Adana bölgəsində 1860-cı ildə qurulan «Xeyirsevərlər cəmiyyəti» ilə oldu. Bunun ardınca «Fədakarlar cəmiyyəti» yaradıldı. Van bölgəsində yaradılan «Araratlı»,

mərkəzləri Muşda olan «Məktəb sevənlər», «Şərqli», «Kilikiya» cəmiyyətləri sonradan «Ermənilərin birlik cəmiyyəti» adı altında birləşmişdilər (149, s. 421). 1860-cı ildə İstanbulda «Erməni xeyirxahlar dərnəyi» təşkil edildi. Dərnəyin yaradıcılarından Hovsep Şişmanyan və Mkrtıç Beşiktaşyan Türkiyədə ilk erməni qiyamı olan 1862-ci il qanlı Zeytun hadisələrinin əsas təşkilatçıları olmuşdular (144, s. 88).

Belə təşkilati fəaliyyət feminist hərəkatlarda və masonluqda da özünü büruzə verirdi. Hələ XVIII əsrdə ingilis və qismən fransız mason lojalarında bəzi erməni tacirlərinin adına rast gəlinir. Lakin ilk rəsmi erməni lojası olan «Tiqran» 1864-cü ildə İzmirdə yaradılmışdı. Bunun ardınca 1867-ci ildə İstanbulda «Ser» adlanan erməni mason lojası təşkil edilmişdi. Dövrün tanınmış ziyalılarının bir qismi ya bu mason təşkilatlarının qurucusu, ya da ilk üzvləri olmuşdur (121, I c, s. 289). Erməni təşkilatlarının yaradılması prosesi sonrakı illərdə də davam etdi. 1872-ci ildə Vanda «Birlik və qurtuluş cəmiyyəti», 1880-ci ildə Ərzurumda «Silahlılar cəmiyyəti», 1882-ci ildə yenə Vanda «Qara xaç cəmiyyəti», İstanbulda «Erməni vətənpərvərlər ittifaqı», Ərzurumda «Vətəndaşların müdafiəsi cəmiyyəti» yaradılmışdı (144, s. 126). 1881-ci ildə Ərzurumda təsis edilmiş «Yüksək kurul» cəmiyyətinin terrorçu dəstələri və silah ambarları da var idi, burada terrorçulara hərbi təlim də keçilirdi. Bu təşkilatı Qafqazdan gələn erməni həkim Baqrat Navasartyan təşkil etmişdi. Cəmiyyətin fəaliyyəti Tiflisdən idarə olunur, buradan cəmiyyət üzvlərinə maliyyə yardımı göstərilirdi (149, s. 430-431).

Türklərə qarşı düşmənçilik, ədavət və terror məqsədi ilə yaradılan ilk erməni təşkilatları sayca çox olub dağınıq halda fəaliyyət göstərirdilər. Zənnimizcə, bunu bir neçə amillə izah etmək olar. Əvvəla, ermənilərin arasında məz-

həb fərqi vardı və elə bu məzhəb fərqinin yaradılmasının başlıca səbəbkarları olan Avropa dövlətlərinin bundan öz məqsədləri üçün istifadə etmələri ermənilərin birləşməsinə mane olurdu. Digər tərəfdən bu dövr ermənilərin ilk təşkilatlanma mərhələsi olduğundan çoxsaylı təşkilatların yaranmasını təbii hal kimi də qəbul etmək olar. Nəhayət, təşkilatçılar arasında ideologiya ayrılığı və gələcəkdə yaradılması nəzərdə tutulan erməni dövlətində bəri başdan öz vəzifə payını təmin etmək istəyi yaranmış vəziyyətin əsas səbəblərindən idi və s.

5. Bu mərhələ yuxarıda qeyd etdiyimiz mərhələlərin məntiqi davamı olmaqla yeni, daha mütəşəkkil terrorçu təşkilatların yaranması və mövcud olanların birləşməsi prosesi ilə xarakterikdir. Bu dövrdə bölgədəki situasiyaya maraqlı dövlətlərin, o cümlədən Rusiyanın təsiri nəzərəçarpacaq dərəcədə güclənir. Hələ 1868-ci ildə knyaz Korçakov öz ölkəsinin bölgədəki siyasətini belə ifadə etmişdi: «Ya xristianlara muxtariyyat verilməli, ya da Osmanlı imperiyası parçalanmalı və bölünməlidir» (62, s. 44). Lakin bu heç də çarizmin erməni dövlətinin qurulmasında maraqlı olması demək deyildi, əslində ermənilərə muxtariyyət tələbinin irəli sürülməsində də əsas məqsəd Osmanlı Türkiyəsinin ərazilərini bölüşdürməkdən ibarət idi. Çünki elə bu dövrdə Rusiyanın xarici işlər naziri Lobanov-Rostovskinin hazırladığı «Rusiya hüdudları daxilində ermənilərsiz Ermənistan» (62, s. 51) planı çarizmin «erməni məsələsi»ndən istifadə edərək Osmanlı imperiyasını parçalamaq və bu zaman Şərqi Anadoluya sahib çıxmaq məqsədini güdürdü.

1878-ci il Berlin konqresində Türkiyə məsələsində İngiltərə və Fransa təşəbbüsü ələ almaqla çarizmin bölgədəki siyasətinə böyük zərbə vurdu ki, bunu görən Rusiya da terrorçu təşkilatlar yaradaraq onların vasitəsi ilə ermə-

niləri mütəşəkkil üsyanlara hazırlamaq və məsələni öz xeyrinə həll etmək istəyirdi. Bu zaman Rusiya eyni zamanda iki mühüm problemi həll etmiş olurdu. Birinci, Osmanlı dövlətinin onsuz da zəiflədiyi bir dövrdə ermənilərin törədəcəyi kütləvi qırğınlar ona ağır zərbə olacaqdı. İkinci, Türkiyə qırğınların qarşısını almaq üçün müvafiq tədbirlər görməyə məcbur olacaqdı ki, hər iki hal Rusiyanın yuxarıda qeyd etdiyimiz planını (xristianların incidilməsi, ermənilərin qırılması, köçürülməsi və s. barədə hay-küy qaldırmaqla) gerçəkləşdirməyinə əlverişli zəmin yaradacaqdı. Rusiyanın problemi müqavilələr vasitəsilə həll etmək siyasətini erməni terrorçu təşkilatlarınm təşkil edilməsi yolu ilə əvəz etməsi də məhz rusların Berlin konqresində mövqelərini əldən verməsi ilə bağlı idi. Təsadüfi deyildir ki, ermənilərin bu tarixədək sırf terrorçuluq fəaliyyəti göstərən ciddi siyasi təşkilatları olmamışdır. Beləliklə, XIX yüzilliyin ikinci yarısında Rusiyanın xarici işlər naziri Lobanov-Rostovskinin hazırladığı «Rusiya hüdudları daxilində ermənilərsiz Ermənistan» planı ilə çarizm «erməni məsələsi»ndən istifadə edərək Şərqi Anadoluya sahib çıxmaq məqsədini güdürdü. Lakin erməni terorrçu təşkilatlarının yaradılması, onların silahla təchizatı və dəstəklənməsi işində, Avropa dövlətləri, xüsusən İngiltərə Rusiyadan heç də geri qalmadı.

Beləliklə, bəhs edilən amillərin bilavasitə təsirilə XIX əsrin ikinci yarısında Rusiyanm təhrikilə yaranmış və sonradan həm də bölgədə marağı olan Avropa dövlətlərinin (xüsusən İngiltərənin) dəstəyini qazanmış dörd əsas erməni terrorçu siyasi təşkilatını qeyd etmək olar: Armenakan, Hnçaq, Daşnaksütyun və Ramkavar. Bu erməni partiyalarının Azərbaycanda, o cümlədən Naxçıvanda terrorçuluq fəaliyyəti tədqiqat baxımından maraq doğurduğu üçün onların təşəkkül tapma tarixinə nəzər salmaq faydalı

olardı.

a) Armenakan. Bu, erməni inqilabi terrorçu partiyası kimi yaradılan ilk mütəşəkkil siyasi təşkilatdır. Partiya 1885-ci ildə Marseldə «Armeniya» qəzetini buraxan İstanbulda müəllimlik təhsili almış vanlı Mkrtıç Portakalyanın doqquz nəfər tələbəsi tərəfindən yaradıldığını bildirirlər. Onlar müəllimlərinin naşiri olduğu qəzetdə fəaliyyət göstərmiş, sonra isə ayrılaraq qəzetin adına uyğun Armenakan adlı partiya təsis etmişdilər (144, s. 53). M.Portakalyan özü bu partiyanın təşkilində iştirak etməsə də onun bu işə təsiri də yox deyildi. Tələbələr isə A.Təhməzyan, Q.Təhməzyan, R.Şatavaryan, Q.Adyan, Q.Acemyan, M.Barutciyan, G.Hancıyan, Q.Beozikyan, Q.Manukyan familiyalı erməni gəncləri idilər. Partiyanın başlıca məqsədi Şərqi Anadolu əraziləri hesabına erməni dövlətinin yaradılmasına nail olmaq idi. Armenakan partiyasının Türkiyənin Muş, Bitlis, Trabzon, İstanbul şəhərlərində, İranın Salmas və Təbriz şəhərlərində, eləcə də ABŞ-da şöbələri var idi. Gələcəkdə qurulması nəzərdə tutulan erməni dövlətinin fəaliyyətində iştirak etməsi üçün müxtəlif bölgələrdən seçilən erməni gəncləri partiyanın köməyi ilə Avropaya təhsil almağa göndərilir (121, I c., s. 102), burada lazımi şəkildə təlimatlandırıldıqdan sonra geri qaytarılırdı.

Armenakan partiyası Hnçaq, xüsusən Daşnaksütyun partiyası yaradıldıqdan sonra arxa plana keçdi və bir müddət sonra fəaliyyətini dayandırdı. Onun fəal üzvləri isə daşnakların sıralarına qoşuldular. Sonrakı müddətdə erməni hərəkatında «armenakanlar» adının şamil edildiyi qruplar mövcud olmuşdu.

b) Hnçaq partiyası. Bu partiya 1887-ci ilin avqustunda İsveçrənin Cenevrə şəhərində Qafqazdan olan ermənilər Avetis Nazarbekyan (Lorents), sonradan onun arvadı

olmuş Maro (Mariam) Vardanyan adlı qadın və onların dostları olan Qabriel Qafeyan (Şmavon), Ruben Xanazat-yan (Xanazat), X.Ohanesyan, Q.Qaracyan (S.Arkomed) tərəfindən yaradılmışdı. Partiyanı yaradanlar Avropaya ali təhsil almağa gedən Rusiyanın imkanlı erməni ailələrindən yeddi nəfər gənc olmuşdur. E.Uras yazır ki, Hnçaqın yaradıcıları və fəal üzvləri XIX əsr rus inqilabi fikrinin tanınmış nümayəndələri Gertsen, Bakunin, Lovrov və Çernışevskinin ideyalarının təsiri altında idilər. O, «Hnçaq» sözünün mənası («zəng») ilə həmin dövrdə Rusiya cəmiyyətində çox məşhur olan Gertsenin adının mənası eyni olan «Kolokol» əsəri arasında kifayət qədər inandırıcı görünən bir oxşarlıq görür (149, s. 440).

Hnçaq 1890-cı ildən Türkiyədə də öz fəaliyyətini genişləndirməyə başladı. İstanbulda partiyanın təşkilatını yaratmaq üçün Tiflis erməniisi Şimavon, Trabzondan rus təbəəsi R.Xanazad, Batumdan H.Meqavoryan, İrandan isə S.Danielyan gəldilər. İki ay davam edən müzakirələrdən sonra partiyanın İstanbul şöbəsi yaradıldı və 1890-cı ildə İstanbulda müzakirələrdən əvvəl yaradılmış inqilabçı-terrorçu erməni təşkilatı da Hnçaqa birləşdi (149, s. 441). İstanbuldan sonra partiyanın Bafra, Merzifon, Amasya, Toqat, Yozqat, Eyin (Kəmalıyə), Arapkir və Trabzonda da yerli təşkilatları təsis edildi. Bundan sonra partiya əsas fəaliyyət meydanı kimi Türkiyə Ermənistanı ərazisini seçir.

Partiyanın mərkəzi qərargahının sonradan Londona köçürülməsi Hnçaqın İngiltərənin himayəsi ilə yaradıldığı və sonradan bilavasitə onun təsiri altına düşdüyünü söyləməyə əsas verir. Lakin bu da məlumdur ki, Hnçaq sonrakı fəaliyyətində ideoloji baxımdan sosial-demokrat ideyalarını müdafiə etməklə 1918-ci ildə daşnaklar tərəfindən işğal edilərək iki il mövcud olan daşnak istila reji-

mindən sonra 1920-ci ildə sovet Rusiyası tərəfindən Qərbi Azərbaycan torpaqları hesabına erməni sovet dövlət qurumunun yaradılmasını alqışlamış və sovet Ermənistanını həmişə müdafiə və təbliğ etmişdir. Armenakan kimi, bu partiyanın da əsas məqsədi Şərqi Anadolunun Türkiyədən qoparılmasına nail olmaq, buranı Rusiya və İranda ermənilərin yaşadıqları ərazilərlə birləşdirib azad, müstəqil, vahid dövlət yaratmaq – mifik «Böyük Ermənistan»ı «bərpa etmək» idi. Azərbaycan, o cümlədən də Naxçıvan bu planlarda əlahiddə yer tuturdu.

Partiya məqsədə çatmaq vasitəsi kimi terrorçu təşkilatlar və silahlı atlı inqilabçı dəstələr yaratmaq niyyətini də açıq-aşkar bəyan etmişdi (149, s. 431-442). Partiya üzvü olan terrorçulardan birinin aşağıdakı sözləri Hnçaqın Türkiyədəki məqsədlərini və fəaliyyət strategiyasını açıq şəkildə ortaya qoyur: «Hnçaq dəstələri türkləri öldürmək üçün fürsət axtaracaqlar, onların kəndlərini yandıracaq və sonra dağlara qaçacaqlar. Təhriklərə dözə bilməyən müsəlmanlar müdafiəsiz ermənilərə hücum edəcək və onları o qədər qıracaqlar ki, Avropa insanlıq və xristian təəssübkeşliyi naminə vəziyyətə müdaxilə edəcəkdir... Biz ermənilər azadlıq istəyirik. Avropa bolqarların terroruna səs verdi və Bolqarıstanın azadlığını təmin etdi. Milyonlarla qadın və uşağın acı fəryadları və qanlarının axması nəticəsində bizim də səsimizi eşidəcəkdir... Biz ümidimizi itirdik. Bunları edəcəyik» (163, s. 48).

1897-ci ildə Hnçaq beş bölmədən ibarət Proqramını elan etmişdi (155, s. 203). Hnçaqın proqramının maddələrindən birində deyilirdi: «İstənilən şəraitdə türkləri və kürdləri öldürməli, öz amallarına xəyanət edən ermənilərə heç vaxt aman verməməli, onlardan qisas almalı» (168, s. 13). Hnçaq yarandığı ilk illərdən başlayaraq Türkiyədə dəfələrlə terror hadisələrinin təşkilatçısı və fəal iştirakçısı

oldu. Bu təşkilat öz qarşısına çox böyük məqsəd qoymuşdu: «...Türkiyədə müstəqil Ermənistan yaradılandan sonra inqilab Rusiya və İran Ermənistanına yayılacaq və federativ Ermənistan qurulacaqdır» (100, s. 77).

Partiya müxtəlif vasitələrlə Londonda nəşr edilən «Hnçaq» və Marseldə nəşr edilən «Armenia» qəzetlərinin ayrı-ayrı nömrələrini Türkiyəyə gətirir və ermənilər arasında yayırdı. Ermənilərdən həm könüllü, həm də hədə-qorxu yolu ilə yığılan pullara Rusiyadan silah alınır və ermənilərin daha çox sıx məskunlaşdıqları ərazilərə terror əməliyyatlarına başlamaq üçün göndərilirdi. Bununla da Rusiya həm ideoloji, həm də terrorçu qüvvələrə nəzarət baxımından Hnçaq təşkilatlarına nəzarəti ələ keçirmiş olurdu.

Lakin Rusiyada 1897-ci ildə verilmiş erməni qriqorian kilsəsinin nəzdində olan məktəblərin xalq maarifi nazirliyinə tabe edilməsinə dair və 12 iyun 1903-cü il tarixli qriqorian kilsəsi əmlakının müsadirə edilməsi barədə qanunlardan sonra Hnçaq kəskin antirusiya mövqeyinə keçmişdi. Hətta bu qanunların verilməsindən sonra çar Sarayını lənətləyən və erməniləri hökumətə qarşı itaətsizliyə çağıran Eçmiədzin kilsəsində «Patorik» adlı ruhani partiyası da yaradılmışdı. Bu vaxt Hnçaqın da daxil olduğu erməni hərəkatında antirusiya meyli xeyli gücləndi. Yalnız 1909-cu ildə keçirilən V qurultayında iki yerə parçalandıqdan sonra «Yenilənmiş Hnçaq» yaranmış ictimai-siyasi şəraitdə Rusiya hakim dairələri ilə ittifaqda Türkiyəyə qarşı mübarizə aparmaq barədə qərar qəbul etmişdi (155, s. 204, 211-212).

XIX əsrin sonu-XX əsrin əvvəllərində ermənilərin Cənubi Qafqaza növbəti kütləvi köçündən sonra erməni terrorçu hərəkatının böyük bir qüvvəsi də bu bölgəyə keçmiş oldu və Cənubi Qafqazda daha bir güclü mərkəz yarandı.

Bu zaman Hnçaqdan başqa və ona nisbətən daha mütəşəkkil təşkilat olan, Tiflisdə və Bakıda öz mərkəzi komitələrini yaratmış Daşnaksütyun partiyası da fəallaşmışdı. Hnçaqın Bakı təşkilatı X.S.Məlik-Ağamiryanın başçılığı altında, güman ki, 1892-ci ildə yaradılmışdı. Daha sonra O.Ovanesyan başçılıq etdiyi bu təşkilat «İnker» (Yoldaş), «Banvor» (Fəhlə) və «Murad» adlandırılmış üç şöbəni öz tərkibində birləşdirmişdi. 1902-ci ildə isə hnçaqçılar Şuşa və Gəncədə öz şöbələrini təsis etmişdilər (155, s. 202-203, 207).

Hnçaqın dövri mətbuat orqanları Cenevrədə nəşr olunan «Hnçaq» jurnalı, Tiflisdə «Paykar» (Mübarizə) (XX əsrin ortalarından bu qəzet ABŞ-ın Boston şəhərində işıq üzü görür – E.C.), İstanbulda «Kayts» (Qığılcım) qəzetləri idi. Bakıda hnçaqçıların ilk qəzeti 1918-ci ildən nəşr edilən «Mer Orer» (Bizim günlər) idi. Bütövlükdə isə 1887-ci ildən 1922-ci ilədək Amerika, Avropa və Asiyada 41 adda qəzet və jurnal buraxırdı (155, s. 209).

c) Daşnaksütyun partiyası (Erməni inqilabçı cəmiyyətlər ittifaqı). 1890-cı ildə S.Zavaryan, X.Mikaelyan, S.Zoryan, M.Vardanyan və başqaları tərəfindən Tiflisdə yaradılmış bu partiyanın ilk əvvəllər əsas məqsədi Hnçaq, Tiflisdəki Gənc Ermənistan və mərkəzi Vanda olan Armenakan təşkilatlarını birləşdirmək, terror və üsyan yolu ilə Şərqi Anadolunun iqtisadi və siyasi müstəqilliyinə nail olmaq idi. Təsis edilən zaman xüsusi proqram qəbul etməkdə marağı olmayan partiya ilk dövrlərdə özünün mətbu orqanı olan, 1890-cı ildən nəşr edilən «Droşak» («Bayraq») qəzetinin adı ilə Droşak komitəsi, daşnaklar isə droşakçılar kimi də tanınırdılar. 1891-1892-ci illərdə üç bəyanatla erməni xalqı və təşkilatlarına özünün məqsəd və ideyalarını açıqlasa da (161, s. 9), tezliklə Daşnaksütyun proqramının, strategiya və taktikasının müəyyən

edilməsi zərurəti ilə qarşılaşdı. Bu məqsədlə 1892-ci ildə Cenevrədə 32 nümayəndənin iştirakı ilə Daşnaksütyunun I qurultayı keçirildi. Qurultay partiyanın son məqsədinin Şərqi Anadolu torpaqlarında müstəqil demokratik respublika qurulması olduğunu elan etdi. Həmin məqsədə nail olmaq üçün aşağıdakı mübarizə üsulları müəyyən edildi: 1) silahlı üsyan; 2) yalnız ermənilərin deyil, Osmanlı hakimiyyəti altında olan bütün xalqların ardıcıl olaraq inqilabiləşdirilməsi; 3) ermənilərin silahlandırılması və təşkilatlandırılması; 4) hökumət adamlarının və müəssisələrinin terror yolu ilə məhv edilməsi (149, s. 446). Təşkilati cəhətdən çox mürəkkəb struktura malik olan Daşnaksütyunun 1892-ci ildə qəbul edilmiş bu ilk proqramı Rusiyadakı məşhur «Narodnaya volya» təşkilatının proqramı əsasında hazırlanmışdı. Bunun əsas səbəbi təşkilatın əsas qurucularından hesab edilən Xristofor Mikaelyanın əvvəllər «Narodnaya volya»nın üzvü olması idi. Daşnaksütyun eyni zamanda sosial cəhətdən aşağı təbəqəyə mənsub olan ermənilər arasında nüfuz qazanmaq məqsədi ilə bəzən marksizm ideyalarından da istifadə edirdi (14, III c., s. 353).

Yeri gəlmişkən, 1918-ci ildə Azərbaycanda, xüsusən paytaxt Bakıda törədilmiş soyqırım zamanı S.Şaumyanın başçılıq etdiyi leninçi-kommunistlərlə daşnakların antiazərbaycan əməkdaşlığı, 1920-ci ildən sonra Qərbdə öz fəaliyyətini davam etdirən daşnakların sovet hakimiyyətini rəğbətlə qarşılaması, sovet Rusiyası tərəfindən Qərbi Azərbaycan torpaqlarının işğalçı daşnak rejimindən azad edilib erməni sovet idarəçiliyinə verməsinə sonradan liberal yanaşmaları da daşnaklarla kommunistlərin əqidə yaxınlığını söyləməyə imkan verir. Burada təbii ki, belə bir erməni deyimini xatırlamaq yerinə düşür ki, siyasi əqidələrindən asılı olmayaraq hər bir erməni ilk növbədə ermə-

nidir, daha sonra armenakan, hnçaqçı, daşnak, ramkavar, kommunist və s.-dir. Hnçaqçılardan fərqli olaraq yarandığı dövrdən bu günədək daşnaklar seçdikləri terrorçu mübarizə taktikasına daim sadiq qalmış və heç vaxt bundan imtina etməmişlər.

Daşnaksütyunun tərkibində burjuaziya ilə yanaşı millətçi ziyalılar, şəhər xırda burjuaziyası mühüm yer tuturdu. Müxtəlif millətçi ünsürlər, Naxçıvan, Təbriz, Bakı, Tiflis və başqa şəhərlərdəki erməni fəhlə və kəndliləri də bu partiyaya daxil olurdular. Belə geniş sosial spektrə öz təsirini saxlamaq məqsədi ilə 1905-1907-ci illər Rusiya inqilabı başladıqdan sonra, 1905-ci ilin sonunda Daşnaksütyun özünü həm də sosialist yönümlü partiya elan etmişdi. Bu, Qafqazda özünün sosial dayaqlarını itirmək qorxusundan irəli gəlsə də, həm də onunla bağlı idi ki, həmin addımı ilə Daşnaksütyun II İnternasionala daxil olmaqla mühüm təbliğat tribunası əldə etmək və beləliklə, erməni məsələsinə beynəlxalq sosialist hərəkatının diqqətini cəlb etmək məqsədini güdürdü (155, s. 220).

Partiya 1892-ci ilin payızında Tiflisdə keçirilən geniş toplantısında xainlərə, casuslara, düşmən xəfiyyələrinə qarşı sui-qəsdlərin təşkil edilməsi, ermənilər yaşayan bölgələrə silah göndərilməsi, onların fəal şəkildə silahlandırılması və döyüş təlimlərinin keçilməsi, gənclərin və bütün ermənilərin baş verəcək hadisələrə hazırlanması qərarına gəldi. Serop, Andranik, Tatol, Aşot, Arziv, Avak, Hrayr və digər quldurların rəhbərliyi ilə silahlı dəstələr təşkil edildi.

Daşnaksütyunun 1904-cü ildə keçirilən III qurultayında partiyanın Hərbi nizamnaməsi qəbul olundu və ciddi nizami silahlı dəstələrin yaradılmasına başlandı. Bu dəstələr xumba, onları təşkil edən əsgərlər isə zinvor adlanırdılar. 1907-ci ildə keçirilən IV qurultayından sonra

partiya yenidən təşkilatlanaraq daha effektli mübarizə aparmaq üçün qərargahı Cenevrədə olan Qərb və iqamətgahı Tiflisdə olan Şərq bürosu olmaqla iki mərkəzi komitədə iş aparmaq qərarını verdi. Şərq bürosu Qafqaz, Rusiya və İranı, Qərb bürosu isə Kiçik Asiya, Amerika, Balkan yarımadası, Misir və bütövlükdə Rusiyadan kənarda olan əraziləri əhatə edirdi (155, s. 223).

Şərq bürosunun terrorçu silahlı dəstələr yaratmaq istiqamətində apardığı fəal işlə yanaşı partiyanın Qərb bürosu təbliğat işlərini genişləndirməkdə idi. Mərkəzi Cenevrədə olan Qərb bürosunun Parisdə nəşr etdirdiyi «Pro-Armenia» adlı qəzetlə yanaşı «Paylak», «Yerkir», «Jamanak», «Droşak», «Xaraç», «Alik», «Hayrenik», «Razmik» adlı komitə qəzetləri də Avropa ictimai fikrinə ermənilərin xeyrinə təbliğat yeridirdi. Paris, London, Brüssel, Berlin, Leypsiq, Cenevrə, Sürix, Roma, Milan və s. Qərbi Avropa şəhərlərində ermənilər əlverişli şərait əldə etmiş, Brüsseldə uluslararası erməni dostları konqresi keçirilmiş, Fransa, İngiltərə, İtaliya, Belçika, Hollandiya parlamentlərində ermənilər haqqında məlumatlar dinlənilmişdi (149, s. 450-451). Şərq bürosunun nəzarəti altında da geniş mətbuat şəbəkəsi yaradılmışdı. Tiflisdə sistematik şəkildə yenidən çap olunan «Droşak»la bərabər «Mşak», «Qorts», «Vtank» qəzetləri, «Borba» adlı şagird təşkilatının jurnalı, 1907-1908-ci illərdə Bakıda «Qro» və «Şepor», 1912-ci ildə «Arev», İrəvanda «Razdan», Aleksandropolda «Jayr» qəzetləri nəşr edilirdi (155, s. 224).

Daşnaksütyunun ayrı-ayrı regionlarda yaradılmış komitələrinin yerləri qismən müəyyənləşdirilmişdir. Digərlərinin yerləşməsinə əsasən, sənədlər olmasa belə, demək olar ki, əminliklə onların mövcud olduğu şəhərlərin adını göstərmək olar. Qafqazdakı şəhərlər bunlardır: Bakı – «Voskanapad», Tiflis – «Böyük şəhər», («Medz-Kaxak»),

Batum – «Navaqankist», Qars – «Carapert», İrəvan – «Mirkastan», Aleksandropol – «Kar», və Şuşa – «Aparaj». Cəmi 7. İranda – Tehranda və Təbrizdə. Şərqi Annadoluda, Kiçik Asiyada, Ərzurum və Vanda. Bütün bu 13 və ya 14 (ola bilər ki, daha çox) Tiflisdə yerləşən yuxarı orqana – Şərq bürosuna tabe olmayan, lakin nəzarət altında olan mərkəzi komitələrdir. Ehtimal ki, Bakı şəhərində (Daşnaksütyunun mərkəzi komitələri) Şimali Qafqaz, Bakı quberniyası və Yelizavetpol quberniyasının şərq hissəsi, ikincisi Qarsda və ya İrəvanda artıq Ermənistanın azad olunmuş hissələrinin idarə edilməsi üçün mövcuddur (mərkəzi komitələr: Qars, İrəvan, Naxçıvan, Şuşa) (170, s. 76). Daşnaksütyunun Gəncə (Yelizavetpol) komitəsi 1903-cü ildə «Ayqestan komitəsi» adı ilə arximandrit Benik və hərbi həkim M.Bəylərovun başçılığı altında yaradılmışdı. Başqa bir məlumata əsasən 1904-cü ildə keçirilən III qurultayın hesabatına görə, daşnak partiyasının 21 mərkəzi komitəsi (bunlardan 11-i Cənubi Qafqazda yerləşirdi) vardı. Bu komitələrin hər biri nömrələri ilə yanaşı yerləşdikləri şəhərlərin şərti adı ilə də adlandırılırdı. İrəvandakı komitə «Mirkastan», Moskvada yerləşən isə «Yekeqets» adlanırdı (155, s. 215, 223).

1890-cı il sentyabrın 24-ə aid olan bir arxiv sənədində bildirilir ki, Naxçıvan erməni komitəsi topladığı 1700 rublla aldığı silahları Cənubi Azərbaycanın Salmas qəsəbəsinə göndərmiş, bu silahlar şübhə doğurmamaq üçün üzüm tingləri içərisində araba ilə aparılmışdı (133, s. 8). Bu məlumat sübut edir ki, Daşnaksütyunun yarandığı zaman Naxçıvanda yaşayan ermənilər də icma kimi təşkilatlana bilmiş, azərbaycanlılara qarşı törədilməsi planlaşdırılan qanlı cinayətlərdə fəal iştirakçılığa başlamışdılar. İlk dövrlərdə Naxçıvandakı erməni komitəsinin əldə etdiyi silahları Cənubi Azərbaycana göndərməsi isə qırğınla-

rın buradan başlaması və ya silahların Şərqi Anadoluya həmin ərazidən daha asan ötürülməsi planı ilə bağlı idi.

1905-1907-ci illərdə Azərbaycanda həyata keçirilən antitürk soyqırımında aralarındakı müəyyən ziddiyyətlərə rəğmən Daşnaksütyunla Hnçaq əlbir hərəkət etmişdilər. Bu dövrdə geniş terrorçuluq fəaliyyəti göstərən daşnaklar özlərinin antitürk planlarına qarşı çıxan hər bir kəsi ölümə məhkum edirdilər. «Daşnaksütyunun partiya terrorundan inzibati vəzifə tutan bir çox şəxslər; general Əlixanov, Bakı qubernatoru knyaz M.Nakaşidze, Yelizavetpol vitse-qubernatoru Andreyev, qəza rəisləri Boquslavski, Şmerlinq, Neşşanski, Pavlov, polis rəisi Saxarov, pristav Cavaxov və Şumakeviç, sərhəd dəstəsinin polkovniki Bıkov və digərləri həlak olmuşdular» (170, s. 76).

1908-ci il dekabrın 24-də Gəncə ermənisi Vahan Vartazarov-Osipov RSDFP Tiflis şöbəsinin «Borba» adlı kitabçası ilə bərabər 71 ədəd ermənicə kitabça və 52 ədəd açıqca ilə dolu çemodanla Naxçıvanda rus kazakları tərəfindən saxlanılmışdı. Maraqlıdır ki, «Borba» kitabçasında «naməlum müəllif» «erməni məsələsi»ni qaldırır və «Qafqazın bütün xalqlarına başqa dövlətlərdə olduğu kimi, bərabər hüquqlar tələb edirdi». Açıqcaların üzərində üstünə silahlanmış kütlənin hücum etdiyi ağlayan qadın təsviri, onun altında isə «düşməndən qisas» tələb edən erməni hərəkatı haqqında erməni dilində şerlər yazılmışdı (88, iş 18, v. 1-14). Tiflis məhkəməsi 1909-cu il dekabrın 23-də V.Vartazarova 8 aylıq həbs cəzası da kəsmişdi. Təbii ki, həmin ermənin həqiqətən sosial-demokrat olduğu şübhəli görünür. Şübhə yoxdur ki, o, sosial-demokrat pərdəsi ilə gizlənən erməni terrorçu təşkilatlarından birinin, böyük ehtimalla, Daşnaksütyunun üzvü olmuşdur. Çünki Rusiyada 1917-ci il oktyabr inqilabı qalib gələnədək RSDFP milli məsələdə ehtiyatlı hərəkət edirdi.

1918-ci il mayın 28-də Qərbi Azərbaycan torpaqlarında işğalçı erməni rejimini daşnaklar digər erməni siyasi təşkilatlarından ayrı, təkbaşına qurmuşdular. 1919-cu il avqustun 1-də açılan işğalçı rejimin parlamentinin 80 üzvdən 72-i (90 faizi) daşnak idi, yalnız eserlər partiyasına 4 yer verilmişdi. Bu, əslində parlament deyil, Daşnaksütyunun bir təşkilatı idi (149, s. 674). Daşnakların təkbaşına siyasi hakimiyyət əldə etmələri sübut edir ki, məhz digər erməni millətçi siyasi partiyalarına nisbətən daha mütəşəkkil qüvvə olan daşnaklar həm də maraqlı xarici dövlətlərdə, xüsusən İngiltərə və Rusiya hakim dairələrində lazımi dayaq tapa bilmişdilər.

d) Ramkavar partiyası. Hnçaq kimi Rusiyaya meylliliyi ilə fərqlənən Ramkavar partiyasının rəsmi adı «Erməni Demokratik Liberal Partiyası»dır. 1908-ci ildə İstanbulda yaradılsa da, Ramkavar özünün mərkəzi qərargahına uyğun yer kimi ABŞ-ın Massaçusets ştatını seçmişdir. Partiya «erməniliyin xilası» üçün digər erməni təşkilatlarının sıx münasibətlər yaratmasını, daha ciddi təsirə malik təşkilatların yaradılmasını fəaliyyətində əsas tuturdu. Ramkavar partiyası təkbaşına və gizli fəaliyyətə üstünlük verirdi. Yeri gəlmişkən, son illərdə Azərbaycanın cəlb olunduğu Ermənistanla münaqişə dövründə ölkəmizin məruz qaldığı terror aksiyalarında bu partiya da fəal rol oynamışdır. Son dərəcə məxfi fəaliyyət göstərən Ramkavar erməni fəaliyyətlərinin «qapalı qutusu» kimi qiymətləndirilir. Bu səbəbdəndir ki, digər erməni təşkilatlarından fərqli olaraq Ramkavar haqqında yayılan məlumatlar çox məhduddur. Bununla belə, məlumdur ki, partiya dini mərkəz kimi Eçmiədzin kilsəsinə bağlıdır və qriqorian kilsəsi, eləcə də bir sıra Qərb dövlətləri tərəfindən müdafiə olunur. Əsas mətbu orqanları isə ABŞ-da erməni dilində çıxan gündəlik «Paykar» qəzeti və ingilis dilində həftədə

iki dəfə nəşr olunan «Miror-Spektator» qəzetidir (149, s. XCVIII). Ramkavar partiyası 1921-ci ildə yenidən, bu dəfə «Ramkavar-Azatakan» adı ilə təsis konfransını keçirmiş və sovetlər birliyi dağıldıqdan sonra, 1991-ci ildə Ermənistanda rəsmi qeydiyyatdan keçmişdir. Bu partiya hazırda da ermənilərin Daşnaksütyun və Hnçaqla bərabər üç tarixi ənənəvi partiyasından biri hesab olunur.

XIX-XX əsrlərin qovuşuğunda ermənilər terrorçu siyasi təşkilatları təsis etməklə bədnam «Böyük Ermənistan» planlarını həyata keçirmək üçün terror, kütləvi qırğın və digər qanlı cinayətlər yolunu seçdilər. Bu təşkilatların içərisində Daşnaksütyun həm üzvlərinin sayına, həm maliyyə imkanlarının genişliyinə və ermənilər arasında populyarlığına, həm də türklərə qarşı yaradılmış geniş terrorçu hərbi dəstələr şəbəkəsinə görə öncül yer tuturdu. 1890-cı ildə erməni millətçi təşkilatlarını birləşdirmək məqsədini elan edərək yaradılan Daşnaksütyuna ilk vaxtlarda Hnçaq partiyasının da qoşulacağı güman edilirdi. Lakin həmin ilin sonunda Hnçaqın birləşmədən imtina edərək qismən qapalı fəaliyyətə keçməsi erməni hərəkatına rəhbərliyin Daşnaksütyunun əlində cəmləşməsinə səbəb oldu. Hnçaq 1891-ci il iyunun 5-də daşnaklarla əlaqələrini tam kəsdi (130, s. 133). Bununla belə, tarixən Anadolu və Azərbaycan türklərinə qarşı qanlı cinayətlərdə, soyqırım və deportasiya siyasətində bu iki siyasi qüvvə həmişə eyni mövqedən çıxış etmişlər.

Ermənilər Türkiyə ərazisindəki ilk iğtişaşlara siyasi təşkilatlanma mərhələsindən çox əvvəl – hələ XIX əsrin 60-cı illərindən başlamışdılar. XVIII əsrin 80-ci illərindən daha çox dövlətə vergi ödəməmək və quldurluq hərəkətləri ilə yadda qalan ermənilər Osmanlı dövləti tərəfindən 1860-cı ildə Livana müstəqillik verilməsindən sonra öz narazılıqlarının mahiyyət və xarakterini dəyişdilər. Siyasi

tələblərin irəli sürüldüyü ilk erməni üsyanı 1862-ci ildə Zeytunda – 1618-ci ildə osmanlı sultanı IV Murad tərəfindən muxtariyyət hüququ alan vilayətdə törədildi. Üsyançılar üzərinə ordu göndərilsə də, Fransanın müdaxiləsi Zeytunun muxtariyyətinin saxlanması ilə nəticələndi. Qarabağ ərazisindən, Xaçından Zeytuna gəlmiş Levon Lusinyanın və Arutyun Çakıryanın Fransadan müstəqillik əldə etmələrinə yardım istəmələri Zeytunda yaşayan ermənilərin katolik olmaması səbəbindən fransızların ciddi marağına səbəb olmamışdı. Zeytunda erməni üsyanları sonrakı illərdə də eyni mahiyyətdə dəfələrlə təkrarlanmışdı (62, s. 88-89).

Bundan sonra ermənilər öz məqsədlərinin müdafiəsi üçün beynəlxalq müdafiə axtarmağa başlamış və bunu 1878-ci il Berlin konqresində əldə etmişdilər. Məhz bu konqresdən sonra qriqorian kilsəsinin liderlik etdiyi erməni hərəkatı daha da azğınlaşmış, öz mütəşəkkillik və təşkilatlanma mərhələsinə qədəm qoymuşdu. 1882-ci ildən 1909-cu ilədək olan dövrdə ermənilər təkcə Türkiyədə 38 böyük üsyan qaldırmışlar ki, bunların da 30-a yaxını 1895-1909-cu illər ərzində (144, s. 135) bilavasitə erməni siyasi təşkilatlarının rəhbərliyi ilə olmuşdur. 1890-cı ilin fevralında Ərzurumda və onun ardınca həmin il iyulun 15-də İstanbulun Qumqapı səmtində erməni terrorunun nəticəsi kimi baş verən qanlı hadisələr XIX əsrin 90-cı illərində Türkiyədə xüsusi silsilə təşkil edən hadisələrin başlanğıcı olmuşdu. Həm Ərzurum hadisələrini, həm də Qumqapı nümayişini təşkil edən Hnçaq fəalları məqsədlərinin böyük dövlətlərin diqqətinin «erməni məsələsi»nə cəlb etmək olduğunu qeyd edirdilər. Bir müddət sonra hnçaqçılara daşnaklar da qoşulduqda hadisələr daha faciəli şəkil almağa başladı. 1890-cı ildə Ərzurumda, 1892-1893-cü illərdə İstanbulda, Kayseridə, Yozqatda,

Çorumda, Merzifonda, 1894-cü ildə Sasunda, 1895-ci ildə Zeytunda və Türkiyənin bir çox bölgələrində, 1896-cı ildə Vanda erməni təşkilatları qanlı iğtişaşlar təşkil etdilər (178, s. 22-23 ).

Erməni milli hərəkatının lokomotivinə çevrilən Daşnaksütyunun rəhbərliyi öz planlarını həyata keçirmək üçün təşkil etdikləri iğtişaşlarda təhrikedici addımlar ataraq hökumət qüvvələri tərəfindən daha çox dinc erməninin öldürülməsinə nail olmağa çalışırdılar. Hətta bir sıra hallarda «ümumi işə» yardım etməyən ermənilərin məhvi haqqında da rəsmi qərarlar qəbul olunur və digər yardımdan boyun qaçıranlara ibrət olsun deyə dərhal icra edilirdi ki, bu cinayətlər də çox vaxt türklərin ayağına yazılırdı. Onların sonrakı mərhələlərdə də dəfələrlə təkrar etdikləri bu taktiki addımda məqsədləri özlərinin «zavallı», «məzlum», «əzabkeş» xalq olduqlarına böyük dövlətləri inandırmaq və onların ermənilərə daha fəal kömək etmələrinə nail olmaq idi. Hadisələrdə bölgələrdəki erməni kilsələri silah ambarı və erməni cəlladlarının gizlənməsi üçün toxunulmaz sığınacaq rolunu oynayır, bir çox hallarda isə birbaşa qırğınların əsas təşkilatçısı kimi fəaliyyət göstərirdi. İstanbul erməni kilsəsinin patriarxı Mateos İzmirliyan bu baxımdan xüsusilə fərqlənirdi. Türkiyə tarix ədəbiyyatı bu şəxsin cinayətlərdə fəal təşkilatçılığına və iştirakına dair xeyli faktlar mövcuddur (121, I c., s. 379-394). M.İzmirliyan 1895-ci il sentyabrın 30-da İstanbulda təşkil edilmiş «Babi-Ali nümayişi» adı ilə məşhur olan qanlı hadisələrin rəhbəri və təşkilatçısı olduğu üçün Osmanlı hökuməti tərəfindən Qüdsə sürgün edilmişdi. Lakin 1908-ci ildə Türkiyədə ikinci dəfə Konstitusiya elan edildikdən sonra yenidən İstanbula qayıdaraq erməni kilsəsinin patriarxı, az sonra isə Eçmiədzin katolikosu seçilmiş və sonrakı fitnəkar hadisələrdə yenə də yaxından

iştirak etmişdi.

Bu dövrdə erməni təşkilatlarının – istər kilsənin, istər də terrorçu siyasi partiyaların qanlı hadisələrdə iştirakına dair çoxlu tarixi faktlara rast gəlinir. Bəzi hallarda erməni iğtişaşlarında bu təşkilatlar təkbaşına fəaliyyət göstərsələr də, bir çox qanlı cinayətlər onların əlbir fəaliyyəti nəticəsində törədilmişdi. Bu baxımdan V.Qurko-Kryajinin «1890-cı ilin sonundan Hnçaq səhnədən gedir və ermənilərin yeganə rəhbər təşkilatı Daşnaksütyun olur» (1̒60, s. 8) fikri həqiqətlə uzlaşmır. Çünki Hnçaqın sonrakı mərhələlərdə də terror aksiyalarında fəal iştirakı çoxsaylı faktlarla sübut olunur. Məsələn, 1905-1907-ci illərdə Azərbaycanda, o cümlədən Naxçıvanda törədilən soyqırımda hnçaqçılar daşnaklarla əlbir hərəkət etmişdilər. Bu başqa məsələdir ki, Daşnaksütyun yarandıqdan sonra erməni siyasi təşkilatları arasında aparıcı mövqeyi ələ keçirmişdi. Həmin öncüllüyü daşnaklar öz partiyalarının çoxşaxəli strukturu, bütün sosial zümrələri birləşdirməsi və geniş coğrafi ərazini əhatə etməsi sayəsində qazanmışdılar. Digər tərəfdən Daşnaksütyunun iki əsas özəyindən biri Qafqazda (Tiflisdə) olduğundan onun hadisələrə effektli və çevik təsir imkanı daha böyük idi. Nəhayət, daşnaklar digər partiyalara nisbətən daha çox tərəfdar toplaya bilmişdilər ki, bu da onların öz ideologiyalarını istənilən sosial təbəqənin mənafeyinə uyğunlaşdıra bilmələri ilə bağlı idi. Sadəcə, Daşnaksütyunun erməni hərəkatına liderliyi ələ keçirməsindən sonra Hnçaq «kölgə fəaliyyəti» göstərirdi, yəni qapalı fəaliyyətə keçmişdi.

Hər iki terrorçu təşkilatın Naxçıvandakı qırğınlarda təşkilatçılıq fəaliyyəti faktlarla sübut olunur. 1905-ci il mayın 11-12-də Naxçıvan şəhərində ermənilərin törətdikləri qırğınları əks etdirən «Hnçaq» qəzeti özünün 26 may tarixli sayında yazırdı: «Dünən axşam saat 6-dək biz

azərbaycanlılarla atışdıq. Bizə bunun üçün əlavə olaraq 166 müxtəlif tüfənglər paylanıldı, böyük sayda patronlar verildi, biz təmiz vicdanla şəhərimizi (yəni Naxçıvanı) müdafiə etdik, türkləri layiqincə qırdıq. Hnçaqçılar 2, daşnaklar isə 1 bombadan da istifadə etdilər. Çoxlu türk evləri qarət edildi. Bizə silah paylayan adam yenidən silah dalınca getdi» (bax: 51, s. 39). Bu, azərbaycanlı qırğınlarında Hnçaq-Daşnaksütyun əməkdaşlığını sübut edən mühüm faktdır.

Ordubadlılar 1906-cı ilin avqustunda Zəngəzurun Panuslu və Girdəkan kəndləri yaxınlığındakı döyüşdən sonra Oxçu çayının sahilində aşkar etdikləri iki daşnak cəsədinin üzərindən onların erməni terrorçu təşkilatlarının üzvü olduqlarına dair məktub tapmışdılar. Hər iki məktubda daşnakların öz ailələrinə yazdıqları sözlər ermənilərin bütün millət halında Osmanlı və Azərbaycan türklərinə qarşı ölüm-dirim savaşına qalxdıqlarını sübut edir. Elə həmin vaxt meyitlərin arasından təsadüfən sağ qalmış şəkildə çıxarılan qadının bildirdiyi kimi, ermənilərin qırğın vaxtı azərbaycanlılara dediyi sözlər də (94, s. 133) hadisələrin məhz erməni terrorçu siyasi təşkilatları tərəfindən törədildiyini sübut edir. Belə ki, erməni dəstə başçılarından biri azərbaycanlılardan Osmanlı türklərinin qisasını aldıqlarını bildirirmiş. Məlum olduğu kimi, Türkiyədəki qanlı hadisələr də elə həmin partiyalar tərəfindən törədilmişdi.

«Erməni məsələsi»nin bir tarixi problem kimi meydana çıxmasında və erməni millətçiliyi hərəkatının formalaşmasında olduğu kimi, ermənilərin törətdikləri qanlı iğtişaşlar da beynəlxalq münasibətlərin fonunda izah edilməlidir və yalnız bu zaman baş verən hadisələrin mahiyyətinə daha çox aydınlıq gətirmək olar. Məlumdur ki, XIX əsrin son rübü müstəmləkələr uğrunda iri imperialist döv-

lətlər arasında qütbləşmənin və mübarizənin kəskinləşməsi dövrüdür. Almaniya və İtaliyanın vahid dövlətdə birləşməsinin yalnız 1870-1871-ci illərdə başa çatması bu dövlətləri, xüsusən Almaniyanı geniş müstəmləkələrin işğalı prosesindən kənarda qoymuşdu. İngiltərə, Fransa və Rusiya isə bu dövrədək dünyanın bir çox bölgələrində əlverişli xammal bazaları olan müstəmləkələr ələ keçirmişdilər. Bu prosesə yalnız vahid dövlətə çevrildikdən sonra qoşula bilən Almaniya müstəmləkələr ələ keçirmək üçün digər imperialistlərlə toqquşmanın labüdlüyünü başa düşərək 1879-1882-ci illərdə İtaliya və Avstriya-Macarıstanla «Üçlər sazişi» adlanan hərbi blok yaratmışdı. Öz növbəsində 1891-ci ildə yaradılan Fransa-Rusiya ittifaqı da əslində elə birbaşa «Üçlər sazişi»nə qarşı düşünülmüşdü. Bu ittifaq sonradan İngiltərənin 1904-cü ildə Fransa, 1907-ci ildə Rusiya ilə müqavilə bağladıqdan sonra «Antanta» hərbi blokuna çevrilmişdi.

Lakin «Antanta» bloku yaradılanadək onun üzvü olan dövlətlər, xüsusilə İngiltərə ilə Rusiya arasında uzun müddət Osmanlı imperiyasının əraziləri uğrunda açıq və ya gizli şəkildə mübarizə getmişdi. Haqqında bəhs olunan «erməni məsələsi» də bu mübarizənin predmeti olaraq həmin dövlətilər tərəfindən ortaya atılmış və inkişaf etdirilmişdi. Dövrün Osmanlı sultanı II Əbdülhəmid öz xatirələrində yazır ki, ermənilərin osmanlılardan heç bir narazılığı olmamış, yalnız ruslar onları müxtəlif vasitələrlə türklər əleyhinə qaldırmışdılar. Rusiyanın Vandakı konsulu general Mayevski erməni təşkilatlarının fəaliyyətə başlamasından sonra bölgədə vəziyyətin gərginləşdiyini deyirdi. İngiltərənin Ərzurumdakı konsulu Qreyvs də «Nyu-York Herald» qəzetinin müxbiri Sidari Uitmenin sualına cavabında qeyd etmişdi ki, əgər erməni terrorçu təşkilatlarının məlum fəaliyyətləri olmasaydı, «inanmıram

ki, bir tək erməni öldürülmüş olsun» demişdi (135, s. 67-69). Erməni terrorçu təşkilatları isə, qeyd etdiyimiz kimi, bölgədə marağı olan dövlətlərin, o cümlədən İngiltərənin himayəsi ilə yaradılmışdı.

XIX yüzilliyin 90-cı illərində Türkiyənin az qala bütün ərazisini əhatə edən erməni iğtişaşlarını təbliğat vasitəsi kimi terrorçular Avropaya öz arzularına müvafiq şəkildə sırıdılar. Avropa dövlətlərinin «məzlum, hüquqları pozulan» ermənilərin yaşadıqları Türkiyənin altı vilayətində islahatlar keçirmək tələbi sultan II Əbdülhəmid tərəfindən qətiyyətlə rədd edildikdən sonra erməni terrorçuları sultana qarşı 1905-ci il iyulun 21-də sui-qəsd törətdilər. 26 nəfərin öldüyü bomba partlayışından II Əbdülhəmid sağ qurtara bilmişdi (135, s. 72-75). İmperialist rus təbliğatının xarakterik nümayəndəsi kimi V.Qurko-Kryajin bu hadisələri ermənilərin az qala öz hüquqları uğrunda ədalətli mübarizəsi kimi qələmə verir, İngiltərə və Rusiyanı buna biganə qalmaqda qınayır. Əlbəttə, bütün XIX əsr boyu ermənilər öz fəaliyyətlərində daim və daha çox bu iki imperialist dövlətə arxalanmışlar. Lakin fikrimizcə, əvvəlki dövrlərdən fərqli olaraq erməni təşkilatlarının yaranmasından sonra bütövlükdə erməni hərəkatının fəaliyyətində müəyyən dərəcədə müstəqillik də hiss olunurdu. Başqa sözlə desək, ermənilərin təşkilatlanmasında, silahlandırılmasmda, təhrik edilməsində böyük rol oynayan İngiltərə və Rusiya bu mərhələdə ya erməni hərəkatına kifayət qədər nəzarət edə bilmirdilər, ya da bilərəkdən belə bir şərait yaratmışdılar. Eyni zamanda erməni liderləri də imperialistlərin «erməni məsələsi»ndən sırf öz mənafeləri naminə istifadə etdiklərini başa düşməmiş deyildilər. Bu dövrdə Cənubi Qafqazda ruslaşdırma siyasəti yeridən çarizm açıq şəkildə «Asiyada ermənilərin xüsusi imtiyazlara malik olacaqları ərazinin» yaradılması

əleyhinə çıxır və bu məsələdə «hər hansı dövlət tərəfindən müstəqil fəaliyyətə yol verməyəcəyini», xarici işlər naziri Lobanov-Rostovskinin dili ilə «başqa bir Bolqarıstanın» yaranmasına razı olmayacağını bəyan edirdi (160, s. 9).

Digər tərəfdən II Əbdülhəmidlə çar II Nikolay arasında «erməni məsələsi»nə dair gizli razılaşmanın detalları aşkara çıxdıqdan və bundan sonra Rusiyanın ermənilərə münasibətinin artıq şübhə doğurmadığı bir vaxtda İngiltərə də «erməni məsələsi»ndə ehtiyatlı hərəkət etməyə başlamışdı. Dardanel və Bosfor boğazlarının ələ keçimək üçün xüsusi səy göstərən İngiltərə və Fransanın Rusiyadan başqa Yaxın Şərqdə başqa bir güclü rəqibi də meydana çıxmaqda idi. Bu dövlətlərdən fərqli olaraq «erməni məsələsi»nə o qədər də ciddi yanaşmayan Almaniya ilk dövrlərdə özünün Yaxın Şərqdəki ekspansiya siyasətini «dinc nüfuzetmə» prinsipi ilə həyata keçirməyə səy göstərirdi. Almaniya Bağdad dəmir yolunun çəkilməsinə rəhbərliyi ələ keçirmək uğrunda mübarizədən qalib çıxdı. 1888-ci ildə alman bankı «Döyçe bank» dəmir yolunu çəkmək üçün konsessiya alıb işə başladı (14, I c, s. 531-532). Məqsəd Osmanlı imperiyasının ərazisi boyu keçəcək və boğazları İran körfəzi ilə birləşdirəcək bu yol vasitəsilə bölgədə öz nüfuzunu təmin etmək idi. Bunun ardınca 1903-cü ildə Almaniya Osmanlı hökuməti ilə Berlin-Bağdad dəmir yolunun çəkilməsi barədə müqavilə imzalamışdı. Bu müqavilə İngiltərənin Yaxın Şərqdəki mənafeyinə ağır zərbə olduğundan ingilislərin «erməni məsələsi»ndəki əvvəlki türklərə qarşı təhrikedici mövqeyində yumşalma hiss olunurdu. Məqsəd Türkiyəni almanlara öz ərazilərində bu böyük layihəni həyata keçirməyə razılıq verməməyə sövq etmək idi.

Lakin bütün bunlarla yanaşı, həm ingilislər, həm də ruslar erməniləri birdəfəlik arxa plana keçirmək fikrində

deyildilər. Xüsusilə Rusiya bu məsələdə kifayət qədər çevik siyasət yürüdürdü. Hər halda XIX yüzilliyin son onilliyində və XX əsrin ilk illərində xeyli gərginləşən beynəlxalq şərait və imperialistlərin fasiləsiz kəskinləşən mənafe mübarizəsi «erməni kartı»na marağın bir müddət üçün zahirən azalmasına səbəb olmuşdu. Bunun əsas səbəblərindən biri də Osmanlı imperiyasını parçalamaq uğrunda səylərin və mübarizənin artıq açıq müstəviyə keçməsi və «Şərq məsələsi»ndə, qeyd edildiyi kimi, Almaniyanın simasında yeni bir rəqibin meydana çıxması idi.

Belə bir mürəkkəb şəraitdə yaranıb formalaşan erməni terrorçu siyasi təşkilatları, xüsusən Daşnaksütyun partiiyası öz məqsədləri uğrunda imperialist dövlətlərin müdafiəsi imkanından imtina etmədən daha qətiyyətli şəkildə müstəqil mövqe nümayiş etdirməyə başlamışdı. Çox qısa müddətdə təşkilatlana və erməniləri səfərbərliyə ala bilən mütəşəkkil siyasi güc kimi özünü göstərən Daşnaksütyun hətta Osmanlı sultanı II Əbdülhəmidə qarşı Türkiyə daxilindəki müxalif siyasi qüvvələrlə də əməkdaşlığa başlamışdı. «Gənc türklər»in İttihad və Tərəqqi partiyasını ustalıqla aldada bilən daşnaklar digər qüvvələri də cəlb etməklə 1907-ci il dekabrın 27-29-da Parisdə «II Osmanlı liberallar konqresi» adı ilə müştərək bir toplantı təşkil etdilər. Konqresdə Türkiyədə hakimiyyət çevrilişi etmək üçün konkret fəaliyyət planı da işlənib hazırlandı. Ən acınacaqlısı isə bu idi ki, gənc türklərlə daşnaklar bir-birinə maliyyə yardımı da edirdilər (135, s. 76-82). Təbii ki, gənc türklərin hakimiyyətə gəlmək naminə daşnaklarla əməkdaşlıq etmələri, Türkiyədə müəllifi ermənilər olan qanlı hadisələri sultan II Əbdülhəmidin adına yazaraq onu ittiham etmələri daşnakların təbliğatına tamamilə uyğun gəlirdi və bu, heç də gənc türklər üçün milli mənafelərə xidmət edən hərəkət deyildi.

Yeri gəlmişkən, İttihad və Tərəqqi partiyasının bu siyasəti onların 1908-ci il inqilabı nəticəsində hakimiyyətə gəlmələrindən sonra da davam etmiş, bir çox erməni liderlərinə Osmanlı hökumətində mühüm vəzifələr verilmişdi (82, s. 121-134). Ən qəribəsi isə bu idi ki, Osmanlı hökumətinin xarici işlər naziri vəzifəsinə daşnak Qabriel Noradunkyan təyin edilmişdi. Bu şəxs Türkiyənin İtaliya və Balkan ölkələri ilə müharibələrə cəlb olunmasında müstəsna rol oynamışdı. Ermənilər artıq XX yüzilliyin əvvəllərində Türkiyədə siyasi cəhətdən o qədər möhkəmlənə bilmişdilər ki, artıq hakimiyyətdə də ciddi mövqelər və bununla da planlarını reallaşdırmaq üçün daha əlverişli zəmin əldə etmişdilər. Türkiyədəki bütün fəaliyyətləri boyu ermənilər Daşnaksütyun partiyasının proqramındakı «Erməni xalqı tək bir erməni sağ qalanadək sultan taxtını hədələməkdən usanmayacaqdır» prinsipini əllərində rəhbər tutmuşlar.

Ermənilərin törətdikləri qanlı cinayətlərdə fəaliyyət taktikaları da kifayət qədər orijinal olmuşdur. V.Qurko-Kryajin yazır ki, 1894-cü ildə Sasunda Osmanlı hökuməti tərəfindən guya erməni qırğını təşkil olunmuşdur ki, nəticədə 24 erməni kəndi məhv edilmişdir. Guya 1896-cı ildə bütün Asiya Türkiyəsini bürüyən erməni qırğınları 8 min kəndi, 50 min ermənini əhatə etmiş, 100 min nəfər şikəst olmuş, evsiz-eşiksiz qalan 300 min erməninin çox hissəsi Rusiyaya qaçmışdı. Ermənilərin özlərinin törətdikləri qanlı iğtişaşları Türkiyə rəsmi dairələrinin üzərinə atıb tamamilə iftira yazan müəllif daha sonra yazır ki, xarici ölkə səfirlərinin hadisələrə müdaxiləsi İstanbulun özündə 6 min erməninin qırılması ilə nəticələnmişdi (160, s. 9). Əlbəttə, öz ölkələrinin imperialist siyasətini təbliğ edən rus tarix ədəbiyyatında bu cür sərsəm fikirlərin mövcudluğunu təbii qəbul etmək olar. Lakin Rusiya arxivlərində

saysız rəsmi sənədlər bunun əksini sübut edir. Türkiyədəki qanlı hadisələr zamanı xarici, xüsusən Avropa dövlətlərinin səfirlikləri nəinki ermənilərin qırılmasına səbəb olur, əksinə, həmin diplomatik nümayəndələr türklərin qırğınını təşkil edən erməni terroru liderlərinin gizlənmək üçün əsas sığınacaq yerlərinə çevrilmişdi. Bir çox erməni terrorçusunu, cinayətkarı haqlı cəzadan xilas edən səfirlərin bu cür himayədarlıq fəaliyyətləri barədə də onlarla tarixi fakt mövcuddur.

Qanlı cinayətlərin təşkilində ermənilər türkləri günahkar çıxarmaq məqsədi ilə istənilən yola əl atırdılar. 1919-cu ildə Qafqazda olmuş ingilis jurnalisti Skotland-Liddel Daşnaksütyun partiyası «uzun illər ərzində məqsədyönlü şəkildə erməniləri müsəlmanlar üzərinə hücuma təhrik etmişdir. Sonunculardan layiqli cavab alaraq onlar «bədbəxt ermənilərə» qarşı dünya ictimaiyyətində simpatiya oyatmağa çalışırdılar... Daşnak üçün öldürülmüş erməni qiymətlidir. Belə ki, bundan lazımi şəkildə istifadə edilərsə, onda o, təbliğat işinə xeyli xeyir gətirər» (161, s. 3).

Bu cür təbliğat vasitəsindən ermənilər həm XIX əsrin 90-cı illərində, həm də XX yüzilliyin əvvəllərində və sonunda Azərbaycanda törətdikləri hadisələrdə gen-bol istifadə etmişlər. 1988-ci ilin fevral ayında daşnakların bilavasitə özlərinin təşkil etdikləri Sumqayıt hadisələri, dövr dəyişsə də, erməni məkrinin və hiyləgərliyinin dəyişmədiyini göstərir. Yüz il əvvəl olduğu kimi, Sumqayıtda da Eduard Qriqoryan adlı daşnak terrorçusu «Paşa» ləqəbindən istifadə edərək erməni hərəkatı naminə ianə verməyən, daşnaklara qoşulmayaraq dinc həyat yaşamağa cəhd edən bir neçə sadə ermənini qətlə yetirmiş, bunu Azərbaycan türklərinin üzərinə ataraq hadisələrin genişlənməsinə səbəb olmuş və həmin faktdan təbliğat vasitəsi kimi ermənilər ustalıqla istifadə etmişdilər. Bu

fakta oxşar digər bir hadisə də 1905-ci ildə Naxçıvanın Kültəpə kəndinin Xaçatur adlı varlı ermənisinin qətli idi. Bu zaman qətl yuxarıda göstərdiyimiz səbəblərdən törədilmiş, lakin xoşbəxtlikdən hadisənin üstü tez, özü də çar məmurları tərəfindən açılmışdı.

Erməni təşkilatlarının fəaliyyətlərinin təhlilindən belə aydın olur ki, artıq XIX əsrin sonu-XX əsrin əvvəli üçün erməni hərəkatı formalaşdıqdan sonra tam mütəşəkkillik dövrünə qədəm qoymuşdu. Erməni hərəkatına rəhbərlik uğrunda mübarizədə Daşnaksütyun daha böyük uğur qazanaraq ön mövqeləri ələ keçirmişdi. Bəhs olunan tarixi mərhələdə Türkiyə ərazisində təşkil olunan erməni iğtişaşlarında, eləcə də XX yüzilliyin ilk illərindən başlayaraq Azərbaycanda həyata keçirilən qırğınlarda Daşnaksütyunun və Hnçaqın terrorçu dəst-xətti özünü göstərir, bir çox hallarda bu qurumlar özlərinin həmin cinayətlərin təşkilatçısı olduqlarını nəinki gizlədir, əksinə, bunu erməni xalqı uğrunda qəhrəmanlıq mübarizəsi hesab edir və indi də belə qələmə verməkdədir. XIX əsrin sonunda Osmanlı hökumətinin qətiyyəti və sərt müqaviməti nəticəsində məğlubiyyətə düçar olan erməni hərəkatının fəaliyyət sahəsinin Şərqi Anadoludan Qərbi Azərbaycana, Naxçıvana və az sonra bütün Azərbaycan ərazisinə keçirilməsində də əsas rolu məhz daşnaklar oynadılar.

Bu prosesdə rus hakim dairələrinin məqsədyönlü, təhrikedici və istiqamətləndirici fəaliyyətinin də həlledici amillərdən olduğu unudulmamalıdır. Çünki təhlil edilən tarixi faktlar sübut edir ki, Rusiya özünün işğalı altında olan ərazilərdə və belə görünür ki, ümumiyyətlə, hər hansı bir maraq dairəsində olan bölgədə erməni dövlətinin yaradılmasına heç bir vəchlə razı deyildi. Birinci dünya müharibəsi illərində Şərqi Anadoluda ermənilərin yenidən fəallaşmalarının əsas təşkilatçısının da Rusiya olduğunu

nəzərə alsaq, belə qənaətə gəlmək olur ki, çarizm erməni dövlətinin yaradılacağı təqdirdə bunu öz maraqlarının olduğu bölgədən kənarda təsəvvür edirdi. Lakin Rusiyadakı 1917-ci ildə baş verən daxili siyasi dəyişikliklərdən və onun müharibədən çıxmasından sonra yaranmış vəziyyətdən, eləcə də Türkiyədə milli azadlıq mübarizəsinin alovlanmasından sonra ermənilər yenidən bədnam «Böyük Ermənistan» planlarını Cənubi Qafqazda, Azərbaycan torpaqları hesabına reallaşdırmaq üçün ciddi fəaliyyətə başladılar.

# II FƏSİL
# 1905-1907-Cİ İLLƏRDƏ ERMƏNİLƏRİN NAXÇIVAN BÖLGƏSİ ƏHALİSİNƏ QARŞI QIRĞINLARI

## 2.1. Milli münaqişələrin qızışdırılması çarizmin müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi

Tarixi hadisələrin xronoloji izlənilməsi və təhlili iki halda müstəmləkəçiliyin və imperialist meyllərin güclənməsini müşahidə etməyə imkan verir. Bunlardan birincisi, orta əsrlərin ikinci dövrünün sonunda – feodalizmin tam inkişafı və ilkin kapitalist münasibətlərinin meydana gəldiyi tarixi mərhələdə mərkəzləşmiş dövlətlərin yaranması və Böyük coğrafi kəşflərdən sonra baş vermişdir. İkinci mərhələdə isə burjua inqilablarının qalib gəldiyi Qərbi Avropa dövlətlərinin özlərində baş verən siyasi və sosial-iqtisadi inkişafdan dərhal sonra təcavüzkar-müstəmləkəçi siyasət xətti seçməsi səciyyəvidir. Bunu XVI-XIX əsrlərdə kapitalist dövlətlərinə çevrilən Hollandiya, İngiltərə, Fransa, ABŞ, Almaniya və İtaliya haqqında söyləmək mümkündür.

Əgər Avropa ölkələri Böyük coğrafi kəşflər nəticəsində kəşf edilmiş torpaqlarda möhkəmlənməyə, ABŞ nisbətən gec – 1823-cü il «Monro doktrinası»ndan sonra Amerika qitəsində öz nüfuzunu yaymağa səy göstərirdisə, Rusiya hələ XV əsrin sonu-XVI yüzilliyin əvvəllərində mərkəzləşmiş vahid dövlətə çevrildikdən sonra öz sərhədlərindən şərqə, şimala və cənuba doğru ərazilərə nüfuz etməyə, bu regionları hakimiyyəti altına almağa səy göstərirdi. XIX yüzilliyə müstəmləkəçi-imperialist dövlətlər kimi daxil olan yuxarıda adlarını qeyd etdiyimiz bir çox dövlətlər həmin əsrdə «Şərq məsələsi» kontekstində

Osmanlı imperiyasını parçalamaq uğrunda istər Türkiyə ilə, istər də öz aralarında gərgin mübarizə aparırdılar. 1815-ci il Vyana konqresində yaradılan «Müqəddəs ittifaq» üzvlərinin 1822-ci il Verona konqresindən sonra «Şərq məsələsi» daha da aktuallaşdı və həmin mübarizə sonrakı dövrdə Rusiyanın digər Qərbi Avropa ölkələri ilə qarşıdurmasının kəskinləşməsi ilə nəticələndi. Avropa dövlətləri, xüsusilə Böyük Britaniya, Fransa və Avstriya-Macarıstan Osmanlı imperiyasının əraziləri uğrunda mübarizə zamanı Rusiyanın Türkiyə ilə apardığı müharibələrdə istənilən uğuruna o qədər həssaslıqla yanaşırdılar ki, hətta bir çox hallarda özlərinin də təşkilatçısı və təhrikedicisi olduqları Rusiya-Osmanlı müharibələrində Türkiyəyə fəal şəkildə hərbi yardım edirdilər.

Bununla belə, iki əsrə yaxın müddətdə apardığı müharibələrdə çar Rusiyası addım-addım öz məqsədinə nail oldu: həm Qara dənizdə Rusiyanın nüfuzu bərqərar edildi, həm də Qafqaz ələ keçirildi. XIX əsrin ikinci yarısında Şərqi Anadolu məsələsi Qərbi Avropanın iri dövlətləri ilə Rusiya arasında daha bir gərgin münaqişə nöqtəsinə çevriləndə məşhur «parçala və hökm sür» prinsipi ilə hərəkət edən çarizm bölgədə xalqlar arasında milli ədavəti qızışdırmaqla, düşmənçilik və nifaq toxumu səpməklə öz maraqlarını təmin etməyə başladı. Rusiya konkret bu siyasətilə bölgədə hər hansı yeni müstəqil dövlətin, o cümlədən erməni dövlətinin yaranmasında marağının olmadığını göstərirdi. Lakin yerli xalqların inadlı müqaviməti, fərqli din amili, bölgədə yerli türkdilli əhalinin böyük üstünlüyə malik olması çarizmin separatçı xislətinə yaxşı bələd olduğu ermənilərə fəal hərbi yardımını zəruri edirdi.

Rusiya erməni hərəkatının təşkilatlanması üçün həm xaricdə erməni siyasi təşkilatlarının yaranmasına kömək edir, həm də öz ərazisində belə qurumların mövcudluğuna

və istənilən fəaliyyətinə göz yumurdu. Təbii ki, ermənilərdən istifadə edilməsi barədə planları Rusiya daha çox Şərqi Anadolu məsələsində məqbul hesab edirdi və Türkiyədə baş verən qanlı erməni iğtişaşlarında çarizmin təhrikçi, himayədar siyasətinə dair çoxsaylı faktların mövcudluğu fikrimizin sübutu üçün əsas ola bilər.

1894-cü ildə Rusiya xarici işlər naziri S.Sazonov çar II Nikolaya yazırdı: «Məlum xalqı (erməniləri – E.C.) köçürməkdə məqsəd gələcəkdə öz dövlətinin salamatlığını təmin etməkdir, çünki ermənilər harada yaşayırlar-yaşasınlar, qiyam etmək fikrindən heç vaxt vaz keçmirlər. Buna görə hökumət onların çoxunu köçürməyə və nə qədər mümkünsə, etibarlı hissəsini saxlamağa çalışır». 1895-ci ilin yanvarında isə II Nikolay İstanbuldakı rus səfirinə məsləhət görmüşdü ki, türklərin ermənilər tərəfindən qətlini təhqiq edən komissiyada rus nümayəndəsi ingilis nümayəndəsi ilə yox, fransız nümayəndəsi ilə yaxınlıq etsin, çünki ingilis «başqa məqsədlər güdə bilər» (72, s. 121-122). N.N.Şavrov ingilislərin erməniləri təhrik etməsi ilə bağlı yazırdı ki, 1864-cü ildə Qafqaz idarələrində çoxluq təşkil edən erməni və gürcülərdə millətçilik düşüncəsi oyandı. Erməni və gürcü çarlıqlarını yenidən dirçəltmək ideyası londonda ustalıqla onların rəhbərlərinin beyninə yeridildi ki, bu da onlarda Cənubi Qafqazda daha çox ərazilər zəbt etmək cəhdinə səbəb oldu (175, s. 68).

Osmanlı hökumətinin erməni hərəkatına qarşı inamlı mübarizəsi bu hərəkatın, Rusiyanın hakim dairələrinin maraqlarına uyğun olmasa da, ermənilərin əsas fəaliyyət mərkəzinin Cənubi Qafqaza keçməsinə səbəb oldu. Bu zaman erməni terrorçu siyasi təşkilatları, xüsusilə Daşnaksütyun çarizmin iradəsindən kənar öz müvafiq planlarına malik idilər. Ermənilərə görə, iri dövlətlərin mənafeləri üçün onların əlində alət rolunu oynadıqları

Şərqi Anadoludansa, Cənubi Qafqaz daha əlverişli fəaliyyət bölgəsi idi. Digər tərəfdən isə, belə görünür ki, Rusiya Şərqi Anadolu ilə bağlı növbəti cəhdlərini getdikcə kəskinləşən beynəlxalq şəraitdə yaxın gələcəyə saxlamağı daha münasib hesab edirdi. Həm də bu zaman Osmanlı türkləri ilə yaxın olan və Cənubi Qafqazda çoxluq təşkil edən azərbaycanlıların mümkün müqavimətini neytrallaşdırmaq lazım idi. Cənubi Qafqazın ən böyük sənaye şəhəri olan Bakı da XX əsrin əvvəlləri üçün potensial inqilabi çıxışlar mənbəyinə çevrilmişdi. Məhz bu baxımdan Azərbaycanda da ermənilər bir münaqişə vasitəsi kimi ruslara lazım idilər.

Lakin əsrlərin qovuşuğunda yaranmış mürəkkəb geosiyasi vəziyyət və Rusiyanın bölgədəki həm qlobal, həm də məhəlli maraqları ermənilərin nəzarət altında saxlanılmasını zəruri edirdi. Eyni zamanda 1881-ci ildə çar II Aleksandrın öldürülməsindən sonra hakimiyyətə gələn oğlu III Aleksandrın (1881-1894) dövründə yayılmağa başlayan rus millətçiliyi və şovinizmi sonuncu çar II Nikolayın (1894-1917) dövründə daha da genişlənmişdi. Digər tərəfdən Rusiya Yaxın Şərqdən İngiltərəni sıxışdıraraq bütövlükdə çıxarmaq üçün Türkiyə ilə, hər halda müvəqqəti də olsa, sazişə girmək lüzumunu hiss etmişdi. Türkiyə mənbələrinin məlumatlarından belə aydın olur ki, XIX əsrin sonunda II Əbdülhəmidlə II Nikolay arasında bu istiqamətdə məxfi bir razılaşma olmuşdur. Həmin sazişin şərtlərindən biri Rusiyanın öhdəsinə götürdüyü ermənilərdən üz çevirmək, türklər əleyhinə olan təhriklərdən əl çəkmək idi. Bununla da erməniləri II Aleksandr dövründə qətiyyətlə müdafiə edən Rusiya bu siyasətindən müvəqqəti əl çəkməli oldu.

Türkiyəni inandırmaq üçün ermənilərə qarşı bir sıra qəti tədbirlər görüldü. 1884-cü ildən Tiflisdə çıxan erməni

qəzeti «Mşak» bağlandı. Həmin il Eçmiədzin katolikosu seçilən İstanbul erməni kilsəsinin patiriarxı, Türkiyədəki iğtişaşlarda fəal iştirakı ilə məşhur olan Nerses Varjapetyanın təyinatı qəbul edilmədi və onun Rusiya ərazisinə daxil olmasına icazə verilmədi. 1885-ci ildə erməni məktəblərinin bir çoxu bağlandı. 1896-cı ildə isə bir çox erməni ziyalıları Sibirə sürgün edildi. Erməni xeyriyyə cəmiyyətləri bağlandı, erməni mətbuatına senzura qoyuldu. Erməni məsələsi ilə çarın tapşırığına əsasən xüsusi məşğul olan Qafqazın o zamankı hakimi knyaz Qolitsının 1898-ci ildə təqdim etdiyi məlumatda çarın 14 iyun 1897-ci il sərəncamı ilə erməni məktəblərinin Rusiya Təhsil Nazirliyinə tabe edilməsi haqqında göstərişinə tabe olmaq istəməyən 320 məktəbin bağlandığı, 31 məktəbin isə fəaliyyətinə davam etdiyi bildirilirdi. Məlumatdan Qafqazdakı erməni mətbuatının çarizmə qarşı müxalif mövqedə olduğu, erməni xeyriyyə cəmiyyətlərinin siyasətlə məşğul olduqları aydın olurdu. Qolitsının bu məlumatı ermənilərə qarşı Türkiyə ilə razılaşmanın tələblərindən doğan tədbirləri gücləndirmək üçün əsas olmuş, 1901-ci ildə hökumət tərəfindən «ümid və azadlığın müqəddəs yeri» kimi Rusiyaya üz tutan Türkiyə vətəndaşı olan ermənilərə ya dərhal rus təbəəliyini qəbul etmələri, ya da Rusiya torpaqlarını tərk etmələri təklif edilirdi (149, s. 368-373). Ermənilər bu təklifi qəbul etməyib yenidən geri qayıtmaq istədikdə isə çarizm sərhədləri gücləndirərək hərbi güc hesabına bunun qarşısını alırdı. Bu fakt Rusiya hakim dairələrinin ermənilərlə bağlı xüsusi planlarının olduğunu sübut edir. Çünki əks təqdirdə hakimiyyət yüz minlərlə qaçqının ölkəyə təşrif buyurması kimi ağır problemi könüllü olaraq qəbul etməzdi.

Qafqaz hakimi knyaz Qolitsının ermənilərə qarşı radikal mövqeyi ermənilərin ona sui-qəsd törətmələri ilə

nəticələndi. 1903-cü ilin oktyabrın 14-də Tiflisdə Hnçaq üzvləri tərəfindən təşkil edilən aksiya nəticəsində ağır yaralanan Qolitsın çar tərəfindən Peterburqa dəyişildi. Onun yerinə isə İ.Vorontsov-Daşkov təyin edildi. Bununla da çarizmin ermənilərlə bağlı siyasətində mühüm taktiki dəyişikliklər baş verdi. Ermənilər İ.Vorontsov-Daşkovun iqamətgahına asanlıqla yol tapa bildilər. Hakim dairələr inqilabi cəhətdən təhlükəli regiona çevrilən Cənubi Qafqazda erməniləri sıxışdırmaqdansa, onların potensial təhlükəyə çevrilmiş qüvvəsindən daha səmərəli istifadə etmək qərarına gəldilər. Hətta 1905-ci il avqustun 5-də erməni kilsələrinin 1903-cü ildə müsadirə olunmuş əmlakının özlərinə qaytarılması barədə çar fərmanı verildi. Çarizm yeni canişinin əli ilə təşkil etdiyi qırğınlarda aşağıdakı taktikanı həyata keçirirdi: bir tərəfdən inqilabiləşən, hakimiyyəti hədələyən çıxışlara cəhd edən xalqlar, digər tərəfdən isə Rusiya üçün arzuedilməz xalqa çevrilmiş ermənilər milli münaqişənin qarşı-qarşıya duran tərəfləri kimi bir-birini qıraraq zəifləyəcək, bundan çarizm qazanmış olacaqdı.

Rusiyanın azərbaycanlılara qarşı düşmən münasibətinə rəvac verən bir amil milli və dini mənsubiyyətlə bağlı idisə, digər cəhət XIX əsrin sonu-XX əsrin əvvəllərində xüsusilə Bakıda yaranan inqilabi mühitlə bağlı idi. Bölgədə ictimai-siyasi şəraitin çarizmin arzulamadığı istiqamətdə formalaşmasının əsas səbəbi XIX əsrin ikinci yarısından başlayaraq Bakıda neft sənayesinin inkişafı ilə bağlı Azərbaycanın paytaxtının iri sənaye mərkəzinə çevrilməsi ilə bağlı idi. Müxtəlif yerlərdən kəsbkarlıqla bağlı Azərbaycana üz tutanların hesabına Bakı çoxmillətli, beynəlmiləl şəhərə çevrilmişdi. Həmin dövrdə Bakının çarizmi qorxuya salan tətillər və inqilabi çıxışlar mərkəzinə çevrilməsi bəhs olunan amilin əsasını təşkil edirdi.

1905-ci ildə Bakıda keçirilmiş rəsmi təftiş materialarında göstərilirdi ki, Bakıda «neft sənayesi yaranmağa başladığı vaxtdan, XIX əsrin 70-ci illərinin əvvəllərindən etibarən ermənilər burada məskunlaşmağa başlamışlar; xüsusən, son 10-15 ildə ermənilərin buraya axını daha da güclənmişdir və hazırda şəhər əhalisinin cəmi 15 faizini ermənilər təşkil edir» (bax: 77, s. 97). Başqa bir məlumata görə, XIX əsrin sonu üçün Bakı zəhmətkeşlərinin 17,5 faizini təşkil edən ermənilər yüksək ixtisas tələb edən vəzifələrin 25 faizini tuturdularsa, az əmək haqqı olan, ixtisassız «qara» fəhlələrin 70 faizini müsəlmanlar təşkil edirdi. 1893-cü ildə təkcə Bakı neft sənayesində işləyən fəhlələrin 28 faizi erməni idi (101, s. 28). Nəzərə alsaq ki, bu zaman Bakı şəhərində yaşayanların sayı 200 mini ötmüşdü, onda ermənilərin əhalinin sayında nəzərəçarpacaq çəkiyə malik olduqları aydın olar. Ermənilərin Azərbaycana sadəcə kəsbkarlığa gəldiyini söyləmək; təbii ki, doğru olmazdı. Çarizmin xüsusi himayəsi ilə erməni burjua dairələri Cənubi Qafqazda, o cümlədən Azərbaycanda əlahiddə imtiyazlarla öz fəaliyyətlərini genişləndirirdilər. Belə ki, XIX yüzilliyin 60-70-ci illərində Azərbaycan neft sənayesinin 88 faizi yerli sahibkarların ixtiyarında və yalnız 9 faizi erməni sahibkarlarının əlində idisə, artıq 1909-cu ildə Bakıda fəaliyyət göstərən 167 neft sənayesi müəssisəsinin 32,9 faizi, yəni üçdə biri ermənilərə məxsus idi, həm də erməni kapitalı əsasən, orta və irimiqyaslı neft sənayesi müəssisələrində üstünlüyü ələ almışdı (77, s. 98).

Bakı nefti hesabına hədsiz sərvətlər əldə edərək varlanan erməni sənaye burjuaziyası «ölkədə sənaye həyatının tamamilə yoxluğu» ucbatından əslində elə bütövlükdə Bakıda kök salmışdı. Erməni müəllifləri erməni sənaye burjuaziyasının və erməni proletariatının yaşadıqları

torpaqların hüdudlarından kənarda formalaşdığını inkar etmirlər. «Kənarda» ifadəsinin isə daha çox Azərbaycana aid olduğu şübhəsizdir. Bu baxımdan onsuz da bölgədə ərazi qoparmaq arzusu ilə yaşayan ermənilərin Rusiyanın himayəsinə sığınan iqtisadi ekspansiyalarının siyasi iddialar doğuracağı və elə doğurduğu, ermənilərin bilavasitə xislətlərinin səciyyəvi cəhəti kimi, bəri başdan aydın idi. Əslində erməni kapitalı bu istiqamətdə səfərbər olunmuş və yalançı təbliğat maşını artıq Avropada işə salınmışdı. XX əsrin ilk illərində məşhur alim V.Veliçko yazırdı ki, «erməni inqilabi dərnəklərinin mövcud olduğu Fransa və Almaniyada Bakı neft sənayeçilərinin pulu hesabına ermənilərin xeyrinə güclü təbliğat aparılır...» (156, s. 73)

Beləliklə, XX əsrin başlanğıcında, əvvəlki dövrdə Osmanlı Türkiyəsində olduğu kimi, Azərbaycanda da çarizmlə erməni hərəkatının mənafeləri xeyli dərəcədə üst-üstə düşürdü. Burada da ermənilər öz dövlətlərini qurmaq naminə xalqımıza qarşı iri dövlətlərin əlində alət olmaq missiyasını həyata keçirməyə tam hazır idilər. Yüksək rütbəli bir çar məmurunun «Bakı elektrik zənginin düyməsinə bənzər bir şeydir... həmin düyməni basan kimi bütün Rusiyanı həyəcan bürüyür» deməsi çarizmin ermənilərə münasibətdə məqsədli himayədarlıq siyasətinin hansı hədəflərə yönəldiyini aydınlaşdırmağa imkan verir. Millətlərarası ədavətin qızışdırılması, milli qırğınların təşkil edilməsi çarizmin monarxiyanı hədələyən inqilabi cəhdlərdən qurtarmaq cəhdinin təzahürü idi. Müstəmləkəçiliyin ənənəvi forması olan xalqlar arasında düşmənçiliyin, ədavətin yaradılması, milli münaqişələrin qızışdırılmasında çar hökuməti Azərbaycandakı hadisələrə qədər artıq yaxşı təcrübə toplamışdı. Polşa və Baltikyanı ölkələrdə çarizm həmin üsullardan uğurla istifadə etmişdi. «Xalqlar həbsxanası» adını Rusiya öz hakim dairələrinin

həmin qəsbkar fəaliyyəti nəticəsində qazanmışdı.

XX yüzilliyin əvvəllərində çarizm Azərbaycandakı qırğınların əsas təşkilatçısı olsa da, ermənilərin milli münaqişənin qızışdırılmasında könüllü alət olmaları, eləcə də o vaxt Azərbaycanda bütövlükdə cəmiyyətin maariflənmə vəziyyətinin aşağı səviyyədə olması rus hakim dairələrinin pərdə arxasında qala bilməsinə şərait yaradırdı. Müstəmləkə həyatı xalqlar arasında yaranmış coğrafi sərhədlərin müvəqqəti və şərti olaraq itməsinə səbəb olmuşdusa da, azərbaycanlıların torpağa bağlılığı və inadlı müqaviməti milli qırğınların təşkilində Rusiyanın planlarına nəinki mane olur, əksinə, müəyyən mənada təkan verirdi. Çünki daha çox bu amil bölgədəki həssas etnik sabitliyi pozmaqda çar məmurlarına kömək edirdi.

Hadisələrin xarakteri, miqyası və gedişi azərbaycanlıların soyqırımının dövlət səviyyəsində hazırlanıb həyata keçirilən cinayət olduğunu göstərirdi. Xüsusilə 1903-cü ildən, qraf İ.Vorontsov-Daşkovun Qafqaza hakim təyin edilməsindən sonra hadisələr daha qızğın şəkil almışdı. Türklərə nifrətini, ermənilərə isə xüsusi hüsn-rəğbətini gizlətməyən bu şəxs hər yerdə öz məmurlarına və kazaklara erməniləri himayə etmək barədə göstəriş vermişdi. Qanlı hadisələrin çar məmurları tərəfindən qızışdırılması, onların bir çox hallarda rus qoşunlarına ermənilərlə bir cəbhədə döyüşmək əmri verməsi, ən yaxşı halda isə çar çinovniklərinin müşahidəçi mövqeyi tutması azərbaycanlıların soyqırımının mütəşəkkilliyini təmin etmək baxımından düşünülmüşdü. Bakıda qubernator Nakaşidze, Deminski, Lileyev, İrəvanda qubernator Paskeviç, vitse-qubernator Baranovski, Naxçıvanda qəza polis rəisi Angil, Şuşada Qalaşşapov və digərləri milli qırğınların birbaşa təşkilatçısı və təhrikçiləri idilər. Bir çox hallarda bu məmurlar azərbaycanlı əhaliyə qarşı

qırğınları özlərinin bilavasitə göstərişləri ilə başlayır, sonra isə qanlı hadisələri soyuqqanlılıqla seyr edir, dəhşətli faciəyə göz yumur, insanların kömək üçün etdikləri müraciətləri qulaqardına vururdular. Bunu nəzərdə tutan «Molla Nəsrəddin» jurnalı həmin dövrə aid nömrələrinin birində çarizmin riyakarlığını ifşa edərək yazırdı: «Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi hökumət əsgərləri elə şiddətli azara mübtəla olurlar ki, təbiblər onların çölə çıxmasını rəva görmürlər».

Münaqişə illərində Azərbaycanda bolşevik, menşevik, eser, kadet, oktyabrist partiyalarının yerli komitələri və təşkilatlarından başqa, digər xırda burjua, anarxist təşkilatlar və qruplar da meydana gəlmiş və fəaliyyət göstərmişlər. 1905-1907-ci illər inqilabı dövründə mütləqiyyət quruluşunu açıq müdafiə edən, onun uğrunda hər cür çirkin vasitələrdən istifadə edərək mübarizə aparan partiyalar da meydana gəlmiş və formalaşmışdı. Onlardan «Rus xalqının ittifaqı», «Mixail Arxangel ittifaqı» kimi qaragüruhçu hökumət partiyaları çar mütləqiyyətini müdafiə edir, hakim millətçilik şovinizmi, antisemitizm təbliğ edirdilər. Bu təşkilatlar yerli xalqlara qarşı müxtəlif cinayətlər təşkil edir, yəhudi talanları, erməni-müsəlman qırğını törətmək kimi çirkin və vəhşi vasitələrə əl atırdılar (101, s. 55).

Azərbaycanda milli qırğınların törədilməsində əsas rolu Türkiyədən gələn ermənilər oynadılar. Bu ölkədəki uğursuzluqdan sonra «...Bu məzlumlar dərhal özlərinə gəldilər və öz qara əməllərini göstərdilər... Bura Türkiyədən daha güclü axın başladı. Hər şeyə hazır olan daha yarım milyon nəfər gəldi. Bu baş verənlər ermənilərin özləri tərəfindən bir tərəfdən axmaqlıq və çox vaxt rus hakimiyyət adamlarının mənəvi rəzaləti, digər tərəfdən isə onların siyasi tərbiyəsi ilə izah edilirdi».

Gəncə, İrəvan və Qars vilayətlərinə köçürülən bu ermənilərdən 200 mini Rusiya təbəəliyini qəbul etmişdi (161, s. 8, 11). Bununla da erməni siyasi təşkilatlarının artıq qanlı iğtişaşlara Azərbaycanda davam etmələri üçün əlverişli zəmin yaranmışdı. Rusiyanın köməyi ilə Türkiyəyə zərbə vurmaq, qisas almaq ümidi ilə Cənubi Qafqaza gələn ermənilər burada da eyni millətlə qarşılaşdıqda qisasçılığa elə Azərbaycandan başladılar. «Novaya vremya» qəzetinin İrəvan müxbiri Qriqoryev yazırdı ki, bölgədə törədilən bütün cinayətlərin 80 faizini məhz Türkiyə erməniləri törədirdilər. Onların sıraları muzdlu qatillər və bədnam «milli amallar» uğrunda məcburi fədakarlıq edənlərlə dolu idi (bax: 156, s. 137).

1905-1907-ci il milli qırğınları ərəfəsində çarizmin erməni hərəkatını öz istədiyi məcraya yönəltməsi cəhdi ermənilərin daha da azğınlaşmasına səbəb olmuşdu. 1903-cü ildə Eçmiədzin kilsəsinin ixtiyarında olan torpaqların çarın fərmanına uyğun olaraq Rusiya Torpaq və Əmlak Nazirliyinin sərəncamına keçirilməsi öz xalqı arasında böyük nüfuza malik olan, ermənilərin dini-ideoloji, mənəvi, bir çox hallarda isə birbaşa hərbi-siyasi rəhbər təşkilatı kimi çıxış edən qriqorian kilsəsinin mövqeyini zəiflətmək məqsədi daşıyırdı. Ermənilər böyük ümidlərlə pənah gətirdikləri Rusiyanın bu addımına müxtəlif şəhərlərdə çar üsul-idarələrinə və məmurlarına qarşı silahlı çıxışlar və sui-qəsdlərlə cavab verdilər. V.Veliçko qeyd edir ki, ermənilərin bu silahlı çıxışları bütün şəhərlərdə xüsusi işarə rolunu oynayan kilsə zənglərindən sonra törədilmişdi. O həm bu, həm də ermənilərin çox güclü silah anbarlarına malik olmaları, Bakıda və Qarsda strateji mövqeləri ələ keçirmələri faktlarına əsaslanaraq çarizmin məlum addımına qarşı yönəlmiş silahlı iğtişaşların əvvəlcədən planlaşdırılmış olduğu fikrinə gəlir (156, s. 139-143).

XIX əsrin sonu-XX əsrin ilk illəri Azərbaycanda siyasi həyatın canlanması, ictimai-siyasi təşkilatların təşəkkül tapması mərhələsi kimi də yaddaqalan olmuşdur. Təəssüf doğurucu haldır ki, Azərbaycan milli burjuaziyasının qeyri-milli burjuaziyaya nisbətdə öz torpaqlarımızda belə bəhs edilən tarixi mərhələdə kəmiyyət baxımından geri qalması siyasi həyata da öz təsirini göstərməkdə idi. Yeni yayılan siyasi-ideoloji prinsiplərin daşıyıcısı olan milli ziyalıların sayı digər millətlərdən olan ictimai-siyasi xadimlərin arasında barmaqla sayılacaq qədər az idi. Bunun müqabilində qeyri millətlərin nümayəndələri Azərbaycanın ictimai-siyasi həyatında nəzərəçarpacaq mövqeyə malik idilər. Belə ki, o dövr üçün populyar olan sosial-demokratiya hərəkatının və marksizmin Azərbaycanda yayılmasında əsas işi qeyri-azərbaycanlılar, məsələn, P.Toçisski, A.Yenukidze, L.Krasin, İ.Sturua, V.Ketsxoveli, o cümlədən ermənilər S.Avetisyan, A.Bekzadyan, B.Knunyants, M.Məlikyan və b. görürdülər. Belə aydın olur ki, ermənilər artıq XX əsrin əvvəlləri üçün Cənubi Qafqazın siyasi həyatına Daşnaksütyun, Hnçaq və digər milli təşkilatlardan kənarda da fəal müdaxilə edirdilər (ətraflı məlumat üçün bax: 155, s. 232-239).

XX əsrin əvvəllərində erməni hərəkatının Cənubi Qafqaza keçməsinə şərait yaradan çarizm özünün müəyyən etdiyi çərçivəni aşma təhlükəsini duyaraq ermənilər tərəfindən təşkil edilən iğtişaşların fəallarını həbs edir, polisin gücü hesabına terrorun qarşısının alınmasına çalışırdı. Lakin sonrakı dövrdə Cənubi Qafqazda, xüsusilə Bakıda cərəyan edən siyasi hadisələr yerli çar məmurlarında erməni hərəkatından öz mənafelərinə uyğun istifadə etmək ideyasını doğurdu. İnqilabi cəhətdən narahat və siyasi baxımdan mütəhərrik bölgədə – Cənubi Qafqazda müstəmləkəçilərin artıq

nəzarətdə saxlaya bilmədikləri getdikcə azğınlaşan erməni təşkilatlarının fəaliyyəti, beynəlxalq şəraitin də xeyli mürəkkəbləşdiyi bir dövrdə, hakimiyyət dairələri üçün böyük narahatlıq mənbəyinə çevrilmişdi. Başda Qafqaz canişinliyi olmaqla, onun quberniya və qəzalarındakı nümayəndələri iki potensial təhlükəni eyni zamanda aradan qaldırmaq – həm inqilabi hərəkata ağır zərbə vurmaq, həm də erməni hərəkatını cilovlamaq üçün milli ədavətin qızışdırılması üsulunun əlverişli olacağını anladılar. Məhz bu səbəbdən milli-etnik cəhətdən ermənilərin köçündən sonra daha həssas bölgəyə çevrilmiş Cənubi Qafqazda, daha çox Azərbaycanda çarizm milli qırğınları özünəməxsus canfəşanlıqla həyata keçirdi.

Türkiyədəki erməni iğtişaşlarında Rusiya ilə bərabər Qərbi Avropa ölkələri, xüsusən İngiltərə və Fransa da əhəmiyyətli dərəcədə təhrikedici və təşkilatçılıq siyasəti yeridirdilər. Bundan istifadə edən rəsmi rus dairələri hadisələrin məsuliyyətini Osmanlı hökumətinin, günahını isə İngiltərənin üzərinə qoyurdusa, Azərbaycandakı qırğınlarda məsuliyyət birbaşa Rusiyanın üzərinə düşürdü. Çünki Osmanlı dövlətinin torpaqları uğrunda pərdəarxası mübarizə özünü daha çox «erməni məsələsi»ndə büruzə verirdi. Bu qəbildən olan istənilən uğursuzluğun günahını mübarizə aparan tərəflər bir-birilərinin üzərinə atırdılar. XIX əsrdən bəri bilavasitə Rusiyanın tərkibində olan Cənubi Qafqaz isə yalnız I dünya müharibəsindən sonra beynəlxalq maraqların toqquşduğu bölgəyə çevrilmişdi.

XIX əsrin sonunda baş vermiş qanlı hadisələrdə erməni hərəkatının önündə Daşnaksütyun partiyası və Hnçaq gedir, bütün iğtişaşlara bu terrorçu qurumlar təşkilatçılıq və nəzarət edirdilər. Heç vaxt mövcud olmamış xəyali «Böyük Ermənistan» dövlətinin «əraziləri»ni nəzəri cəhətdən gündən-günə genişləndirən Daşnaksütyun 1904-cü

ildə Qərbi Azərbaycanı da öz planlarına daxil etdi. Bundan sonra Naxçıvanda və digər vilayətlərdə erməni vəhşiliyindən dinc müsəlmanların qaçmaq yolu ilə canlarını qurtarmaqdan başqa yolları qalmamışdı. Daşnaksütyun partiyasının 1904-cü il qurultayında qəbul edilən qərarın Rusiya ilə Türkiyə arasında ikili məngənədə qalmalarına səbəb olacağından çəkinən daşnaklar öz fitnəkar fəaliyyətlərinin yalnız Türkiyəyə qarşı yönəldiyini göstərmək üçün cinayətkarların tutulmasında rus hakim dairələrinə açıq şəkildə kömək etməyə başladılar (160, s. 11).

XIX yüzillik boyu və XX əsrin əvvəllərində davam edən erməni köçürülmələri ilə paralel olaraq bölgədə ruslaşdırma və xristianlaşdırma siyasəti yürüdən çarizmin əsas məqsədi Cənubi Qafqazın bütövlükdə yalnız xristian əhalinin yaşadığı bölgəyə çevrilməsi idi. Hələ 1913-cü ildə, yəni I Balkan müharibəsi dövründə Qafqaz canişini İ.Vorontsov-Daşkov çara özünün hesabat məruzəsində yazırdı ki, əgər gələcəkdə Qafqaz xalqlarının separatizmindən qorxmaq lazım gələrsə, bu, yalnız müsəlmanlar tərəfindən ola bilər. O, müsəlman xalqlarmm özünəməxsusluq və vicdan azadlığı hüququnu tanısa da, belə nəticəyə gəlmişdi ki, onları rus mədəniyyətinə cəlb etmək və onlar arasında rus hüquqi düşüncə başlanğıcı toxumu səpmək vasitəsilə təsir göstərmək lazımdır. Bununla belə o, xüsusi olaraq qeyd edirdi ki, müsəlmanların mədəni təbəqələri arasında milli özünüdərk ideyaları inkişaf etməyə başlamışdır ki, bu da Rusiyanın maraqları üçün xüsusilə təhlükəlidir (155, s. 201).

Xatırladaq ki, bundan bir əsr əvvəl, hələ 1817-ci ildə almanların torpaqlarımıza köçürülməsi prosesi həyata keçirilmişdi. 1830-cu il oktyabrın 20-də isə dini təriqətinə görə fərqlənən «təriqətçi və bidətçi» rusların Azərbaycan torpaqlarına köçürülməsi haqqında hökumət sərəncamı

verilmişdi. Nəticədə XIX əsrın sonunda Azərbaycanın ən münbit torpaqları faktiki olaraq rus köçkünlərinin əlində cəmləşmişdi (35, s. 53-54). Çarizmin zorakı ruslaşdırma və xristianlaşdırma siyasəti isə hələ XIX əsrin 30-cu illərindən, Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsindən dərhal sonra, erməni köçürülmələri ilə paralel olaraq başlanmışdı. Həmin dövrdə Azərbaycanın müxtəlif bölgələrində çarizm əleyhinə baş verən xalq üsyan və çıxışları da bir çox hallarda məhz bu müstəmləkəçi siyasətin əleyhinə yönəlmişdi.

Bir əsr davam edən erməni köçürülmələrini, onların da ən münbit torpaqlarda yerləşdirildiklərini nəzərə alsaq, belə düşünmək üçün ciddi əsaslar vardır ki, əslində torpaqdan məhrum edilmiş azərbaycanlıların fiziki cəhətdən də məhv edilməsi üçün ermənilərlə milli ədavət salmaq və bununla məqsədini tam şəkildə həyata keçirmək istəyən çarizmin erməniləri himayə siyasətinin kökündə sırf öz müstəmləkəçi maraqları dururdu. Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsindən sonra çarizmin ruslaşdırma və xristianlaşdırma siyasətində kütləvi erməni köçürülmələrindən sonra azərbaycanlıların soyqırımı növbəti, sonuncu mərhələ kimi nəzərdə tutulmuşdu.

Rusiyanın azərbaycanlıları məhv etmək naminə Cənubi Qafqazda milli qırğın törətmək siyasəti çarizmin bütün varlığı boyu özünü göstərən qəsbkar prinsipə əsaslanırdı. Daşnak ideoloqu Aknuni (Xaçatur Malumyan) 1905-ci ildə Cenevrədə nəşr edilmiş «Qafqaz yaraları» kitabında yazırdı ki, 1904-cü ilin sonlarında Qafqazın yüksək rütbəli məmurları Peterburqa çağırılmış, uzun müzakirələrdən sonra bəzi məxfi qərarlar qəbul edilmiş, xüsusi proqram tərtib olunmuşdu. Proqrama görə, qırğınla erməniləri zəiflətmək, iqtisadi güclərinə zərbə vurmaq, xüsusilə Ararat bölgəsindəki ermənilərin sayını azaltmaq, bununla

da boyun əyməyən erməniləri əzərək Qafqazdakı digər millətlərə bir dərs vermək, sonra da qüvvətlənib özlərinə daha lazım olmayan türkləri təqib edərək panislamizm ideyalarını məhv etmək planlaşdırılırdı. Eyni zamanda türk panislamistləri tərəfindən rus-yapon müharibəsindən sonra Qafqazdakı xristianları zəiflətmək üçün rusların razılığı ilə ermənilərə hücum qərara alınmışdı (bax: 149, s. 532). Əlbəttə, daşnak fəalı olmuş Aknuninin bu fikirlərində Daşnaksütyunun əvvəlcədən planlaşdırdığı qanlı hadisələrin məsuliyyətini azərbaycanlıların üzərinə atmaq niyyəti aydın sezilsə də, bütövlükdə hadisələr ərəfəsində nəşr edilmiş kitabdakı həmin fikirlər çarizmin şovinist siyasətini üzə çıxarır. Təbii ki, «türk panislamistlərinin Qafqazda xristianları zəiflətmək üçün rusların razılığı ilə ermənilərə hücumu»nun qərara alınması barədə fikir tamamilə absurddur.

Hadisələrin canlı şahidi olmuş ədibimiz M.S.Ordubadi milli ədavətin və qırğınların baş verməsinin dörd əsas səbəbini belə sadalayır: erməni Daşnaksütyun komitəsinin tətbiq etdiyi müstəbid idarə üsulunun qanlı terrorlarla müşayiət olunması, hökumət məmurlarının törədilən vəhşiliklərə etinasızlığı və ya erməniləri aşkar, yaxud gizli şəkildə müdafiə etmələri, müsəlmanların elmsizliyi, silahlanmaması və müasir siyasi oyunlardan xəbərsizliyi və nəhayət, ermənilərin muxtariyyət istəyi. M.S.Ordubadi erməni hərəkatının Şərqi Anadoludan Cənubi Qafqaza keçirilməsinin ideoloqunu və təşəbbüskarını da göstərir: bu, dövrün erməni yazıçısı Arsruni idi (94, s. 8-11). Mənbəyə görə, erməni-müsəlman qırğınını təşkil etmək də onun planı idi və Arsruni vəfat etməmişdən əvvəl, sonralar Rusiya Dövlət Dumasının üzvü seçilmiş, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi zamanı Qarsın işğalında iştirak etmiş erməni polkovniki Loris-Melikova

müvafiq təlimat da veribmiş. Qeyd edək ki, müəllif hadisələrin canlı şahidi kimi qanlı cinayətlərin bu gün aydın bilinən həqiqətlərini düzgün şərh etmişdi. Lakin görünür, bəzi mülahizələrə görə, o, bütün amillərin kökündə çarizmin türklərsiz və müsəlmanlarsız Cənubi Qafqaz siyasətinin durduğunu qeyd etməmişdir.

Sonralar Qafqaz hakimi və canişini olmuş İ.Vorontsov-Daşkov hələ 1900-cü ildə rus çarına yazırdı: «Böyük Pyotrun dövründən üzü bəri rus siyasəti müharibələrdə bizim tərəfimizdə olan ermənilərə qarşı dostluq münasibətində olmuşdur... Türkiyə ermənilərinin müdafiə edilməsində qətiyyət göstərməliyik, xüsusilə belə bir zamanda ki, hərbi müdaxiləmizə asanlıqla səhnə ola biləcək bölgələrdə yaşayan xalqların bizimlə dostluq duyğularına zərbə vurmaq əvəzinə onları müdafiə etməliyik» (145, s. 180). Çarizmin ermənilərə məhz Vorontsov-Daşkovun ifadə etdiyi tərzdə yanaşması Cənubi Qafqaza qaçan və köçürülən Türkiyə vətəndaşı olan ermənilərin mənafeyinə və erməni siyasi təşkilatlarının məkrli planlarına xidmət edirdi. Dövlət qurmaq tələblərini nəyin bahasına və harada olursa-olsun, həyata keçirmək artıq erməni təşkilatları üçün bir amal və prinsip məsələsinə çevrilmişdi. Təsadüfi deyildir ki, 1932-ci ildə Parisdə «Daşnaksütyun tarixi» kitabını nəşr etdirən daşnak partiyasının yaradıcılarından və liderlərindən biri olmuş Mikael Varandyan yazırdı ki, onlar üçün Qafqazın, Türkiyənin fərqi yoxdur. Bunların ikisi də Turanlıdır. Sasun necədirsə, Qafqaz da elədir (bax: 149, s. 532).

Milli qırğınların törədilməsi ərəfəsində çarizm silahlanma məsələsində də ermənilərə və azərbaycanlılara qarşı münasibətdə fərqli mövqe tuturdu. Bakı nefti hesabına sərvət toplamış erməni kapitalistləri və Daşnaksütyun partiyası öz terrorçu dəstələrini yaradaraq lazımi şəkildə

silahlandırmaqla yanaşı Bakıda və bölgələrdə cəbbəxanalar yaratmışdılar. Bunu «görməyən» çarizm silah gəzdirməyi azərbaycanlılara qadağan etmişdi. M.S.Ordubadi yazır ki, «məhəlli hökumət bir sıra yüngül cinayətlərlə baş girləsə də, belə mühüm işlərin qabağını almaq kimi əməllərdən uzaq idi. Bundan anlaşılır ki, bir-birindən dostluq əlaqələrini kəsmiş hər iki millət bir-birinə qarşı buraxılmışdı» (94, s. 12).

Bəhs olunan dövrün müasiri, görkəmli Azərbaycan dramaturqu C.Məmmədquluzadənin əsərlərində çarizmin fitnəkar fəaliyyətinə dair faktlarla qarşılaşmaq mümkündür. «Xatiratım» əsərində müəllif bölgəmizdə törədilən milli qırğınların səbəbləri sırasında haqlı olaraq daha çox Rusiyanın mənfi rolundan, asan müstəmləkəçilik məqsədilə onun apardığı siyasətdən danışır. Baş verən hadisələrdə azərbaycanlıların elmsizliyinin mənfi hal olduğu barədə M.S.Ordubadinin söylədikləri Mirzə Cəlilin «Usta Zeynal» hekayəsində özünün bədii şəkildə təsvirini tapır.

«Qanlı illər» kitabını hadisələrin canlı şahidlərinin və iştirakçılarının ifadələri və məktubları, mətbu orqanlarında dərc edilən məlumatlar və öz müşahidələri əsasında qələmə alan M.S.Ordubadi hadisələrin birbaşa təşkilatçısının çarizm olduğunu açıq göstərməsə də, onun sözlərindən bunu anlamaq çətin deyil: «Süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladı və bütün Qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb-yaxıldı, deyilsə, daha düz olar. Görəsən, o partlayıcı maddə həqiqətdə bomba imiş? Bəli, bu bomba fevralın altısında baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı» (94, s. 13).

Kitabda Azərbaycanda törədilən milli qırğınların tərkib hissəsi kimi təsvir edilən Naxçıvan və Zəngəzur hadisələri haqqında verilən məlumatlarla tanışlıqdan sonra

münaqişənin çar məmurlarının təhriki və təşkilatçılığı ilə törədilməsinə şübhə yeri qalmır. 1905-ci il may ayının 11-də ermənilərin Naxçıvan şəhərində törətdikləri vəhşiliklər barədə hadisələrlə bağlı quberniya mərkəzi olan İrəvandan Naxçıvana gəlmiş vitse-qubernator Baranovskiyə şikayət edərək tədbir görülməsini tələb edən naxçıvanlılar ondan «Əgər onlar sizə atəş açır, siz də tutub onların silahlarını alınız» cavabını alırlar. Eyni zamanda Naxçıvan qəzasının polis rəisi Angil nəinki törədilən qətl və qarətin qarşısını alır, tam əksinə, azğınlaşan erməniləri cinayətlərə təhrik və təşviq edirmiş. Müvəqqəti sabitlik yaranan kimi isə çar məmurları yenidən ədavəti körükləyir, qırğmların daha da vüsət almasına nail olurdular.

1905-ci ilin payızınadək, qırğınların nisbətən səngidiyi qısa müddətdən sonra noyabr ayında qırğınların yeni mərhələsinin başlamasına birbaşa səbəbkar rus kazakları olmuşdular. Noyabrın 26-da guya asayişi bərpa edən kazakların evini talan etdikləri Çeşməbasar kənd sakini Hacı Nəsir Hacı Nağı oğlunun ailəsini məhv etməsi hadisələrin yenidən qızışması üçün ermənilərə bir işarə rolunu oynamışdı. Hadisənin əsas təşkilatçıları isə çar polkovniki Krılov və qəza polis rəisi Angil olmuşdu. Elə bu hadisənin baş verdiyi gecə Naxçıvan şəhərində «kazaklar və ermənilər əlbir olub müsəlman bazarını tamam qarət edəndən sonra od vurmuşlar». Yanan bazarın ətrafına toplaşan azərbaycanlı əhali yenə də Krılov və Angilin əmri ilə atəşə tutulmuş, bu zaman naxçıvanlı Məşədi Həsən Məhəmmədqulubəy oğlu öldürülmüşdü.

Noyabr ayının 30-da Cəhri kəndinin yandırılmasında da kazaklar ermənilərlə birlikdə hərəkət etmişdilər. Həmin gün Naxçıvana gəlmiş İrəvan general-qubernatoru Paskeviç nəinki hadisələrin təfsilatı ilə maraqlanmamış, əksinə, Cəhri kəndi tamam yanıb qurtarandan sonra,

dekabrın 2-də kəndə yollanmış, naxçıvanlıların haqlı şikayətləri ilə bir daha qarşılaşmamaq üçün gecə ikən qatarla İrəvana qayıtmışdı. Zəngəzurda isə 1905-ci il iyulun 29-dan avqustun 9-dək Qatar kəndi uğrunda gedən döyüşlərdə pristav Saxarov öz kazaklarına erməni quldur dəstələrinə kömək etmək barədə göstəriş vermiş, özü isə ermənilərin yaşadığı Barbatum kəndinə çəkilərək buradakı yüksəklikdən daşnak hərbi dəstələrinin kəndi dağıtmasını seyr etmişdi (94, s. 121-122).

1905-ci ildə görkəmli ictimai-siyasi xadim Əhməd bəy Ağayev tərəfindən azərbaycanlıların ermənilər tərəfindən soyqırımına qarşı müdafiə məqsədi ilə yaradılan və az sonra Gəncə, Şuşa, Qarabağ və Naxçıvanda öz şöbələrini açan «Difai» («Müdafiə») təşkilatını təsis etmişdi. Partiiyanın qəbul etdiyi bəyannamədə «Qafqaz müsəlmanları ilə ermənilər arasında baş verən münaqişənin rus hakim dairələrinin təhriki ilə törədildiyi qənaətinə gələn müsəlmanların özləri ilə ermənilər arasındakı nifaq və ədavəti qızışdıran rus məmurları» barədə tədbirlər görüləcəyini bəyan edilirdi (145, s. 182). Təşkilatın o zaman Azərbaycan ictimai mühitində böyük nüfuz sahibi olan Ə.Ağayev tərəfindən yaradılması, eləcə də M.M.Nəvvabın, M.S.Ordubadinin, C.Məmmədquluzadənin, C.Zeynaloğlunun və digərlərinin məlumatları deməyə əsas verir ki, 1905-1907-ci illərdə Azərbaycanda törədilən milli qırğının, bütövlükdə hadisələrin kökünü və təşkilatçılarını Azərbaycan ziyalılarının böyük əksəriyyəti düzgün görür və qiymətləndirirdilər. Lakin onların, demək olar ki, hamısı xalqın əsas kütlələrinin geriliyi və «elmsizliyi» səbəbindən münaqişənin əsl mahiyyətini anlaya bilmədiklərini təəssüf hissi ilə bildirirlər. Bu baxımdan C.Zeynaloğlunun fikirləri səciyyəvi xarakter daşıyır: «Yalnız azəri türkləri hələ qəflətdə idilər və iğtişaşlarda çar tərəfini

saxlayırdılar. Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviq və əsrlərcə yaxşı keçinən iki millətin birini digərinə qırdırırdı» (111, s. 107).

Hnçaq partiyasının banilərindən olan Qabriel Kafyan Şmavon (Kafyants) «Böyük Ermənistan» yaratmaq planları iflasa uğradıqdan sonra söyləmişdi: «Tarixə nəzər salanda aydın görürsən ki, lap əvvəldən biz erməniləri təhrik edən çar mütləqiyyəti və rus patriarxlığı olmuşdur» (72, s. 99). Bu deyilənlər törədilən milli qırğının Cənubi Qafqazın inqilabiləşməsinin qarşısını almaq, eləcə də bu bölgəni müsəlmanlarsız, daha doğrusu, türklərsiz bölgəyə çevirmək məqsədi daşıdığı barədə fikirlərimizin həqiqət çəkisini artırır. Münaqişələrin törədilməsi üçün xüsusi xəfiyyələrin göndərilməsi faktı isə azərbaycanlılara qarşı soyqırımın ən yüksək səviyyədə hazırlanaraq həyata keçirilməsinin daha bir sübutu kimi qəbul edilməlidir.

1907-ci il iyunun 3-də çar II Nikolay II Dövlət Dumasını da qovmuş, 1905-ci ildə «17 oktyabr Manifesti» ilə verdiyi hüquq və azadlıqları yenidən məhdudlaşdırmış, irticaçı və şovinist P.Stolıpini Nazirlər Şurasının sədri təyin etmişdi. Radikal aqrar islahatlar aparan P.Stolıpinin iradəsi ilə Sibirə, Mərkəzi Asiyaya, eləcə də Cənubi Qafqaza Rusiyanın mərkəzi quberniyalarından bütövlükdə 2,5 milyon kəndli köçürülmüşdü. Başqa sözlə, aqrar islahatları bəhanə edən çarizm bundan istifadə edərək öz əvvəlki planını – Cənubi Qafqazı zorakı ruslaşdırma və xristianlaşdırma siyasətini davam etdirirdi. Bu (rus kəndlilərinin Azərbaycana köçürülməsi) isə mövcud şəraitdə ermənilərin maraqlarına heç də uyğun deyildi.

Ermənilər özlərinin ənənəvi təbliğat vasitələrindən

istifadə etməklə «erməni məsələsi»nin aktuallığını itirməməsinə, onu daim gündəlikdə saxlamağa və fürsət düşən kimi yenidən real hərəkətə keçməyə çalışırdılar. 1912-ci ildə Eçmiədzin katolikosu seçilən V Gevork Sürenyan II Nikolaya müraciət edərək erməniləri öz himayəsinə almağı, əsrlərdən bəri uğradıqları zülm və haqsızlıqlardan xilas olunmalarını xahiş etdi (149; s. 374-375). Onu bu addımı atmağa təşviq edən Qafqazın məşhur ermənipərəst, canişini Vorontsov-Daşkov özü də 1912-ci ilin oktyabrında, yəni V Gevorkla eyni vaxtda yazdığı məktubunda çara məsləhət görmüşdü ki, II Nikolay «əsl rus siyasətinə – Türkiyə ermənilərinə havadarlıq etməyə qayıtsın» (72, s. 128).

Müraciətlərdəki «Türkiyə erməniləri» ifadəsi təsadüfən işlədilməmişdi. Belə ki, müraciət müəllifləri çar Rusiyasının Osmanlı dövləti barəsindəki ekspansionist niyyətlərindən əl çəkmədiyini bilir və sadəcə, «Türkiyə erməniləri» faktorunu çara xatırladırdılar. Bunun nəticəsi idi ki, 1913-cü ilin payızında çar sülaləsi üzvlərinin Cənubi Qafqaza gəlişi ilə bağlı II Nikolay ermənilərə müraciətində demişdi: «Siz o zaman xoşbəxt ola bilərsiniz ki, Konstantinopol (İstanbul) bizim praytaxtımız olsun. Bosfor və Dardanel bizim olsun. Onda Cənubi Qafqazda, Kiçik Asiyada «Böyük Ermənistan» dövləti yaradılacağını sizə söz verirəm» (57, s. 86). O, bu vədini ermənilərdən Osmanlı dövlətinə qarşı istifadə edə bilmək məqsədilə vermişdi. Çünki Türkiyə ermənilərinin Cənubi Qafqaza kütləvi köçünün son mərhələsindən sonra erməni təşkilatları «Böyük Ermənistan» qurmaq cəhdlərini Rusiyanın tərkibində olan Cənubi Qafqazda həyata keçirmək istəyirdilər ki, bu da çarizmin mənafeyinə cavab vermirdi. Azərbaycanlılara qarşı soyqırımın ikinci mərhələsini əhatə edən 1918-1920-ci illərdə də Rusiya «erməni kartı»ndan

öz mənafeyi naminə maksimum istifadə etməyə çalışırdı. Bu zaman o, əvvəlki dövrlərdən fərqli olaraq hətta öz məqsədini gizlətməyə belə cəhd etmirdi.

Çarizmin ermənilərdən bir vasitə kimi, xüsusən Türkiyəyə qarşı müharibədə istifadə etmək, habelə erməniləri antitürk fəaliyyətə təhrik etmək niyyətindən M.S.Ordubadi özünün «Dumanlı Təbriz» tarixi romanında da danışır. Daşnak komandiri Andranik Ozanyanın Təbrizə könüllü erməni dəstələri yığmaq üçün emissarlar göndərdiyindən danışan ədib qeyd edir ki, «neçə gündü ki, çar hökumətinin yaratdığı uçurumlara düşmək istəyən və korkoranə könüllü yazılan erməni gəncləri, daşnak «şairləri» və daşnak «bəstəkarları» tərəfindən bəstələnmiş milli şərqiləri oxuya-oxuya Təbriz küçələrini dolaşırdı. Bu vəziyyət Təbriz müsəlmanları və xüsusilə müsəlman millətçiləri içərisində çox fəna təsir bağışlamışdı. Təbrizdəki çar konsulxanası isə bundan xeyli məmnun idi. Konsulxananın avtomaşını könüllü yığmaq üçün seçilmiş komisyonun ixtiyarına buraxılmışdı». Ədib daha sonra yazır: «Daşnak partiyasına mənsub tacirlər, bir neçə də nüfuzsuz erməni ruhaniləri konsulxana ilə sıx əlaqə saxlayaraq oradan gündəlik işlər üçün göstərişlər alırdılar» (93, s. 335).

Digər tərəfdən artıq yaxın zamanlarda alovlanacağı şübhə doğurmayan müharibədə Türkiyənin gənc türklər hökuməti də Cənubi Qafqaz xalqlarından Rusiyaya qarşı istifadə etmək cəhdlərinə baş vurmuşdu. Müharibənin əvvəllərində Türkiyə hökuməti gürcülərə yaradacaqları dövlətin müstəqilliyinin tanınması barədə vəd verdi. Eyni zamanda bu barədə ermənilərlə də müxtəlif səviyyəli görüşlər keçirildi. Hətta 1914-cü ilin avqustunda daşnakların Ərzurumda keçirdikdəri qurultayda «gənc türklər»in nümayəndələri də iştirak etdi. Ərzurum görüşündə daşnak liderlərinə muxtariyyət vəd edildi. Bunun əvəzində

ermənilər rus ordusunun arxasında üsyan qaldırmalı idilər. Lakin erməni liderləri razılığın əksinə olaraq buna getmədilər (59, s. 28). Ermənilər etibarlılıq baxımından Rusiyanın təkliflərini daha məqbul saymışdılar.

Rus hərbi dairələrinin ermənilərin silahlanmaq barədə «xahişlərinə» diqqətlə yanaşması, eyni zamanda erməni kilsəsinin hərbi cinayətlərdə iştirakı arxiv sənədlərində öz əksini tapmışdır. Azərbaycan erməni yeparxiyasının başçısı arximandrit Nerses Məlik-Tanqyants Cənubi Azərbaycandakı rus ordularının komandanına 1914-cü il avqustun 20-də yazdığı məktubda ermənilərin 1722-ci ildə I Pyotrun bölgəyə yürüşü zamanı 40 min nəfərlik ordu ilə ona kömək etdikləri, erməni-rus münasibətlərini «Rusiya ilə və Rusiyada ermənilərin xilası» kimi tarix boyu «qırmızı xətlə keçən fikir» kimi xatırladır, Türkiyə zülmündən ənənəvi olaraq şikayət edir və Azərbaycan ərazisində rus hərbi rəislərinin komandanlığı altında erməni könüllü dəstələrinin yaradılmasına razılıq verilməsini xahiş edirdi (88, iş 59, v. 48-49). Rus Qafqaz ordusunun səhra qərargahı rəisinin 1914-cü il 30 oktyabr tarixli əmrində isə «bütün ermənilərin katolikosunun xahişi»ni nəzərə alaraq ona Tiflisdəki artilleriya arsenalından 250 «Berdana» tipli tüfəng və hər tüfəng üçün 100 güllə verilməsinə dair göstəriş (88, iş 53, v. 2) verilirdi.

Rusiya ermənilərdən istifadə etmək üçün hətta külli miqdarda maddi vəsait də ayırmışdı. 1915-ci ilin fevralında keçirilən erməni milli konqresindəki çıxışında Daşnaksütyunun nümayəndəsi bu barədə deyirdi: «Rusiya Osmanlı ermənilərini silahlandırmaq, müharibəyə hazırlamaq və üsyan qaldırmalarını təmin etmək üçün müharibədən əvvəl 243 min qızıl rubl vermişdir» (149, s. 600-601). Erməni katolikosluğu özünün rəsmi mətbu orqanı olan «Ararat» jurnalının 1914-cü il avqust nömrəsində

katolikos V Gevorkun bütün ermənilərə «rus imperiyası taxtına qarşı olan sədaqətini ən yüksək inanc və istəklə göstərmə zamanı» gəldiyi barədə müraciətini vermişdi. Andranik və Osmanlı parlamentinə Ərzurumdan deputat seçilmiş Q.Pastırmacyan (A.Qaro) Daşnaksütyun tərəfindən təşkilati işlər üçün Tiflisə göndərilmişdilər. Çalkuşyan 1919-cu ildə Parisdə nəşr etdirdiyi «Qırmızı kitab»ında yazır ki, «böyük xərclər hesabına dərhal erməni səyyar xəstəxanaları yaradıldı. Tiflisdən hər tərəfə Duma üzvü Papacanov, yepiskop Mesrop, Tiflis bələdiyyəsinin sədri Xatisov, Qafqaz erməni xeyriyyə cəmiyyətinin sədri Arutyunovun imzaları ilə belə çağırışlar göndərilirdi: «Erməni millətinin Rusiyaya qarşı dəyişməyən sədaqətini göstərməsi zamanı gəlmişdir. Ermənilər sərhədin o tərəfində qalan bir çox qardaşlarını xilas etmək üçün heç bir fədakarlıqdan çəkinməməlidirlər» (149, s. 588-590).

1908-ci ildə Türkiyədə Konstitusiya verilənədək ermənilər hərbi xidmətə çağırılmırdılar. Konstitusiya verildikdən sonra isə hərbi xidmətə getməkdən imtina edən ermənilər fərarilik edərək terrorçu daşnak qruplaşmalarına daxil olurdular. Birinci dünya müharibəsi başlayan kimi Tiflisdə Türkiyə və Qafqaz erməniləri hesabına təşkil edilmiş könüllü dəstələr də hərəkətə keçdilər. Ermənilərin rus qoşunları ilə birləşərək təxribatlar törətməsi Osmanlı dövlətinin şərq torpaqlarında ağır nəticələrə səbəb olmuş, ruslar Van, Malazgird və Bitlisi işğal etmişdilər (139, s. 40). II Nikolay Van erməni komitəsinə 1915-ci il aprelin 21-də teleqrafla «Rusiyaya göstərdikləri xidmətə» görə təşəkkür etmişdi. ABŞ-da nəşr edilən «Qoçnak» adlı erməni qəzeti 24 may 1915-ci il tarixli nömrəsində «Vanda cəmi 1500 türkün qaldığını» iftixarla bildirirdi (bax: 139, s. 18). Rusiyadakı ermənilərin çarın çağırışına həvəslə qoşulması Daşnaksütyunun Türkiyə ermənilərini də aya-

ğa qaldırmasına səbəb oldu.

Fəaliyyət prinsipləri «bulanıq suda balıq tutmaq» olan erməni siyasi təşkilatlarının böyük ümidlər bəslədiyi Birinci dünya müharibəsi Türkiyədə erməni hərəkatının məhvi dövrü oldu. Bunu şərtləndirən mühüm amillər isə bir tərəfdən Osmanlı hökumətinin erməni separatizminə qarşı qəti addımları olmuşdusa, digər tərəfdən, bu, çar Rusiyasının ermənilərdən növbəti dəfə yalnız öz maraqları naminə istifadə etməsinin üzə çıxması ilə bağlı idi. 1916-cı ilin əvvəllərində rus ordusunun Ərzurumu işğal etməsi ilə bağlı çar qoşunları Baş komandanının verdiyi əmrdə deyilirdi ki, «ermənilərə Ərzurumda məskunlaşmaq ixtiyarı verilmir» (149, s. 600). 1916-cı ildə Rusiya xarici işlər naziri Sazonov Qafqaz canişini knyaz Nikolay Nikolayeviçə məktubunda yazırdı: «Məlum olduğu kimi, bizdə erməni məsələsini həll etmək üçün iki yol düşünülmüşdür: biri 1913-cü ildə bizə tövsiyə edildiyi kimi, ermənilərə tam muxtariyyət vermək, digəri isə buna qarşı ermənilərin siyasi əhəmiyyətini sıfıra endirmək və onların yerinə müsəlmanları gətirib yerləşdirmək. Mənə belə gəlir ki, erməni məsələsinin istər o, istərsə də bu şəkildə həlli həm daxili, həm də xarici siyasət baxımından Rusiyanın mənafeyinə uyğun deyildir» (135, s.102).

Təbii ki, müharibənin ilk illərində Şərqi Anadoluda uğurlu hərbi əməliyyatlardan sonra ermənilər öz missiyasını yerinə yetirmiş qüvvə kimi burada çarizmə daha lazım deyildilər. Onların bu ərazidə bundan sonrakı mövcudluğunu rus hakim dairələri hətta təhlükəli hesab edirdilər. Sonralar Daşnaksütyunun lideri, Qərbi Azərbaycanda 1918-ci ildə qurulmuş işğalçı daşnak rejiminin baş naziri olmuş O.Kaçaznuni 1923-cü ildə yazırdı: «1915-ci ilin ikinci yarısı və bütün 1916-cı il bizim üçün ümidsizlik dövrü idi. Bu zaman Türkiyədən qaçanlar ac,

çılpaq Qafqaza doluşurdular. Ruslar bizi aldatdılar, bizə xəyanət etdilər, bilərəkdən ləngidilər, qətiyyətsizlik göstərdilər, irəli gedib işğal etdilər, yerli ermənilən türklər məhv edə bilsinlər deyə tənha qoydular... Rusların hərəkətlərini açıqlamaq üçün bizi məhv etmə planlarının, qayələrinin olduğunu irəli sürməyə səbəb yoxdur. Yalnız bu yaxşı bilinməlidir ki, rusların məqsədləri, nəyin bahasına olursa-olsun, Türkiyə ermənilərini xilas etmək deyildi və heç bir zaman da belə olmamışdır» (149, s. 629-630). Kaçaznuninin fikirlərini başqa bir fakt da təsdiqləyir. Belə ki, ermənilərin digər «himayədarı» İngiltərənin Fransa ilə 1916-cı ilin mayında imzaladığı Sayks-Piko sazişinə əsasən, çarizmin nəzərdə tutduğu kimi, «Türkiyə Ermənistanının (Şərqi Anadolunun – E.C.) böyük bir hissəsi sadə rus quberniyası şəklində Rusiyanın tərkibinə daxil edilir, rus hökuməti həmin ərazilərə kazakları (Don, Kuban, Sibir kazaklarını) köçürmək, bununla da Türkiyə Ermənistanını ruslaşdırmaq istəyirdi» (2, s. 55).

Bu dövrdə Rusiyada bir-birini əvəz edən iqtidarlar müxtəlif siyasi oriyentasiyaya malik olmalarına baxmayaraq Cənubi Qafqazda eyni milli siyasəti yürüdürdülər. Milli məsələlər üzrə köməkçisi erməni Xondkaryan olan və daşnakların müdafiə etdiyi Kerenski hökumətinin də, çarizm kimi, milli məsələdə siyasəti bölgədə azərbaycanlılar ilə ermənilər arasında ədavətin qızışdırılmasına və milli münaqişənin alovlandırılmasına yönəlmişdi. Elə buna görədir ki, Naxçıvan və Şərur-Dərələyəz qəzalarında azərbaycanlıların mütləq əksəriyyəti təşkil etmələrinə baxmayaraq hər iki qəzaya həm də ermənilərdən müvəkkil təyin olunmuşdu. Halbuki İrəvan quberniyasının digər qəzalarında bu cür hal müşahidə olunmamış, hətta bütün quberniyada azərbaycanlı əhalinin sayının ermənilərdən xeyli artıq olmasına baxmayaraq quberniya komissarı

vəzifəsi də ermənilərin nümayəndəsi Xaçaturyana həvalə olunmuşdu. Ordubad qəzasında isə yenə azərbaycanlıların çoxluq təşkil etmələrinə baxmayaraq qəzaya cəmi bir müvəkkil, lakin azərbaycanlı olmayan Bendukidze təyin olunmuşdu (81, s. 52).

Eyni siyasət sovet Rusiyası tərəfindən də davam etdirilmişdi. Lenin oktyabr çevrilişinə bir ay qalmış, 1917-ci il sentyabrın əvvəllərində hökumətin Osmanlı torpaqlarının ilhaqı üçün davam etdirdiyi müharibəyə qarşı «istər Ermənistandan (Şərqi Anadolu nəzərdə tutulur – E.C.), istərsə də türk torpaqlarından geri çəkilmək» fikrini müdafiə edirdi. Həmin təbliğatın davamı kimi, 1917-ci il noyabrın 20-də Leninin imzası ilə yayılan «Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə» adlı müraciətdə «Türkiyənin parçalanmasına və Ermənistanın onun əlindən alınmasına dair anlaşmanın ləğv edildiyi» bildirilirdi. Bolşevik hökumətinin xalq komissarı İ.Stalinin 1917-ci dekabrın 31-də yaydığı «Türkiyə Ermənistanı haqqında» məlumatında Qərb dövlətlərinin Şərqi Anadoluda həyata keçirdikləri siyasi oyunları və ermənilərdən necə istifadə etdikləri haqqında danışılırdı (121, I c., s. 131). Hətta çarizmin 1877-1878-ci illər müharibəsi zamanı işğal etdiyi bütün Osmanlı torpaqları 1918-ci il Brest-Litovsk müqaviləsinə əsasən Türkiyəyə qaytarılırdı. Lakin bu, Leninin tarixi ədaləti bərpa etmək cəhdi ilə bağlı deyildi. Sadəcə, tarixdə ilk sovet dövlətinin banisi olmuş Lenin yaxşı anlayırdı ki, yeni siyasi-iqtisadi sistemə təzəcə keçmiş Rusiya müharibəni davam etdirmək iqtidarında və gücündə deyildir, əgər müharibə davam etdirilərsə, sovet Rusiyası dağılmağa məhkumdur. Buna görə də bolşevik çevrilişini daşnak liderləri yaxşı qarşılamadılar.

Lakin Leninin milli məsələdə, xüsusən Cənubi Qafqazda yürütdüyü siyasət sovet Rusiyası üçün də

«erməni kartı»nın aktual siyasət predmeti olduğunu göstərirdi. 1917-ci il dekabrın 16-da qatı millətçi və terrorçu S.Şaumyanın RSFSR Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilməsi bolşeviklərin milli məsələdə yürütdükləri siyasətin mahiyyətini üzə çıxardı. O, hələ 1911-ci ildə Həştərxanda sürgündə olarkən «...V.İ.Leninlə, xüsusən milli məsələ barədə yazışırdı» (14, X c., s. 470). Şaumyan 1917-ci il fevral burjua inqilabından sonra qiyabi olaraq Bakı Sovetinin sədri seçilmiş, 1917-ci ilin noyabrından isə həmin quruma rəhbərlik etmişdi. Bu şəxs əsas təşkilatçısı və baş icraçısı olduğu 1918-ci il qırğınları ərəfəsində cəmi 16 yaşı olan oğlu Suren Şaumyanın RK(b)P Bakı Komitəsi yanında döyüş drujinası pulemyot komandasının rəisi təyin edilməsinə nail olmuş, onu da qanlı cinayətlərin fəal icraçısına çevirmişdi. Yeniyetmə oğlunun qanlı cinayətlərə alət edilməsində Şaumyanın məqsədi azərbaycanlılara qarşı soyqırımın xüsusi qəddarlıqla törədilməsinə nəzarəti öz əlində saxlamaq idi.

Beləliklə, bəhs olunan dövrdə Cənubi Qafqazda rus hakim dairələrinin yürütdüyü milli siyasət ermənilərin fəallığının artmasına səbəb oldu. Erməni terrorçu təşkilatları Azərbaycanın ayrı-ayrı bölgələrində böyük hərbi qüvvə ilə təşkil olunmuş qanlı cinayətlərə – soyqırıma başladılar. Azərbaycanlılara qarşı soyqırımın istər 1905-1907-ci illər, istərsə də 1918-1920-ci illər mərhələlərində erməni liderlərinin arasındakı siyasi fikir ayrılıqları onlara xalqımıza qarşı qırğınlarda birlikdə iştirak etməyə heç də mane olmadı.

Beləliklə, XIX əsrin sonu-XX əsrin əvvəllərində getdikcə mürəkkəbləşən beynəlxalq şəraitin, gərginləşən dövlətlərarası münasibətlərin, eyni zamanda Rusiyada kəskinləşən daxili ictimai-siyasi, inqilabi vəziyyətin

yaratdığı şərait çarizmin xarici və daxili siyasətində irticaçı meyllərin artmasını şərtləndirən əsas amil idi. Bu dövrdə irticadan ən çox zərər çəkən Azərbaycan olmuşdu. Coğrafi-strateji mövqe baxımından tarixən öz xüsusiyyətləri ilə fərqlənən ölkəmiz əgər əvvəlki yüzilliklərdə Osmanlı dövləti, İran və Rusiya arasında münaqişə və müharibə meydanına çevrilmişdisə, çarizmin ssenarisi ilə ötən əsrin əvvəllərində burada milli qırğınlar baş vermiş, xalqımıza qarşı soyqırımın ilk mərhələləri həyata keçirilmişdi. Rusiya Qafqaza – əsrlər boyu bölgənin avtoxton millətlərinin dinc, mehriban yaşadığı bu coğrafi məkana, xüsusilə onun cənub hissəsinə elə nifaq toxumu səpdi ki, artıq yüz il sonra da biz onun ağrılarını ən ağır şəkildə yaşamaqdayıq.

## 2.2. Ermənilərin Naxçıvanda törətdiyi qanlı cinayətlər

1905-1907-ci illərdə baş verən erməni iğtişaşlarından danışarkən törədilən milli qırğınların səbəb-nəticə əlaqələrinin yalnız göstərilən illərlə hududlanması problemə səthi yanaşma demək olardı. Çünki XIX əsrin ikinci yarısında ermənilərin Şərqi Anadoluda və Cənubi Azərbaycanda törətdikləri qanlı cinayətlərdə Cənubi Qafqaza, o cümlədən Naxçıvana köçürülmüş ermənilər fəal iştirak etməkdə idilər. M.M.Nəvvab hələ XIX əsrin ortalarından ermənilərin müsəlmanlara qarşı həqarətlə davrandıqlarını, XX yüzilliyin ilk illərindən azərbaycanlılara qarşı qanlı cinayətlər törətməyə başladıqlarını yazır (92, s. 10-15).

Digər tərəfdən ermənilər 12 iyun 1903-cü il tarixli kilsələrin əmlakının müsadirə edilməsi haqqında çar fərmanından sonra kifayət qədər mütəşəkkil şəkildə ötən əsrin sonlarında çarizmin Türkiyə ilə gizli razılaşmasından doğan antierməni tədbirlərə qarşı Cənubi Qafqaz ərazisində

ilk silahlı çıxışlarını etmişdilər. Hələ XIX əsrin son onilliklərindən başlayaraq «Qafqazın erməni hərəkatı tərəfindən özünün sənaye-siyasi həyasızlığınadək gəlib çatmış iqtisadi işğalının təşkil edilməsinin qaçılmaz siyasi problemlərə gətirib çıxaracağı» (156, s. 130) məlum idi. Elə bu səbəbdən də ciddi iqtisadi əsaslara malik olan erməni təşkilatları yuxarıda qeyd edilən çar fərmanına mütəşəkkil silahlı iğtişaşlarla cavab verdilər. Bu iğtişaşlarda ermənilərin istənilən bölgədə, bir çox yerlərdə elə kilsələrin özündə silah ambarlarının, cəbbəxanalarının mövcudluğu üzə çıxdı. Təbii ki, bu, gələcək qırğınların xeyli əvvəlcədən planlaşdırıldığını göstərirdi. Digər tərəfdən erməni kilsəsi özünü dini təsisatdan çox milli, daha dəqiq desək, millətçi təsisat, yarımleqal erməni hərbi-siyasi təşkilatı kimi göstərirdi.

1903-cü ilin avqust ayının əvvəllərində Türkiyə erməniləri Eçmiədzin qəzasının Şəhriyar kənd sakini Stepan Drampovu erməni milli məqsədləri üçün pul yığılmasının təşkilatçılarından iki nəfəri ələ verməkdə şübhəli hesab etdiklərinə görə, avqustun 13-də isə Aleksandropol pravoslav kilsəsinin protoiereyi Vasilyevi üç erməni kəndini pravoslavlığa dəvət etdiyi üçün öldürdülər. Özü də bir neçə dəfə daşnak şantajına məruz qalan rus ziyalısı V.Veliçko bu terror hadisələrinə qiymət verərkən qeyd edir ki, «bir şey danılmazdır ki, bütün Cənubi Qafqaz üzərində siyasi şantajın ağır atmosferi dolaşır, onu təhdid edir».

Haqqında danışılan çar fərmanına qarşı yönəlmiş erməni terroru tezliklə kilsənin təhriki ilə kütləvi silahlı çıxışlara çevrildi. Belə çıxışlar 1903-cü il avqustun 29-da Qarsda və Gəncədə, avqustun 31-də Eçmiədzində, oktyabrın 14-də Tiflisdə baş verdi (156, s. 139-142). Sonuncu hadisə çarizmin ermənilərə qarşı həyata keçirdiyi tədbirlərin ideoloqu və əsas icraçısı olan Qafqazın

mülki hakimi general-adyutant, knyaz Qolitsına qarşı həyata keçirilmiş, yaralanan knyaz sonra çar tərəfindən Peterburqa geri çağırılmışdı.

Qafqazda erməni hərəkatı tarixində və Rusiyanın bu istiqamətdəki siyasətində əsaslı dəyişiklik İ.Vorontsov-Daşkovun Qafqaza 1903-cü ildə hakim təyin edilməsindən sonra baş verdi. O dövrə aid və sonradan həmin tarixi mərhələni işıqlandıran bütün mənbələr bir qayda olaraq İ.Vorontsov-Daşkovu qatı ermənipərəst şəxs kimi xarakterizə edirlər. Görünür, Qolitsının antierməni tədbirlərinin silahlı çıxışlara səbəb olması və sələfinə qarşı törədilən sui-qəsd hadisəsi onun bu mövqeyinə təsirsiz ötüşməmiş, Qafqazın yeni hakimi ermənilərə münasibətdə daha hiyləgər siyasət yeridərək erməni silahlı çıxışlarını inqilabi hərəkatın boğulmasına istiqamətləndirməyə başlamışdı. Təsadüfi deyil ki, çarizm onun fəaliyyətini daha məqbul hesab edib 1905-ci il fevralın 26-da Qafqaz canişinliyini bərpa edərək burada həm mülki, həm də hərbi hakimiyyəti İ.Vorontsov-Daşkova (1905-1915) verməklə onun səlahiyyətlərini genişləndirdi.

Canişinlik bərpa edilən zaman çarizmin milli qırğın siyasətini Bakıdan başlaması iki əsas faktorla bağlı idi. Birincisi, XIX əsrin ikinci yarısında burada sənayenin sürətli inkişafı proletariat sinfinin təşəkkülü ilə əlaqədar inqilabi mühitin yaranıb inkişaf etməsinə və bununla da Rusiya üçün böyük təhlükə mənbəyinə çevrilməsinə səbəb olmuşdu. İkincisi, Bakı neft sənayesində və bununla bağlı sənayenin digər sahələrində ciddi maliyyə-iqtisadi dayaqlar əldə etmiş, Cənubi Qafqazın «iqtisadi işğalı»nı reallaşdırmış erməni sənaye maqnatlarının (Mantaşev, Saturov, Ter-Avakov, Qukasov qardaşları, Gülbenkyan, Mirzoyev qardaşları, Lianozovlar, Arakelov, Adamov, Avetov, Mayılovlar və s.) vəsaiti hesabına Bakı, 1903-cü il sent-

yabr iğtişaşlarından da göründüyü kimi, ermənilərin əsas silah cəbbəxanasına çevrilmişdi. Başqa sözlə, iqtisadi güc siyasi iddiaları reallaşdırmaq üçün zəmin hazırlamaqda idi. Bu iddiaları təmin etmək üçün «Qafqaz erməni burjuaziyası... Daşnaksütyun partiyasında özünün yetirməsini, ən yaxşı müttəfiqini, öz mənafeyinin ən yaxşı ifadəçisini görür və buna görə də var qüvvəsi ilə, maddi və mənəvi cəhətdən bu partiyanı müdafiə edirdi» (14, III c., s. 353).

1905-1907-ci illərdə çarizmin himayə etdiyi erməni hərəkatının rəhbəri kimi Daşnaksütyun öz yerli təşkilatlarını partiya nizamnaməsi prinsipləri əsasında lazımi şəkildə qura bilmişdi. XX yüzilliyin əvvəllərində bu partiyanın Rusiyada 2311, Türkiyədə 693, İranda 90 və s. yerli təşkilatları fəaliyyət göstərirdi. Partiyanın Cənubi Qafqaz şəhərlərindəki mərkəzi komitələri xüsusi adlar altında təşkil edilmişdi. Sonuncu komitə isə Naxçıvanda yaradılmışdı. Qars, İrəvan, Naxçıvan və Şuşada yaradılan mərkəzi komitələr Qarsda və ya İrəvanda yerləşən ümumi orqana tabe idilər (160, s. 13-14). Terrorçuluğu bir dəst-xətt kimi əsas tutan Daşnaksütyunun Cənubi Qafqazda kifayət qədər mükəmməl şəkildə təşkilatlanması azərbaycanlılara qarşı törədiləcək soyqırımın vahid mərkəzdən idarə olunmasına imkan verirdi. Bu zaman 1903-cü il hadisələrindən sonra mövqeyi zəifləmiş erməni kilsəsi daşnaklar üçün silah ambarı və lazım gəldikdə etibarlı sığınacaq rolunu oynayırdı. Daşnaksütyun isə bölgədə silahlı dəstələr yaradılması işini daha da genişləndirmiş, Rusiyada inqilabi çıxışlar başlayan zaman öz ordusunu səfərbər edərək onun sayını 100 min nəfərə çatdırmışdı (161, s. 19). Beləliklə, ermənilər terrorçu siyasi təşkilatlarının rəhbərliyi ilə 1905-1907-ci illərdə azərbaycanlılara qarşı qırğınlara ciddi və hərtərəfli şəkildə hazırlaşmışdılar.

Bakıda daşnakların silah ehtiyatlarının çoxluğu və «öz

kilsələrinin işlərinə müdaxilə edən, bəzi hallarda Eçmiədzinlə diktator ədası ilə danışan» (156, s. 136) varlı erməni neft sənayeçilərinin və bankirlərinin iqtisadi-siyasi marağı erməni cinayətlərinə buradan rəvac verdi. Hadisələrin 1905-ci ilin fevralında başlaması da təsadüfi deyildi. 1905-ci il yanvarın 9-da Peterburqda Birinci Rus inqilabının başlanmasından cəmi üç gün sonra həmin hadisələrin təsiri ilə Bakıda da inqilabi çıxışlar baş vermişdi. Bakı hadisələrinin çarizm üçün daha təhlükəli ola biləcəyini anlayan hakim dairələr milli qırğınların təşkil olunmasına başladılar. Bakıda siyasi təşkilatların sayının, sıralarının və nüfuzunun artdığı bir şəraitdə qırğınların törədilməsi ilə Azərbaycanda inqilabi çıxışların silahlı üsyana çevrilməsinin qarşısını almaq çar məmurlarına müyəssər oldu. İnqilabi hərəkatın potensial hərəkətverici qüvvələri – əhalinin aşağı təbəqələri milli münaqişəyə cəlb olundu. Bu, çarizmin uğurla nəticələnən siyasi-taktiki gedişi idi. Çünki üsyanın Bakını da bürüyəcəyi təqdirdə bütün Qafqaz bundan təsir görəcək və hadisələrin sonluğu Rusiya taxtı üçün ağır nəticələrə gətirib çıxaracaqdı. Bu amil, heç şübhəsiz ki, nəzərə alınmışdı.

1905-ci ildə fevral ayının ilk ongünlüyünü əhatə edən Bakıdakı erməni terrorundan danışan M.S.Ordubadi qeyd edir ki, fevralın 6-10-da vüsət alan qanlı cinayətlərdən sonra «ermənilər büsbütün Bakıda məğlub olub fəlakətə uğramışlar... Ermənilərin əvvəlki təşəbbüs və tədarüklərinə baxdıqda insan son dərəcə təəccüb qalır. Zənnimcə, həmin bu məğlubiyyətə ermənilərin özləri səbəb olmuşlar. Belə ki, bir sıra xırda-para işlərlə müsəlmanları duyuq salıb özlərinin nə xəyalda olduğunu layiqincə islamlara bildirdilər. Müsəlmanlar da ermənilərin bu fikrini başa düşüb özlərinin mühafizəsi qayğısına qalıblar...» (94, s. 17). Müəllif 1903-1904-cü illərdə ermənilərin

mərkəzi hakimiyyətə qarşı çıxışlarını və azərbaycanlılarla ilə qeyri-sağlam rəftarını nəzərdə tutaraq müsəlmanların baş verəcək hadisələrdən əvvəlcədən xəbərdar olduğunu yazır. Lakin əsərdə azərbaycanlıların hərbi bacarığının aşağı səviyyədə olduğu fikri də bir neçə dəfə təkrar olunur və bu, yaxşı silahlanmayan müsəlmanların daha çox qırılmasının səbəblərindən biri kimi göstərilir. Qeyd edək ki, bütün ərazilərdə baş verən hadisələrdə soydaşlarımız heç də məğlubiyyətə düçar olmadılar. Lakin ermənilərə qarşı ciddi müqavimətin əsasını azərbaycanlıların heç də yaxşı silahlanmasmda, hərbi səriştəsində deyil, milli-mənəvi prinsiplərə bağlılığında axtarmaq, namus, qeyrət hisslərinin uca tutulmasında görmək lazımdır.

Bakı qırğınları zamanı ermənilər buradakı hərbi sursatlarının zənginliyinə, onların çar məmurları tərəfindən müdafiə edilmələrinə baxmayaraq məqsədlərini reallaşdıra bilmədilər. Çünki Bakı qubernatoru Nakaşidze milli qırğınların davam etdirilməsinin də arzuedilməz nəticələrə səbəb ola biləcəyini başa düşüb, artıq 1905-ci il fevralın 10-da erməni cinayətlərinin qarşısını almağa məcbur oldu. Lakin bu, onun özünün faciəsi ilə nəticələndi. Nakaşidze 1905-ci il may ayının 15-də şəhərin meydanından keçərkən daşnak dəstə başçısı Dronun atdığı bomba nəticəsində öldürüldü. Qubernatorun milliyyətcə azərbaycanlı olan faytonçusu da öldü (149, s. 534). Nakaşidzenin öldürülməsi bir tərəfdən onun qalib gələ bilməyən ermənilərin cinayətlərinin qarşısınm tez alınmasından doğan qəzəbin nəticəsi idisə, digər tərəfdən erməni terrorçularına mane olmağa cəhd etmək istəyən çar məmurlarına da bir xəbərdarlıq idi. Təbii ki, çarizm istənilən halda hadisələrin öz nəzarətindən çıxması ilə barışmaq istəmirdi. Buna görə də, rus-erməni planlarının, milli qırğınların siyasi şüurun zəif inkişaf etdiyi bölgələrdə həyata keçirilməsi daha

məqbul variant idi. Bununla da Bakı iğtişaşlarından sonra erməni cinayətləri Naxçıvan, İrəvan və Zəngəzur qəzalarında artmağa və genişlənməyə başladı.

Hadisələrdən danışarkən daşnak ideoloqu Aknuninin bir məlumatına diqqət yetirmək maraqlı olardı: «Mərkəzi İstanbulda olan bir komitə vardı. Bu komitənin İstanbuldakı rəhbərləri Qafqaza gedərək on ildir orada işləyirlər. İstanbuldan silah, cəbbəxana, pul göndərilmiş, bu komitə Yelizavetpol, Bakı, Şuşaya xeyli silah və cəbbəxana toplamışdı. Hərəkatın mərkəzi kimi Bakı seçilmiş və gücləndirilmişdi. Bu komitənin planlarına görə, Bəyazit tərəfdən Qafqaza giriləcək, Qars istehkamlarından yan keçərək İrəvan, Naxçıvan, sonra Qarabağa keçiləcək, Dağıstanda yerləşmək üçün Bakı zəbt olunacaq, hər tərəfdə xristianlar məhv ediləcək, müsəlmanlar yerləşəcək, sonra da rus hakimiyyətinə son veriləcək» (bax: 149, s. 533).

Aknuninin yazdıqlarından belə məlum olur ki, guya belə bir komitəni türklər yaradıblarmış. Lakin onun qeyd etdiyi planda bəhs olunan torpaqların elə azərbaycanlıların əlində olduğunu nəzərə alsaq, rus hakimiyyətinə son vermək üçün başlanacaq hərəkata, guya həmin komitənin cəbbəxanalar yaratdığı bu torpaqlardan, lap elə Bakıdan başlamaq olmazdımı? Əlbəttə, Aknuninin yazdıqlarına tarixi əsası və elmi məntiqi olmayan sayıqlamalar kimi də yanaşmaq olardı. Amma onun söylədiklərinə diqqətlə yanaşdıqda, məlum olur ki, daşnak ideoloqu əslində hansısa mövcud olmamış türk komitəsinin adına çıxdığı həmin hərəkat planlarında Daşnaksütyunun Azərbaycan torpaqlarına dair əsl niyyətini açıqlamışdır. Çünki hadisələrin sonrakı gedişi, 1905-1907-ci illərdə azərbaycanlılara qarşı törədilən soyqırımın, demək olar ki, Aknuninin qeyd etdiyi coğrafi trayektoriya üzrə həyata keçirilməsi bizim mülahizəmizin həqiqət yükünü artırır. Bunun türk

komitəsinin adına çıxılması isə ənənəvi erməni təbliğat taktikasından başqa bir şey deyildir.

Aknuninin bu məlumatının əsl mahiyyəti və haradan qaynaqlandığı başqa bir məlumatdan aydın olur. Daşnaksütyun partiyasının 1913-cü il sentyabr ayının sonundan oktyabrın 15-dək Cenevrədə keçirilən qurultayında qəbul edilən fəaliyyət planının daşnak fəalı Avetis Aqaronyan tərəfindən təklif edilmiş 16-cı maddəsi aşağıdakı redaksiyada idi: öz adamlarımızı Qafqaza göndərmək, təbliğat yolu ilə müsəlman əhalisini Rusiyaya qarşı təhrik etmək və üsyan qaldırmaq; nəticədə rus hökuməti tərəfindən başlanacaq repressiyalar müsəlman kütlələrinin zəifləməsinə səbəb olacaq ki, Daşnaksütyun da Qafqazda gələcəkdə aparacağı işlərdə müsəlmanların müqaviməti ilə qarşılaşmayacaq; bundan başqa Qafqaz müsəlmanları ilə Anadolu türklərinin ermənilərə qarşı birləşmiş hərəkatı təhlükəsi də sovuşacaq (15, s. 117). Doğrudur, Aknuni öz məlumatını 1905-1907-ci illərdə baş verən hadisələrlə bağlı verir, Daşnaksütyunun bəhs olunan qərarı isə 1913-cü ildə qəbu edilmişdir. Lakin bu da nəzərə alınmalıdır ki, Aknuni öz kitabını 1932-ci ildə yazmışdır və hadisələrin yerini dəyişmək, saxtalaşdırmaq erməni müəlliflərinin ən yaxşı bacardıqları işlərdən mənfiliklərdən biridir.

Bakıda ermənilərin törətdikləri vəhşiliklər Azərbaycanın hər bir bölgəsində, o cümlədən Naxçıvanda da böyük əks-səda doğurmuş və əhalinin böyük narahatlığına səbəb olmuşdu. Bu narahatlığı gücləndirən, onun əsaslı olduğunu sübut edən digər bir amil Naxçıvanda ermənilərin hələ Bakı hadisələrindən bir qədər də əvvəl azərbaycanlılara qarşı göstərdikləri soyuq, bir çox hallarda təxribatlara təhrikedici münasibət idi. Əhali arasında ermənilərin sürətlə silahlanması barədə məlumatlar yayılırdı ki, bu da psixoloji gərginliyi son həddə çatdırırdı. Ermənilərin

özlərini Naxçıvanın əsl sahibi kimi aparmaları və imkan düşən kimi azərbaycanlıları ələ salaraq eyhamlı şəkildə danışmaları yaxınlaşmaqda olan faciədən xəbər verir və gərgin psixoloji təsir vasitəsinə çevrilirdi. M.S.Ordubadi yazır ki, «o zamana qədər əsla qara-qorxu görməmiş Naxçıvan müsəlmanları gecələr ermənilərin qorxusundan eşiyə, gündüzlər isə uzaqda olan əmlaka da gedə bilməzdilər. Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri (bu kəndlərin hamısı XIX əsrdə köçürülmələrdən sonra ermənilərlə məskunlaşdırılmışdı – E.C.) ilə əhatə olunduğundan, 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər» (94, s. 18).

Təbii ki, ermənilərin silahlanmasından və özbaşınalıqlarından Rusiyanın yerli hakimiyyət orqanlarının xəbərləri olmamış deyildi. Çarizmin bu hərəkətlərə loyal münasibəti onun bu məsələdə xüsusi maraqlarının olduğunu göstərirdi. Digər tərəfdən daşnaklar özlərinə münasibətdə qanuna əsaslanmağa meyl edən çar məmurlarını şantaj edir, hədələyir, bir sıra hallarda onların qətlinə fərman verir və qətli dərhal icra edirdilər.

Daşnak ideoloqu Mikael Varandyan 1932-ci ildə Parisdə nəşr etdirdiyi «Daşnaksütyun tarixi» kitabında yazırdı ki, azərbaycanlıların soyqırımını daha qüvvətli və təsirli həyata keçirmək, hücumu əsaslı şəkildə təmin etmək üçün Qafqaz Daşnaksütyun mərkəz məsul komitəsi rusca bu bildirişi nəşr edərək yaymışdı: «Erməni inqilabi cəmiyyətlər birliyi (Daşnaksütyun – E.C.) bütün polislərə, strajniklərə, bələdiyyə rəislərinə, jandarmlara, əgər ermənilərin əllərindən silahlarını almağa, onlara zərər yetirməyə cəsarət edərlərsə, hər birinin tək-tək və mərhəmətsizcəsinə məhv ediləcəkləri barədə xəbərdarlıq edir. Belələri Daşnaksütyun komitəsinin qərarı ilə öldürülmüş olan

Bakı qubernatoru Nakaşidze, Gəncə vitse-qubernatoru Andreyev, mütəsərrif Slavski, Şmerlinq, Bıkov, polis rəisi Saxarov, pristav Naşanski, Cavaxov, Şumakeviç, Ter-Saakovu xatırlasınlar» (bax: 149, s. 535). Bu, həm də daşnakların öz məqsədləri naminə yeri gəldikcə hətta öz nümayəndələrinə belə rəhm etmədiklərinin daha bir nümunəsidir.

Naxçıvanda qanlı hadisələrin törədilməsi ərəfəsində açıq-aşkar silahlı erməni daşnak əsgərləri toplanmaqda idilər. M.M.Nəvvab yazır: «Elə ki İrəvanın fitnə-fəsad törədən erməniləri Naxçıvana gəldilər, orada vəziyyət gərginləşdi. Naxçıvan erməniləri neçə illərdən bəri tədarük etdikləri vuruş sursatlarını – topları, bombaları, beşaçılan tüfəngləri və s. növbəti qırğın üçün hazırlamağa başladılar» (92, s. 21). Məlumatdan aydın olur ki, Naxçıvan hadisələri İrəvandan gəlmiş daşnak silahlılarının təhriki ilə başlamışdır. Onlar təhrikedici hərəkətləri ilə azərbaycanlıları münaqişəyə cəlb etməyə çalışırdılar.

Naxçıvanda hadisələrin başlanması üçün bilavasitə qığılcım rolunu 1905-ci il may ayının 5-də «gündüz saat üç radələrində üç nəfər Cəhri kəndinin sakini olan müsəlmanların erməni kəndi Şıxmahmud adlı yerdən keçdikləri vaxt ağır surətdə yaralanması» (94, s. 18) hadisəsi oynadı. Bu hadisənin bölgə əhalisi arasında çaşqmlıq yaratdığı, narahatlığı artırdığı bir vaxtda Naxçıvan şəhəri yaxınlığında yerləşən, azərbaycanlılarla ermənilərin bərabər yaşadığı Tumbul kəndində mayın 7-də bir azərbaycanlı qətlə yetirildi. «Qanlı illər»in müəllifi Tumbul kəndində azərbaycanlıların ermənilərdən iki dəfə çox olduğu halda onların bu cinayətkar əməllərini ermənilərin silah ehtiyatlarının çoxluğu ilə əlaqələndirir. Bu fikrin həqiqətə uyğunluğu şübhə doğurmasa da, təbii olaraq qarşıya belə bir sual çıxır: bu halda nə üçün

ermənilər müsəlmanlara qarşı birbaşa kütləvi və qəfil müharibəyə başlamadılar? Ermənilərin xisləti bizə yaxşı məlum olduğundan, düşünməyə əsasımız vardır ki, onların bunu etməməkdə də müəyyən məqsədləri olmuşdur.

Aknuni hələ hadisələr ərəfəsində nəşr etdirdiyi kitabında qabaqdangəlmişlik edərək baş verəcək bütün qanlı cinayətlərin məsuliyyətini azərbaycanlı türk əhalinin üzərinə qoymağa səy göstərirdi. Artıq nəzəri əsasını hazırladıqları planlarının reallaşdırılmasına, demək olar ki, hər yerdə ilk baxışda o qədər də planlaşdırılmış kütləvi cinayət kimi görünməyən tək-tük qətl hadisələri başlamışdılar. Belə başlanğıc yerli türk əhalisini təhrik etmək, təxribata çəkmək və bununla da genişləndirəcəkləri qırğınların məsuliyyətini azərbaycanlıların üzərinə atmaq niyyətinin təzahürü idi. Digər ərazilərimizdə olduğu kimi, Naxçıvanda da əhali belə fitnəkar hərəkətlərə uymadı. Lakin bu, ilk növbədə naxçıvanlıların ermənilərin niyyətlərini irəlicədən başa düşməklərindən daha çox azərbaycanlıların sülhsevərliklərinin, dinc və firavan yaşamaq əzminin nəticəsi idi.

Belə ki, 1905-ci il mayın 8-də İrəvan quberniyasının vitse-qubernatoru Baranovskinin, İrəvan şəhər rəisi Ağamalovun və Peterburqdan qayıdan Naxçıvan şəhərinin hakimi Cəfərqulu xan Naxçıvanskinin şəhərə gəldiyini eşidən naxçıvanlıların məramı yalnız ermənilərdən şikayət etmək yox, həm də xoş niyyət göstərmək idi. Onlar hökumət məmurlarına «ermənilər bizə nə etdilər isə keçdi, fəqət yenə yığışıb bazara gəlsinlər» dedilər. Ermənilərin kütləvi şəkildə bazardakı dükanlarını bağlayıb ya öz evlərinə, ya da kilsəyə yığışmaqlarının heç də yaxşı əlamət olmadığını anlayan naxçıvanlıların istəkləri qanlı qırğınlar vüsət almamış ermənilərə barışıq təklifi idi. Cəhrililər isə kəndə gedən yolların ermənilərin əlinə keçməsinə görə

narahat olub, vitse-qubernatordan Cəhri yoluna hökumət qüvvələrinin nəzarətinin təmin edilməsini istədilər.

Azərbaycanlıların tələblərinin təmin olunmaması və səbəbləri məlum olan bu məmur etinasızlığı, dinc əhalinin taleyin hökmünə buraxılması ermənilərin sonrakı cinayətləri üçün stimul oldu. Türk əhalinin səmimi barışıq təklifləri ermənilərin açıq təhdidləri və sonra isə qırğınların başlaması ilə müşayiət olundu. Daşnak cinayətlərinin növbəti qurbanı Naxçıvan şəhərinin yaxınlığında olan ermənilərin yaşadığı Əliabad kəndinin quldurları tərəfindən bulaq başında qətlə yetirilən şəhər sakini Əli Hacı Bayramzadə oldu. Lakin bununla da nigaranlığı tarıma çəkilən naxçıvanlıları təxribata çəkməyin mümkün olmadığını anlayan ermənilər növbəti hiyləyə əl atdılar. Mayın 11-də ermənilərin sıx yaşadıqları Kültəpə kəndində Xaçatur adlı bir varlı erməni öz ailəsi ilə birlikdə daşnaklar tərəfindən qətlə yetirildi. Ermənilər bu hadisəni müsəlmanların üzərinə atmağa çalışsalar da, dərhal aparılan təhqiqat əsl həqiqəti üzə çıxardı. Həmin Kültəpə ermənisi Daşnaksütyunun yerli komitəsinin qərarı ilə öldürülmüşdü (94, s. 19). Bu, erməni terrorçularınm Türkiyədə XIX əsrin sonlarındakı fəaliyyətləri zamanı dəfələrlə sınaqdan keçirdikləri taktiki bir üsul idi. Belə ki, daşnaklar əvvəlcə varlı ermənilərə «ümummilli amallar» naminə «... şirkət təşkil etdik. Biz şəxsən xidmət edirik. Sən də nəqd pul verməlisən. Verməsən, səni məhv edərik və sirrimizi hökumətə xəbər versən, işini dərhal bitirərik» (121, I c., s. 507-508) məzmunlu təhdidedici məktublar yazır, məktubu alan erməni varlısı məcbur qalıb istənilən məbləği ödəyir, əks halda məhv edilirdi.

Bu baxımdan, yeri gəlmişkən, 1988-ci ilin fevralında baş vermiş Sumqayıt hadisəsini qeyd etmək maraqlı olardı. Hadisələrdə öldürülən 32 nəfərin 26-ı erməni olmuşdu.

İlk dövrlərdə ermənilər bunun məsuliyyətini azərbaycanlıların üzərinə atmış, hətta beynəlxalq miqyasda da təbliğatlarını bu istiqamətdə uğurla aparmışdılar. Lakin sonrakı araşdırmalar sübut etdi ki, hadisələrin təşkilatçısı Daşnaksütyun, icraçısı isə özünü «Paşa» kimi qələmə verən və şəxsən 6 ermənini öz əli ilə qətlə yetirən Eduard Qriqoryan adlı daşnak terrorçusu olmuşdur. Öldürülən Sumqayıt erməniləri isə ya Daşnaksütyun sıralarına daxil olmaq istəməyən, ya da «milli amallar» naminə ianə toplanışına qoşulmaqdan imtina edən ermənilər olmuşlar. Burada ingilis jurnalisti Skotland-Liddelin «Daşnak üçün öldürülmüş erməni qiymətlidir. Bu cür hadisəni lazımi şəkildə istifadə etdikdə, o, təbliğat işinə çoxlu səmərə verə bilər» fikrini bir daha xatırlamaq lazım gəlir. Bundan sonra Kültəpədəki hadisənin də hansı məqsədlə törədildiyi tam aydın olur.

Maraqlı cəhət bu idi ki, Kültəpə qətlinin baş verdiyi gün Naxçıvanda olan vitse-qubernator Baranovski gecə yolda ikən bir ermənidən şəxsən çoxlu silah-sursat və bomba müsadirə edir (94, s. 19). Lakin bu da çar məmurlarına ermənilərə qarşı qəti tədbir görmək üçün kifayət etmir. Əvəzində isə ermənilər elə həmin gün, mayın 11-də Kültəpə qətlindən bəhanə kimi istifadə edərək Naxçıvan şəhərini iki saatdan artıq müddətdə aramsız güllə yağışına tuturlar. Azərbaycanlılar mayın 12-də növbəti dəfə Baranovskinin özünün də şahid olduğu hadisə barədə ona şikayət etdikdə vitse-qubernator «Əgər onlar sizə atəş açır, siz də tutub onların tapançalarını alınız... Mən bilmərəm» deyib çarizmin milli qırğınlardakı həqiqi mövqeyini bir daha nümayiş etdirir. Bundan sonra artıq naxçıvanlılar ermənilərə qarşı müvafiq cavab addımlarına əl atmağa məcbur olurlar. Naxçıvan bazarında baş verən atışma zamanı ermənilər Baranovski, Ağamalov, Cəfər-

qulu xan və pristav Mehdi xan Ordubadskini də atəşə tuturlar. Bu atışma zamanı azərbaycanlılardan 5 nəfər, ermənilərdən isə tacirlər Adamov öz şagirdləri, Xalatov uşaqları ilə və bir sıra digərləri qətlə yetirilir. Çar məmurlarının əsl sifəti bu atışmada da özünü göstərir. Naxçıvanın qəza polis rəisi Angil hətta döyüşün qızğın vaxtında əhalini qarşılıqlı qarət və talanlara təhrik edirdi.

Bir gün sonra Naxçıvan bölgəsinin hər yerində, xüsusilə Cəhri kəndində baş verən talan və qətl-qarətdən sonra buradakı çar qoşunları azərbaycanlılara qarşı təhqiramiz hərəkətlər etməklə onları yerli-yersiz yoxlamaya məruz qoydular. Bundan sonra bir müddət üçün hadisələrin kütləviliyinin qarşısı alındı və «noyabrın 26-a qədər müsəlmanlar və ermənilər hökumətin siyasəti sayəsində dəfələrlə sülh edib bir-birilə əl-ələ vurdular. Axırda yenə bu sülhlər hər iki tərəfə ədavətdən başqa bir səmər vermirdi. Necə ki, hər saatda bu iki tayfanın arasında yeni bir ədavətin ortaya çıxacağı gözlənilirdi». Buna ermənilərin də təhrikedici hərəkətləri dəlalət edirdi. Onlar yaranmış sakitlikdən istifadə edərək öz mal-mülklərini kilsələrə daşıyır, imkan düşən kimi asayişi pozur, «müsəlmanlara qarşı zülm və acı töhmət yağdırırdılar» (94, s. 20-21).

1905-ci ilin may-noyabr ayları arasında olan dövrdə ictimai asayişin nisbətən təmin edilməsinin hökumət dairələrinin səyindən daha çox naxçıvanlıların ermənilərin gözləmədiyi şəkildə müqavimət göstərmələri və baş vermiş hadisələrin nəticəsində qalib çıxmaları ilə əlaqələndirmək daha doğru olardı. Bununla yanaşı, Badamlı kəndinin erməniləri daşnak fitnəsinə uymayaraq, dinc yaşamaq istəklərini ifadə etmək üçün hətta müsəlmanlığı da qəbul etmişdilər (94, s. 22-23). May ayındakı toqquşmanın ermənilərin məğlubiyyəti ilə nəticələnməsi onların bir müddət sakitləşməsinə, naxçıvanlıların qəhrəmanlığı rus-

ermәni planlarının qısa müddәt üçün tәxirә salınmasına sәbәb olmuşdu. Qafqazda ermәnilәrin әsas himayәdarı olan canişin Vorontsov-Daşkov öz әlaltılarının mәğlub olduğunu görüb Tiflisdәn general Əlixanov-Avarskini vә Cәnubi Qafqaz Şeyxülislamı Əbdüssalam Axundzadәni Naxçıvana göndәrir. Şeyxülislamla bәrabәr İrәvan qazısı da Naxçıvana gәlir vә yalnız bundan sonra silahlı toqquşmanın kütlәviliyinin qarşısı alınır. Bir sıra Naxçıvan kәndlәrindә isә 1905-ci ilin payızınadәk ermәnilәr tәrәfindәn pәrakәndә dә olsa, müxtәlif cinayәtlәrin törәdilmәsi, azәrbaycanlılara qarşı qәsdlәr davam etdirilirdi.

Naxçıvandan sonra milli qırğın dalğası İrәvan qәzasını әhatә etdi. M.S.Ordubadi yazır ki, Naxçıvandakı hadisәlәrin azәrbaycanlıların qәlәbәsi ilә başa çatması İrәvan müsәlmanlarının sevincinә, ermәnilәrin isә qәzәbinә sәbәb olmuşdu. Buna görә dә azәrbaycanlılardan qisas almağa bәhanә axtaran İrәvan ermәnilәri 1905-ci il mayın 23-dә şәhәrin Qarsaçay bağçasında üç nәfәr sәrxoş müsәlmanı döyürlәr. Bu hadisәdәn dәrhal sonra İrәvan bazarında başlanan atışma tәlәfatsız başa çatır. Lakin mayın 25-dә gündüz baş verәn silahlı toqquşma azәrbaycanlılardan 4 nәfәr qadının, 2 uşaq vә 5 kişinin (cәmi 11 nәfәr) öldürülmәsi ilә nәticәlәnir. İrәvan azәrbaycanlılarında olan 20 әdәd köhnә tüfәngin müqabilindә hәrbi tәlim keçmiş ermәnilәrin vә daşnak dәstәlәrinin o dövr üçün әn müasir silahlarla silahlandığı mәnbәdә qeyd olunur. Bununla belә, hәr bir cәhәtdәn ermәnilәrdәn geri qalan müsәlmanların qarşısında «ermәnilәrin bu atışmalarda artıq tәlәf olmaları islam camaatına çox tәәccüblü gәlirdi. Zira, ermәnilәr müharibә әsnasında bal mumundan qayırılmış müqәvva kimi olub püf edәn kimi mәhv olurdular. Ermәnilәrdә sәbat, mәtanәt vә ürәklәrinin tәpәri yox idi. İrәvan müharibәsinә yığılmış ermәnilәrin әksәriyyәti Bakı döyüş-

lərindən, Naxçıvan məğlubiyyətindən can qurtarıb qaçan əsgərlər olduqlarına görə mənən büsbütün pozulmuşdular». Digər səbəb isə bu idi ki, ermənilər, adətən, sərxoş halda döyüşürdülər (94, s. 24-27). Təbii ki, ermənilərin qırğınlardakı müvəffəqiyyətini artıran başlıca amil çar məmurları tərəfindən yaxından himayə olunmaları idi. Lakin azərbaycanlılar daşnaklara qarşı mütəşəkkil mübarizə aparanda bu himayə də bəzən nəticəsiz olurdu.

Buna görə də, Naxçıvan hadisələrində olduğu kimi, Qafqaz canişini Şeyxülislamı, İrəvan qazısı və yepiskopunu hadisələrin qarşısını almaq üçün dəvət etdi. Mayın 31-i və iyunun 1-də həmin şəxslərin səyi nəticəsində İrəvan şəhərində hadisələri sakitləşdirmək mümkün olsa da, bu dəfə daşnak komitəsi milli qırğınları İrəvan qəzasının mahal və qəzalarında törətmək üçün fəaliyyətə başladı. 1905-ci il mayın 31-də Qırxbulaq mahalının ermənilərin məskunlaşdığı Tirjabat kəndindən silahlı erməni dəstələri cəmi 20 evdən ibarət Gözəcik müsəlman kəndinə qəfil hücuma keçdilər. Kəndin müdafiəsini təşkil edən olmadığından qonşu Məngus kəndinə qaçan gözəciklilərin qarşısını almaq istəyən kənd ağsaqqalı Novruz Kazım oğlunun səyləri nəticə vermir və o, təkbaşına xeyli düşmən məhv edə bilsə də, sursatı tükəndiyindən ermənilərə əsir düşür. Ağır işgəncələrlə qətlə yetirilən qəhrəman qocanın Tirjabat keşişi Ayrapet tərəfindən kəsilən başı «min beş yüz müsəlman sərkərdəsinin başına» bərabər qiymətləndirilir, əvvəlcə Aleksandropola, sonra isə azərbaycanlılarda vahimə yaratmaq üçün Bakıya göndərilir (94, s. 29-31). Bundan sonra bir neçə gün ərzində 12 azərbaycanlı kəndi ermənilər tərəfindən boşaldılır, həmin kəndlərin müdafiəsiz qalan sakinləri isə cəmi 20 evdən ibarət olan Təzəkəndə toplaşırlar. İyunun 3-də 10 min nəfərlik erməni silahlı dəstələrinin hücumuna məruz qalan Güllücə, Tut-

ya, Kamal və Damagirməz kəndlərinin azərbaycanlı olan sakinləri də Təzəkəndə pənah aparırlar. 1905-ci il iyunun 4-də, nəhayət, 18 günlük müharibədən sonra rus qoşunları artıq öz nəzarətləri altından çıxmış hadisələrə müdaxilə etdiyindən azərbaycanlılar öz kəndlərinə geri dönə bilirlər.

1905-ci il iyunun 3-də ermənilərin daha sıx yaşadıqları Abaran mahalının Şuragəl, Pənbək, Aleksandropol yaşayış məntəqələrindən toplanan silahlı dəstələr Eçmiədzin qəzasının İlançalan erməni kəndi istiqamətindən Uşu adlı azərbaycanlı kəndinə hücum edirlər. 8 saatlıq gərgin döyüş azərbaycanlıların parlaq qələbəsi ilə nəticələnir. Yeni qüvvələr cəlb etməklə sıralarını genişləndirən ermənilər iyunun 5-də baş verən növbəti döyüşdə də məğlub olurlar. Lakin iyunun 8-də Uşu kəndi yaxınlığında baş verən üçüncü döyüş ermənilərin üstünlüyü ilə başa çatır. Bununla belə, döyüşdə ermənilərdən 180 nəfər öldürülür, uşululardan isə cəmi 4 nəfəri həlak olur. Kənd əhalisi müharibənin gedişində Sürməli kəndinə pənah aparır, Uşu kəndi isə düşmən tərəfindən yandırılır. Bir gün sonra daha 8 kənd Təkyə, Pərsi, Nazrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrgu və Əngirsək kəndləri də erməni vəhşiliyinin qurbanı olur və dağıdılır. İyunun 9-da bu kəndlərin sırasına daha 9 azərbaycanlı kəndi əlavə edilir.

İrəvan və Eçmiədzin qəzalarında törədilən qırğınlar ermənilərin quberniyanın bu iki qəzasında Şərqi Anadoludan olan son axından və Rusiyanın müharibədə bu bölgəni ələ keçirməsindən sonra yaranmış etnik üstünlükdən istifadə edərək siyasi hakimiyyəti ələ almaq, siyasi cəhətdən dövlət kimi istinad olunacaq ərazi yaratmaq cəhdləri ilə bağlı idi. Bu plan həyata keçirilərsə, ermənilərin «İrəvandan Naxçıvana qədər yol üstə yerləşən Naxçıvan kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda

hazır olan əsgəri qüvvələrlə birləşdirmək, Naxçıvandan Zəngəzura kimi yol boyunda olan köyləri dağıdıb Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvəni birləşdirmək kimi alçaq xəyallar»ı (94, s. 119) vardı. Bu plan XIX əsrdə ermənilərin niyə məhz Azərbaycanın qərb torpaqlarına köçürülməsi səbəblərinə işıq salır. Planın reallaşması Rusiya üçün azərbaycanlılarsız regionun, ermənilər üçün dövlət yaratma təşəbbüslərinin həyata keçməsi demək olacaqdı.

XIX yüzilliyin sonlarındakı iğtişaşlardan və qiyamdan sonra Qars və İrəvan arasındakı bölgəyə yarım milyondan artıq erməni yerləşmişdi. Rus sərhədçilərinə onlara Türkiyəyə qayıtmağa cəhd göstərəcəkləri halda atəş açmaq əmri verilmişdi. Erməni katolikosunun yalvarışlarından sonra qaçqınların İran yolu ilə kiçik qruplar şəklində qayıtmalarına icazə verilsə də, buna praktiki olaraq imkan yaradılmadı (149, s. 373). Çünki çarizm hələ Şərqi Anadolunu ələ keçirə bilməsə də, onun «ermənilərsiz Ermənistan» planı həmin ərazidən ermənilərin kütləvi qaçması ilə avtomatik həll olunmuşdu. Rusiyaya Osmanlı Türkiyəsini müharibəyə cəlb etmək və Şərqi Anadolu torpaqlarını işğal edərək öz ərazilərinə qatmaq problemi qalırdı ki, bu da Birinci dünya müharibəsi illərində qaçqın və köçürülmüş ermənilərin hərbi qüvvəsindən istifadə olunmaqla həyata keçirildi. Bunu daha çox Rusiyanın Türkiyə ilə olan gizli razılaşmasının tələbləri ilə bağlayan erməni siyasi təşkilatları bu qaçqınlardan Azərbaycan torpaqlarında həyata keçirdikləri qırğınlarda hərbi qüvvə kimi istifadə etmək qərarına gəldilər.

Bütün bunlar göstərir ki, daşnaklar 1905-ci il hadisələrinin ilk mərhələsində Bakıda və Naxçıvanda uğradıqları müvəffəqiyyətsizlikdən sonra növbəti qanlı cinayətlərinə daha ciddi hazırlıq görməkdə idilər. Bu zaman ermənilər

əvvəlki uğursuzluğun əsas səbəblərindən biri olan vahid rəhbərliyin olmamasını da nəzərə alaraq Azərbaycanın qərb bölgəsindəki daşnak hərbi qüvvələrinə komandanlığı Bakıdakı fevral hadisələrində erməni hücumlarına rəhbərlik edən Nikol-Tumana tapşırdılar. O, İrəvanda yerləşərək buradan öz dəstələrinə lazımi göstərişlər verirdi. 1905-ci ilin ikinci yarısında yenidən vüsət alan və bu dəfə daha planlı şəkildə həyata keçirilən qırğınlara Naxçıvanda Arslan, Qarabağda Vartan, Zəngəzurda Sivaslı Murat, Əsgəranda Hamazasp (Hamvo), Şisyanda Keri rəhbərlik edirdi. Bundan başqa daşnak dəstə başçılarından Sako və Abraham Gülxandanyan Gəncədə, Durbah, Armen Qaro, kapitan Baqdasaryan və Tiqran Stepanyan Tiflisdə azərbaycanlılara qarşı törədilən dəhşətli cinayətlərə başçılıq edirdilər (149, s. 534-535).

Naxçıvanda qırğınların ikinci mərhələsi 1905-ci ilin noyabr ayında başladı. Onsuz da may ayından noyabradək ötən müddətdə kütləvi münaqişələr qeydə alınmasa da, vəziyyət gərgin olaraq qalmaqda idi. Xüsusilə təşkilatlanma işlərini başa çatdırdıqdan sonra ermənilər may məğlubiyyətinin qisasını almaq üçün bəhanə və fürsət axtarırdılar. Digər tərəfdən çarizm hadisələrin nəzarətdən çıxmasını istəməsə də, milli qırğınların qarşısının alınmasına heç bir ciddi cəhd göstərmirdi. Çünki bu dövrdə hələ də Rusiyada inqilab yüksələn xətlə inkişaf edirdi. 1905-ci ildə bir-birinin ardınca baş verən inqilabi çıxışlar, tətil və üsyanlar ölkəni iflic vəziyyətinə salmışdı. İnqilabın Cənubi Qafqazı da bürüyəcəyi təqdirdə hadisələr çarizm üçün daha ağır məcraya yönələcəkdi. Artıq Bakıda, zəif də olsa, müəyyən üsyankar çıxışlar baş verməkdə idi. Lakin imperiya məmurlarının milli qırğın siyasəti Cənubi Qafqazın bütövlükdə inqilaba qoşulmasının qarşısını aldı.

1905-ci ilin noyabrında Naxçıvanda yenidən başlanan

qırğınların bu dəfə artıq birbaşa səbəbkarları çar məmurları və rus kazakları oldular. M.S.Ordubadi hadisələrin yenidən faciəli şəkil almasının səbəbinin Çeşməbasarda baş verən hadisə olduğunu yazır: «Bu gün kazaklar sülh və asayişi təmin etmək üçün Çeşməbasar kəndinə gedərkən Hacı Nəsir Hacı Nağı oğlunun evini qarətə başlamışlar, bu vaxt qabağa durub mane olmağa çalışan Hacının bir zavallı oğlunu öldürmüşlər. Müsibətə düçar olmuş Hacı oğlunu qana bulaşmış görərkən çaşıb bir güllə kazaklara atmış, elə buna görə də onun ailəsi biədəblər tərəfindən qətl edilmişdir».

Noyabrın 26-da baş verən Çeşməbasar qətli Naxçıvan şəhərində və ətraf kəndlərdə yenidən qanlı hadisələrin başlanması üçün bir işarə rolunu oynadı. Elə həmin gün azərbaycanlılar şəhər bazarındakı dükanlarını eşitdikləri xəbər ucbatından tez bağladıqlarından erməni-rus qruplaşması şəhər bazarını axşama yaxın yandırdılar. Yanan bazarın tamaşasına yığışan camaata isə çar məmurları polis rəisi Angilin və polkovnik Krılovun əmri ilə atəş açıldı və Məşədi Həsən Məhəmmədqulu bəy oğlu adlı bir naxçıvanlı qətlə yetirildi. Bir gün sonra artıq külü qalmış bazarda 85 dükan, 75 ambar və boş dükan yanmışdı. Bu, noyabrın 27-dən 30-dək Naxçıvan şəhərində aclığa səbəb oldu. Azərbaycanlı əhali arasında yaranmış çaşqınlıqdan istifadə edən rus kazakları heç bir səbəb olmadan evlərə soxularaq qarətçiliklə məşğul olur, küçələrdə yerli-yersiz yoxlama aparır, mane olmağa cəhd edənləri və tabe olmaq istəməyənləri qətlə yetirirdilər.

Naxçıvan şəhərində yaranmış gərgin vəziyyətdən, yerli əhalinin psixoloji durumundan istifadə edərək rus kazakları ilə birləşən ermənilər 1905-ci noyabrın 30-da Cəhri kəndini yandırdılar. Kəndin əhalisinin bir hissəsi ermənilər tərəfindən qırıldı və yanğında həlak oldu. Həmin gün

Naxçıvana gələn İrəvan general-qubernatoru Paskeviç Naxçıvan əhalisinin şikayətindən sonra işə baxacağını vəd etsə də, nəticəsi bu oldu ki, qubernatorun şəhərdə olmasına əhəmiyyət verməyən erməni-rus birləşmələri Naxçıvan şəhərinin də bir hissəsinə od vuraraq yandırdılar. Dekabrın 2-də Cəhri kəndinə gedən qubernator günahkarları cəzalandırmaq üçün nəinki tədbir görmədi, tam əksinə, kəndin yandırılmasını eşidən Naxçıvan əhalisinin şikayətlərini eşitməsin deyə, Cəhridən qayıdaraq gecəyarısı İrəvana geri döndü (94, s. 21-22). 1905-ci il hadisələri naxçıvanlılar üçün Cəhri faciəsi və bir sıra kəndlərdə baş verən qırğınlarla bağlı faciəvi sonluqla nəticələndi. May ayındakı hadisələrdə ermənilərin məğlub olmalarının səbəbi azərbaycanlılardakı milli təəssübkeşlik hisslərinin güclü olması idisə, sonrakı dövrdə naxçıvanlıların məğlubiyyətinin başlıca səbəbi, demək olar ki, bütün qanlı cinayətlərin açıq-aşkar çar məmurları tərəfindən törədilməsi və onların artıq heç bir şeydən çəkinmədən ermənilərə qırğınlarda yaxından kömək etmələri olmuşdu.

Qırğınlar əvvəlki dövrlərdə Türkiyədən və İrandan köçürülmüş ermənilərin daha çox məskunlaşdıqları ərazilərdə törədilmişdi. Bu bölgələr Naxçıvan, İrəvan, Qarabağ və Zəngəzur idi. Hələ Naxçıvan hadisələri törədilərkən Zəngəzur və Şuşada da ermənilər azərbaycanlılara qarşı qırğınlar törədirdilər. Belə ki, Cəhri kəndi Zəngəzur və Naxçıvan qəzalarının inzibati sərhəd zolağında yerləşən azərbaycanlıların yaşadığı Xanlıqlar və İtqıran kəndləri tamamilə dağıdıldıqdan sonra yandırılmışdı. Başqa sözlə desək, Cəhrinin yandırılması Zəngəzur qəzasında aparılan etnik təmizləmənin Naxçıvan ərazisinə sirayət etməsi demək idi. 1905-ci ilin iyul ayında Şuşada baş verən döyüşlər daşnak-hnçaqçı qruplaşmaların məğlubiyyəti ilə nəticələnmişdi. Lakin bütövlükdə 1905-ci il hadisə-

lərinin ermənilərin uğursuzluğu ilə nəticələnməsi onların heç də geri çəkilməsi demək deyildi. Çünki 1904-cü ildə Daşnaksütyun partiyasının III qurultayında xəyali «Böyük Ermənistan»ın əraziləri daxilinə nəzəri olaraq qatılmış bölgələrin; Naxçıvan, İrəvan, Zəngəzur və Şuşa qəzalarının, eləcə də İrəvan və Gəncə quberniyalarının digər ərazilərinin azərbaycanlılardan təmizlənməsi erməni hərəkatının qarşısında başlıca vəzifə kimi qoyulmuşdu.

Naxçıvanda faciəli hadisələr yalnız 1905-ci ildə baş verənlərlə bitmədi. Naxçıvan qəzasının Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa kəndlərini də əhatə edən erməni cinayətləri 1906-cı ildə davam etdi. Taleyin hökmü və erməni vəhşiliyi ilə baş-başa buraxılmış həmin kəndlərin bir çoxunun əhalisi qırıldı, sağ qalanlar isə digər kəndlərə, habelə İranla sərhəd ərazilərə qaçaraq canlarını qurtarmağa çalışdılar.

Daşnak rəhbərləri isə qarşılarına qoyduqları məqsədə doğru irəliləməkdə çarizmin onlara fəal kömək etdiyini görərək daha da azğınlaşdılar. 1906-cı ilin yay aylarında Aleksandropol (Gümrü), İrəvan, Abaran, Şuragil və digər ərazilərdən yığılmış könüllü erməni silahlıları nizami alaylar şəklində təşkilatlanaraq Zəngəzura və Ordubad mahalının ermənilər yaşayan kəndlərinə göndərildilər. Yol boyu silahlı erməni təcavüzünə məruz qalan Dırnıs, Unus və Pəzməri kəndlərinin əhalisi özlərini qoruya bildilər. İrəvan quberniyasının şimal bölgələrinin ermənilərindən təşkil edilmiş bu dəstələr Ordubadın Əylis, eləcə də ona yaxın olan Kələki və Danagirt (mətndə Kəlağı və Dəmqurt – E.C.) kəndlərinə toplaşdılar. Xatırladaq ki, İ.Şopenin məlumatına (176, s. 623) görə, Kələki, Danagirt və eləcə də Aşağı Əylis erməni köçürülmələri nəticəsində salınmış kəndlər idi. Şuşa və ətraf ərazilərdən yığılmış erməni

birləşmələri isə iyulun 20-də Zəngəzur ərazisindəki mis mədəninin yanında düşərgə saldı. Şuşa ermənilərinə Aram Nehrəmov, Əylisdəki dəstələrə isə Aşot adlı daşnaklar rəhbərlik edirdilər (94, s. 127).

1906-cı il iyulun 29-da Zəngəzurun Qapan dərəsində yerləşən Karxana kəndinin azərbaycanlı əhalisi Aram Nehrəmovun dəstələri tərəfindən, demək olar ki, son nəfərinədək məhv edilmişdi. Karxana kəndi ilə eyni gündə erməni təcavüzünə məruz qalan Lov, Xələc, Saldaşlı, İncəvar və Daşnov kəndlərinin camaatı kiçik Qatar kəndinə pənah apardılar. Onları təqib edən ermənilər avqustun 1-də Qatar kəndini də mühasirəyə aldılar. M.S.Ordubadi yazır ki, atışmanın şiddətli yerində milliyyətcə ləzgi olan Cəlil adlı strajnik pristav Saxarova «cənab pristav, sizdə heç rəhm-mürüvvət yoxdurmu? Siz baxırsınız, islamları güllələbaran edirlər. Olmazmı ki, kəndin kənarında olan kazaklara buyurasan, islamları mühafizə etsinlər» – dedikdə, «mən müsəlmanları mühafizə edə bilmərəm. Görmürsən, ermənilər necə canalıcı güllə atırlar» – cavabını alır. Burada baş verən hadisələrdə kazaklar azsaylı silahlarla kəndin müdafiəsinə qalxmış qəhrəman qatarlıların mövqeləri və qüvvələri barədə məlumatları ermənilərə verməklə onlara kömək etdilər. Kazaklar, hətta guya hökumətin erməniləri cəzalandıracağı barədə azərbaycanlı əhaliyə yalançı vədlər verməklə onların arasında arxayınçılıq əhval-ruhiyyəsinin yaranmasına çalışırdılar.

Ermənilər yaşayan kəndlərlə əhatə olunan Qatar kəndinə daşnakların 8 minlik silahlı dəstələrinin hücumuna qatarlılar 9 gün ərzində mərdliklə sinə gərdilər. Qüvvələr nisbətinin kəskin fərqləndiyi bu döyüşdə azərbaycanlıların Zəngilandan gözlədikiləri yardımı ala bilməmələri, bunun müqabilində isə erməni sahibkarı Məlik Azaryansın mis mədənində işləyən iranlı fəhlələrin ermənilərə kömək

etməsi Qatar kəndinin taleyini həll etdi. «Bu rəhmsizlər arxalarında neft, dinamit daşıyıb «Ya Əli» qışqıra-qışqıra kənd içinə girdikdə müsəlmanlar «bizə sursat daşıyırlar» – deyə düşünüb onları kəndə buraxırdılar. Mürüvvətsiz iranlılar həmən nefti damlara vurub yandırdıqları kimi, dinamiti daş binalara taxıb havaya uçurdurdular» (94, s. 121-123). Bununla da, 1906-cı il avqustun 8-9-da erməni-rus-iranlıların birləşmiş qüvvəsi Qatar kəndini ələ keçirdilər. Kəndin sağ qalan əhalisi digər kəndlərdən gəlmiş qaçqınlarla birlikdə azərbaycanlıların yaşadığı Kəllədağ kəndinə sığındılar.

Mərkəzi komandanlıqdan verilən əmrə əsasən, Əylisdəki erməni hərbi birləşmələri avqustun 7-də, mis mədəni ətrafındakı erməni qüvvələri isə avqustun 8-də Panuslu kəndinə gələrək burada qüvvələrini birləşdirdilər və Oxçu-Şəbadək dağlarının ətəyində yerləşən Azərbaycan kəndlərinə hücuma başladılar. Avqustun 9-da başlayan və dörd gün davam edən Oxçu kəndi uğrunda döyüş, ermənilərin hərbi cəhətdən və sayca dəfələrlə çox olmalarına baxmayaraq oxçuluların qələbəsi ilə başa çatdı. Erməniləri təqib edən Oxçu sakinləri onların sığındığı Gicəlan kəndini də azad etdilər. Lakin daşnaklar yenidən Ləyc, Təşqin, Karlur, Vənd, Mehri, Əsədazur, Qırçıvan, Əkərək, Bəhrvar, Ucanabus, Qurasən, Çəmən, Bux, Oxadüz, Raxdaxana, Noraşen, Xotanan, Üsərəng, Sahadhur, Çin, Mələk Çit və digər ətrafdakı ermənilər yaşayan kəndlərdən daha böyük hərbi qüvvə topladılar və Panuslu, Girdəkan və Gicəlan kəndləri ətrafında əlverişli mövqe tutaraq Oxçu-Şəbadək dağlarındakı strateji yüksəklikləri ələ keçirdilər. Azərbaycanlıların qüvvələri və sursatları tükəndiyindən həmin gecə Oxçu-Şəbadək kəndlərinin imamı Molla Həsən Əfəndinin məsləhəti ilə Saqqarsu adlanan yerə sığındılar. Kəndlərdə qalan əhalinin hamısı ermənilər tərəfindən

qətlə yetirildi.

Erməni silahlı birləşmələrinin genişmiqyaslı hücumu Azərbaycan kəndlərinin dağıdılması ilə nəticələndi. Daşnak silahlıları Saqqarsuda gizlənən azərbaycanlıları istisnasız olaraq qırdılar. Bir neçə qadınla əlində Quran kitabı ermənilərin qarşısına çıxaraq aman diləyən Molla Həsən Əfəndinin özü və ətrafındakılar da erməni silahından qurtula bilmədilər. İslam dininin müqəddəs kitabı vəhşicəsinə təhqir olundu. Saqqarsu faciəsi baş verən gün daha dörd müsəlman kəndi düşmən tərəfindən dağıdıldı.

Azərbaycan kəndlərinin sağ qalmış azsaylı əhalisi Ordubada və onun ətraf kəndlərinə pənah apardılar. Zəngəzurdan gələn qaçqınları böyük qayğı ilə qarşılayan ordubadlılar Qapan dərəsində, Saqqarsuda və digər döyüş yerlərində qalan azərbaycanlı yaralıları və qətlə yetirilənlərin meyitlərini gətirmək üçün dəstələr təşkil etdilər. Avqustun 16-da Saqqarsuda Ordubad könüllüləri Molla Həsən Əfəndinin özü ilə bərabər kənddən çıxardığı 62 qadın və uşağın meyitlərini aşkar etdilər. İki gün sonra ordubadlılar Saqqarsuda yenicə ailə qurmuş bir gənc qadınla cavan oğlanın, Molla Həsən Əfəndinin yandırılmış cəsədlərini, 15 körpənin palaza bükülmüş və bir-birinə qarışmış kəsilmiş başlarını və bədən hissələrini tapdılar. Qapan dərəsindəki Pürdavud kəndi də dağıdılmış, əhalisi isə son nəfərinədək qətlə yetirilmişdi. Bu kənddəki şiə imamı Rzanın qardaşı Sultan Davuda məxsus hücrə, onun daxilindəki müqəddəs əşyalar, onlarla Quran kitabı yandırılaraq məhv edilmişdi. Ermənilərin insanlıq adına sığmayan vəhşiliyindən sonra bölgədə son dərəcə acınacaqlı vəziyyət yaranmış, Zəngəzurun Naxçıvanla qonşu kəndlərinin əhalisi əsasən məhv edilmiş, azsaylı sağ qalanlar isə onsuz da vəziyyəti çox gərgin olan Naxçıvana və Ordubada pənah gətirmişdilər.

Bütün bunlar sübut edir ki, ermənilərin təşkil etdikləri bu qanlı cinayətlər əsl müharibə xarakteri daşıyıb azərbaycanlıların soyqırımına istiqamətlənmişdi. Bu soyqırımın səbəblərini isə ermənilər özləri də açıq şəkildə bildirirdilər. Belə ki, Ordubad müdafiə dəstəsinin üzvləri eyni zamanda ermənilərin də Panuslu və Girdəkan kəndləri yaxınlığındakı döyüş meydanında qalan meyitlərini götürdüklərini eşidərək Oxçu çayının sahilində iki daşnak cəsədi aşkar edirlər. Onların hər ikisinin üzərindən tapılan məktublarda öz ailələrinə yazdıqları sözlər ermənilərin bütövlükdə xalq halında Osmanlı və azərbaycanlılara qarşı ölüm-dirim savaşına qalxdıqlarını sübut edir. Erməni dəstə başçılarından birinin meyitlərin arasından təsadüf nəticəsində sağ qalmış şəkildə çıxarılan azərbaycanlı qadına dedikləri hadisələrin mahiyyətini açıq-aşkar göstərirdi: «Bizim Qafqazda müsəlmanlarla müharibəmiz vardır. Fəqət, bu müharibələr sünni camaatı ilə olmayıb şiələr ilədir. Ancaq siz sünni camaatının başına gələn bu qədər vəziyyətlər Osmanlıda Osmanlı sultanının ermənilərin başına gətirdiyi müsibətlər xatiri üçün əmələ gəlir. Bu qırğının cümləsini Osmanlı tərəfindən bilməlisiniz! Siz övrətlərə nə qədər cəfalar edilsə, Osmanlıda Sasun, Zeytun, Van diyarlarında hökumət cəfasından islamların itaəti altına düşüb islam məzhəbini qəbul edən erməni xanımlarının yarı mükafatı da olmayıbdır» (94, s. 133). Əlbəttə, bu fakt təsadüfi xarakter daşımayıb, Türkiyədən qaçan ermənilərin bölgədə qanlı cinayətlərin təşkilatçısı rolunda çıxış etmələrinin təsdiqi hesab edilməlidir.

Ordubadlıların İrəvan və Gəncə general-qubernatorlarına yüzlərlə şikayət teleqramlarından sonra göndərilən çar draqun rotası guya azərbaycanlı qaçqınları öz doğma kəndlərinə qaytarmaq istədi. Lakin elə onların gözləri qarşısında qaçqınlardan ikisi heç bir səbəb olmadan

ermənilər tərəfindən öldürüldü və bundan sonra çar məmurlarının da özünəməxsus «sülh missiyası» başa çatdı. Ümumiyyətlə, 1906-cı ilin yalnız yay aylarında Zəngəzur qəzasının aşağıdakı kəndləri dağıdılmış, əhalisi isə kütləvi şəkildə qırğına məruz qalmışdı: Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Şəbadək, Atqız, Pürdavud, Zurul, Cuman, İyilli, Sənalı, Minənəvur, Tərcan, Qalaboynu, Əcəbli, Buğacıq (94, s. 136), Panuslu, Girdəkan, Kəllədağ, Lov, Saldaşlı, Daşnov və s.

Ordubadlılar hökumət dairələrinin də erməniləri müdafiə etdiklərini görərək Zəngəzur kəndlərini azad etmək üçün könüllü dəstələr təşkil etmək qərarına gəldilər. 1000 nəfəri qaçqınlardan, 800 nəfəri isə yerli azərbaycanlılardan olmaqla 1800 nəfərlik ciddi intizama tabe edilmiş könüllü dəstələr Saqqarsuda toplaşaraq 1906-cı il sentyabrın 16-da ermənilərə qarşı həlledici döyüşdə qəti qələbə çalır və bütün Zəngəzur kəndlərini azad edirlər. Vəziyyətin azərbaycanlıların xeyrinə dəyişdiyini görən çar məmurlarının göndərdiyi 500 nəfərlik kazak ordusu yenidən bölgəyə gəlir və guya qaçqınların onlar tərəfindən öz kəndlərinə qaytarıldığı görüntüsünü yaradırlar. Girdəkan-Panuslu müharibəsi ermənilərin məğlubiyyəti ilə nəticələnir. Lakin ermənilər hücumları zamanı, demək olar ki, bütün Zəngəzur kəndlərini tamamilə dağıtmışdılar.

Bu dövrdə yalnız Naxçıvan şəhərində deyil, Naxçıvan diyarının ayrı-ayrı kəndlərində məskunlaşmış ermənilər azərbaycanlılara qarşı qırğınlarda fəal iştirak etmişlər. 1905-1907-ci illərdə erməni cinayətlərinin qurbanı olmuş naxçıvanlıların məzarları bir çox kəndlərin qəbiristanlıqlarında mövcuddur. Bu baxımdan Culfa rayonunun Dizə kəndi yaxınlığındakı kütləvi qəbiristanlıq Gal kəndində məskunlaşmış ermənilərin azərbaycanlılara qarşı silahlı

basqınlarının şahidi kimi qalmaqdadır. Yerli əhalinin özünəməxsus şivədə «Şeiddik» («Şəhidlik») adlandırdığı həmin qəbiristanlıqda bəhs olunan illərdə ermənilər tərəfindən qətlə yetirilmiş onlarla azərbaycanlının məzarı vardır (ətraflı kitabın sonundakı əlavəyə və şəkillərə bax).

Ermənilərin bu dövrdə törətdikləri qanlı hadisələrin miqyası, onların Naxçıvan, İrəvan, Şərur-Dərələyəz və Zəngəzur qəzalarına eyni zamanda mütəşəkkil hücumu azərbaycanlıların soyqırımının irəlicədən planlaşdırılmış şəkildə həyata keçirildiyini söyləməyə əsas verir. Zəngəzurun azərbaycanlılardan təmizlənməsi ilk növbədə Naxçıvanın mühasirəyə alınaraq işğal edilməsi və bununla da hər iki bölgənin yaradılması planlaşdırılan erməni dövlətinin ərazisinə çevrilməsini nəzərdə tuturdu. Qeyd edilən bölgələrlə eyni dövrdə ermənilərin Gəncə quberniyasının digər qəzalarında – Gəncənin özündə, Şuşa və Cəbrayılda qırğınlara başlaması Zəngəzur əhalisinin Azərbaycanın şərq torpaqlarına yolunu bağlayır və nəticədə onlar Naxçıvana pənah gətirməli olurdular. Bu isə sonrakı mərhələdə, Zəngəzurun işğalı nəticəsində, Azərbaycanın əsas hissəsindən coğrafi cəhətdən ayrı salınacaq Naxçıvanda azərbaycanlıların ermənilər tərəfindən kütləvi şəkildə qırılması planına daxil idi.

1905-1907-ci il hadisələri Azərbaycan tarixində ermənilər tərəfindən sonralar silsilə halını almış xalqımıza qarşı törədilən soyqırımın ilk mütəşəkkil mərhələsi olmuşdur. Doğrudur, bu tarixi cinayətin bilavasitə və birbaşa icraçıları ermənilər olsalar da, həmin illərdə azərbaycanlılara qarşı yönəldilmiş qırğınlarda çarizm və onun bölgədəki məmurları da ən azı ermənilər qədər məsuliyyət daşıyırlar. Belə ki, çarizm azərbaycanlılardakı torpağa bağlılıq, vətənpərvərlik hisslərinin təsirindən hərdənbir özünü sülh yaratmaq istəyən vasitəçi kimi göstərmək istəsə də, hər bir

belə cəhddən sonra ermənilər daha da azğınlaşır və azərbaycanlılara qarşı qırğınları genişləndirirdilər. Hökumət məmurları isə hər dəfə qanlı cinayətlərə öz «töhfələrini» verir, böyük bir tarixi cinayət olan azərbaycanlıların soyqırımında ermənilərlə birgə iştirak edirdilər.

Qafqaz canişini İ.Vorontsov-Daşkovun təşəbbüsü ilə 1906-cı il fevralın 20-də Tiflisin «Yaşıl zal» sarayında erməni liderləri ilə Azərbaycan ictimai fikrinin öncül nümayəndələri arasında keçirilmiş yığıncaqda (94, s. 105-118) guya məqsəd iki xalq arasında milli qırğına son qoymaq idi. Azərbaycan tərəfini təmsil edənlər Əhməd bəy Ağayev, İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Məhəmməd ağa Vəkilov, Qarabəy Qarabəyov, Ələkbər bəy Xasməmmədov, Ədil xan Ziyadxanov və dövrün digər tanınmış ziyalıları, ictimai xadimləri idilər. Erməniləri isə sonralar Qərbi Azərbaycan torpaqlarındakı işğalçı rejimin (daşnak Ermənistanının) baş naziri olmuş Aleksandr Xatisov (Xatisyan), «Mşak» qəzetinin müdiri Kalantar, Muşeqsyan, Stepanov, Arakelyan, Taqianosov, Ter-Avanesov, arximandrit Muradyan və başqa daşnak qaniçənləri təmsil edirdilər. Azərbaycan nümayəndələri tərəfindən rus-erməni işbirliyinin və daşnak planlarının qətiyyətlə ifşa edildiyi yığıncaqda son nəticədə hökumət tərəfindən terrorun aradan qaldırılması və silahlı dəstələr saxlayan siyasi partiyaların dağıdılması barədə qətnamə qəbul edildi. Lakin hadisələrin yuxarıda da geniş şəkildə bəhs etdiyimiz sonrakı axarı bu yığıncağın Qafqaz canişini tərəfindən gözdən pərdə asmaq, hadisələrin törədilməsində məsuliyyətdən yaxa qurtarmaq və Azərbaycan ictimai rəyini öyrənmək üçün təşkil edildiyini sübut edir. Çünki bundan sonra milli qırğınlar nəinki səngidi, əksinə, daha da vüsət aldı və yerlərdəki çar məmurları hadisələrdə artıq açıq-aşkar, çəkinmədən iştirak etməyə başladılar.

1905-1907-ci illər soyqırımı və deportasiyası xalqımız üçün bir əsri aşan faciəli hadisələrin ilk mərhələsi olmuşdur. Hadisələr haqqında məlumat verən mənbələrin azlığı, mövcud mənbələrdə isə dəqiq statistik göstəricilərin, demək olar ki, olmaması müəyyən çətinliklər doğursa da, hər halda qırğınların miqyasını təsvir etmək mümkündür. Erməni müəllifi S.Zavaryanın məlumatına görə, bəhs olunan hadisələr zamanı Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 müsəlman kəndi dağıdılmışdı (bax: 2, s. 51). Erməni mənbələrinə görə, 128 erməni və 158 müsəlman kəndi dağıdıldı və ya talan edildi. Tələfat 3000-dən 10000 nəfərə çatırdı (103, s. 55-56). Lakin bu rəqəmlər əsl reallıqdan çox aşağıdır və buraya Naxçıvan qəzasında, Şərur-Dərələyəzdə, Gəncədə, Qazax qəzasında, Bakı quberniyasında dağıdılmış yaşayış məntəqələrini də nəzərə alsaq, 1905-1907-ci illər milli qırğınlarının azərbaycanlıların tam məhvinə yönəldilmiş soyqırım olduğunu qeyd etmək olar. Belə ki, 1897-ci ildə İrəvan quberniyasında azərbaycanlı əhalinin sayı 313176 nəfər olduğu halda, 10 ildən sonra – yəni 1907-ci ildə 302965 nəfər qalmışdı. Deməli, 1905-ci və 1906-cı illərdə yalnız İrəvan quberniyasında əhalinin 10 illik təbii artımdan 10 min nəfər artıq azərbaycanlı qətlə yetirilmişdi (2, s. 50). İrəvanda rusca nəşr edilən «İrəvan quberniyasının 1908-ci il üçün yaddaş kitabçası»nda İrəvan quberniyasının 242 kəndində 65149 nəfəri türk, 5579-u kürd olmaqla cəmi 70728 müsəlmanın öldürüldüyü bildirilmişdir (bax: 146, s. 202). Quberniyanın tərkib hissəsi kimi Naxçıvanda törədilən qanlı cinayətlərin də göstərilən rəqəmlərdə ifadə olunduğu aydındır. Gəncə, Bakı və Tiflis quberniyalarındakı qırğınların nəticələrini də əlavə etdikdə, 1905-1907-ci illərdə xalqımıza qarşı əvvəlcədən düşünülmüş, planlaşdırılmış milli qırğın siyasəti

yürüdüldüyünə şübhə yeri qalmır.

Məlumatlara görə, 1897-ci ilə nisbətən 1907-ci ildə Naxçıvanda azərbaycanlıların sayı 31279 nəfər (34,6 faiz) azalmışdı. Əhalinin təbii artımını da nəzərə almaqla 1905-1907-ci illər azərbaycanlı qırğınlarının nəticəsində təkcə Naxçıvanda azərbaycanlıların sayının təxminən 2 dəfə azaldığını söyləmək olar. Bu dövrdə erməni vəhşiliyi yerli əhalinin öz yurdlarını tərk etməsinə səbəb olmuşdu. Bir qədər sonra, 1910-cu ildə 1897-ci ilə nisbətən əhalinin sayı 14159 nəfər artmışdı ki, bunun da 11455 nəfərini azərbaycanlılar təşkil edirdi. Bəzi tədqiqatçılar bu artımı «1905-ci il hadisələrindən heç nə əldə edə bilməyən daşnakların bütün erməniləri vahid mərkəzdə birləşdirmək və güclü dövlət yaratmaq üçün indiki Ermənistan ərazisində toplaşmaq ideyasını irəli sürmələri» (27, s. 27) ilə əlaqələndirir. Bu fikrin doğruluğuna şübhə etmədən qeyd etməliyik ki, azərbaycanlı əhalinin sayındakı bu artım heç də tamamilə təbii artımın nəticəsi olmayıb, daha çox bölgəyə pənah gətirən qaçqınların hesabına baş vermişdi. Çünki Zəngəzurda erməni vəhşiliyindən sonra yalnız Azərbaycan kəndlərinin dağıntıları qalmışdı. Naxçıvanda azərbaycanlıların sayının artması isə 1905-1907-ci illər qırğınından sonra yaranmış nisbi sabitlik nəticəsində mümkün olmuşdu.

1905-1907-ci illər soyqırımından nə çarizm, nə də ermənilər azərbaycanlıları tamamilə məhv etmək planını həyata keçirib istədikləri nəticəni əldə edə bilmədilər. Lakin onlar eyni zamanda öz niyyətlərindən də birdəfəlik əl çəkmədilər. Həmin illərdə ermənilər Azərbaycan xalqına qarşı öz qanlı planlarını reallaşdırarkən bu cinayətlərin icrasında arzuladıqları himayəni görmədikləri bir sıra çar məmurlarını Daşnaksütyunun yerli komitəsinin qərarı ilə qətlə yetirdilər. Bu terror aktlarını həyata keçirməklə

daşnaklar həm intiqam alır, həm də özlərini bir siyasi qüvvə kimi çar hökumətinə qəbul etdirməyə və onlarla hesablaşılmasına çalışırdılar. Əslində, azərbaycanlılara qarşı soyqırımın ilk mütəşəkkil mərhələsi bununla başa çatdı və həmin hadisələrdən sonra erməni hərəkatı yeni mərhələyə daxil oldu.

Bu mərhələdə ermənilərin yenidən Türkiyədə, bu dəfə siyasi səhnədə fəallaşmaları müşahidə olunurdu. Lakin daşnakların Birinci dünya müharibəsinin başlamasınadək müəyyən manevrlər etməklə qonşu dövlətdə nəyəsə nail olmaq cəhdləri son nəticədə uğur qazanmadı. I dünya müharibəsi ermənilərin ümidlərini doğrultmadı. XIX əsr boyu erməniləri Türkiyəyə qarşı mübarizədə daim müdafiə etmiş böyük dövlətlər bu dəfə də öz müstəmləkəçi maraqlarından çıxış edərək ermənilərdən alət kimi istifadə etdilər. Rusiyada mütləqiyyətin devrilməsi ilə nəticələnən burjua inqilabının baş verməsindən sonra ikihakimiyyətliliyin, anarxiyanın hökm sürməsi ermənilərin diqqətini yenidən Qafqaza cəlb etdi. Çünki bölgədəki vəziyyətin mürəkkəbləşməsi ermənilərin maraqlarına tamamilə uyğun gəlirdi. Digər tərəfdən erməni siyasi təşkilatları, xüsusən Daşnaksütyun liderləri Cənubi Qafqazın siyasi mühitində fəallaşmış, bölgənin idarəçiliyi üçün yaradılan təsisatlarda gürcü və Azərbaycan siyasi qüvvələri ilə bərabərhüquqlu şəkildə təmsil olunmağa başlamışdılar. Bütün bunlar ermənilərin Azərbaycan xalqına qarşı soyqırımın ikinci mərhələsinə başlamalarının ilkin zəminini təşkil edirdi.

# III FƏSİL
# 1918-1920-Cİ İLLƏRDƏ NAXÇIVAN BÖLGƏSİNDƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI

## 3.1. Ermənilərin Naxçıvan diyarını işğal etmək cəhdləri və azərbaycanlılara qarşı qırğınlar

Birinci dünya müharibəsi ermənilərin ümidlərini doğrultmadı. Onların gözlədiklərinin əksinə olaraq XIX əsr boyu erməniləri Türkiyəyə qarşı mübarizədə daim müdafiə etmiş böyük dövlətlər bu dəfə də öz müstəmləkəçi maraqlarından çıxış edərək ermənilərdən alət kimi istifadə etdilər. Türkiyədə bu dəfə çarizm tərəfindən «ermənilərsiz Ermənistan» planı çərçivəsində ağır zərbə almış ermənilərin Qafqaza kütləvi köçünün yeni mərhələsi başlanmışdı. 1905-1907-ci il qırğınları və XX əsrin əvvəllərində, eləcə də sonrakı illərdə Türkiyədən Cənubi Qafqaza köçən ermənilərin hesabına, habelə Qarsda və İrəvan quberniyasının xüsusən şimal ərazilərində etnik təmizləmələrdən sonra erməni terrorçu siyasi təşkilatlarının istinad edəcəyi erməni əhalisinin olduğu bölgə, siyasi sərhədləri rəsmən tanınmasa da, coğrafi baxımdan artıq yaradılmışdı.

Rusiyada çarizmin süqutundan sonra daha tez-tez səsləndirilən xalqların öz müqəddəratlarını müəyyən etmək hüququ kimi beynəlxalq prinsip erməniləri yenidən əsasən Türkiyənin şərq vilayətlərini və tarixi Azərbaycan torpaqlarını əhatə edən bədnam «Böyük Ermənistan» yaradılmasının planının icrasını davam etdirməyə həvəsləndirdi. Özünü daha çox Azərbaycanın Naxçıvan, Zəngəzur, Qarabağ bölgələrinə qarşı ərazi iddialarında qabarıq büruzə verən erməni təbliğatının arqumentləri onların tamamilə əsassız, hansısa «tarixi hüquqları»na və ya «etnoqrafik hüquqları»na söykənməyə cəhd edirdi (81, s. 45). O

dövrün demoqrafik statistikasının ziddiyyətli xarakterinə baxmayaraq ermənilərin hər iki iddia istinadgahlarının əsassız olduğu şübhəsizdir.

1917-ci ilin fevralında Rusiyada baş verən burjua inqilabı ərəfəsində Cənubi Qafqazda, o cümlədən Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində etnik durumun bəhs edilən şəkildə olması çarizmin devrilməsindən sonra həmin bölgələrdə siyasi hakimiyyət məsələsinə də ciddi təsir göstərmişdi. İnqilabdan sonra imperiyanı idarə edən Müvəqqəti hökumət Cənubi Qafqaza nəzarəti əldən verməmək üçün Dövlət Dumasının yerli üzvlərindən ibarət Xüsusi Cənubi Qafqaz Komitəsi adlanan idarəetmə qurumu yaratmışdı. Kadet V.A.Xarlamovun sədrlik etdiyi Komitənin tərkibinə menşevik A.İ.Çxenkeli, sosial-federalist K.Abaşidze, bitərəf M.Y.Cəfərov və kadet M.M.Papacanov daxil idilər. Lakin digər bölgələrdə olduğu kimi, Naxçıvan və Zəngəzurda da yerli müsəlman və erməni milli komitələrinin formalaşması ikihakimiyyətliliyə gətirib çıxarmışdı. Həm də bu komitələr Xüsusi Cənubi Qafqaz Komitəsinin yerlərdəki təsisatına tabe deyildilər. Bununla bərabər Xüsusi Cənubi Qafqaz Komitəsi tərəfindən qəzalara müvəkkillər göndərilməsi zamanı ermənilər bütün vasitələrdən istifadə edərək bu vəzifələrə öz nümayəndələrinin təyin olunmasına çalışırdılar.

Komitənin 26 aprel 1917-ci il tarixli qərarı ilə Bürhan bəy Maqsudov Naxçıvan qəzası üzrə müvəkkil (vəsiqə № 1330) təyin edilmişdi (88, iş 63, v. 15). Yerli azərbaycanlılar qəzaya ikinci müvəkkilin ruslardan təyin olunmasını daha məqbul hesab edirdilər. 1917-ci ilin may ayında qəzanın Dizə kəndində keçirilmiş yığıncaqda qəbul edilmiş qərara əsasən Xüsusi Cənubi Qafqaz Komitəsindən xahiş olunurdu ki, «Naxçıvan qəzasının yenidən təşkili üzrə müvəkkil vəzifəsinə əhalinin hədsiz dərəcədə inam və

etibarını qazanmış, özünün iki aylıq işi ilə əsl qabiliyyətini və yerli hakimiyyəti demokratikləşdirmə əsaslarına uyğun olaraq təşkil etmə işi aparılmasının səmimi arzusunda olduğunu göstərmiş Aleksandr Aleksandroviç Kalyujnı» təsdiq edilsin (88, iş 63, v. 9).

Lakin ermənilər bununla razılaşmayaraq müvəkkilliyə öz nümayəndələrini təyin etməkdə israr edirdilər. Naxçıvan Erməni Milli komitəsinin sədri və erməni kilsəsinin baş rahibi arximandrit Sion 1917-ci ilin iyununda növbəti dəfə Xüsusi Cənubi Qafqaz Komitəsinin erməni üzvü Papacanova müraciət edərək «təkidlə xahiş edirdi ki, yerli orqanları yenidən qurmaq üçün qəzaya erməni müvəkkil ezam edilsin» (88, iş 63, v. 21). Papacanovun səyi ilə Cənubi Qafqazı idarə edən imperiya orqanı ermənilərin bu arzusunu yerinə yetirmiş, 1917-ci il iyulun 18-də Mxitaryans Naxçıvan qəzası üzrə müvəkkil (vəsiqə № 4653), S.Abqaryan və K.Mtenanyan onun köməkçiləri təyin edilmişdilər (88, iş 63, v. 69, 86). İyunun 1-də Xüsusi Cənubi Qafqaz Komitəsi tərəfindən Hüseynqulu Şəfiyev və Qeğam Ter-Arutyunyans Şərur-Dərələyəz qəzasına müvəkkil təyin olunaraq bölgəyə göndərilmişdilər. İyul ayında isə Q.Ter-Arutyunyansı vəzifəsində L.Əmirxanov əvəz etmişdi (88, iş 63, v. 143, 146-147).

Avqust ayında Xüsusi Cənubi Qafqaz Komitəsinin Yerli hakimiyyətin təşkili işləri üzrə müdiri B.Maqsudovun yerinə Naxçıvan qəzasına və Yeni Bəyazit qəzasına müsəlman müvəkkilin təyin edilməsi üçün namizədlər verməsi xahişi ilə qurumun azərbaycanlı üzvü M.Y.Cəfərova müraciət etmişdi. Elə həmin vaxt Naxçıvan qəzasının erməni müvəkkili Mxitaryans teleqramında müsəlman müvəkkil olmadığından vəzifəsini icra edə bilmədiyini yazırdı. 1917-ci il avqustun 30-da M.Y.Cəfərovun təqdimatı ilə Baxşəli ağa Şahtaxtinski Naxçıvana qəza müvəkkili təyin

edildi (88, iş 63, v. 41, 44, 46).

Rusiyada 1917-ci ildə müxtəlif siyasi oriyentasiyaya malik rejimlərin bir-birini əvəz etməsinə baxmayaraq onların hamısı, həm çarizm, həm Müvəqqəti hökumət, həm də kommunistlər «erməni məsələsi»nə münasibətdə, demək olar ki, eyni mövqeni tutdular. Hakimiyyət dairələrinin antiazərbaycan siyasəti Naxçıvan bölgəsində 1917-ci ildən öz nəticəsini verməyə başladı. Azərbaycanlılara qarşı təqib və təzyiq siyasəti yürüdülməsinə başlandı, hətta 1905-1907-ci illər hadisələrində ermənilərə müqavimət göstərənləri incitməyə, yerli müsəlmanları siyasi cəhətdən hüquqsuz vəziyyətə salmağa başladılar.

1917-ci ilin mayında Cəhri kənd sakini Məşədi Abbas Zal oğlu Xüsusi Cənubi Qafqaz Komitəsinə (XCQK) yazdığı şikayət məktubunda 1905-ci ildə bir ermənini öldürməyə cəhd etdiyinə görə 8 ay həbsdə yatdığını, Müvəqqəti hökumətin 17 mart 1917-ci il tarixli qərarı ilə özünün bütün hüquq və imtiyazlarının bərpa edildiyini, buna baxmayaraq 1917-ci il mayın 24-də Cəhridə keçirilən seçkilərə buraxılmadığını yazırdı (88, iş 63, v. 17). Arxiv sənədlərində rast gəlinən bu kimi faktlar ötən qanlı hadisələrin rus məmurları tərəfindən ermənilərə bir növ xatırladılma səciyyəsində olub milli münaqişənin yenidən alovlandırılmasına yönəlmişdi.

Ermənilərin Naxçıvan bölgəsində separatçılıq hərəkətləri ayrı-ayrı yaşayış məntəqələrinin idarəçiliyində xüsusi imtiyazlar əldə etməyə yönəlmişdi və Naxçıvana qarşı qanlı planlarının hazırlıq mərhələsini təşkil edirdi. Naxçıvan qəza müvəkkili B.Şahtaxtinskinin 21 oktyabr 1917-ci il tarixli, 115 saylı məktubuna əsaslanan XCQK noyabrın 4-də İrəvan quberniyasının komissarına yazırdı ki, Yamxana, Qaraxanbəyli və Tumbul kəndlərinin erməni əhalisi bu yaşayış məntəqələrinin xüsusi kənd cəmiyyətləri kimi

ayrılmaları barədə icma qərarları çıxarmışlar (88, iş 63, v. 84). Halbuki həmin kəndlərin heç birində ermənilər çoxluq təşkil etmirdilər. Ona görə də bu, bir tərəfdən azərbaycanlıların hüquqsuz vəziyyətə salınmasının, digər tərəfdən ermənilərin bilavasitə təhrikedici hərəkətlərlə öz planlarının icrasına başlamalarının əlaməti idi. Onlar azərbaycanlıları təxribata çəkmək və həmişə olduğu kimi, məsuliyyəti öz üzərlərindən atmaq istəyirdilər.

1917-ci ilin sonu-1918-ci ilin əvvəllərində Naxçıvanda müxtəlif vəzifələrə təyin edilmiş ermənilər Cənubi Qafqaz Komissarlığına (CQK) göndərdikləri məlumatlarda (88, iş 57, v. 1-7) «kürd-tatar» silahlı dəstələrinin ermənilər yaşayan ərazilərə qanlı və talançı yürüşləri barədə danışırdılar. Şərur-Dərələyəz qəzasının erməni müvəkkili L.Əmirxanov 1917-ci il iyulun 27-də XCQK-ya göndərdiyi məktubunda İran kürdlərinin onun rəhbərlik etdiyi qəza ilə Yeni Bəyazit qəzasının həmsərhəd kəndlərinə talançı hücumlarından və əhalinin terrora məruz qalmasından şikayətlənir və yerli müsəlmanların da kürdlərə kömək etdiyini yazırdı (88, iş 63, v. 146-147). Naxçıvan qəzasının erməni müvəkkili Mxitaryans da 2 sentyabr 1917-ci il tarixli teleqramında yazırdı: «Bizdə də quldur dəstələri peyda olub, hər yerdə tez-tez qətllər olur, oğurlayırlar, əhali, xüsusilə erməni əhali əziyyət çəkir» (88, iş 63, v. 107). Teleqram yeni təyin olunmuş azərbaycanlı müvəkkil B.Şahtaxtinskinin Naxçıvana gəlişindən bir neçə gün əvvəl (o, sentyabrın 8-də Naxçıvana gəlmişdi – E.C.) göndərilmişdi. Bütün bunlar əslində az sonra başlayacaq erməni cinayətlərinə bəri başdan «ciddi» əsas axtarışı idi.

1917-ci il dekabrın 17-də Naxçıvan şəhər dəmir yolunda xidmət edən rus kazakının silahının azərbaycanlılar kimi geyinmiş Qaraxanbəyli kəndinin bir erməni sakini tərəfindən oğurlanması ilə ermənilər rus əsgərləri ilə

azərbaycanlılar arasında düşmən münasibətin yaranmasına nail oldular. Bundan sonra rus-erməni silahlı dəstələri dekabrın 22-23-də Naxçıvan şəhərinin azərbaycanlılar yaşayan məhəllələrini atəşə tutdular. 1917-ci ilin dekabrında baş verən insident dərhal kütləvi qırğınlara rəvac verməsə də, hadisələrin artıq bu istiqamətdə inkişaf etdiyi şübhə doğurmurdu.

Belə bir şəraitdə bölgədə mərkəzi Naxçıvan şəhəri olmaqla əhalinin etnik tərkibinə görə idarəçilik sistemi kimi müsəlman və erməni milli komitələri yaradılmışdı. Həmin komitələr Naxçıvanı və ətraf kəndləri idarə etmək üçün bütün səlahiyyətləri öz əllərinə almışdılar. Həm müsəlman, həm də erməni milli komitələri özlərinin hərbi qüvvələrini də yaratmışdılar. Lakin türk-müsəlman əsgərlərinin komandiri və onun müavini «bəzi mühüm məsələləri həll etmək üçün» Tiflisə gedib bir daha geri qayıtmadılar. Bu hadisə müsəlman hərbi təşkilatının dağılmasına, qalan bütün hərbi sursatın isə ermənilərin əlinə keçməsinə səbəb oldu. Fevral ayının sonlarında ermənilər Əznəbürd kəndinə hücum edərək 29 nəfər qadın və uşağı qətlə yetirdilər (3, s. 27-28). M.B.Əliyev Əznəbürd faciəsinin yanvarın 17(30)-də törədildiyini və ermənilərin 22 nəfəri qətlə yetirdiyini yazır (42, s. 10).

Arxiv sənədləri (88, iş 64, v. 228-231) bölgədəki real vəziyyət barədə müəyyən qədər təsəvvür yaradır. Yaranmış qarışıq siyasi vəziyyətdən istifadə edən ermənilərin 1918-ci il yanvarın 14-də İrəvan quberniya komissarı təyin edilməsinə nail olduqları Saak Torosyan quberniyadakı vəziyyət barədə CQK-nın daxili işlər komissarı Çxenkeliyə, maliyyə komissarı Karçikyana vurduğu teleqramlarda quberniyadakı ağır vəziyyətdən, milli qarşıdurmanın kəskinləşməsindən şikayətlənir, təcili kömək istəyirdi. O, baş verən silahlı toqquşmaların məsuliyyətini «tatar

dəstələri»nin üzərinə qoyur, məhz ermənilərdən ibarət hərbi hissələrin köməyə göndərilməsini xahiş edirdi.

Azərbaycanlı əhalinin vəziyyətini ağırlaşdıran daha bir hadisə Rusiya ilə Türkiyə arasında 1917-ci il dekabrın 5-də bağlanmış Ərzincan sazişinə əsasən müharibədən çıxan rus ordusunun silahlarının ermənilərə təhvil verilməsi oldu. Bu, erməni hərbi birləşmələrinin Azərbaycanın bütün bölgələrinə, o cümlədən də Naxçıvana irimiqyaslı hücumlarını stimullaşdıran həlledici amil oldu. Cənubi Qafqaz Komissarlığı silahlanma məsələsində ayrı-seçkilik etdiyinə görə «azərbaycanlılar komissarlığın siyasətindən narazı idilər». A.Səfikürdski qeyd edirdi ki, «Transqafqazda kiçik qardaşlar olan ermənilər və gürcülər silahlandıqları halda, böyük qardaş olan müsəlmanlara silah verilmədi». O, bu ifadələri işlədərkən bölgədə müsəlmanların çoxluq təşkil etdiyini nəzərdə tuturdu (59, s. 39).

1918-ci ilin ilk aylarından baş verən qanlı hadisələrin iştirakçıları 1905-1907-ci illərdə olduğu kimi idi: «bir tərəfdə qeyri-mütəşəkkil müsəlman kütləsi, digər tərəfdə mütəşəkkil erməni nizami hərbi hissələri» (88, iş 68, v. 44). Milli ədavətin getdikcə alovlandığı bir vaxtda yerli idarəçilik qurumlarının rəhbərləri arasında tez-tez ixtilafların baş verməsi naxçıvanlıların vəziyyətini daha da ağırlaşdırırdı.

Bu vaxtadək Cənubi Azərbaycanın Urmiya, Salmas və Xoy şəhərlərində baş verən erməni cinayətləri Naxçıvanda da yayıldı. İlk silahlı münaqişələrdə naxçıvanlılar ciddi müqavimət göstərdiyindən ermənilər sülh təklifi ilə çıxış etdilər. Lakin tezliklə bunun vaxt udmaq üçün atılmış addım olduğu üzə çıxdı. Belə ki, bir neçə gün sonra əsl müharibə meydanına çevrilmiş Naxçıvanda mövqelər dəyişildi: bu dəfə Müsəlman Milli Komitəsinin (MMK) sülh təklifinə martın 23-də (42, s. 13-14) xaricdən xeyli silah-

sursat almış ermənilər azərbaycanlılardakı topların, silahların onlara təhvil verilməsi şərti ilə cavab verdilər. Naxçıvanın dinc yolla işğalına yol aça biləcək bu fitnəkarlıq cəhdi uğursuz oldu, naxçıvanlılar bu təxribata getmədilər.

1918-ci il aprelin 13-də ermənilər Əlincəçay vadisində yerləşən Bənəniyar, Qızılca, Saltaq, Noraşen, Xoşkeşin və s. kəndlərə hücum edərək bu yaşayış məntəqələrini dağıtdılar. Həmin kəndlərin əhalisi qırıldı, sağ qalanları isə müxtəlif ərazilərə səpələndi. Nehrəm kəndi ilə Qaraxanbəyli erməniləri arasında da döyüş başladı (42, s. 21-22). Aprelin 16-da ermənilər tərəfindən öldürülmüş 6 nehrəmlinin meyiti MMK sədri Mirzə Nəsrullah Əmirova təhvil verilmişdi. Onlardan beş nəfərinin meyiti yandırılaraq tanınmaz hala salınmış, birinin – Məşədi Rəhim Babayevin başı kəsilmişdi. Hər gün İrəvan qəzasının erməni kəndlərindən gələn kömək hesabına öz sıralarını gücləndirən ermənilər Naxçıvan şəhərinin ayrı-ayrı məhəllələrini ələ keçirmişdilər. İşğal olunmuş məhəllələrdən Araz çayı sahilindəki Qaraçuq kəndinə pənah aparanlar burada Qaraxanbəyli kəndində yaşayan ermənilərin silahlı dəstələrinin hücumuna məruz qalırdılar.

Aprelin 21-də ermənilərin sülh təklifi barədə irəli sürdükləri 7 maddədən ibarət şərtlərində əsas tələblərindən biri müsəlmanlarda olan 12 topun ermənilərə verilməsi idi. Bu tələb etirazla qarşılandı. Aprelin 25-26-da Naxçıvandakı erməni qarnizonunun rəisi Yero Xarazyanla Rəhim xan, M.N.Əmirov və Abbasqulu Tahirovdan ibarət nümayəndə heyətinin apardığı danışıqlarda ermənilərin sülh təşəbbüsü ilə çıxış etmələrinə bir amilin böyük təsiri olmuşdu. Belə ki, bu ərəfədə osmanlı qoşunlarının Maku və İqdır istiqamətində müzəffər yürüşləri barədə yayılmış xəbərlər erməniləri təşvişə salmışdı. Hadisələrin canlı şahidi olmuş L.Hüseynzadə yazır ki, I Qafqaz kolordusu

komandanı Kazım Qarabəkir paşanın imzası ilə (60, s. 25-26) Naxçıvan MMK sədrinə göndərilən məktubda tezliklə türk ordusunun köməyə gələcəyi bildirilirdi. M.B.Əliyev həmin məktubun aprelin 29-da osmanlı sərkərdəsi Bəkir Sadiq əfəndi tərəfindən göndərildiyini yazır (42, s. 27-28). Lakin L.Hüseynzadə həmin məktubun surətinin çoxaldılıb yayılmasında şəxsən iştirak etmiş və məktubun orijinalını öz kitabında nəşr etdirmişdir.

Barışıqdan sonra M.N.Əmirovun ermənilərin törətdikləri cinayətlərin qarşısının alınması barədə tələbinə Y.Xarazyan belə cavab vermişdi: «Sizin bu haqlı tələbiniz qarşısında mən söz deməyə xəcalət çəkirəm. Bilmirəm nə edim. Hərgah biləm ki, mənim qanımı tökməklə ermənilər sakit olacaqsa, mən bu saat özümü öldürərəm. Ancaq yəqin bilirəm ki, iş bununla bitməyəcək. Erməni millətini mən sakit edə bilməyəcəyəm. Buna mənim qüvvəm, gücüm çatmayacaq...» (60, s. 19) Cavabdan belə aydın olur ki, qanlı hadisələr daha mütəşəkkil qüvvə tərəfindən idarə olunur və bu qüvvənin daşnak partiyası olduğu şübhə doğurmur.

Mayın 3-də ermənilərlə keçirilən birgə yığıncaqda qərara alındı ki, hər bir şəhər və rayona biri azərbaycanlı, digəri erməni olmaqla iki komissar təyin olunsun. Bu prinsip ictimai asayişi qoruyacaq polis qüvvələrinin rəhbərliyinə də şamil edildi. Naxçıvan şəhərinin rəisliyinə azərbaycanlılardan A.Tahirov, ermənilərdən Ruben Babaxanov təyin olundu. Lakin asayişin bərpası yenə mümkün olmadı.

Mayın 10-da osmanlı əsgərlərinin Şahtaxtı kəndinə daxil olması xəbərini eşidən ermənilər 1800 nəfərlik hərbi dəstələr təşkil edərək İrəvandan 6 top, iki mindən artıq güllə və s. sursat gətirərək Naxçıvanda hərbi nümayiş keçirdilər. Bölgə kəndlərində ermənilər tərəfindən qətl və

talanlar başlandı. Vənənd və Ordubadın onunla qonşu olan digər kəndləri hücuma məruz qaldı. Mayın 16-da Y.Xarazyan dəstəsinin sıralarını genişləndirmək üçün Qaraxanbəyli kəndinə, oradan isə Culfaya hərəkət etdi (42, s. 34-35). Erməni dəstələrinin fəallaşmasının və azərbaycanlı əhaliyə qarşı qırğınlara başlamasının əsas səbəbi osmanlı ordusu Naxçıvana daxil olanadək bölgəni azərbaycanlılardan «təmizləmək» və ermənilərin çoxluğunu təmin etmək idi. Bu məqsədlə Y.Xarazyan Güznüt və Əbrəqunusda dəstəsinin möhkəmləndirilməsi qayğısına qaldı. O, bütün bu hərəkətləri ermənilərin yaşadıqları kəndlərdə guya əhalini intizama dəvət etmək istəyi ilə pərdələyirdi.

1918-ci ilin may ayında Cənubi Qafqaz bölgəsində yeni tarixi şərait yarandı. Mayın 28-də Azərbaycanın öz dövlət müstəqilliyini elan etdi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) ilə eyni vaxtda Qərbi Azərbaycan torpaqlarında işğalçı daşnak rejimi quruldu. AXC-nin yaradılması tariximizdə mühüm hadisə olub, torpaqlarımızın təcavüzdən qorunacağına da böyük ümidlər yaratmışdı. Lakin nəinki Azərbaycan torpaqlarının bütövlüyü təmin edildi, əksinə, hətta cümhuriyyətin elan edildiyi elə ilk günlərdə (mayın 29-da) Müsəlman Milli Şurası çox ciddi tarixi səhvə yol verərək İrəvanın ermənilərə güzəştə gedilməsi barədə heç bir ciddi əsası olmayan qərar qəbul etdi. Bununla belə, cümhuriyyət hökuməti sonrakı mərhələdə süni olaraq mübahisə obyektinə çevrilmiş ərazilər uğrunda gərgin diplomatik və silahlı mübarizə apardı.

İyunun 4-də Batumda Türkiyə ilə imzalanan dostluq müqaviləsinin 4-cü maddəsi Azərbaycana siyasi-hərbi yardım göstərilməsini nəzərdə tuturdu. Bundan sonra Azərbaycana Osmanlı dövlətinin hərbi naziri və baş qərargah rəisi Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı ilə bir diviziya göndərildi. Qafqaz ordusu

adlanan bu osmanlı diviziyası ilə general Əliağa Şıxlinskinin komandanı olduğu əlahiddə Azərbaycan korpusunun birləşməsi əsasında Qafqaz İslam Ordusu yaradıldı (44, s. 163). Bu, Azərbaycan tarixində son dərəcə əlamətdar bir hadisə idi.

Batum konfransında Türkiyənin təklif etdiyi «Osmanlı imperiyası ilə Transqafqaz konfederasion respublikası arasında sülh və dostluq haqqında» müqavilənin şərtlərinə görə, Rusiya ilə bağlanmış 1829-cu il Ədirnə sülhündən əvvəlki sərhədlər bərpa edilməli və Cənubi Qafqazdan Türkiyəyə 1250 min əhalisi olan 38 min $km^2$ ərazi verilməli idi (14, II c., s. 42). Türkiyə həmin gün daşnaklarla bağladığı müqavilə ilə Göyçə gölü ətrafında 10 min $km^2$-lik ərazidə qondarma erməni dövləti yaradılmasına loyal yanaşdığını göstərdi. Təbii ki, bu münasibət həmin dövrdə Türkiyənin maraqlarından irəli gəlirdi. Çünki müqaviləyə görə Eçmiədzin və Gümrünü öz ərazilərinə qatan Türkiyə Qars-Gümrü-Culfa dəmiryoluna nəzarət hüququ alırdı. Osmanlı rəsmi dairələri hesab edirdilər ki, öz dövlət qurumlarına malik olan ermənilər Türkiyə torpaqlarına iddialarından əl çəkəcəklər. Lakin tarix bu ümidin tamamilə əsassız olduğunu sübut etdi.

Qərbi Azərbaycandakı işğalçı rejimlə Türkiyənin müqavilə bağlaması onun bir dövlət kimi osmanlılar tərəfindən de-yure tanınması demək idi ki, bununla da daşnaklar öz planlarının mühüm bir hissəsini gerçəkləşdirdilər. Bölgədəki vəziyyətlə bağlı təşkil edilmiş erməni komissiiyasının Levisyans, Tomaşev, Vəkilov, Keşişev və Jakoyevin imzaları ilə göndərilən məlumatda deyilirdi: «Erməni komissiyası Osmanlı hökumətinin dostluğuna inanaraq və Osmanlı ordusu baş komandanlığının «Erməni hökumətini Türkiyə təşkil etdi və təbii ki, mühafizə də edəcəkdir» kimi böyük vədini xatırlayaraq təsəvvür etmir ki,

Türkiyə erməni millətinin ölümünü istəsin» (132, s. 97).

Bununla belə, 1918-ci ilin ikinci yarısında müharibə cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin yaradılmasına meyl göstərirdi. Elə yerli hakimiyyət ki, daşnakların hücumuna davam gətirərək diyarı heç vaxt onların tapdağı altına verməsin (53, s. 9). Bu məqsədlə mayın 17-də Naxçıvana göndərilən Xəlil bəyin başçılığı ilə bir qrup osmanlı hərbçisi Şahtaxtıda iqamətgah qurdu. Topçu Hüsnü Əfəndi Naxçıvanda azərbaycanlılardan hərbi dəstələr təşkil edilməsi, topçular hazırlanması ilə məşğul olmağa başladı.

Xəlil bəyin gəlişindən sonra Şahtaxtıya yaxın yaşayış məntəqələrindən ermənilərin kütləvi köçü müşahidə olunurdusa, Əlincəçay boyunca olan yaşayış məntəqələrinin, xüsusən Əbrəqunus kəndində yaşayan ermənilərin Qazançı kəndinə toplaşması daşnak qüvvələrinin səfərbərlik cəhdi idi. Bu zaman Naxçıvanda olan 8 ədəd rus dağ topundan 4-ü 34 mərmi ilə birlikdə Şahtaxtına aparılmışdı. Bundan xəbər tutan ermənilər 50 mərmini Şahtaxtına aparan azərbaycanlını əsir götürmüş, bununla bağlı Y.Xarazyan MMK-nə öz etirazını bildirmişdi. M.N.Əmirov Xəlil bəyə topçu Hüsnü Əfəndinin Naxçıvandan geri çağırılmasını təklif etdiyindən Xəlil bəy mayın 29-da hər iki tərəfdən könüllü tərksilah olunmalarını tələb etmişdi.

Bu tələbə məhəl qoymayan Y.Xarazyanın quldur dəstələri mayın 31-də Culfadan çıxaraq kəndlərə basqın edəedə Naxçıvana doğru irəliləməyə başladı. İyunun 2-də Yaycı kəndi ilə Aza kəndində yaşayan ermənilər arasında qanlı döyüşlər getdi. Bir gün sonra isə Əbrəqunus və Qazançı kəndindən olan ermənilər Bənəniyar, Ərəzin, Noraşen və Xanağa kəndlərinə hücum edərək altı kişi və bir qadını əsir tutdular. Əznəbürtdə yaşayan ermənilər isə

Lizburt kəndindən iki azərbaycanlını öldürərək bir neçəsini də yaraladılar və bütün kəndi talan etdilər. Xanlıqlar kəndinin ermənilələri isə iyunun 8-də Xəlil bəyə təslim olduqlarını bildirdilər.

Xəlil bəyin bölgədə sülh yaratmaq təşəbbüsləri Andranik Ozanyanın quldur dəstələrinin Naxçıvana hücuma başlaması ərəfəsinə təsadüf etdiyindən uğur qazanmırdı. Onun yürüş edəcəyi barədə xəbərlər Naxçıvandakı erməniləri daha da azğınlaşdırmışdı. Çünki Andranikin hərbi qüvvəsi buradakı Osmanlı silahlı qüvvəsindən qat-qat artıq idi. İyun-iyul aylarında Naxçıvan diyarı öz tarixinin ən qanlı günlərini yaşadı. Andranikin yürüşü təkcə Gilançay və Əlincəçay hövzələrində 80-dən çox kəndin dağıdılması, əhalinin böyük qisminin məhvi ilə nəticələnmişdi.

Naxçıvan və Şərur-Dərələyəz qəzaları əhalisinin Kərim xan İrəvanlının başçılığı ilə may ayının sonunda hərbi kömək üçün Türkiyəyə göndərdiyi nümayəndə heyəti Mehmet Vehib paşanın qəbulunda oldu. Nəticədə 9-cu və 11-ci türk diviziyalarına Naxçıvana hərəkət etmək əmri verildi (99, s. 75-76). 1918-ci ilin avqustun 5-də Türkiyənin I Qafqaz ordusunun gəlişi ilə vəziyyət nisbətən sabitləşdi. İki gün sonra XI ordu komandanı Kazım Qarabəkir paşanın gəlməsi ermənilərin Naxçıvana hücumunun qarşısının alınması istiqamətində ciddi tədbirlər görülməsi ilə müşayiət olundu.

Lakin bu, erməni təcavüzünün birdəfəlik dəf olunması demək deyildi. Belə bir şəraitdə sentyabrda bölgədə plebissit keçirildi və nəticədə Naxçıvan qəzasının da Qars qəsəbəsinin tərkibində Batum vilayətinin bir hissəsi kimi Türkiyəyə birləşdirildiyi elan edildi. Müxtəlif vaxtlarda, habelə dövrumuzdə də bəzən yanlış mövqe bildirilməsinə baxmayaraq, bu hadisə işğal aktı olmayıb, bölgənin təhlükəsizliyinin təmin edilməsi zərurətindən doğmuşdu.

Çünki K.Qarabəkir paşa Naxçıvanın gələcək müqəddəratının müstəqil cümhuriyyət kimi daha yaxşı olacağı ideyasını irəli sürmüş və bu ideya Atatürk tərəfindən bəyənilmişdi (99, s. 76).

1918-ci il sentyabrın 14-də qəbul edilən qərarla 23 qəzada birləşən 100 nahiyə Batum vilayəti adı altında Osmanlı dövlətinin tərkibinə daxil edilmişdi. A.Abbasoğlu da bu faktı təsdiqləyir, lakin səhvən 14 iyul tarixini göstərir (1). Oktyabr ayında Naxçıvana qəza rəisi təyin olunan Xalis Turqut bəy burada cəmi bir ay – Osmanlı qoşunları bölgəni tərk edənədək qaldı. Türkiyə ordusu Naxçıvan əhalisinin çoxsaylı xahişlərini, habelə Batum müqaviləsinin 4-cü maddəsini əsas tutaraq Naxçıvanın və digər Azərbaycan torpaqlarının qorunmasına öz töhfəsini verdi.

Naxçıvanı tərk etmə ərəfəsində bölgədəki türk hərbi rəhbərliyinin ermənilərə münasibətində bir yumşalma da hiss olunurdu. Təbrizə gedərkən oktyabrın 5-də yolüstü İrəvanda olmuş Xəlil bəy işğalçı daşnak rejimini Naxçıvana, Zəngəzura və s. Azərbaycan torpaqlarına olan iddialarından əl çəkməyə çağırmış, Osmanlı ordusunun Qəmərlidəki ərzaq ambarından ermənilərə 12 min pud buğda buraxılmasına icazə vermişdi (81, s. 88). 1918-ci il noyabrında IX diviziya komandanı Rüşdü bəy yerli hökumətə ermənilərin Naxçıvana və ətraf ərazilərə qayıtmaları və müsəlman əhalinin onlarla xoş davranmaları barədə teleqram göndərmişdi.

Oktyabrın 21-də və 22-də alınmış əmrlərə müvafiq olaraq K.Qarabəkir paşa oktyabrın 25-də Culfaya, buradan isə Naxçıvana gəldi. 1918-ci il oktyabrın 31-də başçılıq etdiyi I Qafqaz ordusu ləğv edildiyindən noyabrın 1-də o, Naxçıvanı tərk etdi. Mudros müqaviləsinə əsasən Türkiyə qoşunları noyabr-dekabr ayları ərzində bütün Azər-

baycanı tərk etdilər. Osmanlı ordusunun Naxçıvanı tərk etməsi tarixi barədə fikirlər müxtəlifliyi ilə fərqlənir. M.B.Əliyev «Türkiyə ordusunun Naxçıvanı tərk edib Arpaçay hüduduna keçməsi» tarixini 1918-ci il oktyabrın 5(18)-i göstərir, lakin ardınca oktyabrın 23-də əsgər və zabitlərin tərxis olunması əmrinin verildiyini və sonrakı üç gün ərzində Osmanlı əsgərlərinin Naxçıvanı tərk etdiyini yazır (42, s. 81). Təbii ki, bu məlumatda uyğunsuzluq vardır.

Osmanlı ordusunun getməsi bölgə əhalisinin yenidən silahsız halda düşmənlə üz-üzə qalması demək idi. Ordubad Milli Komitəsinin sədri Mir Hidayət Seyidzadə İrəvan quberniyası müsəlmanları adından AXC Nazirlər Şurasının sədri F.Xoyskiyə 22 dekabr 1918-ci il tarixli məlumatında yazırdı: «Andranikdən sonra bizə türklər gəldilər və üç aya yaxın qəzada hamı sakit yaşadı. Türklər Qafqazdan getdikdən sonra bizim vəziyyətimiz əvvəlkindən də pis oldu». Naxçıvan Milli Komitəsinin sədri Cəfərqulu xan da Osmanlı əsgərlərinin bölgəni tərk etməsinin qanlı səhifələrin təkrarlanması ilə nəticələndiyini bildirmişdi (12, iş 57, v. 2).

Daşnaklar oktyabrın 27-də səfərbərlik elan edərək Göyçə, Yeni Bəyazit, Ağbulaq və İrəvanda 18-35 yaşlı kişiləri hərbi qüvvələrinə cəlb etdilər. Oktyabrın 30-da Arpa kəndi işğal edildi. Osmanlı ordusunun bölgəni tərk etməsini gözləmədən hərəkətə keçən ermənilər artıq Naxçıvana öz əraziləri kimi baxmağa başladılar. Daşnak rejiminin daxili işlər naziri Njde 16 noyabr 1918-ci il tarixli ərizəsini nəzərə alaraq poruçik Qaregin Ter-Arutyunyans adlı bir erməni noyabrın 27-də 156 №-li əmrlə Naxçıvanın qəza komissarı təyin etmişdi (88, iş 11, v. 1-3).

Naxçıvanın tərk edilməsindən sonra erməni qüvvələrinin hücum təhlükəsinin real olduğunu anlayan Osmanlı

hərbi rəhbərliyi bölgədə müdafiənin təşkil edilməsi məqsədilə yerli məhəlli hökumət təşkilatları qurmağa başladı. IX Ordu komandanı Yaqub Şövqü paşa tərxis olunan əsgərlərdən qalan silahların xalqa paylanmasını təmin etmişdi. 1918-ci il oktyabrın 29-da Axıska hökuməti, noyabrın 5(18)-də Araz-Türk Respublikası və Qars İslam Şurası quruldu. Noyabrın 30-da bu hökumətlər Milli Şura hökuməti adı altında birləşdilər. 1919-cu il yanvarın 17-18-də Cənub-Qərbi Qafqaz Respublikasına çevrilən Qars Milli Şurasına aprelin 30-da ingilislər son qoydular (121, I c., s. 404-405).

Eçmiədzin mahalının bir hissəsini, Sərdarabad, Uluxanlı, Qəmərli, Vedi, Şərur, Naxçıvan, Ordubad, Mehri və Sürməli bölgələrini əhatə edən, «paytaxtı Naxçıvan şəhəri, ərazisi təxminən 16 min km$^2$, əhalisi 1 milyon nəfərə yaxın» (52, s. 29) olan Araz-Türk Respublikası Türkiyənin yaxından köməyi ilə Qəmərlidə yaradılmışdı. Lakin Qəmərlinin ermənilər tərəfindən işğalı təhlükəsi yarandığından Araz-Türk Respublikası hökuməti Naxçıvana köçmüşdü. Hökumət aşağıdakı tərkibdə təşkil olunmuşdu: hökumətin sədri – Əmir bəy Əkbərzadə; hərbi nazir – İbrahim bəy Cahangiroğlu; maliyyə naziri – Qənbərəli bəy Bənəniyarlı; mülki işlər üzrə nazir – Bağır bəy Rzazadə; ədliyyə naziri – Məhəmməd Bəyzadə; xarici işlər naziri – Həsən ağa Səfizadə; şeyxülislam – Mirzə Hüseyn Mirzə Həsənzadə; müfti – Xoca Ekid Əfəndi.

Tədqiqatçılar arasında bu dövlət qurumuna münasibət birmənalı olmamış, Araz-Türk Respublikasının yaranması bəzən Osmanlı dövlətinin bölgəni sonrakı dövrdə də əlində saxlamaq və Azərbaycandan ayırmaq cəhdlərinin nəticəsi kimi qiymətləndirilmişdir. Hətta A.Hacıyev Araz-Türk Respublikasını Naxçıvanın «...hələ keçmişlərdən regional müstəqilliyə can atması» (50, s. 47) kimi

tamamilə səhv, zərərli və yolverilməz tezislə izah edir. Onun keçmişdəki hansı müstəqilliyə can atma faktlarına əsaslandığı aydın deyildir. Çünki əslində belə cəhdlər heç vaxt olmamışdır. Əksinə, «Araz-Türk Respublikası 1919-cu il yanvarın 4-də ilk hökumət bəyannaməsində elan etdi ki, Naxçıvan həmişə özünü Azərbaycanın tərkib hissəsi hesab etmişdir və Ermənistanın hərbi təcavüzünə qarşı Azərbaycandan kömək gözləyir» (63). 1919-cu ilin martında Araz-Türk Respublikasının hərbi hissə rəisi müsavatçı Bəhram xan Naxçıvanski Bakıya göndərilmişdi. O, özü ilə yerli hökumətin Cənub-Qərbi Azərbaycan adı altında Naxçıvanı Azərbaycan Respublikasına birləşdirmək təklifini də gətirmiş, eyni zamanda maliyyə yardımı, zabit və başqa köməklər də xahiş etmişdi (52, s. 111).

Naxçıvan diyarının erməni işğalına qarşı mübarizəsində yerli siyasi xadimlər arasında ziddiyyətlərin olduğu bir şəraitdə Osmanlı hərbi dairələrinin yaxından köməyi ilə yaradılan Araz-Türk Respublikası Naxçıvanın Azərbaycan torpağı kimi qorunub saxlanılmasında mühüm mərhələ təşkil edir. Bakıdan real yardımın mümkün olmadığı bir vaxtda Naxçıvanda sırf milli təhlükəsizlik baxımından belə bir müstəqil dövlət qurumunun yaradılması faktı heç bir separatçılıq məqsədi daşımamışdır və təqdirəlayiq hal hesab edilməlidir.

Araz-Türk Respublikasının qısamüddətli mövcudluğu dövründə qurumun hərbi naziri İ.Cahangiroğlunun ciddi səyi ilə silahlı qüvvələr təşkil olundu. Bu hərbi hissələr – könüllü xalq dəstələri təxminən 20 tabordan (batalyondan) ibarət idi və onlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, digərləri isə Vedibasar, Qəmərli və Zəngibasar ərazilərində yerləşdirilmişdi. Nehrəmdəki tabora Kəblə Muxtar, Cəhridəkinə Kəblə Kərim, Dizədəki batalyona Qulubəy, Məhəmməd Rza bəy, Şərurdakına Hüseyn Əli-

yev, Şərur-Sədərək kəndlərindəki birliklərə Həsən Şahverdioğlu, Yengicə qüvvələrinə Məşədi Ələsgərağa, Kərkər qüvvələrinə Möhsün Camalov, Baş Noraşen-Zeyvə-Düdəngə qüvvələrinə Fətulla Hüseynov və Kərbəlayi Həbib bəy, Ordubad batalyonuna müəllim İbrahimxəlil Axundov rəhbərlik edirdilər. Bu şəxslər peşəkar hərbçilər deyildilər. Buna görə də Osmanlı qüvvələri bölgəni tərk edərkən silahları yerli hökumətə versə də, Xəlil bəyin rəhbərliyi ilə 5 zabit və 300 əsgərini də burada saxladı (81, s. 61). Azərbaycanın istiqlaliyyətinin möhkəmləndirilməsinə öz töhfəsini verən, ərazi bütövlüyümüzün qorunmasına ciddi yardım göstərən türk ordusu bu yolda 30 zabitini, 1100 əsgərini qurban vermişdi.

Daşnaklar Mudros müqaviləsinə əsasən türk ordusunun gec-tez bölgəni tamamilə tərk edəcəyini bildiklərindən hərbi əməliyyatlara başlamaq üçün ciddi hazırlıq aparırdılar. Onlar bölgəni idarə etmək üçün Millətlər Cəmiyyətindən mandat almış İngiltərəni özlərinin əsas himayəçisi hesab edir, Osmanlı qüvvələrinin getməsindən sonra yerli əhalinin uzun müddət müqavimət göstərə bilməyəcəyini anlayırdılar. Qarsdan Osmanlı hərbiyyə nəzarətinə göndərilən şifrəli teleqramda yazılırdı ki, «erməni Yapon 1200 nəfərədək qüvvə ilə 5 dekabr 1918-ci ildən etibarən Naxçıvan ətrafındakı müsəlmanlara divan tutmağa başlamışdır. Naxçıvanın 40 km şimalındakı Almalı mahalında 516 kişini qətlə yetirdikdən və gənc qadınları ayırdıqdan sonra 2000 nəfəri toplayaraq qətlə yetirdilər, 40 qadın və uşağı həbs etdilər» (81, s. 61). Dəhnə istiqamətində müsəlmanlarm hərbi qüvvəsi 4 minə çatırdı. Naxçıvandan Arslan Həsən bəyin rəhbərliyi ilə 500 nəfərlik hərbi qüvvə Şərurda qətl və qarət törədən ermənilərə qarşı göndərilmişdi (39, s. 90-91).

Bəzi ərazilərin ermənilərin nəzarətinə keçməsi əhali

arasında təlaşa səbəb olmuş, əhalinin Naxçıvan şəhərini tərk etməsinin qarşısını almaq üçün noyabrın 25-də şəhərdə hərbi vəziyyət elan olunmuşdu. Lakin əslində əhalinin qaçması üçün elə bir yer də qalmamışdı. Belə ki, İran ermənilәri buraya pənah aparan azərbaycanlıları Naxçıvana geri qayıtmağa məcbur edirdilər. Zəngəzurun erməni vəhşiliyi ilə üz-üzə qalmış əhalisinin sağ qalan hissəsi Naxçıvana və Gəncəyə sığınırdı. Zəngəzurda və Qarabağda qanlı cinayətlərini davam etdirən Andranik Naxçıvanı yenidən eyni aqibətlə hədələyirdi. Bir neçə kənddə bütün Zəngəzur qəzasının daşnak hökumətinin tabeliyinə keçdiyi barədə elanlar asılmışdı. Bununla onlar, qüvvələri çatarsa, Zəngəzur, Şərur, Naxçıvan və Ordubad qəzalarının bütün müsəlmanlarını məhv etmək, bu qəzaları müsəlmanlardan «təmizləmək» məqsədi güdürdülər. Ermənilər bununla gələcəkdə sülh konfransında bu yerlərə öz hüquqlarını irəli sürmək və onları Ermənistan ərazisi elan etmək istəyirdilər, belə ki, müsəlmanlardan azad edilmiş qəzaları bütün xalqlar erməni əraziləri kimi tanıyırdılar (151, s. 117).

Naxçıvan və Ordubad sakinləri adından AXC Daxili İşlər Nazirliyinə göndərilən 28 dekabr 1918-ci il tarixli teleqramda deyilirdi ki, İrəvandan 25 min nəfərlik erməni birləşmələri Sədərəyi keçərək 8 müsəlman kəndini mühasirə etmiş, əhalinin silahlarını əllərindən almışdır, Naxçıvan və Şərur əhalisi İrana qaçmağa hazırlaşır, 200 nəfərdən artıq adam Arazı keçərkən tələf olmuşdur. Zəngəzur erməniləri bizə hücum etmişlər; əgər İrəvan quberniyasına kömək göndərməsəniz, o, ermənilərin hücumundan məhv olacaqdır (6, iş 65, v. 127). Ermənilərin Naxçıvan bölgəsinə 1918-ci ilin dekabr ayının 14-də başlayan yürüşü ağır nəticələrə səbəb oldu. Yürüş nəticəsində İqdır, Qəmərli, Dərələyəz və Uluxanlı bölgəsinin müsəlman əhalisi öz

yurdlarından didərgin düşmüş, Qəmərlidə 48, Vedibasarda 18, Dərələyəzdə 74, Şərurda 7 kənd yandırılmış, əhali ağır məhrumiyyətlərə düçar olmuşdu. Osmanlı ordusunun köməyindən, demək olar ki, tamamilə məhrum olduqdan sonra ən ümidsiz günlərini yaşayan Naxçıvan əhalisi Təbrizə – İran vəliəhdinə kömək üçün müraciət edirdi. Təbii ki, bu, sırf təhlükəsizlikdən doğan tələşla bağlı olub heç bir hüquqi-siyasi mahiyyət daşımırdı. Digər tərəfdən bu addım AXC ilə əlaqənin çox zəif olması ilə bağlı idi.

Azərbaycan parlamentinin 1918-ci il dekabrın 7-də açılış mərasimində iştirak edən Araz-Türk Respublikasının nümayəndəsi P.Bayramov irəvanlıların Yardım Cəmiyyəti yaratmalarına, cəmiyyətin Naxçıvan bölgəsi əhalisinə maddi yardım göstərməsinə, eyni zamanda Azərbaycan hökumətinin Araz-Türk Respublikasına müdafiə qüvvələrinin təşkili üçün 1 milyon rubl ayırmasına nail olmuşdu. 1919-cu il yanvarın 25-də Cəfərqulu xanın başçılığı ilə qurulan Naxçıvan Milli Şura hökumətinin xarici işlər komissarı Bəhram xan Tiflisdə olarkən vəsaiti gətirənlərdən pulu tələb edərək Naxçıvana özü gətirmək istədi. Onunla Azərbaycan parlamentinin üzvü Camalbəyov arasında bu məsələdə yaranan narazılıq vəsaitin Bakıya qaytarılması ilə nəticələnmişdi.

Araz-Türk hökumətinin müvafiq müraciətindən sonra ermənilərlə azərbaycanlılar arasında sülh yaratmaq üçün bölgəyə gələn İran nümayəndə heyəti Naxçıvan təmsilçiləri Hacı Mirbağır ağa, Heydərqulu bəy və Cəfərqulu xanla birlikdə dekabrın 24-də İrəvana getdilər. Lakin Dəmirçi və Quşçu kəndlərini işğal edərək qüvvələrini bu kəndlərdə cəmləşdirən erməni komandiri Doluxanov naxçıvanlı nümayəndələri həbs edərək Noraşen və Yengicə kəndlərinə hücum əmri verdi. Həmin gün Kalbalı xanın və

Məşədi Ələsgər ağanın başçılıq etdikləri könüllü dəstələri Maxta və Dəmirçi kəndlərini ermənilərdən azad edib bir gün sonra Qurd qapısında (Dəhnə boğazında) düşmənə ağır zərbə vurdular. Doluxanov hücumun istiqamətini Vedinin Qaralar, Qabqıran, Şirazlı, Reyhanlı, Əfşar kəndlərinə yönəltsə də, uğur qazana bilməyib Dəvəlidəki mövqeyinə çəkildi.

Nuru paşanın 3 noyabrda verdiyi, lakin dekabrın 20-də Naxçıvana çatan əmrə əsasən Xəlil bəy kiçik leytenant Xəlil İbrahim əfəndini öz yerinə təyin edərək (3, s. 134) 1919-cu il yanvarın 5-də tabeliyində olanlarla birlikdə Naxçıvanı tərk etdi. Lakin o, Türkiyədə qısa müddət qalldıqdan sonra yenidən Naxçıvana qayıtmışdı. Belə bir şəraitdə faciəli hadisələr, bölgənin müdafiəsinin zəif təşkili, eyni zamanda Naxçıvandakı yerli hökumət nümayəndələri arasındakı intriqalar Araz-Türk Respublikası hökumətinin xalq arasında dayaqlarını itirməsi ilə nəticələndi. 1918-ci il noyabrın 30-da II Qars konfransında Qars Müsəlman Şurasının sədri seçilən Araz-Turk hökumətinin hərbi naziri İ.Cahangiroğlunun Naxçıvanı tərk edərək Qarsa getməsi ilə Araz-Türk Respublikası əslində fəaliyyətsiz qaldı. 1919-cu il yanvarın 17-dən 18-ə keçən gecə Qarsda Esat Oktay bəyin başçılığı ilə toplanan böyük konqresdə (III Qars konfransında) Axıska, Axalkələk, Ərdahan, Oltu, Kağızman, İqdır, Şavşat, Qəmərli, Naxçıvan, Ordubad, Qars və Batumu əhatə edən Cənub-Qərbi Qafqaz Cümhuriyyəti təşkil edildi.

Azərbaycan hökuməti Naxçıvan diyarına əsaslı kömək edə bilməsə də, bölgədəki vəziyyət barədə tam məlumatlı idi. Dro, Selikov, Aram paşa, Dəli Qazar, general Araşev və digərlərinin başçılıq etdikləri erməni silahlı dəstələri İrəvan, Naxçıvan, Sürməli və Qazax qəzalarında 350-dən çox kəndi yandırmış, xeyli adamı qətlə yetirmiş-

dilər. Araz Türk Respublikası məclisinin bir qrup üzvü tərəfindən Azərbaycan parlamentinə göndərilən məlumatda deyilirdi: «Birləşmiş erməni qoşunları Sürməli, İrəvan, Eçmiədzin və Şərur qəzalarının müsəlmanlar yaşayan hissələrini tutaraq dağıtmış və Naxçıvan istiqamətində hərəkət edirlər. Bununla da dinc əhalinin bir qismi qılıncdan keçirilir, canlarını qurtaranlar isə Arazı keçərkən boğulub ölürlər». Azərbaycan parlamenti bu məsələyə 1919-cu il yanvarın 8-də keçirilən iclasında baxmış, hökumətə müvafiq tədbirlər görülməsini tapşırmışdı.

1919-cu il yanvarın 14-də Zəngəzurdakı erməni köçkünlərinə maddi yardım edən İngiltərə nümayəndəsi V.Hibbonun və yanvarın 18-də kapitan F.Lautonun Naxçıvana gəlişində ilk baxışda əsas məqsəd həm qaçqınlar məsələsini həll etmək, həm də ermənilərlə Naxçıvan əhalisi arasında asayişi bərpa etmək idi (3, s. 148-152). Lakin əslində ermənilərin işğalı altında olan torpaqlardan didərgin düşmüş azərbaycanlıların taleyi ilə maraqlanmayan «ingilisləri düşündürən yaşaya biləcək bir Ermənistan» yaratmaq idi. Buna görə də 1919-cu il yanvarın əvvəllərində V.Hibbonun Naxçıvana gəlişində əsl məqsəd diyarın iqtisadi və siyasi vəziyyəti ilə tanış olmaq, Araz Respublikası silahlı qüvvələrinin vəziyyətini, bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdur. Təsadüfi deyildi ki, «Naxçıvan ərazisində ingilis general-qubernatorluğu elan edildiyi gün respublikanın daxili vəziyyətinin sabitliyi ciddi surətdə pozulmuşdu. Naxçıvan əhalisini erməni təcavüzündən layiqincə qoruya bilməyən Əmir bəy hökumətinin zəifliyi də buna imkan yaradırdı» (50, s. 53).

İngiltərənin bölgədəki nümayəndələri «Naxçıvanı işğal etdikdə Araz-Türk Respublikasına Türkiyə tərəfindən yaradılmış qurum kimi baxaraq onu tanımaq istəmədilər»

(53, s. 9). Lauton hətta Naxçıvan hökumətinin başçısı Cəfərqulu xana ermənilərin öz yaşayış yerlərinə qayıtmalarını və onlar üçün Şərurdan min pud taxıl buraxılmasının təmin olunmasını təklif etmişdi. Cəfərqulu xan Azərbaycan hökuməti nümayəndələri ilə müzakirədən sonra birinci təklif (ermənilərin öz yaşayış yerlərinə qayıtması) haqqında demişdi ki, bu məsələ Paris sülh konfransında müzakirə olunanadək təxirə salınmalıdır. Taxıl isə yerli əhaliyə ehtiyac olan neft və şəkərlə dəyişdirilə bilər. Naxçıvanda yerli hökumət rəhbərləri ilə danışıqlarda Lauton Britaniya qoşun hissəsinin Dəvəli, Naxçıvan, Culfa və Şahtaxtıda yerləşdirilməsi, bu yerlərdə bütün məsələlərin ingilis hakimiyyət orqanları tərəfindən həll edilməsi barədə danışıqlar da aparmışdı. Naxçıvan rəhbərləri yerli muxtariyyəti saxlamaq şərtilə ingilislərin şərtlərini qəbul etmiş və hətta ingilislərin mövqeyində duran bir neçə yerli xadimi öz hökumətlərinin tərkibinə daxil etmişdilər (88, iş 67, v. 24-26).

İngilislərin mövqeyi əhali arasında Naxçıvanın erməni idarəçiliyinə veriləcəyi barədə əsaslı şübhəyə və hiddətə səbəb olmuşdu. Naxçıvan Müsəlman Milli Şurası Cəfərqulu xanın və digərlərinin imzası ilə Naxçıvan, Sürməli, İrəvan, Eçmiədzin müsəlmanları adından Naxçıvan-Şərur diyarının ingilis general-qubernatoruna göndərdiyi 26 fevral 1919-cu il tarixli notasında qeyd edilən bölgələrin müsəlmanlarının bir gün əvvəlki yığıncaqlarında «özlərinin və gələcək nəsillərinin mənafeyi naminə Azərbaycan Respublikası ilə birləşmək qərarına» gəldiklərini bildirirdi (114, s. 26, 358-359). Azərbaycan hökuməti Naxçıvanı nəzarət altına qaytarmaq və bölgənin müdafiəsini daha səmərəli təşkil etmək üçün 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğunun yaradılması barədə qərar qəbul etdi. Bəhram xan Naxçıvanski bölgənin general-

qubernatoru vəzifəsinə təyin olundu. Naxçıvana real hərbi qüvvə göndərmək imkanı olmayan Azərbaycan hökuməti bu istiqamətdə diplomatik mübarizəni gücləndirirdi. Rəsmi Bakı Parisə göndərdiyi sülh nümayəndə heyətinin rəhbəri Ə.Topçubaşova göndərdiyi 14 mart 1919-cu il tarixli məktubda yazırdı: «Batum və Qars vilayətlərindən yaranan Cənub-Qərbi Qafqazın müstəqilliyinin müdafiəsinə nail olun. Qarabağı, Naxçıvanı, Sürməlini ermənilərin iddialarından müdafiə edin» (140, s. 71).

Lakin bu tədbir nəinki ingilis-erməni planlarının qarşısını aldı, əksinə, onlar bölgəni Azərbaycandan qoparmaq üçün daha fəal hərəkətə başladılar. Lauton Naxçıvan hökumətinə bölgənin qəti surətdə erməni işğalına verilməyəcəyi barədə söz versə də, İrəvandakı ingilis generalı Esserin mart ayının əvvəllərində Naxçıvanda «türklərin ermənilərə qarşı işlədiyi cinayətləri» araşdırmaq üçün xüsusi komissiya yaratması (3, s. 157) başqa məqsədlərdən xəbər verirdi. İngilislər hətta açıq-aşkar təhrikçi hərəkətlərə də yol verirdilər. Şərurdakı hərbi qüvvələrin komandiri Məşədi Ələsgər Həmzəzadə Kalbalı xana göndərdiyi məlumatda Xanlıqlar kəndində baş verən cinayətləri və Baş Noraşendə yanğını törədənlərin ingilis əsgərləri olduğunu bildirir və bu məlumatın əhali tərəfindən də təsdiqləndiyini göstərirdi. Bakıdakı ingilis qoşunlarının komandanı Tomson martın 28-də İrəvanda apardığı danışıqlar zamanı bildirmişdi ki, ermənilər Qarabağ və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, o, Qars və Naxçıvanın ermənilərin nəzarətinə verilməsinə kömək edəcəkdir. AXC-nin İrəvandakı diplomatik nümayəndəsi M.Təkinskinin 1919-cu il aprelin 20-də Bakıya göndərdiyi teleqramda yayılan xəbərlərə görə, ingilislərin Qars, Şərur və Naxçıvanı ermənilərə verdiklərini yazır, bunun doğru olacağı təqdirdə bütün islam aləmi, o cümlədən Paris sülh

konfransı qarşısında etiraz olunmasını zəruri hesab edirdi (9, iş 57, v. 27).

Ermənilər artıq ingilislərin himayəsi altında Naxçıvanda əhaliyə qarşı qırğınlar törətməyə başlamışdılar. Erməni dəstələri yolları üzərindəki bir neçə azərbaycanlı kəndini yer üzündən sildilər. Ordubad ətrafında özünü «qəza rəisi» elan etmiş Aşot Movsesyansm dəstəsi ağalıq edirdi. Hər gün 5-10 nəfər «erməni qaniçənliyinin qurbanı» olurdu. Belə bir vəziyyətdə Naxçıvanda Lautonu əvəz edən ingilis zabiti Simpson dərhal bölgənin erməni idarəçiliyinə verilməsi üçün hazırlıq işləri görməyə başladı. İngiltərə və Antanta əleyhinə danışanların cəzalandırılacağı, elan olundu, Vedi və ətraf ərazilərin əhalisinin tərksilah olunmasına başlanıldı, polkovnik H.Ququşovun rəhbərlik etdiyi Azərbaycan zabitləri Naxçıvandan çıxarıldı, Vedinin ermənilərdən qorunmasında misilsiz rəşadət göstərmiş A.Şadlinski aldadılaraq İrəvana aparıldı və ermənilərə təslim edildi (o, sonradan Vediyə qayıda bilmişdi). Tomsonun işğalçı daşnak rejiminin rəhbəri Xatisyanla aprelin 30-dakı görüşündə razılaşdırılmışdı ki, ingilis-erməni qoşunlarının Naxçıvana yürüşünə general Devi nəzarət edəcəkdi.

Bütün bunlar İngiltərənin bölgədəki siyasətinin qondarma erməni dövlətinin möhkəmləndirilməsinə və onun işğalı altında olan ərazinin genişləndirilməsinə xidmət etdiyinin ifadəsi idi. Elə mayın 3-də Naxçıvanın işğalçı Daşnak rejiminin idarəçiliyinə verilməsi haqqında bəyanatı da Dro və general Devi imzalamışdılar. M.Təkinskinin, Naxçıvan əhalisinin və yerli Milli Komitənin bütün etirazlarına baxmayaraq diyarın erməni idarəçiliyinə verilməsi reallaşdı və Bakıda yaşayan erməni Gevorq Varşamyan Naxçıvanın hərbi valisi təyin olundu (3, s. 158-175).

M.Təkinski 1919-cu il iyunun 11-dən Bakıya göndər-

diyi teleqramda xəbər verirdi ki, «Bakı və Batumu tərk etmək fikrində olmayan» ingilis qoşunu İrəvandan getmişdir. İngilislər ermənilərin tam hökmranlığına imkan yaratmaq üçün Naxçıvanı tərk etdilər (50, s. 72). İngilislərin bölgədəki fəaliyyətlərinin nəticəsi belə oldu ki, «daşnaklar 1918-ci ildə Qars vilayətini, İrəvan quberniyasının bir hissəsini müttəfiqlərdən alaraq Ermənistanın ərazisini 17500 ingilis kv. milinə, əhalisini 1510000 nəfərə (795 min ermənilər, 575 min müsəlmanlar, 140 min başqa millətlər) çatdırdılar. Azərbaycanla uzunmüddətli və qanlı müharibə... nəticəsində mübahisəli rayonların əhalisi 10-30 faiz azalmış, bir sıra kəndlər, sözün əsl mənasında, yerlə-yeksan edilmişdir» (26, s. 132).

Bununla belə, ingilislər Naxçıvanı bütünlüklə erməni idarəçiliyinə verə bilmədilər. Bu dövrdə Şərurda Məşədi Ələsgər ağa, Naxçıvanın şimal hissəsində Bəhram xan Naxçıvanski, Ordubadda isə Səmədbəyov yerli idarəçiliyi öz əllərinə almışdılar. Digər tərəfdən Naxçıvanı işğal etmiş daşnak rejimi vəziyyətə tam nəzarət edə bilmir, əhali ilə ehtiyatla davranırdı. Azərbaycan hökuməti Naxçıvan məsələsi ilə bağlı konkret müdafiə tədbirləri görə bilməsə də, özünün İrəvandakı səfiri vasitəsilə bəzi məsələləri həll etməyə çalışırdı. M.Təkinski Naxçıvanın mayın 3-ə planlaşdırılan işğalı barədə öz hökumətini əvvəlcədən xəbərdar etmişdi. İyunun 8-də AXC Xarici işlər naziri M.Y.Cəfərov Bakıdan göndərdiyi teleqramda onun Naxçıvanla əlaqə yaratmaq barəsindəki səylərini alqışlayır, regionun hərbi xərcləri üçün vəsait verilməsinə razı olduğunu bildirirdi (50, s. 72). «Azərbaycan» qəzeti 23 iyun 1919-cu il tarixli sayında ingilislər bölgəni tərk etdikdən sonra Azərbaycan hökumətinin 200 min hərbi sursatı, 300 min rus rublunu İranın şimalı vasitəsilə Naxçıvana çatdırması barədə məlumat vermişdi. M.Təkinski iyunun 13-də İrəvan-

dan göndərdiyi teleqramda Şərur-Naxçıvan bölgəsində ermənilərə qarşı 6 min nəfərədək qüvvənin cəmləşdiyini, lakin onların təchizat məsələsinin çox çətin olduğunu yazırdı (88, iş 74, v. 167-171).

Ermənilərin Naxçıvanı, müvəqqəti də olsa, işğal etmələrinin qarşısını almaq mümkün olmadı. 1919-cu il may ayının ortalarından iyulun sonlarınadək – təxminən iki aylıq müddətdə Naxçıvan bölgəsində erməni idarəçiliyi mövcud oldu. Bu müddətdə işğalçılar nəinki bölgəni tam nəzarətə ala bildilər, əksinə, qəhrəman naxçıvanlılar onları ermənilərə tabe olmağa dəvət edən şəxsləri nifrətlə qarşılayıb silaha sarıldılar. Bunu bəhanə edən daşnaklar silahları yığmaq bəhanəsilə kəndlərə hücuma keçir, qarətlə məşğul olur və qırğın törədirdilər. Naxçıvan və Şərur ətrafındakı 45 kənd erməni əsgərlərinin təcavüzünə məruz qalmış, dəmiryoluna yaxın bölgələr zirehli vaqonlardan atəşə tutulmuş, əhali məhv edilmişdi. Daşnaklar Naxçıvanda və Şərurda bircə nəfər belə müsəlman qalmayanadək əhalini qıracaqları və ya Araz çayına tökəcəkləri barədə qərar qəbul etmiş, hətta Şərur əhalisini Araz çayına tökmək daşnakların üçüncü alay komandanlığına tapşırılmışdı (133, s. 166).

Ermənilərin Naxçıvandakı qısamüddətli idarəçiliyi bölgə əhalisi üçün əsl fəlakətlə nəticələndi. «Bölgənin müxtəlif yerlərində çoxlu özbaşınalıqlar və qanunsuzluqlar törədildi. Heç bir əsas və səbəb olmadan axtarışlar aparıldı, «köçüb-getmiş ermənilərinkidir» bəhanəsilə külli miqdarda əmlak müsadirə edildi, bir sıra nüfuzlu şəxslər islamçı və türkçü adı altında həbs olundu, xeyli adam işgəncələrdən və tutulmaqdan qurtulmaq niyyətilə ev-eşiyindən qaçaq düşdü. Naxçıvan Müsəlman Milli Şurasının hesablamalarına görə, bəzən gün ərzində yalnız Naxçıvan şəhərində 10-15 axtarış və həbs hadisəsi baş verirdi.

Bütövlükdə erməni idarəçiliyi dövründə təkcə Naxçıvan şəhərində 330-dək axtarış aparılmış, 500-600 nəfər həbs olunmuş, 100-150 nəfərə isə işgəncə verilmişdi. Nə bu şəraitin yaranmasında bilavasitə mühüm rol oynamış bölgədəki Britaniya nümayəndəliyinin, nə də M.Təkinskinin əsassız həbsləri və axtarışları dayandırmaq barədə səyləri uğurla nəticələnməmişdi (81, s. 164-166). Ermənilər Gümrü və Naxçıvan cəbhələrində bir sıra müsəlman kəndlərini işğal edərək 4 minədək müsəlmanı vəhşicəsinə öldürmüşdülər (123, I c., s. 348).

İyulun 25-i ermənilərin Naxçıvan şəhərindən qovulubçıxarılmasında mühüm tarixi gün oldu. İrəvan-Culfa dəmiryol xətti boyu gərgin döyüşlər getdi. Şahtaxtı stansiyasındakı erməni qarnizonu ilə daşnak dəstə komandiri Yaponun silahlı qüvvəsi də dağıdıldı. Naxçıvanlılar 42 pulemyot, 4 top, zirehli qatar və xeyli silah-sursat ələ keçirdilər. Ermənilərin 8 zabiti və 800 əsgəri əsir alındı (35, s. 67). Yalnız erməni qarnizonun qərargahı hərbi rəis Qarakeşişovla birlikdə qaça bildi. Bunun ardmca Xanlıqlar kəndi döyüşsüz təslim oldu, 5 daşnak zabiti, 195 əsgər əsir, 600 tüfəng qənimət kimi götürüldü. Başqa bir mənbə (123, I c., s. 1045) ermənilərin 400 nəfər itki verdiyini, 5 daşnak zabitinin, 213 əsgərin əsir alındığını qeyd edir. Ermənilərin Vedi üzərinə növbəti yürüşü onların özlərinin 4 min nəfər itki verməsi ilə başa çatmışdı (7, iş 80, v. 42-43). Beləliklə, Naxçıvan əhalisinin iyulun 18-dən 25-dək ermənilərə qarşı apardıqları inadlı silahlı mübarizə işğalçıların bölgədən qovulması ilə nəticələndi.

Qərbi Azərbaycandakı işğalçı daşnak rejiminin ilk baş naziri olmuş O.Kaçaznuni 1923-cü ildə yazırdı: «Azərbaycanla az-çox qəbul edilə bilən «modus vivendi» (maraqlı tərəflərin qarşılıqlı qəbul etdikləri münasibətlərin mövcud vəziyyəti – E.C.) yarada bilmədik, müsəlman rayonlarda

inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq, lakin uğursuzluğa uğradıq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə hətta silah gücünə öz hakimiyyətimizi qura bilmədik, məğlub olduq və geri çəkildik» (bax: 63). Bütün bu uğurların qazanılmasında iyulun 18-19-da yenidən Naxçıvana qayıdaraq diyarın müdafiəsinin təşkilində, 1918-ci ildə olduğu kimi, böyük rol oynamış Xəlil bəyin başçılığı ilə türkiyəli hərbçilərin mühüm xidmətləri olmuşdu.

1919-cu ilin avqustunda AXC Nazirlər Şurası Səməd bəy Cəmillinskini Cənub-Qərbi Azərbaycanın (Naxçıvanın) general-qubernatoru təyin etdi. 1919-cu il avqustun 5-də onun sərəncamına Qarabağ general-qubernatoru tərəfindən 1 milyon manat vəsaitin ayrılmasından sonra Səməd bəy Naxçıvanda, Ordubadda, Şərurda yaranması zəruri olan dövlət idarələrinin açılmasına və onların fəaliyyət göstərməsinə nail oldu. O, məlum səbəblərdən bir müddət öz iqamətgahını Ordubadda saxlamağa məcbur olsa da, tezliklə Naxçıvan şəhərinə köçdü.

1919-cu ilin avqust ayı Naxçıvan bölgəsinin erməni işğalından azad edilməsində, bölgənin Azərbaycan hökumətinin yurisdiksiyası altına qaytarılması yolunda mühüm bir dövr olsa da, ingilislərdən sonra ABŞ-ın bölgə üzərində Millətlər Cəmiyyətinin mandatını alması Qərbi Azərbaycan torpaqlarında yeni situasiyanın yaranmasına səbəb oldu. 1919-cu il avqustun 28-də Bakıya gələn ABŞ ordusu Baş qərargahının polkovniki Vilyam Haskel (o, 1919-cu ilin iyulunda Antantanın Ermənistanda (Qərbi Azərbaycanda) ali komissarı təyin edilmişdi) Nazirlər Şurasının sədri N.Yusifbəyli ilə söhbətində «Qarabağın, eləcə də Zəngəzurun qəti olaraq Azərbaycana keçməsini zəruri saydı»ğını bildirdi. Lakin o, eyni zamanda Şərur və

Naxçıvandan ibarət neytral zona (bəzi sənədlərdə «müttəfiq zona») yaradılması məsələsini ortaya atdı. Onun fikrincə, bu zonada başda amerikan qubernatoru olmaqla müttəfiq idarəçilik sistemi tətbiq olunmalıydı.

Naxçıvanın erməni işğalından müdafiəsində mühüm xidmətlər göstərmiş general Veysəl Ünüvar 1948-ci ildə İstanbulda Naxıçvanla bağlı çap etdirdiyi xatirələrində Haskelin aşağıdakı şərtləri irəli sürdüyünü bildirir: «1. Naxçıvan, Şərur bölgələri bitərəf elan ediləcək. Bu bölgə bir amerikalı baş valinin idarəsində olacaq, yerli vəzifə sahiblərini bu vali təyin edəcək; 2. Azərbaycan və Ermənistan bu bölgədəki məmurlarını, əsgərlərini və araqızışdıranlarını geri çəkəcək; 3. Böyük Vedi müsəlman kəndinin əhalisi bitərəf bölgədə baş valinin münasib bildiyi bir yerə köçürüləcək» (46, s. 23).

Şərtlərdən də göründüyü kimi, Haskelin məqsədi əvvəlcə Qərbi Azərbaycanda A.Şadlinskinin başçılığı ilə rəşadətlə müdafiə olunan Vedini boşaltmaq, bitərəf zona yaratmaq adı altında sonradan Naxçıvan və Şərurun da ermənilərin işğalı altına verilməsi planını həyata keçirmək idi. Lakin Azərbaycan hökumətinin başçısı N.Yusifbəyli amerikalıların əsl məqsədini başa düşdü və məsələni parlamentin müzakirəsinə verməyi vəd edərək bir sıra prinsipial şərtlər irəli sürdü: neytral zonada Azərbaycan pulu (bonu) işlədilməli, zona Ermənistanın bütün təsirlərindən kənarda olmalı, erməni silahlı qüvvələri zonaya buraxılmamalı və s. (63) Bütün bunlardan sonra Haskelin təklif etdiyi şərtlərin həyata keçirilməsinin qarşısı alınması istiqamətində fəal tədbirlərin görülməsinə başlanıldı.

Avqustun 21-də İrəvanda Haskellə görüşməyə nail ola bilməyən Naxçıvan, Ordubad, Şərur, Sürməli, Millistan və Vedibasar nümayəndələri Tiflisdə yığıncaq keçirərək 10 benddən ibarət (Naxçıvan diyarının Azərbaycanın tər-

ibində saxlanılması, bölgəni Azərbaycanın əsas hissəsi ilə birləşdirən Zəngəzurdan keçən yolun açılması, İrəvandan geri çağırılmış M.Təkinskinin yerinə yeni səfir təyin olunması, Qərbi Azərbaycandan qovulan müsəlman əhalinin Azərbaycanın digər ərazilərində, ilk növbədə Naxçıvan bölgəsində yerləşdirilməsi və s.) sənədi sentyabrın 9-da AXC Nazirlər Şurasının sədrinə göndərdilər (12, iş 58, v. 40-43). Bu bölgənin özünü rəsmi olaraq AXC-yə tabe hesab etdiyinin ifadəsi kimi çox mühüm bir addım idi.

Haskelin oktyabrın 1-də Naxçıvana gələn nümayəndəsi general Robenzonla S.Cəmillinski, Xəlil bəy və Kalbalı xanın apardığı danışıqlar zamanı (12, iş 58, v. 128) Kalbalı xan ona yerli qubernatorluq yaradıb onu Antantanın Cənubi Qafqazdakı Ali komissarına tabe etməyi təklif etmiş, lakin Haskelin nümayəndəsi buna etiraz etmişdi. V.Haskel Parisə qayıtdığı üçün onun AXC hökuməti ilə bəhs olunan məsələ barəsindəki danışıqlarını 1919-cu il oktyabrın 18-də Bakıya gələn müttəfiq qoşunların Ali Komissarlığının qərargah rəisi Ceyms Rey davam etdirdi. N.Yusifbəyli bir qədər ehtiyatlı tərpənərək, Naxçıvan və Şərurun neytral zona elan edilməsinə prinsipcə etiraz etməsə də, C.Reyə bunun Azərbaycanın mənafeyinə uyğun olmadığını, bu işdə fəal iştirak etməyə hökumətin xalq qarşısında hüququnun olmadığını bildirmişdi (63).

C.Reyin Naxçıvana səfəri zamanı yerli hakimiyyət nümayəndələri ilə apardığı gərgin danışıqlardan sonra V.Haskelin əmri ilə oktyabrın 24-də bölgədə Amerika general-qubernatoru kimi fəaliyyətə başlamalı olan polkovnik Edmund Delli son nəticədə Naxçıvanda Paris sülh konfransının nümayəndəsi kimi işə başladı. «General-qubernatorun funksiyalarını yerli müsəlman liderlərinə izah etməyə və onların təhlükəsizliyini təmin etməyə çalışan Amerika rəsmi zabitinə deyildi ki, Şərur-Dərələyəz,

Naxçıvan və Vedibasar Azərbaycanın ayrılmaz hissələri olmuşdur və yalnız Azərbaycan qanunları altında fəaliyyət göstərəcəkdir». Onlar amerikalı qubernatoru deyil, nümayəndəni qəbul edəcək və bütün dinlərdən olan qaçqınlara Amerika yardımını alqışlayacaqlar. Lakin başa düşülməlidir ki, «əgər bizim istəyimizin əleyhinə olaraq kimsə torpaqlarımızı Ermənistana verməyə cəhd göstərərsə, biz onu özümüzə düşmən hesab edəcəyik; biz onu əlimizdə silah olaraq qarşılayacaq və bizim düşmənlər yalnız meyitlərimizin üstündən adlayaraq evlərimizə girə bilərlər» (100, s. 210). Xalqın tələbi ilə Delli bölgəyə gəlmiş amerikalı zabitləri İrəvana göndərdi və ermənilərin təkliflərinə məhəl qoyulmadı. Bir müddət sonra polkovnik Delli, 1920-ci ilin yanvarında isə bütün amerikalı zabitlər Naxçıvanı birdəfəlik tərk etdilər (9, iş 65, v. 121).

Beləliklə, Azərbaycan rəhbərliyinin, yerli hakimiyyət nümayəndələrinin, xüsusən Naxçıvan əhalisinin, birgə gərgin mübarizəsi nəticəsində bölgənin yenidən ermənilərin əlinə keçməsinə şərait yaradacaq daha bir planın – Naxçıvanda Amerika general-qubernatorluğu yaradılması planının qarşısı qətiyyətlə alındı.

Bölgəyə səfər edən ABŞ hərbi nümayəndələrinin ingilis həmkarları ilə müqayisədə hadisələrə daha təmkinli yanaşmalarına baxmayaraq Naxçıvanda əvvəlcə ingilis, sonra isə Amerika general-qubernatorluğunun yaradılması istiqamətində görülən işlər tarix boyu Azərbaycana məxsus olmuş bu diyarın işğalçı daşnak rejiminin təsiri altına salınmasına cəhddən başqa bir şey deyildi. Şübhəsiz ki, burada müharibədən qalib çıxmış Antanta dövlətlərinin Cənubi Qafqaz kimi strateji bölgədə, xüsusən Rusiyada sovet rejiminin qurulduğu, Türkiyədə isə milli azadlıq hərəkatının başlandığı bir tarixi mərhələdə, qlobal maraqlarının da olduğu danılmaz fakt idi. Lakin bu ölkələr öz

maraqlarını Türkiyə ilə düşmən mövqedə olan, sovet Rusiyasına isə mənfi münasibət bəsləyən daşnak rejiminin hesabına, həm də onun tələblərini ödəyərək təmin etmək istəyirdilər.

Bu baxımdan rəsmi sənədlər İngiltərənin bölgədəki maraqlarının nədən ibarət olduğunu sübut edir: «Lord Kerzondan cənab Uordropa. 11 aprel 1920. ... Poqos Nubar paşa və cənab Ağaronyan məni ziyarət etməyə gəldilər, onları axmaq hərəkətlərinə görə tənbeh etdim. Türkləri öldürmək üçün verdiyimiz silahların azərbaycanlılara qarşı istifadə olunmasının axmaqlığını anlatdım. Əgər belə intizamsızlıq edib qonşularına təcavüz edərlərsə, Millətlər Cəmiyyətinin onları tanımayacağını anlatdım» (135, s. 114). Bu teleqram İngiltərənin antitürk planlarında ermənilərdən fəal şəkildə istifadə etdiyini, daşnakların isə ingilis siyasətindən maksimum bəhrələnməyə çalışdıqlarını sübut edir.

Naxçıvanda Amerika general-qubernatorluğunun yaradılması səylərinin genişləndiyi dövrdə, 1919-cu il oktyabr ayının ortalarında Naxçıvan general-qubernatoru S.Cəmillinski AXC-nin İrəvandakı səfiri vasitəsilə Bakıya məlumat verirdi ki, «Naxçıvan mahalının Vedibasardan Ordubadadək bütün sərhədləri boyu, xüsusilə də Zəngəzur qəzasında ermənilər tərəfindən bizim bölgəyə hücum üçün təcili hazırlıq görülür, İrəvandan Zəngəzura, Gorus istiqamətindən isə Naxçıvan və Ordubad sərhədlərinə toplar və başqa hərbi sursat gətirilir, nizami silahlı qüvvələr sərhədlərdə cəmləşdirilir» (9, iş 104, v. 2-3). 1919-cu il oktyabrın 1-ə olan rəsmi məlumata görə, təkcə İrəvan quberniyasından qaçqın düşən azərbaycanlıların sayı 39741 nəfərə (5848 ailə) (8, iş 3, v. 6) çatmışdı. C.Rey bir qrup ABŞ hərbçisi ilə oktyabrın 24-də Naxçıvana gələrkən 50 minədək qaçqının yollarda ağır vəziyyətdə çadırlarda

qaldığının şahidi olmuşdu (3, s. 225). M.B.Məmmədzadə qaçqınların ümumi sayının 300 mini ötdüyünü, AXC Himayəçilik nazirliyinin bölgəyə ezam olunmuş nümayəndəsi T.Makinski isə öz məruzəsində regionda olan 150 min qaçqının 30-70 mininin Böyük Vedi, Naxçıvan və s. ərazilərdə cəmləşdiyini yazırdı (81, s. 215).

ABŞ hərbi ekspansiyasının bölgəyə daha ciddi nüfuz etməyə çalışdığı, Naxçıvanın neytral idarəçiliyə cəlb olunmasına cəhd göstərildiyi, V.Haskelin məhz İrəvanda Antantanın Ali komissarı vəzifəsini icra etdiyi bir vaxtda müttəfiqlərin bölgədəki nümayəndələri, təbii ki, nə Daşnak silahlı qüvvələrinin bu qədər geniş miqyaslı yerdəyişməsindən, nə də yol boyu səpələnmiş on minlərlə qaçqının məhz azərbaycanlılar olmasından xəbərsiz deyildilər. Sadəcə, amerikalılar da öz ingilis həmkarları kimi, bölgədəki siyasətlərində eyni məqsədə – daşnakların işğalı altında olan ərazilərin genişləndirilməsinə xidmət edirdilər.

Təsadüfi deyil ki, ABŞ senatoru Bora çıxışlarının birində «Birləşmiş Ştatlar bu məsələnin (Ermənistanın mandatı haqqında) müzakirəsini başlamazdan əvvəl Fransa və İngiltərə qoparılmış əraziləri Ermənistana qaytarmalıdır» (50, s. 95) demişdi. Əlbəttə, Amerikanın erməniləri himayə siyasətinin ifadəsi kimi, burada söhbət ermənilərdən «qoparılmış» hər hansı bir ərazidən deyil, tarixi Azərbaycan torpaqlarından, ilk növbədə Naxçıvandan gedirdi. ABŞ prezidenti V.Vilson hələ 1919-cu il mayın 14-də bəzi Anadolu vilayətlərini də əhatə edən müstəqil Ermənistanı Amerika mandatı altına alacağını açıqlamış, 1919-cu il avqustun 29-da Osmanlı hökumətinin Baş naziri Damad Fərid paşaya göndərdiyi notada Qafqazdakı ermənilərin müsəlmanlar tərəfindən öldürülmələrinə mane olunmayacağı təqdirdə Osmanlı imperiyasının türklərlə məskun ərazisi üçün sülh prinsiplərinin 12-ci maddəsi ilə tanınan

hökmranlığın geri alınacağını bildirmişdi. Halbuki həmin dövrdə Qafqaz Osmanlı idarəsi və hökmranlığı altında deyildi. Osmanlı idarəsi altında olan Şərqi Anadoluda isə artıq erməni əsilli kimsə qalmamışdı (141, s. 31). Ən əsası isə Qafqazda müsəlmanlar ermənilər deyil, öz havadarlarının, İngiltərə, Fransa və ABŞ-ın fəal himayəsi altında ermənilər azərbaycanlıları qırırdılar.

V.Haskelin və digər Amerika nümayəndələrinin Daşnak rejimindən Zəngəzurdakı hərbi əməliyyatlara son qoymasını ara-sıra tələb etmələri də Naxçıvanı özlərinin nəzarəti altında neytral zonaya çevirməyi asanlaşdırmağa, Azərbaycanı daha tez «dilə tutmaq» niyyətinə xidmət edirdi. Bu məsələnin başqa tərəfidir ki, ingilislərlə müqayisədə ermənilər ABŞ hərbçilərinin bölgədəki fəaliyyətlərindən o qədər də razı deyildilər. Görünür, daşnakların iddialarının böyüklüyü və bu iddiaların tələsik həllinə çalışmaları amerikalıların bölgədəki fəaliyyət imkanlarını məhdudlaşdırırdı. Digər tərəfdən 1919-cu ilin əvvəllərində ingilis fitnəkarlığına və hiyləsinə aldanaraq daşnak işğalı ilə üz-üzə qalmış Naxçıvan əhalisi ABŞ nümayəndələrinin istənilən təklifinə inadlı müqavimətlə cavab verirdilər. Nəhayət, Azərbaycan hökuməti də, əvvəlki dövrlərdən fərqli olaraq Naxçıvan diyarı üzərindəki hüquqlarının qorunması işinə daha ciddi yanaşırdı.

Hələ Naxçıvandakı könüllü dəstələri ilə daşnak rejiminin hərbi qüvvələri arasında gərgin mövqe döyüşlərinin getdiyi bir dövrdə, 1919-cu il noyabrın 23-də Tiflisdə C.Reyin vasitəçiliyi ilə Azərbaycanla daşnak rejimi arasında imzalanan 5 maddədən ibarət saziş əslində tərəflərə heç bir hüquqi öhdəlik yaratmayıb, «status-kvo»nu rəsmiləşdirirdi (81, s. 237-238). Sonrakı mərhələdə erməni rəhbərləri bu sazişlə istədikləri şəkildə manipulyasiya etməyə, mənafeləri tələb edəndə onu ciddi saymağa, əks

halda isə ona məhəl qoymamağa başladılar. Azərbaycan hökuməti isə heç bir məsuliyyət mexanizmi olmayan bu müvəqqəti sazişə sadiqliyini nümayiş etdirərək Zəngəzurdan öz hərbi qüvvələrini çıxardı ki, bu da ağır nəticələrə səbəb oldu.

Bundan istifadə edən daşnak rejiminin Zəngəzurda və ətraf ərazilərdə hərbi əməliyyatlara başlaması Naxçıvanda yenidən gərginliyin yaranmasına səbəb olmuşdu. Hamazaspın Zəngəzurun Oxçu kəndi ətrafında və Gığıdərəsi kəndlərindəki geniş miqyaslı hərbi əməliyyatları 1400 nəfər azərbaycanlının məhvi ilə nəticələnmişdi. Zəngəzurun dağıdılan dörd kəndinin – Oxçu, Pirdavdan, Şabadın və Atqızın 4000 nəfər əhalisindən cəmi 261 nəfəri qaçmaqla canını qurtararaq Ordubadın Dırnıs, Dəstə və s. kəndlərinə pənah aparmışdılar. Zəngəzurda və Qars vilayətində ermənilər tərəfindən 88 müsəlman kəndi dağıdılmış, 1820 ev yandırılmış və 131930 nəfər öldürülmüşdü (81, s. 230, 241-242).

Azərbaycanlı qaçqınların emosional vəziyyətdə ermənilərin yaşadığı Aşağı Əylis kəndinə gələrək onları buradan qovması və kənddəki evlərdə məskunlaşmasını Daşnak rejiminin Xarici işlər nazirliyi AXC-nin müvafiq dövlət qurumuna göndərdiyi 30 dekabr 1919-cu il və 14 yanvar 1920-ci il tarixli teleqramlarında türk hərbçiləri Xəlil bəy və Ədib bəyin başçılığı ilə dekabrın 25-də naxçıvanlıların Yuxarı və Aşağı Əylis kəndlərinə hücum edərək qırğın törətməsi kimi qiymətləndirmişdi. Halbuki türk zabiti Ədib bəy Əylis ermənilərinin bölgədən təhlükəsiz çıxmasına təminat vermişdi. Guya Naxçıvan diyarını Türkiyə ilə birləşdirmək məqsədi daşıyan bu hücum zamanı 1400-dək (11, iş 41, v. 10, 13-14) erməni öldürülmüşdü. Şübhəsiz ki, bu addım Haskelin dekabrın ortalarında səsləndirdiyi daşnakların Zəngəzurda törətdikləri vəhşiliklə-

rin təsdiqlənəcəyi təqdirdə daşnak rejiminin güclü zərbə alacağı barədəki ittihamı, hərbi əməliyyatların dayandırılması barədəki tələbindən sonra ermənilərin özlərinin Zəngəzurda törətdikləri vəhşilikləri ört-basdır etmək niyyətindən doğmuşdu. Elə buna görə də daşnak rəhbərliyi eyni məzmunlu teleqramları dekabrın 29-da Haskelə və Tiflisdəki İngiltərə nümayəndəsi Uordropa da göndərmişdi.

1919-cu il oktyabrın sonlarında S.Cəmillinskinin Naxçıvanla sərhəddə erməni qoşunlarının cəmləşməsi barədə məlumatından sonra rəsmi Bakı Naxçıvanda vəziyyətin ağırlığını nəzərə alaraq bildirmişdi ki, bölgəyə 6 min nəfərlik silahlı qoşun göndəriləcək. 1919-cu ilin noyabrında daşnakların Naxçıvana irimiqyaslı təcavüzünün yeni mərhələsi başlandı. Ordubad qəza rəisinin Naxçıvan general-qubernatoruna göndərdiyi 30 noyabr 1919-cu il tarixli teleqramda bildirilirdi ki, ermənilər Zəngəzurun bir neçə kəndini dağıdaraq Ordubadın Dırnıs kəndini ələ keçirdikdən sonra Yuxarı və Aşağı Əylis, Danagirt, Çənnəb kəndlərində yaşayan ermənilərlə birləşərək Ordubad və Culfa üçün təhlükə yaradacaqlar (7, iş 101, v. 21).

Öz hərbi qüvvələrini Zəngəzurdan çıxaran Azərbaycan hökuməti, qeyri-iradi olaraq bu addımı ilə Naxçıvanı daha böyük təhlükə qarşısında qoymuş, 1920-ci il yanvarın 6-dan 23-dək davam edən erməni hücumları vəziyyəti daha da ağırlaşdırmışdı. K.Qarabəkir paşanın tapşırığı ilə Cavid bəy fevralın 14-də kapitan Mühiddin bəyin və ehtiyatda olan zabit İhsan bəyin başçılığı ilə Zəngibasara hərbi hissə, silah və sursat göndərmişdi. Lakin bu qüvvələr ermənilərin irimiqyaslı hücumlarının qarşısını almaq üçün yetərli deyildi. Vəziyyəti ağırlaşdıran daha bir amil Naxçıvanda S.Cəmillinski, Kalbalı xan və Xəlil bəy arasında baş verən çəkişmələr idi. Doğrudur, onlar erməni təcavüzü qarşısında birləşməyi bacarsalar da,

bölgədə nüfüz uğrunda lüzumsuz mübarizə Naxçıvanın müdafiəsini lazımınca təşkil etməyə mane olurdu.

1920-ci il martın 8-də ermənilərin 2 min nəfərlik hərbi qüvvəsinin Ağanohur və Nüsnüs dağları istiqamətindən Ordubad üzərinə hücumunun qarşısı Kəlbalı xanın Naxçıvandan göndərdiyi hərbi qüvvənin köməyi ilə alındı. Ermənilər 300 nəfər, 12 qatır və 7 pulemyot itirərək geri çəkildilər. Lakin martın 21-də daşnakların 10 min nəfərlik dəstəsinin növbəti hücumu Ordubadın Düylün, Vənənd, Vələver, Xanağa, Disər, Ağrı, Dizə və s. kəndlərinin qətlqarətə məruz qalması ilə nəticələndi. Yenidən Ədib bəylə Kəlbalı xanın birləşmiş qüvvələri erməniləri geri oturda bildilər (81, s. 186). Azərbaycan mənbələrinin bir çoxu mart ayında K.Qarabəkirin Xəlil bəyin öz xahişinə əsasən geri çağırıb onun yerinə Əli Timur bəyin başçılığı ilə göndərdiyi 50 nəfərlik kiçik bir dəstənin Naxçıvanın müdafiəçilərinə qoşulduğunu yazırlar. Lakin əslində iyul ayında mayor Əli Timur bəy Naxçıvan ətrafının hərbi komandanı, mayor Veysəl bəy isə Naxçıvan əhalisinin müfəttişi təyin olunmuşdu (3, s. 298).

Burada müasir regional geosiyasi proseslər baxımından böyük maraq doğuran bir məsələni də qeyd etmək yerinə düşərdi. 1920-ci il martın 11-də Azərbaycan hökuməti ilə müqavilə bağlayan İran digər tərəfdən əslində «Azərbaycan Cümhuriyyətinə qarşı ərazi iddiaları irəli sürərək Naxçıvan bölgəsini ələ keçirmək, bu mümkün olmadığı zaman bölgənin ermənilərin əlinə keçməsinə çalışırdı. Məsələn, rəsmi Tehran ingilislərin və ermənilərin təhriki ilə Naxçıvan və onun ətrafından 60 mindən artıq əhalinin (azərbaycanlıların – E.C.) İrana köçürülməsinə, bununla da bölgəni zəif vəziyyətə salmağa və daşnakların planlarının gerçəkləşməsi üçün şərait yaratmağa səy göstərməkdə idi» (127, s. 50). İran rəsmi dairələrinin bu

ermənipərəst siyasəti həmin dövrdə bölgədə vəziyyətin mürəkkəbliyini səciyyələndirən ciddi amillərdən biri idi.

Son dərəcə gərgin bir tarixi dövrdə Bakıda baş verən inqilabi çevrilişlər – bolşevik işğalı və bununla bağlı ölkənin müxtəlif bölgələrində baş verən etiraz çıxışları öz təsirini Naxçıvan diyarındakı hadisələrə də göstərdi. Bolşeviklərin 1920-ci il aprelin 27-28-də Bakını ələ keçirərək AXC-nin varlığına son qoymasından istifadə edən daşnak ordusu bölgədə fəallaşaraq Şərurun bir neçə kəndini işğal etdi. Veysəl bəy yerli polis rəisi Həbib bəy Səlimovun köməyi ilə erməni qüvvələrinin bölgədən çıxarılmasına çalışsa da, daşnak dəstələri Şərur qəzasını və Şahtaxtı stansiyasını da ələ keçirdilər. Qaçqına çevrilən bütün Şərur əhalisi Naxçıvana digər ərazilərinə və Cənubi Azərbaycana sığınmağa məcbur oldular.

Bu dövrdə Zəngibasarda 48 kənd tamamilə yandırılmış, 400-dən çox uşaq, 150 qoca kişi və qadın öldürülmüş, 100 xəstə odda yanaraq məhv olmuş, 816 qaçqın Arazda boğulmuş, 160 min nəfər isə İranda açıq havada qalmışdı. Vedibasarda 118 kənd yandırılmış, 900 nəfər artilleriya atəşindən ölmüş, 6 qadın əsir aparılmış, 300-dən çox uşaq və qoca qırılmışdı. Dərələyəzdə 74, Şərurda və Şahtaxtı ətrafında 76 kənd yandırılmışdı. Şərur qəzasında 810 nəfər xəstə yatağında məhv edilmiş, 144 qadın əsir götürülmüş, artilleriya atəşindən 72 nəfər məhv olmuş, 150 qoca və qadın öldürülmüşdü. Şahtaxtıda isə 3 qadın əsir aparılmış, 35 uşaq, 14 qoca, 8 qarı və 9 xəstə öldürülmüşdü. Cənubi Azərbaycana pənah aparan 45 mindən çox qaçqın aclıqdan və xəstəlikdən ölmüşdü. 70 min qaçqın İranda, 400 min nəfər isə Naxçıvanda və ətraf ərazilərdə evsiz-eşiksiz, açıq havada qalmışdı (81, s. 281). Zəngibasarda təkcə 1920-ci il iyulun 2-də 1500 nəfər suda boğularaq öldürülmüşdü (118, s. 171).

1917-ci ilin dekabrından 1918-ci ilin iyununadək ermənilər Naxçıvanın da daxil olduğu İrəvan quberniyasında 200-dən artıq azərbaycanlı kəndini qarət edib yandırmışdılar. 100 min nəfər azərbaycanlı Şərur, Sürməli, İrəvan, Eçmiədzin qəzalarını tərk etməli olmuşdu. İrəvan quberniyasında 1918-ci ilin mart ayınadək 199 kənd dağıdılmış, 135 min nəfər öldürülmüş və ya didərgin salınmışdı. İxtilafların sonunda 180 min müsəlman, yaxud İrəvan quberniyasının müsəlman əhalisinin üçdə iki hissəsindən çoxu qətlə yetirilmiş və didərgin düşmüşdü (74, s. 398, 415).

Azərbaycanlılara qarşı soyqırımın ikinci mərhələsini təşkil edən 1918-1920-ci illər coğrafi baxımdan böyük vətəndən ayrı salınmış Naxçıvan üçün də ağır və məşəqqətli bir dövr olmuşdur. Hələ 1914-1916-cı illərdə Azərbaycanın cənubunda 150 min, Şərqi Anadoluda, tarixən həmişə azərbaycanlıların yaşadıqları bölgələrdə 200 min, 1918-1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdi. 1918-ciilədək Qərbi Azərbaycanda yaşayan 575 min nəfər müsəlman əhalisindən AXC-nin süqutu ərəfəsində cəmi 10 min nəfərdən bir qədər artıq azərbaycanlı əhali qalmışdı (75, s. 33). 1922-ci ildə 60 min qaçqın qayıtdıqdan sonra azərbaycanlılar burada 72596 nəfər təşkil etmişdir.

AXC hökuməti ermənilərin azərbaycanlılara qarşı qanlı cinayətlərinin araşdırılması üçün 15 iyul 1918-ci ildə keçirdiyi iclasının qərarına əsasən avqustun 31-də Ələkbər bəy Xasməmmədovun sədrliyi ilə Fövqəladə İstintaq Komissiyası (FİK) yaratmışdı. Artıq 1919-cu il avqustun 27-i üçün komissiya üzvləri xeyli iş aparmış və Cənubi Qafqazda müsəlman əhaliyə qarşı daşnaklar tərəfindən törədilən soyqırım aksiyalarına dair 36 cilddə toplanmış 3500 səhifəlik istintaq materialları hazırlamışdı (5, v. 7,

116, 132). Həmin dövrdəki hadisələrin gərgin dinamikası, bir çox hallarda hakimiyyətsizlikdən və ya çoxhakimiyyətlilikdən, bölgənin ölüm-dirim savaşına qatılması və s. səbəblərdən 1918-1920-ci illərdə Naxçıvan diyarının əhalisinin dəyişmə dinamikasını, daşnakların soyqırıma məruz qoyduğu, yurd-yuvasından didərgin saldığı əhalinin dəqiq statistikasını tam müəyyən etmək mümkün olmamışdır. Bununla belə, əldə etdiyimiz faktlar erməni vəhşiliyi haqqında aydın təsəvvür yaradacaq qədər real tarixi həqiqətlərdir.

Türkiyə nəşr olunan «Kaf dağı» qəzetinin 2001-ci il 4-cü nömrəsində 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73727 nəfər azərbaycanlının ən vəhşi üsullarla öldürüldüyü yazılmışdır. Türkiyə alimi Y.Sarınayın öz ölkəsinin arxivlərindən əldə edərək «Eğitim» jurnalının 2003-cü il 38-ci nömrəsində dərc etdirdiyi «Ermənilər tərəfindən türklərə qətliam tətbiq olunan yerləri göstərən cədvəl» yuxarıdakı məlumatı təsdiq edir. Cədvəldə 1919-cu ildə daşnakların Naxçıvan kəndlərinə hücumu zamanı 4 min, 1920-ci ildə burada aclıq, xəstəlik, soyuqdan və qətl ilə ölənlərin 64408, müxtəlif kəndlərdə öldürülənlərin 5307 (cəmi 73727), yaralananların isə 63 nəfər olduğu göstərilir.

Bu məlumatı başqa bir mənbə (133, s. 212) bütün təfərrüatı ilə göstərir. 1920-ci il dekabrın 27-ə aid sənədə görə, 1918-1920-ci illər arasında Naxçıvanın Şərur və Sədərək məntəqələrində ermənilər tərəfindən 56 kənddə törədilən qətliam və talanda 428 nəfər qətlə yetirilib, 2286 ev yandırılıb, 7178 nəfər evsiz-eşiksiz qalıb, 6740 nəfər aclıq, soyuq və xəstəlikdən ölüb, Dərələyəzdə isə 54 kənddə 57240 nəfər qətlə yetirilib, 9735 ev yandırılıb.

Əlbəttə, bu məlumatın səhihliyi heç bir şübhə doğurmur. Lakin bir neçə məqama xüsusi diqqət yetirmək gə-

rəkdir: 1) Y.Sarınayın tərtib etdiyi cədvəldən də göründüyü kimi, həmin məlumat 1918-1921-ci illəri deyil, məhz 1919-1920-ci illəri əhatə edir; 2) nəzərə almaq zəruridir ki, ermənilərin Naxçıvan bölgəsində müsəlman əhaliyə qarşı qanlı cinayətləri hələ 1917-ci ilin ikinci yarısından başlamışdı; 3) 1918-ci ilin əvvəllərindən genişlənən erməni vəhşiliyi elə həmin ildə minlərlə azərbaycanlının məhvi ilə nəticələnmişdi (məsələn, təkcə 1918-ci il iyunun 20-25-də Andranikin bölgəyə yürüşü zamanı baş verən «Yaycı faciəsi»ndə 2000-2500 nəfər, 1919-cu ilin avqustunda isə 3 kəndin (74, s. 515) əhalisi tamamilə öldürülmüşdü); 4) 1918-ci ilin yayında Andranikin, Njdenin, dekabr ayında isə onlarla bərabər Yaponun cəllad dəstələri də əhaliyə divan tutmuş, xeyli azərbaycanlını öldürmüşdülər; 5) Cənubi Azərbaycana pənah apararaq burada aclıq, xəstəlik və soyuqdan ölənlərin sayı bu rəqəmə daxil edilməmişdir və s. Bu amillərin təhlilindən sonra qətiyyətlə demək olar ki, 1918-1920-ci illərdə Naxçıvanda həyata keçirilən soyqırımın qurbanları göstərilən rəqəmdən xeyli artıq olmuşdur. Görünür, Türkiyə arxivlərində yalnız onun Naxçıvan diyarına hərbi köməyə gəlişindən sonrakı dövrdə baş vermiş erməni cinayətlərinin izi qalmışdır.

Başqa məxəzlərdə də ermənilərin Naxçıvanda törətdikləri soyqırım rəqəmlərlə əks etdirən konkret faktlar vardır. Naxçıvanın Qəmərli istiqamətindəki üç müsəlman kəndində yaşayan əhali qətlə yetirilərək Araz çayına atılmışdı. Türkiyə arxivlərində saxlanılan 4 dekabr 1920-ci il tarixli «İstehkam mövqe komandanı miralay Rüştü» imzası olan bir sənəddə göstərilir ki, ermənilərin «İran sizi himayəsinə götürdü» bəhanəsi ilə köçürdükləri 35 min nəfər faciəli şəkildə yollarda öldürülmüş, ancaq 10 min nəfər sağ qurtara bilmişdi (146, s. 194-195). 1920-ci il iyulun 25-də tamamilə köməksiz və məkrli düşmənlə

qeyri-bərabər şəkildə qarşı-qarşıya qalmış Naxçıvanın kəndlərindən İrana keçmək üçün Şahtaxtıya gələn 500 nəfərdən ibarət böyük bir dəstə daşnaklar tərəfindən son nəfərinədək qətlə yetirilmişdi (46, s. 45). Göstərilən illərdə (1918-1920) Naxçıvan, Ordubad, Şərur-Dərələyəz qəzalarında təkcə kənd əhalisinin sayı 52 min nəfər azalmış, 287 kənd tamamilə və ya qismən dağıdılmışdı (52, s. 103). Elə bunun nəticəsi idi ki, 1921-ci ildə Naxçıvan bölgəsinin əhalisi azalaraq 72182 nəfərə enmişdi (27, s. 28).

1918-1920-ci illərdə Naxçıvanın əhalisi kəskin şəkildə – 38 faiz azalmışdı. Daşnak rejiminin Naxçıvanı öz nəzarəti altına almaq cəhdləri nəticə vermədiyindən əvvəllər bölgəyə köçürülmüş ermənilərin böyük əksəriyyəti Naxçıvanı tərk etməyə məcbur olmuşdu. Nəticədə 1921-ci il üçün ermənilər Naxçıvan əhalisinin cəmi 12 faizini təşkil etmişdilər. Ermənilərin Naxçıvandan getmələrinə ilk növbədə Qərbi Azərbaycandakı işğalçı daşnak hökuməti bais olmuşdu (54, s. 36).

Qərbi Azərbaycanın bir hissəsində iki illik (may 1918-noyabr 1920) daşnak işğalçı rejimi zamanı burada yaşayan azərbaycanlıların 60 faizi öldürüldü. Daşnaklar Gürcüstandan Borçalı və Axalkələki, Azərbaycandan isə Qarabağ, Naxçıvan və Gəncə əyalətinin bir qismini (Zəngəzuru – E.C.) tələb edirdilər (116, s. 135). 28-ci diviziyanın rəisi Nesterovski XI Qızıl ordunun rəisinə göndərdiyi teleqramda (1920-ci il 22 sentyabr) bildirirdi ki, daşnakların süngüsündən xilas ola bilən qaçqınlar Naxçıvan rayonunda məskən salmışlar. Onların sayı təqribən milyona çatır (26, s. 133). Bu, bir qədər qeyri-dəqiq və şişirdilmiş rəqəm kimi görünsə də, həmin faktın özü erməni zülmündən qaçqın düşənlərin sayının yüz minlərlə olduğuna dəlalət edir. Çünki təkcə 1918-1919-cu illərin cəmi bir neçə ayında 150 min azərbaycanlı öz doğma ocağından didərgin

salınmış, az sonra onları sayı artaraq 600 min nəfəri ötmüşdü (74, s. 59).

Behbud ağa Şaxtaxtinski Azərbaycan İnqilab Komitəsinin 1921-ci il aprelin 19-da keçirilən iclasında «Naxçıvanın siyasi və iqtisadi vəziyyəti haqqında» məruzəsində göstərirdi ki, Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzalarında ermənilər tərəfindən azı 240 kənd xarabalığa çevrilmişdir. Bu yerlərdən qovulan 500 min nəfərdən çox əhali Azərbaycan, Naxçıvan və İranın şəhər və kəndlərində sərgərdan dolaşmaqdadırlar. Qaçqınlar məsələsi ətrafında uzun müddət Naxçıvan SSR ilə Ermənistan SSR, RSFSR və bu respublikalarla Təbriz bələdiyyə rəisi, Maku xanı, Culfa gömrük rəisi arasında uzun-uzadı yazışmalar getmişdi. Nəticədə İttifaq Soveti Qərbi Azərbaycandan olan 28 min nəfər qaçqının Naxçıvanda saxlanmasına dair qərəzli qərar qəbul etmişdi (61, s. 25-27). Məlumatlara əsasən demək olar ki, sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvan regionunda qaçqınların ümumi sayı 500-600 min nəfər olmuşdur. Eyni zamanda Zəngəzurdan qaçqınların gəlməsi prosesi 1923-cü ildə hələ də davam etməkdə idi (88, iş 26, v. 11). Bu qaçqınlar Culfa ətrafında, Arınc, Əbrəqunus, Qazançı və s. kəndlərdə yerləşdirilirdi.

Qaçqınlar problemi 20-ci illərin sonunadək Naxçıvan bölgəsi üçün ən ağrılı (88, iş 18, v. 119-125; iş 26, v. 1-32; iş 30, v. 1-42) problem olaraq qaldı. Hətta Qərbi Azərbaycanda qurulmuş erməni sovet hakimiyyəti Xarici İşlər Komissarının müavini Karinyan Naxçıvan diyarının Komissarına göndərdiyi məktubda buradan vaxtilə İrana və Naxçıvana qaçmış azərbaycanlıların «kortəbii kütləvi hərəkat olması, habelə epidemiyaların yayılmasının qarşısının alınması üçün» qaçqınların Qərbi Azərbaycana hərəkətinin qarşısının «müvəqqəti olaraq alınmasını» xahiş edirdi (88, iş 15, v. 2-3). Xalq Xarici İşlər Komissarı

Mravyan isə bir tərəfdən Karinyana vurduğu teleqramda «hansı qaçqınlardan söhbət getdiyini aydınlaşdırmağı, Naxçıvan diyarından olan ermənilərin» öz «vətənlərinə» qayıda biləcəklərini, digər tərəfdən isə Naxçıvan İnqilab Komitəsinin sədri B.Vəlibəyova teleqramında Dərələyəzdə sığınacaq tapan erməni qaçqınların Naxçıvana qayıtmaq arzusunda olduqlarını, onların ağrısız şəkildə «öz doğma kəndlərində» məskunlaşdırılmasının mümkünlüyünün təcili xəbər verilməsi barədə yazırdı (88, iş 18, v. 122). Bütün yazışmalardan aydın olur ki, erməni sovet hakimiyyəti azərbaycanlı qaçqınların öz yurd-yuvalarına dönüşünün qarşısını müxtəlif bəhanələrlə almağa çalışır, əvəzində daşnaklar siyasəti ucbatından Naxçıvandan keçmiş İrəvan quberniyasının digər ərazilərinə köçmüş ermənilərin «qaçqın» adlandırılaraq Naxçıvana geri qaytarılması siyasəti yürüdülürdü.

Rus ordusunun yüksək rütbəli zabiti Ohannes Apresyan adlı bir quldur Qafqazda tətbiq etdikləri soyqırımı belə təsvir edirdi: «...Tatarların (azərbaycanlıların – E.C.) qaçmalarına imkan verəcək yolları və dağ keçidlərini tutaraq bağladıq. Dərhal məhvetmə işinə başladıq. Birliklərimiz bir-birinin ardınca kəndləri dağıdırdı. Topçu atəşləri ilə kənd evləri daş və torpaq yığınları halına salınır və kəndlilər kənddə dura bilməyərək çöllərə qaçmağa başladıqda tüfəng mərmiləri və süngülərlə işlərini bitirirdik. Heç şübhəsiz ki, tatarların bəziləri qaça bildilər. Bunlar ya dağlarda özlərinə bir sığınacaq yer tapa bildilər, yaxud da sərhədi keçərək Türkiyəyə qaçdılar, arxada qalanlar isə tamamən öldürüldü. Beləcə, rus Ermənistanının (Qərbi Azərbaycanın – E.C.) Naxçıvandan Axalkələkə qədər olan sərhəd bölgəsi, Ağrı dağının ətəyindəki isti ovalıqlardan şimaldakı soyuq dağ yaylalarına qədər, hər yerdə yerlə bir edilmiş tatar kəndlərinin dilsiz xarabalıqları ilə

doldu. İndi bu kəndlərdə buralarda qalmış ölü insanların sümüklərini tapmaq üçün gedən qurd və çaqqalların ulamalarından başqa bir səs eşidilmir» (146, s. 196). Daşnak lideri O.Kaçaznuni öz partiyasının xarici orqanlarının 1923-cü ilin aprelində keçirilmiş konfransında deyirdi: «Bizim dövrümüzdə xalq müharibədə məhv olur, ya da acından ölürdü. Biz Şərur və Vedi kimi taxılla zəngin olan məntəqələri, Ağbaba kimi mal-qarası çox olan məntəqəni viran etdik» (73, s. 68).

Sovet Rusiyasının Azərbaycan torpaqları ilə bağlı məsələdə tutduğu mövqe bir çox hallarda ABŞ və İngiltərənin, habelə daşnak hökumətinin mövqeyi ilə üst-üstə düşürdü. Elə bunun ifadəsi idi ki, Sovet Rusiyasının Xarici işlər komissarı G.V.Çiçerin 1920-ci il iyunun 2-də rusların Qafqazdakı emissarı Q.Orconikidzeyə yazırdı: «Daşnak hökuməti ilə kompromisə nail olmaq bizə vacibdir. Bu arada Azərbaycan hökuməti nəinki Qarabağ və Zəngəzuru, həm də Şərur-Dərələyəz qəzasını mübahisəli ərazi elan edir. Sonuncu heç vaxt, heç kim tərəfindən mübahisəli elan edilməmişdir, buranı hətta Müsavat hökuməti həmişə Ermənistanınkı kimi qəbul etmişdir. Onsuz Ermənistandan, demək olar ki, heç nə qalmır. Bakıda özünüzün böyük nüfuzunuzdan istifadə edərək Azərbaycan hökumətinin Şərur-Dərələyəz qəzasını deyil, Qarabağ və Zəngəzuru mübahisəli hesab etməyinə nail olmağı xahiş edirik» (13, inv. № 594). Belə aydın olur ki, Sovet hökumətinin bütün cidd-cəhdi Qarabağ və Zəngəzurun mübahisəli ərazilər hesab edilməsi və Şərur-Dərələyəz qəzasının isə erməni ərazisi olduğunun Azərbaycan tərəfindən tanınması ilə bağlı idi. Başqa sözlə deyilərsə, qondarma erməni dövlətinin ərazilərinin genişləndirilməsi yeni sovet Rusiyası hökuməti üçün də prioritet məsələyə çevrilmişdi.

Sovet XI ordu hissələri məhz daşnak rejiminə ultima-

tum verərək 1920-ci il iyulun 28-də azərbaycan ərazisi olan Naxçıvana daxil oldu. Həmin gün yaradılan, tərkibinə M.Bəktaşov, Q.Səlimov, A.Qədimov, Q.Məmmədov, H.Əliyev, Ə.Əzimov, N.Nəcəfov, A.Kazımov, F.Mahmudbəyov və Y.Babayevin daxil olduğu Naxçıvan İnqilab Komitəsi tərəfindən, Azərbaycanın sovetləşdirilməsi prosesinin tərkib hissəsi kimi, Naxçıvanda da sovet hakimiyyətinin qurulduğu elan edildi. Lakin bundan sonra da Naxçıvan diyarının vəziyyəti gərgin olaraq qalırdı. Naxçıvan İnqilab Komitəsi yarandığı günün səhərisi, 1920-ci il iyulun 29-da daşnak hökumətinə müraciət edərək sülh danışıqlarına başlamaq təklifini verdi və bu məqsədlə İrəvana nümayəndə heyəti göndərdi. Lakin daşnaklar naxçıvanlı nümayəndələrin qarşısında Naxçıvanın qeyd-şərtsiz erməni hakimiyyətinə tabe olması tələbini qoymuşdular. Bu azmış kimi, daşnakların tələblərinə görə naxçıvanlılar onlara 7 min ədəd tüfəng, hər bir tüfəng üçün 80 ədəd güllə, Naxçıvanda olan bütün top və pulemyotları, habelə 300 min pud buğda, 300 yəhərli at, 200 baş qoşqu heyvanı verməli idi (13, inv. 397).

Bu zaman Naxçıvanda olan Veysəl Ünüvarın daşnak hökümətinin tələbləri barədə məlumatı bir qədər fərqlidir. O, ermənilərin tələblərinin 19 iyulda daxil olduğunu və Azərbaycan hərbi dəstələrinin komandiri, general Həbib bəy Səlimovun və özünün iştirakı ilə Naxçıvan Milli Şurasında müzakirə edildiyini bildirir. V.Ünüvar tələblərin aşağıdakı şəkildə olduğunu yazır: «1. Bütün Naxçıvan Araz hökumətinin ərazisi erməni hökumətinə birləşdiriləcək. Əhali erməni hökumətinin rəiyyəti, təbəəsi (spartalıların hilotları kimi) olaraq qalacaqlar, bunu qəbul etməyənlər istədikləri yerə gedə biləcəklər; 2. İki həftə içində müsəlmanlar erməni hökumətinə hər biri əlli min manat qiymətində 300 at, hər biri otuz min manat qiymətində

200 inək, bu ayın içində 300000 pud buğda pulsuz, bundan əlavə, hər pudu iki min manat hesabı ilə və ya pul ilə 300000 pud buğda, hər pudu üç min manat hesabı ilə iki ay ərzində 100000 min pud düyü verəcək; 3. Dəmiryollarının təmiri üçün işçi qüvvəsi veriləcək; 4. 1919-cu ildə erməni hökumətindən zəbt edilən silahlardan başqa hər iki evdən bir silah hesabı ilə 1500-dən aşağı olmamaq şərtilə tüfənglərini təslim edəcəklər; 5. 24 saat ərzində əsgərlərin silah-sursatı təslim ediləcək; 6. Yuxarıdakı təkliflərə əməl edilincəyə qədər hər şəhərdən beş, hər kənddən üç nəfər girov olaraq verilməlidir; 7. Cavab üçün 60 saatlıq möhlət verilmişdir». Bir gün sonra Milli Şuranın sədri Cəfərqulu xanın imzası ilə qəbul edilərək ermənilərə göndərilən cavabda bildirilirdi ki, «müsəlman əhali bu ərazinin Ermənistanın bir parçası olduğunu o zaman qəbul edər ki, Dəhnə boğazından Ordubada qədər olan ərazinin müsəlmanlarma istiqlal verilsin». Təklif edilirdi ki, digər məsələlərin həlli İrəvanda tərəflərin «bəlli bir gündə» müəyyənləşdirilməsi təklif olunan görüşündə müzakirə olunsun (46, s. 40-41).

Hər iki məlumatın müqayisəsi belə qənaətə gəlməyə əsas verir ki, iyulun 28-də Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra daşnak hökuməti ona sülh təklifi ilə müraciət edən Naxçıvan İnqilab Komitəsi qarşısında da mahiyyətcə eyni tələblər qoymuşdular. Həm də bu zaman artıq iyulun 25-dən (46, s. 45) başlayaraq Şahtaxtıya qədərki əraziləri işğal edə bilmişdilər. Hər iki halda Daşnak hökuməti hətta ingilislərin və amerikanların köməyilə Naxçıvanı müvəqqəti işğal etdikləri vaxtda belə bu qədər sərt tələblərlə çıxış etməmişdilər. Görünür, daşnakların belə azğınlaşmasına əsas səbəb AXC-nin süqutundan sonra Naxçıvanın müvəqqəti olaraq himayəsiz qalması və ərazi məsələsində sovet Rusiyasının da onların mənafe-

yinə cavab verən siyasət yürütməsi olmuşdu.

Təbii ki, naxçıvanlı nümayəndələr daşnakların bu «könüllü istila altına düşmə» tələbilə razılaşa bilməzdilər. Bunu bilən daşnaklar 1920-ci ilin sentyabr ayının əvvəllərində Ordubad üzərinə qəfil hücuma keçdilər. Yüzlərlə azərbaycanlı qətlə yetirildi və Ordubad əhalisi ermənilər tərəfindən qarət olundu. Yalnız sentyabrın 18-də Naxçıvandakı türk qoşunlarının və yerli hərbi dəstələrin birgə fəaliyyəti nəticəsində daşnak orduları Ordubaddan qovulub çıxarıldı. Naxçıvan bölgəsinin əhalisi Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanova göndərdikləri məktubda bildirirdi ki, bu rayonlar (Naxçıvan, Culfa və Ordubad) bir-birindən aralı düşüb, ancaq yerli əhalinin gücü ilə daşnaklardan müdafiə olunurlar. Buna görə də həmin rayonlar Qızıl Ordu tərəfindən azad olunmalı və bilavasitə Azərbaycana birləşdirilməlidir» (53, s. 10).

Belə bir şəraitdə, avqustun 10-da RSFSR-lə daşnak rejimi arasında imzalanan müvəqqəti sülh sazişinə görə Şahtaxtı və Culfa, habelə Şahtaxtı-Culfa dəmiryolu hərbi məqsədlər üçün istifadə etməmək şərtilə daşnak rejiminin nəzarətində qalırdı. Azərbaycan hökumətinin israrlı tələblərindən sonra sentyabrın 18-də Ordubad şəhəri, oktyabrın əvvəllərində Ordubad qəzasının ərazisi, dekabrın əvvəllərində isə Şərur qəzası Qızıl Ordu hissələri tərəfindən daşnaklardan təmizləndi. 1920-ci il avqustun 11-də XI Qızıl Ordunun Naxçıvanda olan 28-ci diviziyası daşnakların işğalı altında olan ərazilərlə sərhədləri bağlasa da, 8 minədək türk əsgəri hələ Naxçıvanda qalmaqda idi. Beləcə, Rusiya işğalı altına düşən Naxçıvanla bağlı siyasi və diplomatik çəkişmələrin yeni mərhələsi başlanmış oldu (127, s. 51).

Sovet qoşunlarının Azərbaycana qədəm qoyduğu gündən süni olaraq yaradılmış «mübahisəli ərazilər» məsələsi-

nin ermənilərin xeyrinə həlli istiqamətində işlər aparılırdı. Bu işdə İ.Stalinlə Q.Orconikidzenin mövqeləri həlledici rol oynamaqda idi. Qərbi Azərbaycanda sovet hakimiyyətinin qurulmasından bir gün sonra, AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1920-ci il noyabrın 30-da Q.Orconikidze, S.Ter-Danielyan, Y.Stasova, A.Serebrovski, V.Yeqorov, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov, M.Qasımov və başqalarının iştirakı ilə keçirilən birgə iclasının ərazi məsələlərinə dair qərarında deyilirdi: «Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir. Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının ayrılmaz ərazisidir. Dağlıq Qarabağın əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmək üçün tam hüquq verilir...» (88, iş 15, v. 6-7) Qərarın həyata keçirilməsi ermənilərin illərdən bəri uğrunda silahlı mübarizə apardıqları amallarınm – Qərbi Azərbaycan torpaqlarının tam işğalının gerçəkləşməsi olacaqdı.

1920-ci ilin dekabrın 2-də imzalanan, əslində bir-birinə zidd olan iki müqavilə Naxçıvan məsələsinin hələ də öz qəti həllini tapmayan ciddi problem olduğunu göstərirdi. Bu müqavilələrin birində – RSFSR-lə onun özünün Qərbi Azərbaycanda yaratdığı oyuncaq erməni sovet hökuməti arasında bağlanan hərbi-siyasi sazişə görə, keçmiş İrəvan quberniyası, Zəngəzur qəzası Rusiya tərəfindən Ermənistan SSR tərkibinə mübahisəsiz ərazi kimi daxil edilirdi. Həmin gün Türkiyə ilə çökməkdə olan daşnak rejimi arasında imzalanan Gümrü müqaviləsinin (88, iş 18, v. 128-133) 2-ci maddəsinə görə, erməni hökuməti Naxçıvan, Şahtaxtı və Şərur ərazisinə müdaxilə etməmək, plebissitlə müəyyən ediləcək idarə formasının yaradılmasınadək həmin ərazidə Türkiyənin himayəsində yerli idarəçilik qurulmasına razı olmuşdu. Lakin Gümrü müqaviləsi özünün sonuncu gününü yaşayan daşnak rejimi ilə imzalan-

dığı üçün heç bir hüquqi əhəmiyyəti olmadı.

1918-1920-ci illərin soyqırımı nəticəsində azərbaycanlı əhalisinin xeyli hissəsi məhv edildiyindən Zəngəzurun erməni işğalına verilməsinə qarşı ciddi müqavimət təşkil etmək mümkün olmadı. Lakin Naxçıvan əhalisinin 1920-ci il dekabrın 5-dən başlayaraq öz qətiyyətli iradəsini ortaya qoyması bölgənin sonrakı taleyini həll etdi. Dekabrın 15-də Naxçıvana göndərilən Azərbaycanın Ədliyyə Komissarı Behbud ağa Şahtaxtinskinin ermənipərəst mövqedə duran Naxçıvan Fövqəladə Komissarlığının rəhbəri B.Vəlibəyovu vəzifəsindən uzaqlaşdıraraq, naxçıvanlıların etirazını diyarın Azərbaycanın tabeliyində saxlanılması uğrunda mübarizəyə səfərbər etməsi, bu işdə Türkiyənin rolunu düzgün qiymətləndirərək ondan istifadə etməsi öz bəhrəsini verdi. Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də verdiyi bəyanatla Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını və ona qarşı ərazi iddialarından imtina etdiyini bildirdi.

1921-ci ilin əvvəlində Azərbaycan SSR, Ermənistan SSR və RSFSR nümayəndələrinin Azərbaycan və Ermənistan inqilab komitələrinin bəyanatlarına münasibətlə bağlı keçirdikləri rəy sorğusunda Naxçıvan bölgəsi əhalisinin 90 faizi diyarın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi (81, s. 341-342). Bu, Zəngəzurun işğalından sonra Naxçıvanın qəsb olunması ilə bağlı planlarını gələcəyə saxlamaq niyyətində olan ermənilərin arzularına bəri başdan ciddi zərbə oldu. Naxçıvana muxtar ərazi statusu verilməsi ilə razılaşan ermənilər bunu diyarın Azərbaycandan ayrılması və gələcəkdə onun işğalı üçün hüquqi əsas kimi görürdülərsə, bölgənin muxtariyyat qazanması o dövrün diqtə etdiyi şərtlər altında Azərbaycanın Naxçıvanı öz əlində saxlaması üçün bəlkə də yeganə yol idi.

Naxçıvanın tarixi taleyini – yəni onun Azərbaycanın tərkibində muxtar respublika kimi qalma imkanlarını 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri reallaşdırdı. Həmin dövrdə bölgədə söz sahibi olan Türkiyə ilə RSFSR arasında martın 16-da imzalanmış Moskva müqaviləsinin 3-cü maddəsində (127, s. 84-87) göstərilirdi ki, «danışıq aparan tərəflər müqavilənin 1(C) əlavəsində müəyyən edilən sərhədlər daxilindəki Naxçıvan ərazisinin, qəyyumluğunu üçüncü bir dövlətə heç bir vaxt güzəştə getməməsi şərti ilə, Azərbaycanın tərkibində muxtar bölgə təşkil edilməsi barəsində razılığa gəlmişlər». Naxçıvanın ərazi bütövlüyünün qorunması və möhkəmləndirilməsi, onun muxtariyyət statusunun dönməz xarakterinin təsbit edilməsində oktyabrın 13-də imzalanmış Qars müqaviləsinin (88, iş 18, v. 135-145) daha böyük əhəmiyyəti oldu. Bir tərəfdən Türkiyə hökuməti, digər tərəfdən Azərbaycan, Ermənistan və Gürcüstan sovet hökumətlərinin RSFSR-in iştirakı ilə bağladıqları müqavilənin 5-ci maddəsində deyilirdi: «Türkiyə hökuməti, Azərbaycanın və Ermənistanın Sovet hökumətləri razılığa gəlirlər ki, Naxçıvan vilayəti, bu müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın qəyyumluğu altında muxtar ərazi təşkil edir».

Qars müqaviləsi 1922-ci il martın 3-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi, martın 17-də Türkiyə Böyük Millət Məclisi tərəfindən, martın 20-də Ermənistan, iyunun 14-də isə Gürcüstan mərkəzi icraiyyə komitələri tərəfindən təsdiq olunmuşdu. 1922-ci il sentyabrın 11-də İrəvanda müqavilənin təsdiqnamə fərmanlarının mübadiləsi aparılmış və elə həmin gündən də qüvvəyə minmişdi. Azərbaycan SSR Xalq Komissarları Soveti H.Sultanovu İrəvanda Qars müqaviləsinin təsdiqnamələrinin mübadiləsi üçün nümayəndə təyin etmişdi (81, s. 355-356).

Qars müqaviləsinin bir neçə dövlət – Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan (sonuncu üçü formal olaraq müstəqil olsalar da) tərəfindən imzalanması onun beynəlxalq müqavilə statusunu möhkəmləndirdi. Digər tərəfdən müqavilə üçün müddət məhdudiyyətinin qoyulmaması Naxçıvanın gələcək taleyi baxımından mühüm amil idi. Beləliklə, Qars müqaviləsinin imzalanması ilə onu imzalayan dövlətlərin bu muxtariyyəti tanıması ilə yanaşı bütün dövrlər üçün Naxçıvanın muxtariyyətinin beynəlxalq hüquqi təminatı da yaradıldı.

1922-ci ilin dekabrından Moskva və Qars müqavilələrində Naxçıvanın muxtariyyəti ilə bağlı qoyulmuş məsələnin həlli istiqamətində real addımların atılmasına başlanıldı. Həmin dövrdə I Cənubi Qafqaz Sovetlər qurultayı Azərbaycan SSR-in tərkibində Naxçıvan muxtariyyətinin təşkil edilməsilə bağlı qərar qəbul etdi. 1923-cü ilin yanvar ayında RK(b)P Cənubi Qafqaz ölkə komitəsi Naxçıvan muxtariyyətinin təşkili barədə məsələni müzakirə edərək AK(b)P Mərkəzi Komitəsinə Cənubi Qafqaz Sovetlər qurultayının qərarları əsasında Naxçıvanı muxtar vilayətə çevirmək təklif olundu. Yeri gəlmişkən, Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı idi. Çünki şimaldan və şərqdən Ermənistanla həmsərhəd olması Naxçıvanı Azərbaycanın digər torpaqlarından ayırırdı. Həmçinin o, cənubda və qərbdə İranla (176 km) və Türkiyə (11 km) ilə sərhədlərə malik idi və ərazi baxımından Azərbaycanın əsas hissəsindən aralı düşmək Naxçıvanın inzibati idarəçiliyini qəza və ya rayon hüquqlarında təşkil etməyə imkan vermirdi (81, s. 356-357).

Naxçıvana muxtar respublika hüququnda muxtariyyətin verilməsi bir neçə mərhələdən sonra reallaşdı. Əvvəlcə, 1921-ci il martın 16-dan Naxçıvan Sovet Sosialist

Respublikası kimi fəaliyyət göstərən qurum 1923-cü ildən Naxçıvan diyarı adlandırıldı. «Azərbaycan SSR Mərkəzi İnqilab Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan muxtar diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq edildi. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi» (90).

Bununla belə, sovet hakimiyyətinin sonrakı illərində Naxçıvanın ərazisinə təcavüz halları oldu. 1929-cu il fevralın 28-də Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Moskva və Qars beynəlxalq müqavilələrinin şərtlərinə məhəl qoymadan və bu müqaviləni imzalayan dövlətlərlə razılaşdırılmadan Naxçıvana məxsus ərazilər – Şərur rayonunun Xaçik, Horadiz, Ordubad rayonunun Karçevan, Şahbuz rayonunun Oqbin, Sultanbəy, Ağxəc, Səs, Almalı və İtqıran kəndləri Ermənistan SSR-in tərkibinə verilmişdir. Bu ərazilərin ümumi sahəsi 657 km$^2$ təşkil edirdi (105, s. 13). SSRİ-nin süqutu ərəfəsində, mərkəzi hakimiyyət tərəfindən himayə olunan ermənilərin 1988-ci ildən Azərbaycan torpaqlarına qarşı təcavüzünün yeni mərhələsində Naxçıvan da itkilərə məruz qaldı, 1990-cı ilin yanvarın 15-də Kərki kəndi işğal edildi.

Erməni təcavüzünün son mərhələsinin hələ də davam etməsi tarixi yaddaşsızlığımızın, eləcə də ifrat insanpərvərlik və humanizm kimi milli xüsusiyyətlərimizin qarşımıza çıxardığı ən böyük facİə olmaqla bərabər, həm də gələcəkdə eyni səhvlərin yenidən təkrarlanmaması üçün ibrət dərsidir. Bu baxımdan dövlət rəhbərliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində hansı mövqeyi (sülh və ya müharibə) seçməsindən asılı olmayaraq bundan sonra Azərbaycan tarix elminin qarşısında onu saxtalaşdıran, səhifələrinə qanlı faciələr yazan məkrli düşmənlərə qarşı daim sayıq olmaq,

hadisələrdən uzaqlaşdıqca onu unutqanlığa meylli olan xalqımızın qan yaddaşını zaman-zaman oyatmaq vəzifəsi həmişə aktuallığını qoruyacaqdır.

## 3.2. Andranik Ozanyanın başçılığı ilə erməni quldur dəstələrinin bölgədəki vəhşilikləri

XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı soyqrım və deportasiya siyasəti bədnam qonşularımızın bütövlükdə xalqımıza qarşı tarixi qanlı cinayətləri olmaqla yanaşı, bu cinayətdə ayrı-ayrı erməni cəlladları fəal rol oynamışlar. Naxçıvanda azərbaycanlılara qarşı törədilən soyqırımda sadə xalqın yaddaşında «tayqulaq erməni daşnak generalı» kimi qalmış Andranik Ozanyan, daşnak hərbi dəstə rəisləri Dro, Njde, Doluxanov, Yapon, Şelkovnikov və digər cəlladların başçılıq etdiyi dəstələr böyük rol oynamışlar. Özünəməxsus vəhşiliyi Andranikin adını ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım tarixinə xüsusi nifrətlə yazmışdır.

Andranikin kimliyi haqqında o qədər də geniş məlumat verməyən mənbələr onun törətdiyi cinayətlər barədə daha səxavətlidirlər. Andranik Ozanyan 1865-ci il fevralın 25-də Şərqi Anadoluda Şabin-Qarahisar (Türkiyənin indiki Girəsun vilayətində) adlı yerdə doğulmuşdur. O, 1888-ci ildən keşiş Nazaret Kibaryanın başçılıq etdiyi Hnçak partiyasının inqilabçı dərnəyinə üzv olmuş və Sivasda türklərə qarşı törədilən qanlı üsyanlarda fəal iştirak etmişdir. Bu zaman o, həbs olunsa da, bir müddətdən sonra həbsxanadan qaçmışdır. 1892-ci ildə ermənilər arasında getdikcə şöhrət tapmaqda olan terrorçu Daşnaksütyun partiyasına daxil olmuşdur.

E.Uras 1893-cü il avqustun sonlarında Daşnaksütyun tərəfindən Qarsda təşkil edilən quldur dəstə rəislərindən

Serop, Tatol, Aşot, Arziv, Avak və Hrayrla birlikdə Andranikin də adını çəkir (149, s. 450-451). Erməni mənbələri Andranikin daşnak Axpur Seropun terrorçu dəstəsinə 1895-ci ildə qoşulduğunu göstərirlər. 1899-cu ildən başlayaraq bir müddət Türkiyədə daşnak terrorçu dəstələrindən birinin başçısı kimi qanlı cinayətlər törədən Andranik 1904-cü ilin payızında öz dəstəsi ilə İrana, buradan isə Qafqaza keçir və Vyanaya gedir. 1907-ci ildə Balkan yarımadasına gəlir və birinci Balkan müharibəsində 230 nəfərlik erməni könüllülərindən ibarət dəstəyə başçılıq edir (18). Bu, Andranikin artıq Türkiyənin və türklərin qatı düşməninə çevrildiyini göstərirdi.

Andranikin guya türk ordusunda qulluq etdiyi və hətta «paşa» (general) rütbəsi alması haqqında bəzi yanlış məlumatlar yayılmışdır. Əslində isə general-mayor rütbəsi ona 1917-ci ilin yanvarında çar Rusiyasının Qafqaz ordusu komandanlığı tərəfindən verilmişdir. Onun «Andranik paşa» adlandırılması isə Andranikin bir qanlı terrorun təşkilatçısı olması ilə bağlıdır. 1900-cü ildə Andranikin daşnak həmkarı A.Serop kürd mənşəli türk hərbçisi B.Xəlil tərəfindən məhv edildiyindən sultan Əbdülhəmid tərəfindən ordenlə təltif olunmuşdu. Bu hadisədən 8 ay sonra Andranik Seropun qisasını almaq məqsədilə B.Xəlili və onun 17 nəfər kürd döyüşçüsündən ibarət dəstəsini xaincəsinə qətlə yetirir. Bu zaman törətdiyi qanlı cinayətə qane olmayan daşnak canisi B.Xəlilin sinəsindəki sultan ordenini qarət edərək öz sinəsinə asır. Bundan sonra həmin orden Andranikə onu tanımayan dinc və sadə türk kəndlilərinin arasında daha asan terror törətməyə imkan yaradır. 1901-ci ildə Muş yaxınlığında türk ordusu onu mühasirəyə alarkən məhz bu orden onun asanlıqla xilas olmasına səbəb olmuşdu. Çünki dinc əhali sultan ordeninə görə onu türk hərbçisi, paşa hesab edir-

miş. Andranikin paşa «titulu» da buradan yaranmışdır.

1912-ci ildə Birinci Balkan müharibəsi başlayanda Andranik Qaregin Njde ilə birlikdə ermənilərdən ibarət rota (rotanın komandiri Q.Njde olur) təşkil edərək bolqar qeyri-nizami qoşunlarının tərkibində Türkiyəyə qarşı döyüşlərdə iştirak edir.

Birinci dünya müharibəsinin başlanğıcında Daşnaksütyun partiyası «milli məsələ»ni həll etmək üçün yaranmış vəziyyətdən istifadə etmək niyyətilə Qafqazda ermənilərdən ibarət silahlı dəstələrin yaradılması işinə girişəndə Bolqarıstandan Cənubi Qafqaza qayıdan Andranik 1914-cü il avqustun 12-də Tiflisdə çar ordusu Qafqaz hərbi dairəsinin komandanı Mışlayevski ilə görüşür və ondan Türkiyəyə qarşı döyüşmək üçün ermənilərdən ibarət drujina yaratmağa razılıq alır. O, dərhal erməni könüllülərindən ibarət 1000 nəfərlik dəstə yaradır və rus ordusunun tərkibinə daxil olur.

Bu zaman Daşnaksütyun funksionerləri öz növbələrində Qafqazda və Cənubi Azərbaycanda da geniş şovinizm və antitürk, antimüsəlman təbliğatı aparır, silahlı erməni dəstələrinin yaradılmasına çalışırdılar. M.S.Ordubadi özünün «Dumanlı Təbriz» tarixi romanında Andranikin fəaliyyətini belə təsvir edir: «Öz vəhşiliyi ilə tanınan Andranik paşanın nümayəndələri bir neçə gündü ki, yerli ermənilərdən könüllü yığmaq üçün Təbrizə gəlmişdi. Safraziyan və onun kürəkəni Hayk (yazıçı onu Andranikin Təbriz nümayəndəsi adlandırır – E.C.) Təbrizdəki Daşnakların iclasını çağırıb onlarla razılaşmışdı. Onlar artıq öz xəyanətlərinə başlamış və erməni yoxsullarını bu «müqəddəs» yola dəvət etmişdilər. Könüllü yazılanlar və Daşnak partiyasının tələsinə düşənlər çox idi». Yazıçı daha sonra qeyd edir ki, «... yerli ermənilər, hətta tacirlər və yoxsul ailələr də bu təşəbbüsdən razı deyildilər. Onlar er-

mənilərin bu xəyanətdə iştirak etməsinə qarşı açıq-açığına çıxmağı bacarmırdılar, çünki mauzerçilər bir qatil, bir Əzrail kimi gündə neçə kərə onların gözlərinə görünürdü... Daşnak partiyası da öz növbəsində bu işləri hiss edərək ətrafdan gələn daşnaklara əlavə olaraq bir para xuliqanları da silahlandırmışdı». Erməni könüllülərini gecə ikən Xoy şəhərinə, Andranikin qərargahına göndərmək istəyirdilər (93, s. 335-337).

Ədibin yazdığına görə, Andranikin Təbrizdən könüllü erməni dəstələri toplamaq cəhdi boşa çıxır. Qeyd edək ki, müəllif Andranikin Təbrizdən könüllü dəstələr toplamaq cəhdindən danışarkən dəqiq tarix göstərmir. Lakin o, daşnak dəstə rəhbərinin bu təşəbbüsündən Təbrizin 1914-cü il həyatından danışarkən bəhs etdiyinə görə, Andranikin Təbrizdəki emissarlarının fəaliyyətinin I dünya müharibəsinin başlanması ərəfəsinə təsadüf etdiyi şübhə doğurmur. M.S.Ordubadinin daşnakların könüllü dəstələr toplamaq cəhdi zamanı Təbrizdəki çar konsulunun köməyinə arxalandıqlarını yazması bizim fikrimizi təsdiqləyir. Bəzi arxiv materialları (88, iş 10, v. 16-17) məhz bu ərəfədə Naxçıvanda da yerli ermənilərin Andranikin dəstəsinə qoşulması haqqında məlumat verir.

1917-ci ilin birinci yarısında Ərzurumda müvəffəqiyyətsizliyə uğrayan (149, s. 640-641) Andranik dekabr ayında üç briqadadan ibarət şərq erməniləri diviziyasının komandiri oldu və diviziya 1918-ci ilin yanvarında erməni korpusuna daxil edildi. Türkiyə hökuməti tərəfindən qanundankənar elan edilmiş Andranik 1917-ci il dekabrın 15-də Erməni Milli Şurasının iclasında demişdi: «Mən o fikirdəyəm ki, cəbhə bu cür parçalanarsa, bəlkə də türklərlə barışmaq lazım gələcəkdir». Dekabrın 19-da keçirilən növbəti iclasda Andranik bildirmişdi: «Əgər məni Ermənistanın oğlu bilirsinizsə, günü sabah Ərzuruma yolla-

nıram... Türkləri və azərbaycanlıları, kürdləri və yəhudiləri qırmaq üçün rəşadətli dəstəmlə gedəcəyəm və heç kim məni saxlaya bilməyəcəkdir»(72, s. 131-132). Onun Ərzuruma yürüşü nəticəsində on minlərlə adam məhv oldu. 1918-ci ilin yanvar-aprel aylarında türk qoşunları Ərzincana, Bayburta, Mamaxatuna, Ərzuruma, Qarsa və başqa şəhərlərə girəndə onların qarşısında erməni vəhşiliklərinin dəhşətli mənzərəsi qalmışdı.

1918-ci martın 3-də Almaniya ilə imzaladığı Brest-Litovsk müqaviləsinə əsasən Rusiyanın I dünya müharibəsindən məğlub durumda çıxması Andranikin və ümumiyyətlə, ermənilərin planlarına böyük zərbə oldu. O, 1918-ci ilin mart ayında Ərzurumu tərk edərək istefaya çıxdı və Tiflisə qayıdaraq şərq ermənilərindən ibarət yeni briqada təşkil etdi. Bununla belə, o, 1918-ci ilin mayında ermənilərin Sərdarabada hücumunda iştirak etmədi (18). Əvəzində isə öz ordusunu gücləndirməyin qayğısına qalaraq Naxçıvan üzərinə irimiqyaslı hücuma hazırlıq işlərinə başladı.

Milli məsələdə ortaq mövqedən çıxış edən erməni liderləri arasında 1917-ci il oktyabr siyasi çevrilişindən sonra Rusiyada təşəkkül tapan yeni siyasi rejimə münasibətdə müxtəliflik nəzərə çarpırdı. Lakin bu fərqli münasibət ayrı-ayrı siyasi düşərgələrə mənsub olan ermənilərin antitürk, antiazərbaycan mövqeyində vahid cəbhədə birləşməsinə heç nə mane olınurdu. Başqa sözlə desək, onlar istənilən siyasi rejimdən öz niyyətlərini həyata keçirməkdə istifadə etmək üçün birləşirdilər. Belə ki, Qərbi Azərbaycan torpaqlarında işğalçı rejim quran daşnaklar erməni kommunistlərinə – S.Şaumyana, Q.Melikyana, T.Əmirova, A.Mikoyana Bakıda hakimiyyəti əldə saxlamaq barədə gizli məsləhətlər verirdilər. Digər tərəfdən I dünya müharibəsi zamanı çar ordusunun zabiti kimi Osmanlı döv-

lətinə qarşı döyüşmüş A.Ozanyanın 1917-ci ilin sonlarında Daşnaksütyun partiyasını tərk etməsi, 1918-ci il martın 5-də Cənubi Qafqazdakı İngiltərə missiyasına və Amerika konsulluğuna ərizə ilə müraciət edərək «xain və satqınlar arasına düşmüşəm, xahiş edirəm, məni dəstə rəisi vəzifəsindən azad edəsiniz» (81, s. 56) yazması ilk baxışda onun öz siyasi iddialarını təkbaşına həyata keçirmək cəhdi kimi görünürdü. Lakin hadisələrin sonrakı axarı göstərdi ki, bu, sadəcə taktiki bir addım imiş. Müxtəlif siyasi düşərgələrə mənsub olan erməni liderləri öz planlarının reallaşdırılması üçün bölgədə marağı olan ayrı-ayrı dövlətlərə meylli olan siyasi qüvvələr spektrini yaratmışdılar. Bu, mürəkkəb olduğu qədər də mütəhərrik olan regional ictimai-siyasi vəziyyətin hər hansı dəyişkənliyinə hazır olmaq məqsədi daşıyırdı.

Andranikin Daşnaksütyun partiyasını tərk etməsi barədə müxtəlif fikirlər vardır. Erməni mənbələri Andranikin daşnak partiyasından 1907-ci ildə çıxdığını qeyd edirlər. Ə.Təbrizli də onun daşnaklardan ayrılmasını 1907-ci ilə, Vyanadan Balkan yarımadasına getdiyi vaxta aid edir. Lakin elə öz əsərinin başqa bir hissəsində o, bunun 1917-ci ildə baş verdiyini yazır: «Son vaxtlar Andranik haqqında erməni mətbuatında və ədəbiyyatında belə qeydlər görünməyə başlayıb ki, «1917-ci ildə o, Daşnaksütyun partiyasından çıxıb və guya daşnak qəzetlərinin yazdığına görə, o, bu partiyanın üzvü olub». Bütün bunlar Andranikin xalqın əleyhinə olan bu partiyaya mənsubluğunu və burjua millətçilərinin əlində bir alət olaraq erməni xalqının tarixi qarşısında məsuliyyətini müdafiə etmək üçün boş cəhdlərdən başqa bir şey deyildir (18). Bundan əlavə Andranik özü «Ayastan» qəzetinə (erməni mənbələri bu qəzetin Andranikin himayəsilə nəşr olunduğunu bildirirlər – E.C.) göndərdiyi məktubunda bu partiyadan 1917-ci ilin

oktyabr ayında çıxdığını göstərmişdir. Üstəlik onun partiyadan çıxması səbəbləri izah olunmamışdır. Onun qəzetdəki bəyanatı çox dumanlı və qeyri-müəyyəndir: «Səbəbini aydınlaşdırmadan Daşnaksütyundakı yoldaşlarıma elan edirəm ki, mən Daşnaksütyun partiyasının sıralarını tərk edirəm».

1918-ci il iyunun 4-də Türkiyə Batumda daşnak rejimi ilə müqavilə bağladıqdan sonra Andranik öz dəstəsi ilə erməni hökumətinə tabe olmayacağını bəyan edərək azərbaycanlılara qarşı qanlı cinayətlərə başlamışdı. Əgər Andranikin daşnak partiyasından rəsmi surətdə 1917-ci ildə çıxması nəzərə alınsa, onda Tiflisdə nəşr olunan erməni qəzetinin belə bir bəyanatına necə ad vermək olar ki, general Andranik 1920-ci ilədək xaricdə daşnak hökumətini təmsil etmişdir? Bu, şübhə oyatmır ki, o, cinayətkar Daşnak siyasətinin sadiq icraçısı olaraq qalmışdır, bunu onun fəaliyyəti sübut edir (18). Çünki 1919-cu ildə «Andranik xaricə getdikdən sonra da bir sıra məclislərdə daşnak hökumətini təmsil etdiyini dəfələrlə söyləmişdi» (81, s. 63).

Andraniklə Qərbi Azərbaycandakı işğalçı daşnak rejimi rəhbərlərinin münasibətlərini müəyyən etmək baxımından rejimin baş naziri O.Kaçaznuninin öz xələfinə yazdığı 4 fevral 1920-ci il tarixli məktubu da diqqətəlayiqdir: «...Biz onu da yadda saxlamalıyıq ki, nə Nubar (Poqos Nubar paşa – E.C.), nə də onun ən yaxın müşaviri Papacanov müstəqil Ermənistanda hakimiyyətə buraxılmamalıdır. Bu iki ada mən 46 milyon manat pul oğurlamış həyasız qatil Andranikin də adını qoşardım. Bu adamları milli canilər kimi güllələmək və onlardan əbədi üz döndərmək lazımdır. Nubarı və ən yaxın əlaltılarını çıxmaqla ramkavarlar, Papacanovu çıxmaqla joqovurdakanlar və Andraniki çıxmaqla Türkiyə erməniləri – gələcəkdə bizim sazişçilik proqramımız belə olmalıdır». Daşnak rejiminin

nüfuzlu xadimlərindən Manukyan, Kaçaznuni və Saakyan Andranikdən biryolluq imtina etmək üçün 1918-ci ilin noyabrında Moskvaya, İstanbula, Berlinə vəd etmişdilər ki, əgər o, «Ermənistan torpağına qədəm basarsa, tərksilah olunub hərbi məhkəməyə veriləcəkdir» (72, s. 138-140).

Bütün bunlar Andraniklə işğalçı daşnak iqtidarının liderləri arasında ciddi ixtilaflar olduğunu təsdiqləsə də, bu hələ onun həbsinə daşnak rəhbərlərinin maraq göstərdiyinin sübutu demək deyil. Andranikin müsəlman əhaliyə qarşı qırğın törədilməsində müstəqil hərəkət etməsi daşnak rejiminin planlarının tərkib hissəsi olub, yeri gələndə bütün qanlı cinayətlərin hamısının məsuliyyətini heç kimə, xüsusən işğalçı daşnak rejiminə və Daşnaksütyuna tabe olmayan silahlı dəstənin üzərinə qoymaq kimi taktiki addıma xidmət edirdi. Digər tərəfdən erməni dəstə başçıları arasındakı ixtilafların kökündə maliyyə fırıldaqlarının durduğu, onların özlərinin də məlumatlarından aydın görünür. Daşnak ordusunun komandanı Nazarbekov Gümrüdəki müstəqil erməni komissiyasının rəhbərliyinə yazdığı 27 iyun 1918-ci il tarixli məlumatda bildirirdi: «Aldığım məlumata görə, əmrlərimə itaət etmədiyi üçün komandam altındakı ordudan bütün ətrafı ilə 5 iyun 1918-ci il tarixdə qovulan Andranikin Naxçıvan ətrafında həqiqətən bir çox zülm və faciə törətməkdə olduğunu türk komandanlığına bildirmənizi rica edirəm» (132, s. 92). Bəzi məlumatlara görə, hətta daşnak hökumətinin liderləri 1918-ci il iyunun 17-də Osmanlı dövlətinin hərbi naziri Ənvər paşaya guya Andranikin dəstəsini darmadağın etmək üçün birgə səylər göstərmək xahişi ilə müraciət etmişdilər (81, s. 62). Lakin sonrakı dövrdə də Andranik Naxçıvanda, Zəngəzurda, Qarabağda azərbaycanlılara qarşı törədilən qırğınlarda elə həmin rejimin tabeçiliyində

olan ordularla əlbir hərəkət etmişdi. Başqa sözlə, hətta onların arasında ixtilaflar olsa belə, hər halda daşnak liderləri onu nə həbs etməyə həvəsli görünürdü, nə də onların Andraniki başqa cür zərərsizləşdirmək fikirləri olmamışdır.

Andranikin Naxçıvana hücumu 1918-ci ilin iyun ayına təsadüf edir. İyunun 11-də Xəlil bəyin təklifi ilə müsəlman və erməni milli komitələrinin birgə keçirilən iclasında yerli erməni dəstəsinin komandiri Y.Xarazyan ermənilərin törətdikləri vəhşilikləri etiraf etdikdən sonra qətl və qarətlərə son qoyulması, ermənilərin tutduqları əsirlərin buraxılması və öldürülən azərbaycanlıların qatillərinin Müsəlman Milli Komitəsinə təhvil verilməsi barədə qərar qəbul edildi. İyunun 12-də hər iki komitə sədri Xəlil bəyin dəvəti ilə Şahtaxtıya getdilər. Bundan əvvəl Y.Xarazyan Xəlil bəyə məktubunda, eləcə də Müsəlman Milli Komitəsilə keçirilən birgə iclasda bildirmişdi ki, o, öz ordusu ilə tezliklə Naxçıvanı tərk edərək Batum müqaviləsi ilə müəyyən olunan sərhədə – Arpaçayın şərq sahillərinə çəkiləcəkdir. Lakin o, Şahtaxtıda Xəlil bəyə növbəti bir əmrə qədər Naxçıvanda qalacağını və bununla da əslində Batum müqaviləsini tanımadığını bildirdi.

Y.Xarazyanın bölgədə qalmağa qərar verməsinin əsas səbəbi isə A.Ozanyanın quldur dəstələrinin Naxçıvana hücuma başlaması ilə aydın oldu. Ermənilərin nicatını yalnız Rusiyada gördüyünü bildirən Andranik Batum müqaviləsini və daşnak hökumətini tanımadığını bəyan edərək iyunun 5-də müstəqil hərəkətə başlamışdı. Andranikin Naxçıvana soxulması və burada törətdiyi zorakılıq hərəkətləri Osmanlı ordusunun bölgəni tutaraq Bakıya doğru irəliləmələrinin qarşısını almaq cəhdi kimi qiymətləndirilir. Onun böyük bir qüvvə ilə hərbi yürüşü Naxçıvandakı erməniləri fəallaşdırmış və onları azərbaycanlılar-

la olan bütün razılaşmaları pozmağa cəsarətləndirmişdi. Çünki bu dövrdə Xəlil bəyin başçılığı ilə bölgədə olan Osmanlı hərbi qüvvəsi Andranikin qüvvəsindən qat-qat az idi.

İyunun 8-də Göyçə mahalındakı Yelenovka kəndindən başlayaraq Yeni Bəyazit qəzasından keçib Naxçıvana doğru yürüş edən Andranik İyunun 19-da Naxçıvan şəhərinə daxil oldu. Onunla eyni gündə Cənubi Azərbaycandan keçərək Culfadan gələn qatarla topçu zabitlər Hüsnü bəy, Helmi bəy və Şükrü bəyin başçılığı ilə daha bir Osmanlı hərbi dəstəsinin şəhərə daxil olması Andranikin öz qanlı əməllərinə bilavasitə Naxçıvan şəhərindən başlamaq planının qarşısını aldı. Erməni quldur dəstələri Culfaya doğru hərəkət etməyə və qarşılaşdıqları bütün kəndlərin əhalisinə divan tutmağa başladılar. Yol boyu bütün körpü və tunellər dağıdıldı. Bu, Osmanlı qoşunlarının bölgədə sərbəst hərəkətinin qarşısını almaq üçün edilmişdi.

Qeyd edək ki, Culfaya doğru hərəkət edərkən Andranik öz dəstəsinin bir hissəsini Əlincəçay hövzəsində yaşayan, xüsusən Əbrəqunusda məskunlaşmış silahlı erməni qüvvələrini özlərinə birləşdirmək üçün bu istiqamətə göndərmişdi. Həmin dəstə Əbrəqunusdan və ətraf kəndlərdən silahlı erməniləri öz tərkibinə aldıqdan sonra oradan Gal kəndinə, Galdan isə Dizə kəndinə və nəhayət, Yaycıya keçərək burada Andraniklə yenidən birləşmişdi. Bu faktı hadisələrin bilavasitə şahidi olmuş həmin kəndlərin yaşlı əhalisi ilə söhbətlər də təsdiqləmişdir. Məhz bu zaman Andranikin dəstəsinin Galdan keçib gələn hissəsi Dizə kəndindən tələsik (onunla birləşmək üçün) keçərkən, silahsız dizəlilər özlərini müdafiə etmək üçün evlərində gizlənmişlər. Lakin bu kənd də erməni cinayətlərindən kənarda qala bilməmiş, 15 nəfər dizəli daşnaklar tərəfindən qətlə yetirilmişdi. Kəndin Həsən Əsgərov adlı bir sakini

Andranikin dəstəsini qorxutmaq üçün özündə olan topdan kortəbii şəkildə pərakəndə atəşlər açırmış. Maraqlıdır ki, bölgədə sovet hakimiyyəti qurulduqdan sonra məhz bu hərəkətinə görə H.Əsgərov, oğlu Məmməd istisna olmaqla, bütün ailəsi ilə birlikdə Qazaxıstana sürgün edildi. Yalnız Stalin dövründə repressiyaya uğrayanların bir çoxunun XX əsrin 50-ci illərinin sonu-60-cı illərində bəraət alması prosesi başlandıqdan sonra H.Əsgərovun da ailəsinə bəraət verilmişdi.

Andranikin Cənubi Azərbaycana doğru hərəkət etməsi İrandakı ingilis qoşunları ilə birləşmək cəhdi ilə bağlı idi. Erməni katolikosu ilə quldur dəstə başçıları arasındakı yazışmalardan aydın olur ki, «sovet Rusiyasına böyük inamla baxan Andranik həm də ingilislərlə birləşməyin erməni xalqını xilas edəcəyini bildirmişdi» (81, s. 57). Lakin Andranikdən fərqli olaraq «sovet Rusiyasına inamla baxmayan» ingilislərin belə olduğu təqdirdə erməni canisi ilə birləşməyə maraqlı olması heç də inandırıcı görünmür. Bu bir daha sübut edir ki, həm Andranikin, həm də digər daşnak liderlərinin bölgədə marağı olan istənilən siyasi qüvvədən, ayrı-ayrı dövlətlərdən istifadə cəhdi zahirən və süni şəkildə guya onların arasında ciddi siyasi fikir ayrılıqlarının olduğu görüntüsünü yaratmışdı.

Andranikin dəstəsi 8 min əsgər, 4 top, 6 pulemyot və s. silah-sursatdan ibarət idi. Bəzi məlumatlara görə, onun başçılığı altında olan canlı qüvvə daha artıq idi. Lakin Naxçıvanda olarkən onun hərbi qüvvələrinin tərkibinin Naxçıvan Müsəlman Komitəsinin verdiyi məlumata görə, 4 min piyada, 2 min süvari, 8 pulemyot və 6 topdan ibarət olduğu aydın olur. Təbii ki, Andranik yürüşü zamanı azərbaycanlıların müqaviməti nəticəsində müəyyən itki də vermişdi. Bu isə onun qüvvəsinin bir qədər azalmasına səbəb olmuşdu. Lakin o, sonradan Xoy-Salmas istiqamə-

tində daha 2 top və 3 pulemyot, Culfanın Yaycı kəndinə yürüş zamanı isə 3 top, 1 pulemyot və 4 milyon patron ələ keçirmişdi (150, s. 131). Eyni zamanda Naxçıvana yürüşü zamanı onun dəstəsinə xeyli sayda burada yaşayan ermənilər də dəstə şəklində qoşulmuşdular.

İyunun 21-də erməni quldur dəstələri Culfanı işğal edərək İrana gedən körpünü tutduqdan və onu mühafizə edən 2 türk zabitini və 20 əsgəri əsir aldıqdan (88, iş 63, v. 183) bir gün sonra 3000 piyada, 700 süvaridən ibarət qoşunla Xoydan 30 km aralıda yerləşən Evoğluya daxil oldular. Quldurlar yolboyu Osmanlı ordusunun 4 zabiti ilə birlikdə 200 əsgərini əsir götürmüş, 2 topu və 3 pulemyotu qənimət kimi ələ keçirmişdilər. Andranik Culfanın işğalından sonra S.Şaumyana göndərdiyi 22 iyun 1918-ci il tarixli 577 №-li teleqramında yazırdı: «Culfa mənim əlimdədir, istədiyimiz vaxt onu sizin sərəncamınıza verə bilərəm». Bu teleqramında o, mərkəzi Rusiya hökumətinin sərəncamına keçdiyini və Bakı kommunasına yardım göstərməyə hazır olduğunu bildirirdi. Bu teleqram və Şaumyanın ona cavabı bir çox mətləblərə işıq salır: «Culfa, xalq rəhbəri Andranikə. Sizin teleqramı aldım. Bütün mətni Moskvaya Mərkəzi hökumətə xəbər verdim. Mən şəxsən Sizi, həqiqi milli qəhrəmanı təbrik edirəm. Əgər cənab Kaçaznuni və başqaları Sizin kimi olsaydılar, erməni xalqı indi belə çətinliklə yaşamazdı... Əgər türk bəyliyinə və xanlığına, gürcü hakimiyyətinə, erməni burjuaziyasına qalib gəlsək, o zaman bütün Cənubi Qafqazın birliyinə nail olarıq...Mənimlə əlaqə yaratmaq üçün yollar aramağı rica edirəm» (31).

Urmiya gölünün şimal və şimal-qərb ətrafındakı Azərbaycan kəndlərində misli görünməmiş vəhşiliklər törədən ermənilər iyunun 24-də Xoyu işğal etsələr də, elə həmin gün Osmanlı ordusuna məğlub olaraq şəhərdən qovuldu-

lar. İngilislərlə birləşmək planı baş tutmayan Andranik Naxçıvana qayıdarkən Culfa körpüsünü dağıtdı. Bundan sonra Naxçıvan üçün faciəli günlər başlandı, Andranik Xoy yaxınlığındakı məğlubiyyətinin qisasını naxçıvanlılardan almağa başladı. Araz çayı sahilindəki 4 min nəfərə yaxın əhalisi olan Yaycı kəndi yerlə yeksan edildi, kənd əhalisinin 2000-2500 nəfəri öldürüldü (142, s. 35; 50). Erməni süngüsündən sağ qurtaran əhalinin bir çoxu; qadınlar, uşaqlar, qocalar İrana qaçmaq üçün Araz çayını keçərkən boğulmuşdular. Qərbi Azərbaycanda ermənilər tərəfindən başlanan etnik təmizləmənin 1988-ci ildən başlanan mərhələsində, 1991-ci il avqustun 7-də boşaldılan sonuncu azərbaycanlılar yaşayan kəndin – Nüvədinin yaşlı əhalisinin bu gün də yaxşı xatırladığı bir fakt Yaycı faciəsinin miqyasını sübut edir. Belə ki, Andranikin quldur dəstəsinin qıraraq Araz çayına tökdüyü yaycılıların cəsədlərini nüvədililər çayın kəndlərinin yaxınlığından keçən hissəsində sahilə çıxararaq dəfn etmişdilər. Meyitlərin sayı o qədər çox idi ki, böyük bir qəbiristanlıq yaranmışdı. İndi erməni işğalı altında qalan həmin məzarlar o dövrdən Nüvədi kəndində Yaycı qəbiristanlığı adı ilə tanınmışdır.

Nehrəmli Tağı Nağdəlizadə ermənilərin törətdikləri qırğınları o vaxt «İstiqlal» qəzetində yazdığı məqalədə ispanların XIII-XV əsrlərdə Əndəlus vilayətində ərəblərə qarşı törətdikləri qanlı cinayətlərlə müqayisə edirdi. Yaycıdan Ordubada doğru irəliləyən Andranik qarşısına çıxan azərbaycanlı kəndlərini dağıda-dağıda ermənilərin yaşadığı Çənnəb kəndində məskən saldı. Ordubadlılardan tələb etdiyi ərzağı və Xudafərin körpüsündən İrana keçməyə istədiyi şəraiti əldə edə bilməyən erməni cəlladı 4 min nəfərlik dəstə ilə «Naxçıvan yürüşü»nə başladı. Andranikin dəstəsinin Ordubada yürüşü 2 min azərbaycan-

lının ölümü, zülmdən qaçmaq üçün Araz çayından keçən 300 nəfərin boğulması ilə nəticələnmişdi.

«Naxçıvan yürüşü» də yolboyu çoxlu kəndlərin dağıdılması, əhalinin talan edilməsi və qırılması ilə müşayiət olundu. Ordubad ətrafı, Əlincəçay boyu və Şahbuz kəndlərinin əhalisi tərksilah olunub, xeyli hissəsi qətlə yetirildi. Andranikin quldur dəstələri ilə birlikdə yerli kəndlərin əhalisi olan ermənilər də qanlı cinayətlərdə yaxından iştirak edirdilər. Şahbuz yaxınlığındakı Qarababa və Bədamlı kəndlərində yaşayan ermənilər Nurs, Şahbuz, Kolanı, Gecəzur, Hənzər, Daylaqlı, Mahmudoba və s. kəndlərini talan edib, əhalisinin çox hissəsini qətlə yetirdilər. Əlincəçay vadisinin Əbrəqunus, Qazançı, Paradaş və Şurut kəndində məskunlaşmış ermənilər isə Baş Anzır, Ayaq Anzır, Xanağa, Bənəniyar, Camaldın, Ərəzin və Kırna kəndlərinin əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. Bu kəndlərin sağ qalan əhalisinin bir qismi başqa kəndlərə, digər qismi isə dağlara sığındılar. Şahidlər Xanağa kəndində 400 nəfərlik erməni hərbi dəstəsinin toplaşdığını bildirirdilər. Şıxmahmud və Qaraxanbəyli kəndlərində məskən salmış ermənilər isə Naxçıvan şəhərinin əhalisini daim qorxu altında saxlayırdılar. Digər tərəfdən Erməni Milli Komitəsi tez-tez Andranikin Naxçıvana yürüş edəcəyi barədə Müsəlman Milli Komitəsinə məlumat verməklə psixoloji gərginliyi artırırdı. Vəziyyəti gərginləşdirən amillərdən biri də Naxçıvanda və ətraf kəndlərdə vəba epidemiyasının yayılması idi. Belə ki, xəstəlikdən hər gün bir neçə adamın dünyasını dəyişməsi adi hal almışdı (42, s. 58-67).

Törətdiyi qırğınların miqyası o qədər böyük idi ki, Andranik öz qanlı cinayətləri ilə artıq Naxçıvanı öz hakimiyyətinə tabe etdiyini düşünürdü. Elə bunun nəticəsi kimi iyulun 15-də o, Naxçıvan qəzası əhalisinin tərksilah

olunması haqqında əmr vermiş və bölgədə hərbi hakimiyyət yaratdığını elan etmişdi. Əmrin məzmunu aşağıdakı kimi idi: «1. Bu gündən etibarən öz dəstəm ilə tamamən mərkəzi Rusiya Respublikası hökumətinin tabeliyinə və sərəncamına keçirəm; 2. Brest-Litovsk müqaviləsinə görə Naxçıvan Rusiya Respublikasının ayrılmaz hissəsidir; 3. Qəzada hərbi vəziyyət elan edirəm; 4. Milliyyətindən asılı olmayaraq bütün qəza əhalisi dərhal tərksilah olunmalıdır; 5. Respublika hökumətini tanımayan, yaxud onun düşmənlərinə kömək edənlər Rusiyanın satqını və qanundankənar hesab edilərək ağır cəzaya məruz qalacaqlar; 6. Ayrı-ayrı şəxslərdə və ictimai təşkilatlarda olan bütün silah növləri, geyimlər və ümumiyyətlə, digər təchizatlar iki gün ərzində dərhal hərbi hökumətin sərəncamına verilməlidir» (150, s. 132).

Həmin gün Müsəlman Milli Komitəsinin iclasında Andranikin müsəlman nümayəndələrini Əbrəqunus kəndinə dəvət etməsi haqqında məktubu oxundu. Əbrəqunusa göndərilmək üçün nümayəndələr müəyyənləşdirilsə də, heç kim həyatını təhlükə qarşısında qoyaraq Andranikin çağırışına qulaq asmadı. Həmin gün Y.Xarazyanın Andranikin adından verdiyi tərksilah olunmaq barədəki tələbi də yerinə yetirilmədi. Əvəzində Xəlil bəyin vəziyyəti nəzarət altına almaq cəhdləri nəticə verirdi. İyulun 16-da quldur dəstələrinin Naxçıvanda növbəti dəfə tərksilah tələbini irəli sürdükləri vaxtda Şərurun Noraşen və Xanlıqlar kəndlərində yaşayan ermənilər silahlarını Xəlil bəyə təhvil verdilər.

Şahtaxtıda və onun ətrafında olan kəndlərdə Xəlil bəyin nəzarəti ələ almasına rəğmən Naxçıvan şəhərində və ondan cənubdakı ərazilərdə Andranikin və Xarazyanın silahlı dəstələri hökmranlıq edirdilər. İyulun 17-də Andranik Güznütdən bölgənin ən böyük kəndi olan Nehrəmə

yürüş etdi. Nehrəm yaxınlığındakı XIX əsrdə köçürülən ermənilərin saldığı Təzəkənd əhalisinin hücum olacağı barədə xəbərdarlığını və onun digər kəndlərdə törətdiyi vəhşilikləri eşidib lazımi hazırlıq görən nehrəmlilər Andranikin dəstələrinə böyük tələfat verib düşməni geri oturtdular. Məlumatlara görə, 25 nəfər erməni qulduru Nehrəm döyüşlərində məhv edilmiş, düşmənin 60-a qədər silahı ələ keçirilmişdi. Kəndin müdafiəsində Hacı Əli, Hacı Heydər Dünyamalı oğlu, Kərbəlayi Muxtar, Kazım, Məşədi Heydər, Həsənqulu Həsənov, Hacı Mehdi, İbrahim Hacı Fərzalı oğlu, Müseyib və Müslüm adlı qardaşlar, Sadıq və onlarla digər nehrəmli böyük rəşadətlə döyüşmüşdülər (88, iş 72, v. 103-105). Üç günlük döyüşdə çoxlu itki verdiyini, Culfa yürüşündən fərqli olaraq burada daha ətraf erməni kəndlərindən kömək gəlmədiyini, bununla da Nehrəmin işğalınm mümkün olmadığını anlayan Andranik kəndin kənarında zəbt etdiyi bir-iki evi yandıraraq Nehrəmi tərk etməyə məcbur oldu.

Bundan bir gün sonra Qaraxanbəylidə məskunlaşmış ermənilər Naxçıvan şəhərinə hücum etdilər. Ermənilərin Andranikin adından verdikləri tərksilah tələbinə osmanlı çavuşu Mustafanın başçılığı ilə əks hücumla cavab verildi. İyulun 19-da Culfa tərəfdən daxil olan Osmanlı qoşunları erməniləri sıxışdıraraq Naxçıvana doğru irəliləməyə başladı. İyulun 20-də Şıxmahmud və Əliabad kəndlərini ermənilərdən təmizləyən Xəlil bəy, Cavid bəy, Osman Nuri bəy, Həsən bəy və Akif bəyin başçılığı altında Osmanlı qoşunları həmin gün Naxçıvan şəhərini də azad etdilər. Naxçıvan şəhəri uğrunda döyüşlərdə 20-dən çox türk əsgəri həlak oldu. Türk ordusunun bu hərbi əməliyyatlara başının qarışmasından istifadə edən ermənilər Dərələyəz kəndlərinin əhalisinə divan tutdular. Naxçıvandan və ətrafındakı bəzi kəndlərdən qovulub çıxarılan erməni

dəstələri birləşərək Sirab, Qahab və Qaraqala kəndlərini talan edərək əhalinin xeyli hissəsini qırdılar.

Osmanlı ordusunun XI Qafqaz diviziyası Naxçıvanı ermənilərdən təmizlədikdən sonra iyulun 22-23-də Culfanı da azad etdi. Diviziyanın bir alayı Culfanın, digər bir alayı Şahtaxtınm müdafiəsi üçün saxlanılaraq qalan bütün qüvvələr Naxçıvan şəhərinə aparıldı. İyulun 24-dən 31-dək Naxçıvan qəzasının gənclərindən min nəfərlik hərbi qüvvə təşkil olundu və bölgəyə yeni göndərilmiş Türkiyənin XI alay komandanı Sürəyya bəyin sərəncamına verildi.

İyulun sonlarında Naxçıvan kəndlərində məskunlaşmış ermənilərin ona 6 min əsgər verəcəkləri vədinə və Naxçıvan üzərinə yerimək xahişinə, ən başlıcası isə Osmanlı qoşunlarının bölgənin içərilərinə doğru irəliləməsinə görə Andranik dəstəsi ilə Əbrəqunusa gəlmişdi. Lakin özünün sonralar, 1918-ci il noyabrın 22-də yazdığı və «Naşe vremya» qəzetinin 13 yanvar 1919-cu il tarixli sayında dərc olunan məktubunda etiraf etdiyi kimi, Əbrəqunusdakı ermənilər tərəfindən rəğbətlə qarşılanmayan Andranik burada əlavə qüvvə toplaya bilməmişdi. O, iyulun sonlarında Əbrəqunus və avqustun 3-də Naxçıvan stansiyası yaxınlığında döyüşlərdə Osmanlı ordusuna məğlub olmuş, Ordubadın Bist, Nəsirvaz kəndlərindən keçərək Oxçu vadisi ilə Qafana, avqustun axırlarında oradan Gorusa gələrək burada özünə məskən salmış (120, s. 48) və qanlı cinayətlərini Zəngəzurda davam etdirmişdi. Andranikin əlavə qüvvə toplaya bilməməsinin bir səbəbi artıq Naxçıvan kəndlərindəki bütün silahlı ermənilərin onun dəstəsinə qoşulması idisə, digər səbəbi də Osmanlı ordusunun ona ağır zərbə vurduğunu görən yerli ermənilərin Andranikin gec-tez məğlub olacağını görərək hiyləgər tərpənmələri idi. Belə ki, onlar Andranikin ordusu ge-

ri çəkildikdən sonra, onun cinayətlərinin iştirakçısı kimi, türk hərbçiləri tərəfindən təzyiqlərə məruz qalacaqlarından çəkinirdilər.

Andranikin Naxçıvanı tərk etməsindən sonra bölgənin vəziyyəti son dərəcə acınacaqlı idi. O, əvvəlki illərdə Şərqi Anadoluda törətdiyi vəhşilikləri indi Naxçıvanda təkrarlamışdı. Təkcə Gilançay və Əlincəçay hövzələrində 80-dən çox kənd viran qoyulmuş, əhalinin böyük qismi qətlə yetirilmişdi. Andranikin qaniçən dəstə başçılarından olan Njdenin qüvvələri Ərəzin, Camaldın, Yaycı, Dizə, Ordubad mahalının Aşağı Aza, Sabir Dizə, Baş Dizə, Düylün, Vənənd, Dəstə, Kotam və s. kəndlərini dağıdıb, viran qoymuş, dinc əhaliyə vəhşicəsinə divan tutmuşdu. Bəzi məlumatlara (81, s. 60) görə, Andranikin bölgəyə hücumu 300-dən artıq Azərbaycan kəndinin məhvi, minlərlə insanın qətli ilə nəticələnmişdi. Təbii ki, erməni quldur dəstələrinin amansız basqınları bölgəyə böyük itkilər hesabına başa gəlmişdi. Lakin bununla belə, 300-dən artıq kəndin məhvi barədə məlumat, zənnimizcə, ya bir qədər şişirdilmişdir, ya da bütövlükdə 1918-1920-ci illər qırğınları ərzində dağıdılan yaşayış məntəqələrinin sayını əks elətdirir.

K.Qarabəkir paşanın tabeliyində olan qüvvələr Naxçıvan üzərində tam nəzarəti bərpa etdikdən sonra o, Cənubi Azərbaycana hərəkət etdi. Osmanlı ordusu qərargahının 1918-ci il avqustun 23-ə olan məlumatında bildirilirdi ki, Zəngəzurda və ətrafında 8 mindən çox canlı qüvvə toplayan Andranik hücuma hazırlaşır. Avqustun 28-ə olan digər məlumatda deyilirdi: «Naxçıvanın şimal-şərq bölgəsində Andranik səfərbərlik elan edərək 15 yaşdan 45 yaşadək ermənilərin hamısını silaha sarılmağa çağırmışdır. Andranik 5000 erməni ilə Gorusun 10 km cənub-qərbində – quldurların 700 piyada, 400 atlı, 4 pulemyot, 2 dağ topu olduğu (142, s. 34-36) həmin yerlərin ermənilərini də ixti-

lafa çağıraraq müsəlmanları qətlə yetirməyə təşviq edir». Başqa bir məlumatdan anlaşılır ki, Zəngəzurdakı Qatar misəritmə zavodlarında fransız kompaniyasından qalan partlayıcı maddələrdən istifadə etməklə hərbi sursat hazırlayan zavodu işə salmışdı (5, v. 92). Andranikin dəstələri Ordubadın 15 verstliyində 10-dan yuxarı Azərbaycan kəndini talan etmişdilər: Kilit, Lehvaz, N.Vartanazur, B.Vartanazur, Tey, Quğakar, Taqamir və s. Əlidərə, Tuğut, Mərzit, Pyuvadi və Ərnəzir kəndlərini isə ələ keçirmişdilər. Qorxmuş əhali İrana qaçmağa cəhd elədi, çoxlu gəlin, qadın və uşaq Arazda boğuldu. Didərginlər Araz sahilində sığınacaqsız dolaşırdılar (18). Əsir düşmüş qoca ermənininin sözlərinə görə, Andranik bu kəndləri Zəngəzur ermənilərinin xahişi ilə dağıtmışdır (28, s. 76).

Andranikin törətdiyi vəhşiliklərin qarşısının alınması barədə Azərbaycan hökumətinin 15 avqust 1918-ci il tarixli etiraz notasına cavabında daşnak hökuməti növbəti dəfə Andranikin silahlı qüvvələrinin özünə tabe olmadığını bəhanə edərək bildirmişdi ki, general Andranik və onun dəstəsi erməni ordusunun tərkibindən silinmişdir. Buna səbəb isə onun və dəstəsinin daşnak hökumətini tanımadıqları barədə bəyanatları olmuşdu. Buna görə də daşnak rejimi Andranikin və onun dəstəsinin cinayətkar əməlləri üçün cavabdehlik daşımadığını bildirmişdi (9, iş 11, v. 149, 180, 193). Halbuki Andranik törətdiyi cinayətlərdə daşnak rejimində yüksək vəzifələr tutmuş terrorçu dəstə başçıları (Njde, Dro və s.) ilə birgə hərəkət etmişdi. Lakin hər halda, həm Osmanlı ordusunun hərəkəti, həm də Sultan bəyin başçılığı ilə Hacısamlı regionu əhalisinin qəhrəmanlığı Andranikin və digər erməni cəlladı Şahnəzərovun Zəngəzuru tamamilə işğal etmək planlarını boşa çıxardı (29, s. 8-12).

Bununla belə, sentyabrın 5-də yerli ermənilərdən iba-

rət silahlı dəstələr Gal, Bist, Əbrəqunus və Qarababa kəndlərindən azərbaycanlıları qovub-çıxardılar. Avqustun son günlərində İrəvan müsəlmanları ermənilərin təzyiqi altında öz yurdlarını tərk edərək Naxçıvana sığındılar. Sentyabrın 13-də Andranikin və Yaponun dəstələri Dərələyəz mahalının Cul, Märtiruk, Keşişkənd və Hakaza kəndlərinə hücum edib azərbaycanlı əhalini qırdılar. Qafqaz İslam Ordusunun sentyabrın 15-də Bakını Sentrokaspi tör-töküntüsündən azad etdiyi gün Naxçıvandakı Osmanlı qüvvələri də Badamlı kəndini azad etdi. Bu ərəfədə Andranikin qüvvələri Zəngəzurun Rut, Dərəbas, Abudu, Vahudi, Araxlı, Şükür Məlikli, Pulkənd, Şəki, Qızılçək, Qarakilsə, İrlik, Paxlalı, Qurdlar, Kotanan, Sisyan və Zəbəzədur kəndlərini yandıraraq 500 nəfərdən çox azərbaycanlını qətlə yetirdilər. Qortqız, Dəstəgir və s. kəndlər yer üzündən silindi. Andranikin quduzlaşmış ordusunun Tat kəndində törətdiyi vəhşiliklər heç bir müharibə tarixində görünməmişdi (29, s. 7). Zəngəzurda, Naxçıvanda, Ordubadda, İrəvan quberniyasının digər ərazilərində qanlı cinayətlər törədən Andranik öz dəstəsi ilə Qarabağda: Cavanşir, Cəbrayıl və Şuşa qəzasında da azərbaycanlı əhaliyə qarşı qırğınlar təşkil etmişdi.

Türkiyədə çıxan «Sabah» qəzeti 1918-ci il 17 sentyabr tarixli sayında «Ermənistan hökuməti; Andranikin dəstəsinin dağılması» başlıqlı məqaləsində yazırdı: «Türkiyə ilə sülh bağlayan Ermənistan Cümhuriyyəti hər cür hərbi hərəkatdan əl çəkdi. Fəqət Andranikin bir könüllü dəstənin başına keçərək fəaliyyətinə davam etməsi İstanbulda və Qafqazdakı türklər arasında narahatlıq yaratdı. Buna görə də Ermənistan hökuməti Andranikdən dəstəni dağıtmağı tələb etdi; Andranik və dəstəsi də silahı yerə qoyaraq dağıldılar». Təbii ki, bu, həqiqətə uyğun deyildi və qəzet yayılan hansısa şayiələrə əsaslanmışdı. Çünki 1918-ci

ilin sentyabrından sonra da Andranikin dəstələri istər Qərbi Azərbaycanda, istər də Şərqi Anadoluda qanlı cinayətləri davam etdirmişdi.

1918-ci ilin dekabrı-1919-cu ilin yanvar-fevral aylarında Andranikin Zəngəzur əhalisinə qarşı vəhşiliyi yenidən vüsət aldı. Gəncə qubernatorunun 14 dekabr 1918-ci il tarixli 70 №-li teleqramında bildirilirdi ki, «A.Mikoyanın təhrikilə tayqulaq Andranikin və Hamazaspın Daşnak dəstələri Maku və Xoy marşrutu ilə Zəngəzurdan keçərək Qarabağda dinc azərbaycanlı əhalini qətlə yetirirlər» (168, s. 103). Zəngəzur qəza rəisinin 114 nömrəli teleqramında deyilirdi: «Ermənilər Andranikin başçılığı ilə ingilis-fransız nümayəndəliyinə verilən vədin əksinə olaraq 30-dan artıq müsəlman kəndini dağıdıb, yandırıb və əmlakını talan ediblər. Qaçıb qurtara bilməyən sakinlər vəhşicəsinə öldürülmüşdür». Zəngəzur qəzasının idarə müdiri Ağdaşın 1919-cu ilin yanvarındakı 349 nömrəli teleqramında bildirilirdi: «Quşçulu, Əcili, Əfsərli kəndləri ermənilər tərəfindən yanvarın birinci günlərində dağıdılıb. Şəhərcik, Açağu, Oxçu mühasirə edildikdən sonra ermənilər tərəfindən alınmış Girətağ, Mollalı, Qovşud, Qarabaşlar, Baharlı, Gığı, Daşbaşı, Mahmudlu, Keypəşin, Həçəti, Kurut, Pəyhan, Kırs, Acıbac kəndləri ermənilər tərəfindən mühasirəyə alınmışdır. Vuruşmada Andranikin dəstəsindən yüzlərlə adam iştirak edir» (28, s. 75-76). Onun iç üzünü göstərən A.Lalayan yazırdı: «Qaniçən xmbapetlərin (Andranik, Hamazasp və b.) başçılığı ilə daşnrak dəstələri türk qadınlarının və uşaqlarının, qocaların və xəstələrin məhv edilməsində maksimum «igidlik» göstərdilər. Daşnak dəstələri tərəfindən işğal edilən müsəlman kəndləri canlı insanlardan təmizlənir və tanınmaz meyitlərlə dolu səhralara çevrilirdi» (bax: 168, s. 95).

Andranikin vəhşiliyi o dərəcəyə çatdı ki, Bakı azad

edildikdən sonra Qafqaz İslam Ordusunun böyük bir hissəsi Qarabağa göndərildi. Xəlil bəy də Ordubadda təşkil etdiyi topçu batareyasının bir bölüyünü Zəngəzura göndərdi. Bu zaman Bazarçayda yaşayan malakanlar Osmanlı dövlətinin himayəsini xahiş edərək Andranikin tutulmasına yardım edəcəkləri barədə bölgədəki türk ordusunun komandanlığına məlumat göndərdilər. Onlara Andraniki təslim edəcəkləri halda istədikləri himayə, hətta mükafat da vəd olundu. Şərqdən Qafqaz İslam Ordusu, qərbdən isə Naxçıvandakı Osmanlı hərbi qüvvələri tərəfindən sıxışdırılan Andranik Zəngəzur əhalisinə qarşı amansız hücumlara başladı. Qarakilsə və Darıkənd ətrafında azərbaycanlılarla erməni dəstələri arasında qanlı döyüşlər getdi və nəticədə Zəngəzurun onlarla müsəlman kəndi yandırıldı. Oktyabrın 6-da Andranik Qafqaz İslam Ordusuna məğlub olsa da, yalnız Mudros müqaviləsi bağlandıqdan sonra ingilislərin təkidi ilə hərbi əməliyyatlar dayandırıldı (3, s. 70). Lakin bu, nəinki Andranikin fəaliyyətinin dayandırılmasına səbəb oldu, əksinə, bundan sonra o, daha da azğınlaşdı. Osmanlı qüvvələrinin uğurlu hərbi əməliyyatlarının nəticəsi idi ki, Q.Orconikidze Vladiqafqazdan Leninə vurduğu teleqramda Andranikin Qarabağda xaincəsinə öldürüldüyünü, Qarabağ əhalisinin yarısının, Şuşa və Zəngəzur qəzaları əhalisinin, Bakıda isə 30 min erməni və fəhlənin türk ordusu tərəfindən qətlə yetirildiyini yazırdı (81, s. 85-86). Təbii ki, öldürülən «Qarabağ əhalisinin yarısı», qətlə yetirilən Şuşa və Zəngəzur qəzaları əhalisinin hamısı azərbaycanlılar idi. Bakıda «30 min erməni və fəhlənin türk ordusu tərəfindən qətlə yetirilməsi» isə ağ yalandan başqa bir şey deyildi.

Əsl həqiqət isə Naxçıvanda olduğu kimi, Zəngəzurda da Andranikin yürüşünün ağır faciələrə səbəb olmasından ibarət idi. 1919-cu il mayın 9-da Azərbaycan hökumətinin

yaratdığı Fövqəladə İstintaq Komissiyasının üzvü Mixaylov öz məruzəsində Andranikin və digər erməni silahlı birləşmələrinin hücumunun Zəngəzur üçün faciəli nəticələrini rəqəmlərlə ifadə edirdi. 1918-ci ilin yazı və payızı ərzində Zəngəzurun 115 kəndi erməni terrorçu dəstələri tərəfindən dağıdılmışdı. Bu dövrdə 3257-i kişi, 2276-ı qadın və 2196-ı uşaq olmaqla 7729 azərbaycanlı xüsusi amansızlıqla öldürülmüşdü. 1060-ı kişi, 794-ü qadın və 485-i uşaq olmaqla 2239 nəfər isə şikəst olmuş, yaralanmış, 1 milyard rubla yaxın maddi ziyan dəymişdi (9, iş 161, v. 7-9).

Andranikin «qarşısıalınmazlıq» mifini yaradan, vəhşiliyinin miqyasını artıran, onun öz qanlı əməllərini həyata keçirməsinə şərait yaradan əsas amil bölgədəki vəziyyət idi. Əvvəla, o, Antanta dövlətləri tərəfindən lazımi şəkildə himayə olunurdu (6, iş 65, v. 44-45), ikincisi bölgə əhalisinin silahlanma vəziyyəti onun dəstəsi ilə müqayisədə çox pis idi, üçüncüsü, Naxçıvanda yerli rəhbərlər arasında çəkişmələr mütəşəkkil müdafiənin təşkilinə mane olurdu və ən nəhayət, Azərbaycan Xalq Cümhüriyyəti hökumətinin bölgə ilə əlaqəsi, xüsusən hərbi köməyi yox dərəcəsində idi və s.

1919-cu ilin iyul ayında Zəngəzurla Şərqi Anadolu arasında hərbi yürüşlərini davam etdirən Andranikin dəstələri Gorus ətrafında yerləşən kürd kəndlərini də dağıtmış, bölgənin bütün kürd əhalisi məhv edilmişdi. «Naşe vremya» qəzeti 1919-cu il 3 yanvar tarixli sayında yazırdı ki, azərbaycanlılarla qonşuluqda yaşayan ermənilərin məskunlaşdıqları kəndlər də Andranikin qəddarlığından əziyyət çəkməkdədirlər. Andranik isə öz növbəsində Əbrəqunusda zəruri səfərbərlik həyata keçirə bilmədiyindən gileylənirdi (168, s. 129-130). Ümumiyyətlə, arxiv sənədləri 1915-1918-ci illərdə yüz minlərlə türk əhalisi ilə yana-

şı, Türkiyənin cənub vilayətlərində 600 mindən çox kürdün terrorçu erməni qruplaşmaları tərəfindən məhv edilməsi barədə şahidlik edir (10, iş 15, v. 3-5). Mənbələr erməni dəstələrinin 1920-ci ilin martında hələ də terrora davam etdiklərini göstərir. Martın 23-də Əsgəran şəhərinin tutulmasında və dinc əhalinin qətlə yetirilməsində də Andranikin dəstəsinin tör-töküntüləri xüsusi fəallıq göstərmişdi (9, iş 113, v. 91).

Ə.Təbrizli yazır ki, «1919-cu ilin mart ayında ingilislər ondan öz dəstəsini buraxmağı tələb edirlər və Andranik aprel ayında Cənubi Qafqazı tərk edir. O, əvvəlcə Fransaya, İngiltərəyə, sonra isə Kaliforniyaya gedir, hər yerdə öz xalqına və ölkəsinə xeyir vermək üçün fəaliyyət göstərir». Erməni mənbələrinə görə, Andranik 1927-ci ildə ABŞ-ın Kaliforniya ştatının Çiko şəhərində ölmüş, Frezno şəhər qəbiristanlığında dəfn olunmuş, 1928-ci ildə cəsədi Parisdəki Per-Laşez qəbiristanlığına köçürülmüşdür. 1999-cu ildə Andranikin cəsədi İrəvan şəhəri yaxınlığındakı Yerablur hərbi qəbiristanlığına köçürülmüşdür.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ölümündə şübhəli bilinən marşal İ.Baqramyan yazırdı: «Ermənilərin geniş təbəqələri Andranik haqqında inkaredilməz belə bir fikir deyirlər ki, o, öz həyatını doğma Qərbi Ermənistanın (Şərqi Anadolunun – E.C.) mürtəce, şovinizm, dini dönməməzlik zəhəri ilə zəhərlənmiş Osmanlı Türkiyəsinin hakim dairələrinin əsarətindən azad etməyə həsr etmişdir. Bu müqəddəs mübarizə onun əsas siyasi amalı olmuşdur. Məhz bu xeyirxah əməldə Andranik Ozanyan əfsanəvi xalq qəhrəmanı kimi şöhrət qazanmışdır». Onun sovet Rusiyasına olan rəğbətinə baxmayaraq RSFSR Xarici İşlər Komissarı G.Çiçerin Andraniki «Antanta agenti» adlandırır, onun Bakını işğal etmiş ingilis generalı Denstervillə birləşməyə cəhd etdiyini göstərirdi.

Azərbaycan xalqına sırınmış Qarabağ müharibəsinin bədnam ideoloqu Z.Balayan, öz sələfi Şaumyan kimi, Andraniki «xalq qəhrəmanı» hesab etdiyini bildirir.

Son iki əsr ərzində xalqımıza qarşı daim (gizli və yaxud aşkar şəkildə) düşmənçilik siyasəti yeritmiş erməni siyasi təşkilatlarının, siyasi əqidəsindən asılı olmayaraq bütün erməni liderlərinin Andranikə olan müsbət münasibəti onun məhz azərbaycanlılara, Türkiyənin türk və kürd əhalisinə qarşı qaniçən fəaliyyətindən doğmuşdur. Bu baxımdan ermənilərin özlərinə «milli qəhrəman» hesab etdikləri Andranikin Azərbaycan və Türkiyə xalqlarının cəlladı kimi tarixə düşdüyü, məhz bu səbəbdən onun qaniçən obrazının yaşlı nəslin, habelə tarixin daş yaddaşında həkk olunduğu şübhəsizdir.

# NƏTİCƏ

Azərbaycan torpaqlarının əsrlər boyu məruz qaldığı təcavüz bütövlükdə xalqımızın həyatında, ölkəmizin tarixində ağır izlərini buraxmışdır. Cənubi Qafqaz kimi strateji cəhətdən qlobal maraqların toqquşduğu bölgədə yerləşən ölkəmiz, xüsusən XVIII əsrdən başlayaraq genişlənən nüfuz uğrunda mübarizədə «erməni kartı»nın tətbiq edildiyi coğrafi ərazi olmuşdur. Ayrı-ayrı dövlətlərin əlində vasitə olmaqdan bir fürsət kimi istifadə edən ermənilər tarixdə heç vaxt mövcud olmamış «Böyük Ermənistan» adlandırdıqları xəyali dövlətlərinin Türkiyə və Azərbaycan torpaqları hesabına real olaraq qurulması uğrunda mübarizəyə başladılar. Bu zaman erməni iddialarının və təcavüzünün ən çox yönəldiyi ərazilər Naxçıvan, Qarabağ və Qərbi Azərbaycan torpaqları oldu.

Ermənilər XIX əsrin əvvəllərində çarizmin Türkiyə və İranla apardığı müharibələrdə öz himayədarları Rusiyaya bütün vasitələrlə kömək etdilər. Müharibələr başa çatan kimi çarizm ermənilərin Cənubi Qafqaza köçürülməsini təmin etməklə tarixi rəqibləri ilə öz arasında xristian ermənilərlə məskunlaşdırılmış sərhəd zonası yaratmaq siyasəti yürütməyə başladı. Faktlar sübut edir ki, ermənilərin Azərbaycanda məskunlaşdırılması prosesi uzaq hədəflərə və uzunmüddətli planlara hesablanmış siyasətin tərkib hissəsi olmuşdur. Çarizmin birbaşa Azərbaycana, onun yerli əhalisinə qarşı yönəlmiş müstəmləkəçi siyasəti ermənilərin xalqımıza qarşı məkrli planları ilə paralellik təşkil edirdi. Beləliklə, XIX əsrin ikinci rübündən erməni köçürülmələri Azərbaycanda əhalinin etnik tərkibində və milli münasibətlərdə özünü bariz şəkildə göstərdi.

XIX yüzilliyin 60-90-cı illərində Şərqi Anadoluda geniş qanlı iğtişaşlar dalğasını həyata keçirən ermənilər

burada müvəffəq ola bilmədikdən sonra Azərbaycan torpaqlarında fəaliyyətə başladılar. Çarizmin inqilabiləşən Azərbaycanı cəzalandırmaq üçün gördüyü tədbir ermənilərin əli ilə milli qırğın törətmək oldu. 1905-1907-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilən soyqırım Naxçıvan bölgəsini də əhatə etdi. Nəticədə bölgə əhalisinin sayı qırğınlardan sonra iki dəfəyədək azaldı. Çarizm Azərbaycanı inqilabda iştirakdan əsasən kənarda saxlamağa nail olsa da, ermənilər istədikləri nəticəni tam əldə edə bilmədilər.

1914-cü ildə Birinci dünya müharibəsi başlayarkən ermənilər yenidən Şərqi Anadoluda fəallaşdılar. Lakin dünya müharibəsi ermənilərin ümidlərini doğrultmadı. XIX əsr boyu erməniləri Türkiyəyə qarşı mübarizədə daim müdafiə etmiş böyük dövlətlər bu dəfə də öz qlobal maraqlarından çıxış edərək ermənilərdən alət kimi istifadə etdilər. 1917-ci ilin fevralında Rusiyada baş verən burjua inqilabından sonra yaranmış şərait ermənilərin diqqətini yenidən Qafqaza cəlb etdi. Türkiyədə məskunlaşmış ermənilərin Qafqaza kütləvi köçünün yeni mərhələsi başlandı. Daşnaksütyun liderləri Cənubi Qafqazın siyasi mühitində fəallaşaraq bölgənin idarəçiliyi üçün yaradılan təsisatlarda gürcü və Azərbaycan siyasi qüvvələri ilə bərabərhüquqlu şəkildə təmsil olunmağa başladılar. Naxçıvan bölgəsində də qəzaların idarə edilməsi üçün göndərilən iki müvəkkildən biri adətən ermənilərdən təyin olunurdu. Digər tərəfdən cəbhəni tərk edən rus qoşunlarının hesabına cəbbəxanasını daha da genişləndirən erməni milli komitəsi və erməni siyasi terrorçu təşkilatları öz hərbi dəstələrini təşkil edərək müsəlman əhaliyə qarşı qırğınlara başladı.

1918-ci ilin iyununda Andranikin quldur dəstələrinin Naxçıvana hücumu xüsusilə ağır nəticələrə səbəb olsa da, K.Qarabəkir paşanın başçılığı ilə Osmanlı ordu hissələrinin Naxçıvana daxil olması müəyyən müddət üçün ermə-

ni cinayətlərinin qarşısını aldı. 1918-ci ilin noyabrında Araz-Türk Respublikasının təşkili Naxçıvan bölgəsinin müdafiə qabiliyyətinin təmin edilməsində mühüm mərhələ oldu. Lakin 1919-cu ilin əvvəllərindən ingilislərin Naxçıvanda öz general-qubernatorluqlarını yaradaraq bölgəni erməni idarəçiliyinə vermək cəhdləri vəziyyəti yenidən pisləşdirdi. İyun-iyul aylarında iki aylıq erməni idarəçiliyi dövrü naxçıvanlılara qarşı yeni qırğınlarla müşayiət olundu. Kalbalı xanın və Xəlil bəyin başçılığı ilə bölgədə erməni hakimiyyətinə son qoyan Naxçıvan əhalisi bu dəfə amerikalıların öz idarəçiliklərini tətbiq etməsinə imkan vermədi.

1920-ci ilin əvvəllərində Naxçıvan bölgəsinə qarşı Daşnak basqınlarının növbəti mərhələsi başlandı. Bir tərəfdən Cənubi Qafqazda baş verən siyasi hadisələr, bolşevik istilası, digər tərəfdən naxçıvanlıların inadkar müqaviməti erməni planlarının qarşısını aldı. Azərbaycanda sovet rejiminin bərqərar edilməsindən sonra Naxçıvan məsələsi siyasi-diplomatik mübarizə müstəvisinə keçdi. Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan məqsədli şəkildə Azərbaycan torpaqlarından ərazicə ayrı salındı. 1921-ci ildə imzalanan Moskva və Qars müqavilələri ilə Naxçıvanın muxtar ərazi statusu beynəlxalq münasibətlərin subyekti kimi xüsusi nəzarət altına alındı.

Lakin ermənilər 1918-1920-ci illərdə Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan ərazisində də apardıqları məqsədyönlü, təşkil olunmuş deportasiya və soyqırım siyasəti nəticəsində azərbaycanlıların kütləvi məhvinə, sağ qalanların böyük əksəriyyətinin öz tarixi yurd-yuvalarından didərgin düşmələrinə səbəb oldular. 1917-ci ildə Naxçıvan bölgəsinin (Naxçıvan və Şərur-Dərələyəz qəzaları birlikdə) əhalisi 248075 nəfərdən (165883 nəfəri azərbaycanlı, 82192 nəfəri erməni) ibarət

idisə, 1921-ci ildə əhalinin ümumi sayı 72 min, 1924-cü ildə isə 90 min təşkil etmişdi. 1918-1920-ci illər ərzində diyarın sakini olan azərbaycanlıların 50 faizindən çoxu ermənilər tərəfindən qətlə yetirilmişdi.

Naxçıvanın ərazi bütövlüyünün qorunması məsələsi uğurla həll edilsə də, istər 1905-1907-ci, istərsə də 1918-1920-ci illərdə ermənilərin Naxçıvan bölgəsində azərbaycanlı əhaliyə qarşı həyata keçirdiyi qanlı cinayətlər BMT-nin 9 dekabr 1948-ci il tarixli 260 A (III) saylı qərarı ilə təsdiq edilmiş «Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair müqavilə»nin 2-ci maddəsinə görə azərbaycanlıların bir xalq kimi ortadan qaldırılmasına yönəlmiş soyqırım aktı kimi qiymətləndirilməlidir. Naxçıvanın hələ də düşmənlərimizin qəsbkarlıq planlarında başlıca yerlərdən birini tutduğunu nəzərə alaraq problemin elmi və siyasi yollarla həlli daim diqqət mərkəzində saxlanılmalı, XX əsrin əvvəllərində Naxçıvanda erməni cinayətlərinin beynəlxalq müstəvidə öz qiymətini almasına nail olunmalıdır.

Məsələnin mənəvi tərəfinə gəldikdə isə xalqımız öz tarixi keçmişinin deportasiya, soyqırım məfhumları ilə ifadə olunan məşum səhifələrini bir daha unutmayacaq qədər dərindən bilməli, gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi prosesində azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi soyqırımı ifadə edən faktlardan məqsədəmüvafiq istifadə edilməlidir. Bu mənada qırğınların törədildiyi bütün bölgələrdə soyqırım tarixi muzeylərinin yaradılması faydalı olardı.

1905-1907-ci illərdə Naxçıvanda ermənilərin törətdikləri qanlı qırğınlar bölgənin bir çox kəndlərinin tarixində iz buraxdı. Doğulduğum Culfa rayonunun Dizə kəndində uşaqlıq dövründən kənd əhalisinin dilindən tez-tez eşitdiyim «Şeiddik» («Şəhidlik») adı diqqətimi çoxdan cəlb etmişdi və tədqiqata başladıqdan sonra həmin adın tarixi ilə maraqlanmaq qərarına gəldim. Məlum oldu ki, Culfa rayonunun inzibati ərazisindəki dizəlilərin «Şəhidlik» adlandırdığı ərazi kütləvi qəbiristanlıqdır və o, həmin məşum illərin yadigarıdır. Bu qəbiristanlıqda bəhs olunan dövrdə Gal kəndində məskunlaşmış ermənilərin Dizə kəndi əhalisinə qarşı törətdikləri qanlı cinayətin qurbanları uyuyur. Galda məskən salmış erməni silahlı quldur dəstələri vaxtaşırı Dizəyə basqın edərək dinc əhalini qətlə yetirirmişlər. Dizə kəndinin əhalisi Gal kəndinə gedən yolun üzərində, kənddən o qədər də uzaq olmayan Qarakol adlanan bulaqdan su gətirməyə gedəndə, eləcə də kəndin bu hissəsində yerləşən taxıl zəmilərində işləyərkən ermənilər tərəfindən tutularaq qətlə yetirilirmiş. Kənd ağsaqqalları və ziyalılarından aldığımız məlumatlara görə, qəbiristanlıqda 1905-1906-cı illərdə qətlə yetirilmiş yüzədək dinc, heç bir günahın sahibi olmayan azərbaycanlı uyuyur.

Dizə kənd orta məktəbinin ədəbiyyat müəllimi, vətənpərvər ziyalı Ədalət Əhmədovun verdiyi başqa bir məlumat da maraq doğurur. Belə ki, ermənilər öz sələflərinin törətdiyi qanlı cinayətin əyani sübutu olan bu qəbiristanlığı yer üzündən silmək üçün hiyləyə əl atmışlar. Əvvəlcə onlar Dizə kəndindən Gal kəndinə 1982-1983-cü illərdə çəkilən asfalt yolun qəbiristanlığın ərazisindən keçməsinə və beləliklə, məzarların bir hissəsinin asfalt

altında qalaraq itməsinə nail olmuşlar. Lakin məzarlığın böyük bir hissəsi asfalt yoldan kənarda qaldığından Galda məskunlaşmış ermənilər elə həmin illərdə qəbirlərin guya ermənilərə məxsus olduğu barədə xəbər yayaraq dizəliləri həmin məzarları dağıtmağa təhrik etmişlər. Sonradan kəndin yaşlı əhalisi qəbiristanlığın ermənilərə deyil, azərbaycanlılara məxsus olduğunu bildirsələr də, artıq məzarların bir çoxunun başdaşı ermənilərin özləri tərəfindən dağıdılmışdı. Bununla belə, ermənilərin azərbaycanlılara qarşı Naxçıvan ərazısində həyata keçirdikləri soyqırımın daha bir tarixi yadigarı olan, Dizə-Gal yolunun 3,5 kilometrliyində yolun sol tərəfində yerləşən qəbiristanlıqdakı məzarlar tamamilə itməmişdir və onları aydın şəkildə görmək mümkündür (şəkillərə bax).

Azərbaycan ərazisində bu cür qəbiristanlıqların mövcudluğu (Qubada tapılmış kütləvi məzarlıq da bunu sübut edir) şübhə doğurmur. Həmin məzarlıqlar erməni cinayətlərinin sübutu olan tarixi abidələr kimi xüsusi mühafizə olunmalı, gələcək nəsillərin qan yaddaşına yazılmalıdır.

# ŞƏKİLLƏR

























## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Abbasoğlu A. Qafqazda türk cümhuriyyətləri // «Ədəbiyyat» qəzeti, 1991, № 1.
2. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
3. Atnur İ.E. Muxtariyyat ərəfəsində Naxçıvan. Naxçıvan: Qeyrət, 1999, 442 s.
4. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Naxçıvan: Əcəmi NPB, 2001, 190 s.
5. Azərbaycan Respublikası MDA. F. 100, siyahı 2, iş 791.
6. Azərbaycan Respublikası MDA. F. 894, siyahı 4, iş 64-66.
7. Azərbaycan Respublikası MDA. F. 894, siyahı 10, iş 80-101.
8. Azərbaycan Respublikası MDA. F. 896, siyahı 2, iş 3-5.
9. Azərbaycan Respublikası MDA. F. 970, siyahı 1, iş 10-11, 57, 65, 104, 113, 142, 161, 227-229.
10. Azərbaycan Respublikası MDA. F. 2898, siyahı 1, iş 15.
11. Azərbaycan Respublikası SPİHDA. F. 276, siyahı 9, iş 41.
12. Azərbaycan Respublikası SPİHDA. F. 277, siyahı 2, iş 57-58.
13. Azərbaycan Respublikası SPİHDA. Surət fondu.
14. ASE. I-X cild, Bakı: 1976-1987.
15. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı: Elm, 1990, 384 s.
16. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, 328 s.
17. Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər). Bakı: 1996, 142 s.
18. Azərbaycanlı qırğınları (Ə.Təbrizlinin «Dağlıq Qarabağın tarixi və ona dair sənədlər» kitabından (Almaniya, Dağyeli nəşriyyatı) parçalar) // «Odlar yurdu» qəzeti, 1990, № 1-13.
19. Babayev A. Rusiyaya qovuşmaq ərəfəsində. Bakı: Azərnəşr, 1988, 167 s.
20. Cəfərli E. «Erməni məsələsi»nin tarixi problem kimi yaranması və inkişafı // ADPU, «Pedaqoji Universitetin xəbərləri», 2004, № 1, s. 588-595.
21. Cəfərli E. Faciələr tariximiz: rəqəmlərin dili ilə // «Naxçıvan» jurnalı, 2001, № 5, s. 45-49.

22. Cəfərli E. 1905-1907-ci illərdə Naxçıvan hadisələri // ADPU-nun «Pedaqoji Universitet xəbərləri» (humanitar, pedaqoji, psixoloji elmlər seriyası), 2001, № 5, s. 73-74.
23. Cəfərli E. 1918-1920-ci illərin soyqırımı ərəfəsində Naxçıvanda əhalinin etnik tərkibi / Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi (21-22 may 2004-cü il tarixdə AMEA Naxçıvan Bölməsində keçirilmiş elmi konfransın materialları). Bakı: Elm, 2004, s. 64-67.
24. Cəfərli E. Sovet hakimiyyətinin ilk illərində Rusiyanın Cənubi Qafqaz siyasəti // ADPU-nun «Pedaqoji Universitetin xəbərləri» (humanitar elmlər seriyası), 2004, № 3, s. 251-256.
25. Cəfərli E. Türkmənçay və Ədirnə müqavilələrinə görə ermənilərin Azərbaycana köçürülməsi // NDU-nun «Elmi əsərləri» (humanitar elmlər seriyası), 2004, № 13, s. 107-109.
26. Deportasiya. Toplu. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998, 440 s.
27. Deportasiya və Naxçıvan // NDU-nun «Elmi əsərlər»i (xüsusi buraxılış), № 8, 2001, 82 s.
28. Didərginlər. Bakı: Gənclik, 1990, 384 s.
29. Eloğlu S. Zəngəzur hadisələri. Bakı: Azərnəşr, 1992, 58 s.
30. Erməni xəyanəti (Tərtib edən V.Məmmədov). Naxçıvan: Qeyrət, 2000, 40 s.
31. Erməni xəyanətinin anatomiyası və ya Andronik Ozanyanın vəhşiliyi // «Respublika» qəzeti, 1998, № 65.
32. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: Gənclik, 1995, 464 s.
33. Əliyev C., Budaqov B. Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı. Bakı: Azərnəşr, 2003, 72 s.
34. Əliyev Ə. Biz əzablı ömür yaşadıq. Bakı: Yazıçı, 1994, 64 s.
35. Əliyev Ə. Əlincə yaddaşı. Bakı: Gənclik, 1997, 304 s.
36. Əliyev Ə. Əlincə yaddaşı. Bakı: Elm və həyat, 2004, 316 s.
37. Əliyev Ə. Qırmızı tabor. Bakı: Gənclik, 1990, 48 s.
38. Əliyev Ə. Vedinin «dəmir axını». Bakı: «Bilik» cəmiyyəti, 1994, 24 s.
39. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, 106 s.
40. Əliyev İ. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı: Elm, 1989, 120 s.
41. Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə (e.ə. IV-b.e. III

əsrləri). Bakı: Azərnəşr, 1997, 120 s.
42. Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, 142 s.
43. Əliyev V. Zəngəzurda qalan izimiz. Bakı: Nurlan, 2004, 295 s.
44. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: Zaman, 1997, 256 s.
45. Fərəcov F.R. Yaycı soyqırımı. Naxçıvan: Əcəmi, 2002, 118 s.
46. General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: Əcəmi, 2006, 104 s.
47. Gümrü, Moskva, Qars müqavilələri. Naxçıvan: 2004, 138 s.
48. Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi. (Tərtib edəni və ön sözün müəllifi İ.Hacıyev). Bakı: Elm, 1999, 36 s.
49. Hacıbəyli Ü. Andronik məsələsi // «Azərbaycan» qəzeti, 15 dekabr 1918.
50. Hacıyev A. Qars və Araz-Türk Respublikasının tarixindən. Bakı: Azərnəşr, 1994, 124 s.
51. Hacıyev İ. Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti // «Naxçıvan» jurnalı, Naxçıvan: 2001, № 5, s. 37-44.
52. Hacıyev İ. Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlətçilik tarixində: Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı: 1999, 335 s.
53. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının təşkili və əhəmiyyəti // «Qobustan» jurnalı, Bakı: 1999, № 2, s. 8-12.
54. Hacıyev İ. Naxçıvana ermənilərin ərazi iddiaları və tarixi həqiqətlər / Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi (21-22 may 2004-cü il tarixdə keçirilmiş elmi konfransın materialları). Bakı: Elm, 2004, s. 28-40.
55. Hacıyev İ. Naxçıvanın muxtariyyat statusu və müasir dövr // Naxçıvan Muxtar Respublikası – 75. «Bakı Universiteti xəbərləri»nin xüsusi buraxılışı. Bakı: 1999, s. 164-168.
56. Hacıyev İ., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
57. Həsənoğlu H. Dünyanın mənfur milləti: erməni. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, 256 s.
58. Həsənoğlu H. Ermənilərin qanlı cinayəti. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 300 s.
59. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr, 1993, 362 s.
60. Hüseynzadə L. Araz şahiddir. Türk ordu generalı Kazım Qarabəkir paşa Naxçıvanda (1918-1920-ci illər). Bakı: Nurlan, 2001, 80 s.

61. İbrahimzadə F. Behbud Şahtaxtinski. Bakı: Elm, 2004, 68 s.
62. Koçaş M.S. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998, 160 s.
63. Köçərli T. Amerikanlar Azərbaycanı «kəşf edirlər», Ceyms bəy! // «Naxçıvan» qəzeti, 1, 8, 15 may 1996.
64. Köçərli T. Balayanların Naxçıvana iddiaları barədə qeydlər // «Naxçıvan» qəzeti, 1993, № 15-18.
65. Köçərli T. Qarabağ (Qarabağ tarixinin saxtalaşdırılması əleyhinə). Bakı: Elm, 2002, 472 s.
66. Köçərli T. Naxçıvan: uydurmalar və tarixi həqiqətlər // «İqtisadiyyat» qəzeti, 2004, № 32-36.
67. Köçərli T. Yaddan çıxmaz Qarabağ. Nəqşi-cahan Naxçıvan. Bakı: Elm, 1998, 462 s.
68. Qlinka S.N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Bakı: Azərbaycan, 1995, 128 s.
69. Quliyev D.P. Tarix şahiddir ki... 1918-1920-ci illərin hadisələri bu günün gözü ilə: faktlar və şərhlər // «Həyat» qəzeti, 1992, № 100-104.
70. Qurko-Kryajin V. Erməni məsələsi (Böyük Sovet Ensiklopediyasının 1926-cı il nəşrindən məqalə). Bakı: Kommunist, 1990, 32 s.
71. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 328 s.
72. Mansurov A. Tarixin ağ ləkələri və yenidənqurma. Bakı: Yazıçı, 1991, 224 s.
73. Məhərrəmov N. Daşnaksütyun və Azərbaycanın taleyi. Bakı: Azərbaycan, 1995, 96 s.
74. Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2003, 700 s.
75. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı: Azərbaycan, 1992, 71 s.
76. Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı: Azərnəşr, 1993, 262 s.
77. Məmmədova L., Abbasov R. Azərbaycanda erməni kapitalının bədnam «şöhrət»i və onun nəticələri // «Dirçəliş – XXI əsr» jurnalı, 2000, № 5 (27), s. 96-101.
78. Məmmədzadə M.B. Ermənilər və İran. Bakı: Azərnəşr, 1993, 42 s.
79. Muradov M.A. Çar Rusiyasının Azərbaycanda işğalçılıq və köçürmə siyasəti (XIX əsrin I yarısında). Bakı: Çaşıoğlu, 1999, 138 s.

80. Musayev İ. Araz-Türk Respublikası // Naxçıvan Muxtar Respublikası – 75. «Bakı Universiteti xəbərləri»nin xüsusi buraxılışı. Bakı: 1999, s. 107-121.
81. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: BDU nəşriyyatı, 1998, 385 s.
82. Musayev İ. «Erməni genosidi», yoxsa türk-müsəlman soyqırımı. Birinci kitab. Bakı: BDU nəşriyyatı, 2001, 207 s.
83. Musayev İ. Naxçıvan məsələsi 20-ci illərin əvvəllərindəki beynəlxalq konfrans və müqavilələrdə // Naxçıvan Muxtar Respublikası – 75. «Bakı Universiteti xəbərləri»nin xüsusi buraxılışı. Bakı: 1999, s. 122-148.
84. Naxçıvan Ensiklopediyası. İstanbul: 2002, 596 s.
85. Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, 184 s.
86. Naxçıvan Muxtar Respublikası. Naxçıvan: Qeyrət, 1998, 64 s.
87. Naxçıvan MRDA. F. 314, siyahı 1, iş 18-23.
88. Naxçıvan MRDA. F. 314, siyahı 5, iş 1-72.
89. Naxçıvan Muxtar Respublikası – 80. Tarixi-statistik məcmuə. Bakı: Səda, 2004, 212 s.
90. Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası prezidentinin fərmanı // Naxçıvan Muxtar Respublikası – 75. «Bakı Universiteti xəbərləri»nin xüsusi buraxılışı. Bakı: 1999, s. 5-11.
91. Naxçıvan tarixinin səhifələri («Uluslararası qaynaqlarda Naxçıvan» beynəlxalq simpoziumunun materialları). Bakı: 1996, 222 s.
92. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993, 128 s.
93. Ordubadi M.S. Dumanlı Təbriz. İkinci kitab, Bakı: Yazıçı, 1985, s. 335-341.
94. Ordubadi M.S. Qanlı illər. Bakı: 1991, 144 s.
95. Paşayev A.Ə. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərnəşr, 2001, 536 s.
96. Paşayev A. Andronik və onun fəaliyyəti haqqında rus zabitinin memuarı // «Respublika» qəzeti, 2001, № 213.
97. Rəhimoğlu (Həsənov) H. Silinməz adlar, sağalmaz yaralar... Bakı: Azərnəşr, 1997, 260 s.
98. Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: İrşad mərkəzi, 1995, 144 s.

99. Səfərli F. Kazım Qarabəkir Paşa və Naxçıvanın erməni təcavüzündən müdafiəsi // «Naxçıvan» jurnalı, 2001, № 5, s. 75-77.
100. Səmyuel A. Uimz. Ermənistan – terrorçu «xristian» ölkənin gizlinləri (Ermənilərin böyük fırıldaq seriyaları). Bakı: 2004, 386 s.
101. Siyasi tarix. I hissə. Bakı: Cik-cik, 1995, 180 s.
102. Svyatoçovski T. Rusiya Azərbaycanı. 1905-1920-ci illər (kitabdan parçalar) // «Azərbaycan» jurnalı, 1989, № 11, s. 130-144.
103. Svyatoçovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: 2000, 373 s.
104. Şirinoğlu V. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Bakı: Qartal, 2001, 176 s.
105. Talıbov V. Deportasiya tarixi və Naxçıvan // NDU-nun «Elmi əsərlər»i. Naxçıvan: Qeyrət, 2001, № 8, s. 8-17.
106. Verdiyeva X.Y. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi. Bakı: 1993, 133 s.
107. Vəliyev İ.Ö. Dünya susur, tarix susmur. Bakı: Gənclik, 1994, 432 s.
108. Vəlizadə İ., Muradov B. Ermənistan azərbaycanlılarının soyqırımı. Bakı: Gənclik, 1996, 172 s.
109. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, Bakı Universiteti Nəşriyyatı, 1992, 496 s.
110. Zamanov E.D. Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan və Ermənistandakı diplomatik nümayəndəliklərinin fəaliyyəti (1918-1920-ci illər): Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Naxçıvan: 2002, 158 s.
111. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992, 144 s.
112. Anatol C. Tarihin Işığında Ermeni Dosyası. İstanbul: Kültür Sanat Yayıncılık, 2001, 496 s.
113. Atnur İ.E. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçıvan (1918-1921). Ankara: Türk Tarih Kurumu Basımevi, 2001, 488 s.
114. Azerbaycan Belgelerinde Ermeni Sorunu (1918-1920). Ankara: T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, 2001, 682 s.
115. Babayev S. Ermenilerin Azerbaycana Göç Ettirilmesi Siyaseti ve Demografik Değişim // «Hayali Ermenistan ve Soykırım Hikayesi». Uluslararası Tarih Sempozyumu Bildirileri. Kars: 05 Haziran 2001, s. 19-26.
116. Cabbarlı H. Geçmişten Günümüze Ermenistanda Azerbaycan

Türkleri // «Ermeni Araştırmaları» Üç Aylık Tarih, Politika ve Uluslararası İlişkiler Dergisi, Ankara: Aralık 2001-Ocak-Şubat 2002, sayı 4, s. 122-146.
117. Caferli E. Nahçivanda Ermenilerin Yaptıkları Katliamlar (1905-1907) // «Hayali Ermenistan ve Soykırım Hikayesi». Uluslararası Tarih Sempozyumu Bildirileri. Kars: 05 Haziran 2001, s. 66-72.
118. «Eğitim» dergisi, Tarihten Bir Kesit... (Özel Sayı), Ankara: Nisan 2003, yıl 4, sayı 38.
119. Emin Arif (Şıhaliyev). Kafkasya Jeopolitiğinde Rusya, İran, Türkiye Rekabetleri ve Ermeni Faktörü. Ankara: Naturel, 2004, 378 s.
120. Erat M. Kazım Karabekirin Nahcıvan ve Çevresindeki Faaliyetleri // Kafkas Araştırmaları, 1998, № 4, s. 39-61.
121. Ermeni Araştırmaları. 1. Türkiye Konqresi Bildirileri. 3 cilt, Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü Yayınları, Ankara: 2003, I c., 634 s.; II c., 2003, 478 s.; III c., 2003, 364 s.
122. Ermeniler: Sürgün ve Göç (Hikmet Özdemir ve başkaları). Ankara: Türk Tarih Kurumu, 2004, 223 s.
123. Ermeniler Tarafından Yapılan Katliam Belgeleri (1914-1919). 2 cilt, T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşiv Dairesi Başkanlığı Ankara: I c., 2001, Yayın No 49, XXII+740 s.; II c., 2001, Yayın No 50, X+589 s.
124. Habibbeyli İ. Azerbaycan Kaynaklarında Ermenilerin Yaptıkları Katliamlar // 21. Yüzyıla Girerken Tarihe Dostça Bakış: Türk-Ermeni İlişkileri Uluslararası Sempozyumu. Ankara: Atatürk Araştırma Merkezi, 2000, s. 157-161.
125. Habibbeyli İ., Hacıyev İ. XX Yüzyılda Nahçivanda Ermeni Katliamından Kurtuluşda Türkiyenin Rolü // «Hayali Ermenistan ve Soykırım Hikayesi» Uluslararası Tarih Sempozyumu Bildirileri. Kars: 05 Haziran 2001, s. 5-13.
126. Hacıyev İ. Moskova ve Kars Antlaşmalarında Nahcıvan // 21. Yüzyıla Girerken Tarihe Dostça Bakış: Türk-Ermeni İlişkileri Uluslararası Sempozyumu. Ankara: Atatürk Araştırma Merkezi, 2000, s. 137-143.
127. Haciyev İ., Amanoğlu E. Tarihte ve Günümüzde Nahçıvan. Ankara: Ankara Üniversitesi Basınevi, 1998, 92 s.
128. Gökdemir A.E. Cenub-i Garbi Kafkas Hükumeti. Ankara: Atatürk Araştırma Merkezi, 1998, 289 s.

129. Gülsoy U. 1828-1829 Osmanlı-Rus Savaşında Rumeliden Rusyaya Göçürülen Reaya. İstanbul: Türk Kültürünü Araştırma Enstitüsü, 1993, 160 s.
130. Gürün K. Ermeni dosyası. İstanbul: Rüstem Yayınevi, 2001, 415 s.
131. İsmayılov F. Dağlık Karabağ Probleminin Jeopolitik Kökleri // Türk dünyasına bakışlar. İstanbul: Da Yayıncılık, 2003, s. 369-375.
132. Karabekir K. 1917-20 Arasında Erzincandan Erivana Ermeni Mezalimi. İstanbul: Emre Yayınları, 2000, 384 s.
133. Karacakaya R. Kaynakçalı Ermeni Meselesi Kronolojisi (1878-1923). İstanbul: Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, Osmanlı Arşivi Daire Başkanlığı, Yayın No: 52, 2001, 261 s.
134. Kırzıoğlu M.F. Kars İli ve Çevresinde Ermeni Mezalimi (1918-1920). Ankara: Köksav Yayınları, 1999, 136 s.
135. Kocabaş S. Ermeni Meselesi Nedir, Ne Değildir? Ankara: 1989, 128 s.
136. Krayblis N. Rusyanın Şark Siyaseti ve Vilayeti Şarkiyye Meselesi. İstanbul, Dersaadet Matbaası, 1332, 136 s.
137. Maleville G. 1915 Osmanlı-Rus-Ermeni Trajedisi, Fransız Avukatın Ermeni Tezleri Karşısında Türkiye Savunması. Tercüman Necdet Bakkaloğlu. İstanbul: Toplumsal Dönüşüm Yayınları, 1998, 146 s.
138. Memmedov Ş. Ermenilerin Türkiye ve İrandan Göç Ettirilmeleri Politikası // 21. Yüzyıla Girerken Tarihe Dostça Bakış: Türk-Ermeni İlişkileri Uluslararası Sempozyumu. Ankara: Atatürk Araştırma Merkezi, 2000, s. 63-68.
139. Metel A.B. Ermeni Mezalimi. İstanbul: Yeni Batı Trakya Dergisi Yayınları, seri № 6, 208 s.
140. Musayev İ.M. Azerbaycan-Türkiye İlişkileri (1917-1922 yılları). Bakü: Bakü Üniversitesi Yayınevi, 1998, 153 s.
141. Müderrisoğlu A. Kurtuluş Savaşının Mali Kaynakları. Ankara: Atatürk Araştırma Merkezi, 1990, 574 s.
142. Onk N. Yeni Azerbeycan Cümhuriyeti Kurularken // «Türk Dünyası» Tarih Dergisi, şubat 1992, № 62, s. 34-36.
143. Osmanlıdan Günümüze Ermeni Sorunu. Ankara: Yeni Türkiye Yayınları, 2000, 281 s.
144. Osmanlıdan Günümüze Ermeni Sorunu. Ankara: Yeni Türkiye Yayınları, 2001, 507 s.
145. Öke M.K. Uluslararası Boyutlarıyla Anadolu-Kafkasya

Ekseninde Ermeni Sorunu. İstanbul: İz Yayıncılık, 1996, 390 s.
146. Sevinç N. Arşiv Belqeleriyle Tehcir. Ermeni İddiaiarı ve Gerçekler. Ankara: Avrasya-Bir Vakfı Yayınları, 2003, 210 s.
147. Şıhaliyev E.A. Türkiye ve Azerbaycan Açısından Ermeni Sorunu. Ankara: 2002, 231 s.
148. Şimşir B.N. Berlin Antlaşması (1878) ve «Altı Vilayet» (Vilayat-i Sitte) // Türk dünyasına bakışlar. İstanbul: Da Yayıncılık, 2003, 573-587.
149. Uras E. Tarihte Ermeniler ve Ermeni Meselesi. İstanbul: Belge Yayınları, 1987, 798 s.
150. Yusifov A. Nahcıvan Şehrinde Ermeni Mezalimi // 21. Yüzyıla Girerken Tarihe Dostça Bakış: Türk-Ermeni İlişkileri Uluslararası Sempozyumu. Ankara: Atatürk Araştırma Merkezi, 2000, s. 131-135.
151. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку: Элм, 1998, 616 с.
152. Асадов С. Миф о «Великой Армении». Баку: Азербайджан, 1999, 280 с.
153. Асадов С. Философия реваншизма или армянская кровожадность. Баку: Азербайджан, 2002, 216 с.
154. Асадов С., Мамедов И. Терроризм: причина и следствие. Баку: Азербайджан, 2001, 248 с.
155. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917). Баку: Элм, 1997, 336 с.
156. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990, 220 с.
157. Вердиева Х.Ю. Переселеическая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв). Баку: Алтай, 1999, 300 с.
158. Геродот. История. Л.: Наука, 1972, 600 с.
159. Глинка С. Описание армянь азербайджанских в пределы России. Баку: Элм, 1990, 144 с.
160. Гурко-Кряжин В. Армянский вопрос. Баку: Коммунист, 1990, 16 с.
161. Дашнаки. Составитель Б.Гаибов. Баку: Коммунист, 1990, 40 с.
162. К процессу партии «Дашнакцутюн» // Газета «Баку», 1912, №16.
163. Канадпев И.Н. Очерки Закавказской жизни. Баку: АСЭ, 1990, 122 с.

164. Манафов Ш. Для кого генерал Андроник был народным героем? // Газета «Новруз», 25 июня, 03 июля 1991.
165. Мемуары русского офицера // Известия АН Азербайджанской ССР. Серия истории, философии и права, 1988, № 3, с. 80-104.
166. Нахичеванская АССР Азербайджанской ССР за 60 лет. Баку: Азербайджанское государственное издательство, 1984, 180 с.
167. Плутарх. Избранные жизнеописания. Том второй. М.: Правда, 1987, 608 с.
168. Преступлеиия армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв). Краткая хронологическая энциклопедия. Баку: Элм, 2002, 396 с.
169. Рагимов К.Н. Андроник и геноцид в Азербайджане (1918-1919 гг.) // Газета «Зеркало», 2001, № 65, 70.
170. Сведения об организации и деятельности армянской революционной партии «Дашнакцутюн» // Журнал «Революционный Восток». М.: 1936, № 2-3 (36-37), с. 76-79.
171. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.
172. Статическое описание Нахичеванской провинции составленное В.Г. (В.Григоревым). СПб.: Типография Департамента Внешней Торговли, 1833, 177 с.
173. Файгл Э. Правда о терроре. Армянский терроризм – истоки и причины. Баку: Азернешр, 2000, 176 с.
174. Чавчавадзе И.Г. Армянские ученые и вопиющие камии. Баку: Элм, 1990, 128 с.
175. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб.: 1911.
176. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб.: Типография Императорской Академии Наук, 1852.
177. The Armenians in the Late Ottoman Period. Edited by T.Ataöv. The Turkish Historical Society for the Council of Culture, Arts and Publications of the Grand National Assembly of Turkey. Ankara: 2001, 373 pp.
178. Allegations Armeniennes et Faits Historiques. Centre de Recherches Strategiques, Ankara: 1998, 72 pp.

## MÜNDƏRİCAT

GİRİŞ .......................................................................... 3

**I FƏSİL. Tarixdə ermənilər və erməni hərəkatının formalaşması .................................................. 18**
1.1. Ermənilər və Ermənistan haqqında ......................... 18
1.2. Ermənilərin Cənubi Qafqaza köçürülməsi çar Rusiyasının Azərbaycanda möhkəmlənmək siyasətidir ....................... 56
1.3. Erməni millətçi hərəkatının formalaşması və erməni terrorçu siyasi təşkilatları ................................ 84

**II FƏSİL. 1905-1907-ci illərdə ermənilərin Naxçıvan bölgəsi əhalisinə qarşı qırğınları ....................... 120**
2.1. Milli münaqişələrin qızışdırılması çarizmin müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi ............... 120
2.2. Ermənilərin Naxçıvanda törətdiyi qanlı cinayətlər ..... 149

**III FƏSİL. 1918-1920-ci illərdə Naxçıvan bölgəsində azərbaycanlıların soyqırımı** ........................................... 181
3.1. Ermənilərin Naxçıvan diyarına işğal etmək cəhdləri və azərbaycanlılara qarşı qırğınlar .............................. 181
3.2. Andranik Ozanyanın başçılığı ilə erməni quldur dəstələrinin bölgədəki vəhşilikləri ................................ 235

NƏTİCƏ ........................................................................ 260
Əlavə .............................................................................. 264

Ədəbiyyat siyahısı .......................................................... 268

*Yığılmağa verilmiş 11.06.2008.*
*Çapa imzalanmış 22.07.2008.*
*Şərti çap vərəqi 8. Sifariş № 350.*
*Kağız formatı 60x84 1/16. Tiraj 200.*

---

*Kitab «**Nurlan**» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4*